BÖYÜK DİNİ RƏHBƏRİN HƏYAT VƏ FƏALİYYƏTİ . . . . 6
Ön söz . . . . 6
BİRİNCİ FƏSİL – GÜNƏŞİN DOĞMASI . . . . 8
Günəşin doğması . . . . 8
İlk uşaqlıq günləri . . . . 9
Məktəbə və ibtidai təhsilə doğru . . . . 10
Susuzdan da susuz . . . . 11
Dini dərslərin öyrənilməsi . . . . 12
Tədris kürsüsündə . . . . 13
Ustadların hüzurunda . . . . 14
Nəcəf elm mərkəzinə yola düşmə . . . . 15
Doğma diyara qayıtma . . . . 16
Bilik üçün susayanlar . . . . 17
Böyük dini rəhbərin əsərləri . . . . 18
Siyasi mübarizələr dövrü . . . . 19
İmam Xomeyni ilə birlikdə 1341-ci ilin siyasi mübarizələri . . . . 20
İşgəncə illəri . . . . 21
Başqa bir cəhd . . . . 22
Başqa bir sürgün . . . . 23
Yeddi saat ayaq üstündə çıxış etdi və kommunistlərin mənhus planı nəticəsiz qaldı . . . . 24
İKİNCİ FƏSİL – İDRAKIN AÇARI . . . . 26
Xidmət göstərməyin iftixarı . . . . 26
“1323-cü il – bizim məktəbə getdiyimiz ilk günlər” . . . . 27
“Yazıq, könlünü xoş edirdi” . . . . 28
“Bizi ibtidai məktəbə apardıqları ilk gün” . . . . 29
“Anam bizim əmmaməmizi sarıyırdı” . . . . 30
“İbtidai məktəbin II-III sinfindən başımıza əmmamə qoydular” . . . . 31
“İbtidai məktəbdə istifadə etdiyim kitablar” . . . . 32
“O qədər mütaliə edirdim ki, azan səsini də eşitmirdim” . . . . 33
“Qəflətən özümü qorxutdum” . . . . 34
Bədii zövq və onun tənqidi . . . . 35
Arpa çörəyi . . . . 36
İki anadan səkkiz bacı və qardaş . . . . 37
Ata ocağı . . . . 38
“Atamın köhnə paltarları” . . . . 39
Minbəri yamsılama . . . . 40
Ata xətrinə Allahla sövdələşmə . . . . 41
“Həyatımın unudulmayan günü” . . . . 43
“Məni elə məsxərəyə qoydular ki, dostum da xəcalət çəkdi” . . . . 44
Feyziyyə hekayəti . . . . 45
“Bunlar gedəcəklər, siz isə qalacaqsınız” . . . . 46
Xalqın münasibəti . . . . 47
“Pis olmadı, xeyli vaxt idi ki, çənəmi görməmişdim” . . . . 48
“Təhqir etmək üçün onların üzünə sillə vururdular” . . . . 49
Yanlış və ağılsız bir təhlil . . . . 50
“Adamlar mənim adımı İmam Xomeyninin adı ilə qarışdırır və deyirdilər: İmam Xomeyni gəlib...” . . . . 51

"Özümüz son gecə bölərik" . . . 52
"Gözlə, onun dövlətinin sabahı açılsın..." . . . 53
Məşhəddə İmam Həsən Muctəba (ə) məscidində imamlıq . . . 54
Məşhədin Kəramət məscidində imamlıq etmə . . . 55
Kəramət məscidi Ceyrofta sürgündən sonra əsas fəaliyyət mərkəzi idi . . . 56
Həmin hadisələr inqilab günlərinin tarixini yaradırdı . . . 57
Adamlar 50 kalibrli güllələrə tuş gəldilər . . . 58
Tehran universitetindəki bəstə girmə Məşhəddəki bəstin nəticəsi idi . . . 59
Yetmiş tümən, velosiped və ya kostyum . . . 60
"Mən heç kimə söz vermədim, istefa verməsə, qəbul etmərəm" . . . 61
"Tehranlıların Allahu-Əkbər fəryadını eşitdim" . . . 63
"Gərək Tehrana gedəm" . . . 64
On beş ildən sonra yürüş . . . 65
"Mənim heç bir otaqda xüsusi stulum olmayıb" . . . 66
"Mən çay dəmləməyi yaxşı bacarıram" . . . 67
"Əksər gecələrimiz həyəcanlı olurdu" . . . 68
İmamın (r) vaxtında qəbul etdiyi qərar . . . 69
Bura İran İslam inqilabının radiosudur . . . 70
İlk qələbədən sonra . . . 71
Bir enlikürək ordu generalı daxil oldu . . . 72
Baş nazir kim olsun? . . . 73
Böyük dini rəhbərin ABŞ-a münasibətdə tutduğu mövqe . . . 74
Nə üçün xalq "Amerikaya ölüm!" ifadəsindən əl çəkmir? . . . 75
"Həft tir" meydanında baş verən böyük nümayiş . . . 76
Müvəqqəti hökumət ABŞ-ın mənafeyini açıq şəkildə müdafiə edirdi . . . 77
"Mənim üçün çox təəccüblü idi" . . . 78
İmamın xəttini davam etdirən tələbələrin ABŞ-ın casusluq yuvasının ələ keçirilməsində inqilabi addımı . . . 79
"Tələbələr təklif etdilər ki, mən həmin şəxs olum" . . . 80
İkinci inqilab . . . 81
"Liberallar deyinə-deyinə həmin yaraya əlac axtarırdılar" . . . 82
"İnqilab Şurasında həmin tələbələrin addımını müdafiə edirdik" . . . 83
Amerika hər şeyi əldən verdi . . . 84
Sadəlövhlük məsələsi və Amerika ilə müzakirə . . . 85
"Mən Amerika ilə müzakirənin əleyhinəyəm" . . . 86
"Amerikadan qorxmadığınızı bilirik, bizi özünüzlə müqayisə etməyin" . . . 87
Şəhid Nujə meydanında çevriliş macərası . . . 88
İnqilabın böyük fədaisi . . . 89
"Mən həmişə istəmişəm ki, siz (fədailər) ən yaxşılardan olasınız" . . . 90
İslam inqilabının rəhbəri 7 tir hadisəsi haqda . . . 91
Döyünən ürək . . . 93
"Bura İslamın mərkəzidir" . . . 94
"Siz yaşayın" . . . 95
"Həyatımızın ən ağır məqamları" . . . 96
Gecə saat 10:20-də . . . 97
İmamın gördüyü hər bir iş Allah qiyamı məqsədi  daşıyırdı . . . 98
İmamın "Kumeyl" duası və şəban munacatına bağlılığı . . . 99

İran nümayəndə heyətində İmamı görür və onun ətrini alırdı . . . . 100
“Əqidə qoruyucuları ona diqqət yetirməlidirlər” . . . . 101
“Bu, mənim etiqadımdır” . . . . 102
“Çalışın ki, dinin şöləsi aşağı düşməsin” . . . . 103
“Gördün, bu uşaqlar nə etdilər?” . . . . 104
Sevincin təsiri . . . . 105
“Mən özüm işləri görər və ağır yükləri öz çiynimə götürərəm” . . . . 106
“Minbərdə oturduğu ilk gün ağladı” . . . . 107
“İlahi bir qüvvə bizə yardım edir” . . . . 108
İmamın verdiyi böyük dərs . . . . 109
“Hər bir şey bizim borcumuz idi” . . . . 110
“Bizim həyatımız bu şeylərə uyğunlaşmamışdı” . . . . 111
“Əgər düyü yoxdursa, düyü yemərik” . . . . 112
Hacıxanımın sağlamlığı üçün salavat . . . . 113
“Bu bahalıqda bananı mənə almısan?” . . . . 114
Çörəkxanada başqalarının hüququna riayət etmə . . . . 115
“Evin fasadını düzəltməyə ehtiyac yoxdur” . . . . 116
“Voleybolu çox xoşlayırdım” . . . . 117
Məhəbbətdən yaranan göz yaşları . . . . 118
“Ölkəmiz müharibə vəziyyətindədir” . . . . 119
Həmin əvvəlki məhəbbət və əvvəlki həvəs . . . . 120
“Səni cəddimə and verirəm, bir söz də demə” . . . . 121
“Mənim o ağadan heç bir şikayətim yoxdur” . . . . 122
“Mən sizdən xahiş edirəm” . . . . 123
Qənaət . . . . 124
“Namazımın vaxtını ötürmək istəmirəm” . . . . 125
“Elə ağlayırdı ki, çiyinləri də tərpənirdi” . . . . 126
İmamın (r) böyük dini rəhbərə xüsusi qayğı göstərməsi . . . . 127
Azan səsi ruhdan düşmüş könülləri ruhlandırır . . . . 128
İstixarə . . . . 129
Müqəddəs Cəmkəran məscidi . . . . 130
Ağa və şəhidlər . . . . 131
İdman . . . . 132
Şəhid ailəsi ilə görüş . . . . 133
Əmmamənin mənəvi çəkisi çox böyükdür . . . . 134
“İslam sisteminin qılınc və qamçısının olmadığını düşünənlər səhv edirlər” . . . . 135
Novruz – bəşər tarixində yeni gün . . . . 136
“Gedin və həmin döşənəcəkləri gətirin” . . . . 137
Sadə yaşama tərzi . . . . 138
Mayasız fətirdir . . . . 139
Şagird müəlliminin nökəri kimi olmalıdır . . . . 140
Məntiqsiz və sadəlövhlüklə irəli sürülən arqument bəladır . . . . 141
“Radio və televiziyada ayıq olun ki, aşağıdakı üç eybdən qoruna biləsiniz” . . . . 142
“Çox qeyri-adi dualardır” . . . . 143
“Pərvərdigara, sənə təvəkkül edirəm” . . . . 144

ÜÇÜNCÜ FƏSİL – DOST SÖZÜ . . . . . 145
İslamın öhdədarı və millətin xidmətçisi . . . . . 145
Mərhum İmamın kəlamında üç dost . . . . . 146
Elmdə və əməldə qabiliyyətli . . . . . 147
Cənab Ağa Seyid Əliağa . . . . . 148
Mən Seyid Əliağanı ədalətli insan hesab edirəm . . . . . 149
Cənab Xameneyi Səlləməhullah . . . . . 150
Prezidentin sərəncamını təsdiq etmə . . . . . 151
Danışan dil . . . . . 152
Mərhum İmamın əziz rəhbərimiz haqda duası . . . . . 153
İslamın xidmətçisi . . . . . 154
Möhtərəm alim . . . . . 155
Mütəfəkkir və alim . . . . . 156
“Nə üçün özünüz bilmirsiniz?” . . . . . 157
O, həqiqətən də rəhbərliyə layiqdir . . . . . 158
Cənab Xameneyi kimi . . . . . 159
İmamın böyük xəbərdarlığı . . . . . 160
Ruhanilərin müqəddəs işi . . . . . 161
İmamın müşaviri . . . . . 162
Fədakar əsgər və öyrədən müəllim . . . . . 163
İmamın başsağlığı verməsi . . . . . 164
İnqilab və İslamın qayğıkeşi . . . . . 165
Həzrət İmam Xomeyninin (r) Həzrət Ayətullah Xameneyiyə ünvanladığı fərman və müraciətlərin tarixi . . . . . 166
DÖRDÜNCÜ FƏSİL – USTADIN HÜZURUNDA . . . . . 167
Ustadın hüzurunda . . . . . 167
Aram ruh və pak kəlmə . . . . . 168
Məhəmməd Peyğəmbərin (s) pak İslam dininə hörmət gətirən şəxs . . . . . 169
Zəmanənin böyük xilaskarı . . . . . 170
Böyük islahatçı . . . . . 171
Xidmətçi yox, rəhbər . . . . . 172
Mömin və həqiqi imanlı böyük insan . . . . . 173
Munacat və təhəccüd . . . . . 174
Böyük insan . . . . . 175
Həyatda Qurana əməl etmək . . . . . 176
Mərhum İmamın (r) böyük şəxsiyyəti . . . . . 177
O, bizi yaşatdı . . . . . 178
Onun varlığında Allahla əlaqənin əlamətləri . . . . . 179
Həqiqi mömin . . . . . 180
Səmimi etiqad və iman . . . . . 181
Müdrik dini rəhbər . . . . . 182
Xeyirxahlıq nişanəsi . . . . . 183
Xeyirxah insan . . . . . 184
Qeybdən gələn ilhamlar . . . . . 185
Həqiqi mənada müdrik insan . . . . . 186
Ağıllı və ehtiyatlı bir insan . . . . . 187
İmamın uzaqgörənliyi . . . . . 188

Böyük qurucu . . . . . 189
Mənəvi möhkəmlik və ruhi şücaət . . . . . 190
Seçilən, tərbiyə olunmuş və riyazət çəkmiş bir varlıq . . . . . 191
Dindarlığın qorunub saxlanılması . . . . . 192
Allaha diqqət yetirmə və ondan kömək ummaq . . . . . 193
Həqiqi şükür etmə və Allaha rəğbət . . . . . 194
Onun Allahla əlaqə yaratması . . . . . 195
"Allahın əli onun əlinin üstündə idi" . . . . . 196
Rəhmani baxış və nurani bir sima . . . . . 197
Sədaqət və səmimilik . . . . . 198
Əmirəl-mömininə (ə) iqtida . . . . . 199
İlahinin əbədi mənbəyinə qovuşma . . . . . 200
Qətilik və sarsılmazlıq . . . . . 201
Ünsiyyət və qəlblərin birləşdirilməsi . . . . . 202
İmam təvəkkül edənlərdən idi . . . . . 203
Mənəviyyat meyarı . . . . . 204
Yorulmazlıq və alicənablıq . . . . . 205
Zahid, dindar və dünya malına tamah göstərməmək . . . . . 206
Bütün söz və fikirləri Quran və İslamla bağlı idi . . . . . 207
Rəhbərlik nuru və müdriklik . . . . . 208
Parlayan və işıq saçan cövhər . . . . . 209
İslam aşiqləri üçün böyük bələdçi . . . . . 210
Rövzəxanlığı və zikri-müsibəti yaşadan şəxs . . . . . 211
Allahsızlıqdan təmizlənmə . . . . . 212
Ramazan ayının gün və saatlarının qədrini bilmə . . . . . 213
Öz nəfsani istəklərinin hakimi . . . . . 214
Mənəviyyatlı, müqəddəs və bilikli bir insan . . . . . 215
İmamın (r) qiyam və hərəkatının təsiri . . . . . 216
Peyğəmbər geyimli, sözlü və əxlaqlı imam . . . . . 217
Müstəmləkəçilik qalalarının məhv edilməsi . . . . . 218
İmamın işi bir möcüzə idi . . . . . 219
Fiqhin əhatə dairəsinin genişləndirilməsi . . . . . 220
İmam (r) millətdə milli qürur və iftixar ruhunu bərpa etdi . . . . . 221
İmam – arzu və istəklərimizin simvolu . . . . . 222
İmamın (r) siyasi kursunun özünəməxsus xüsusiyyətləri . . . . . 223
BEŞİNCİ FƏSİL – ŞƏRİƏT ELMİNDƏ YÜKSƏK SƏVİYYƏYƏ ÇATMA . . . . . 224
İmamın (r) silahdaşlarının böyük Dini Rəhbərin fəaliyyəti və şəriət elmi sahəsində məqamı haqda mülahizələri . . . . . 224
"Onun dini rəhbərlik üçün ictihadı yetərlidir" . . . . . 229
"Seyid Əli Xameneyi bizim fikrimizcə ən layiqli şəxsdir" . . . . . 230
İlahinin İmamdan (r) sonrakı ehtiyatı . . . . . 231
Böyük dini rəhbərin həyat tarixçəsinə qısa bir baxış . . . . . 237
İstifadə olunan ədəbiyyat . . . . . 239

**Həsən Sədri Mazandarani**

# BÖYÜK DİNİ RƏHBƏRİN HƏYAT VƏ FƏALİYYƏTİ

**Həzrət Zəhranın (s) sülaləsinə mənsub olan**
**Ayətullah Xameneyinin**
**tərcümeyi-halı**

Bakı – 2008

Tərcümə edən: Seyid Əliəsgər Behbudlu

## Ön söz

Hüseyn (ə) iftixar və izzət ilidir. Hazırda bu qiyamın bayraqdarı olan Seyid Əli Hüseyni Xameneyi Hüseynin qüdrət bayrağını öz əlində tutub. Onun qəlbində Hüseyn eşqi, əməllərində daim İmam Hüseyn (ə) məramı, dilində "Hüseyn" sözü əzbərdir. O, eşqinin sübutunu göstərən yaralı əlləri ilə inqilab bayrağını İmam Hüseynin (ə) qanının qisasçısı olan Mehdi Sahibəzzamana (ə) təhvil verməyə doğru gedir.

Əzizlərim, dövrün Seyid Əli Hüseynisini yaxşıca öyrənməsək, bu ilahi şəxsiyyəti onun layiq olduğu şəkildə müdafiə edə bilmərik. Çünki eşq dərk etmək, tanımaq tələb edir, əlbəttə ki, məşuqu dərk etmək və tanımaq çox çətindir.

Buna görə də biz çalışdıq ki, böyük dini rəhbərin həyatı ilə bağlı xatirələri toplayaq və öz həyatımızı bu əziz insanın xoş xatirələri ilə daha da gözəlləşdirək. Ola bilsin ki, Allahın müqəddəs vücudunun razılığı ilə qarşılansın, o böyük müəllim və qüdrətli filosof İmam Xomeyninin (r) əziz ruhunu şad etsin. Bizim İslam cəmiyyəti inqilabın banisinin müdrik rəhbərliyi və müəyyən etdiyi normalar əsasında bərqərar olmuşdur. Bu cəmiyyət böyük dini rəhbərin rəhbərliyi ilə çox sürətli inkişaf yolu keçmişdir. İmam (r) da onu çox yaxşı tanıyırdı və onu yüksəklərə qaldırmışdı. Həzrət (r) həmçinin onu çox müdrik, sağlam mütəfəkkir və ağıllı bir şəxs kimi qəbul edirdi.

Həqiqətən də böyük və yaddan çıxarılması mümkün olmayan günləri artıq arxada qoymuşuq və çox hörmətli rəhbərimiz İmamın (r) rəhmətə getməsindən sonra həmin təhlükəli və ağır zamanlarda öz ağlı, gücü, dərin dünyagörüşü sayəsində İslam inqilabının sükanı arxasına keçərək onu nicat yoluna tərəf istiqamətləndirmişdir. Məhz o, Həzrət İmamın (r) dünya müsəlmanlarının, xüsusilə böyük İran İslam Respublikasının millətinin qəlbində alovlandırdığı ümid qığılcımını daha da qüvvətləndirdi.

"Həzrət Zəhranın (s) sülaləsinə mənsub olan Ayətullah Xameneyinin tərcümeyi-halı" adı altında sizlərə təqdim olunan bu kitabı da məhz böyük dini rəhbər, müdrik və ağıllı şəxsiyyət olan Həzrət Ayətullah Xameneyinin bütün özünəməxsus keyfiyyətlərinin öyrənilməsində əsas mənbə hesab etmək olar.
Həzrət İmam (r) bu ilahi insanı çox gözəl vəsf etmişdir: "İslam, din və siyasət aləmində yorulmaz mübariz, islama və ölkəsinə xidmət edən, cəbhədə və müharibədə fədakar əsgər, mehrabda öyrədici müəllim, cəmiyyətdə və camaat arasında bacarıqlı natiq və İslam inqilabı meydanlarında özünü fəda edən rəhbər".
Mən də öz imkanım daxilində istədim ki, həzrəti lazımi səviyyədə tanımayan bugünkü nəslin nümayəndələrinə onun xatirələrindən, hekayətlərindən söz açım. "İkinci Xomeyninin", İslam inqilabının böyük rəhbərinin əsl simasının təsvir edilməsində öz gücsüzlüyümü qəbul etsəm də, əziz oxucularımızın diqqətinə aşağıdakı məqamları çatdırmağı özümə borc bilirəm:
**1.** "Həzrət Zəhranın (s) sülaləsinə mənsub olan Ayətullah Xameneyinin tərcümeyi-halı" adlı bu kitab altı fəsildən ibarətdir.
**Birinci fəsil:** "Günəşin doğması" – Burada həzrətin anadan olduğu vaxtdan 1357-ci hicri şəmsi ilinədək davam edən siyasi mübarizəsindən bəhs edilir.
**İkinci fəsil:** "İdrakın açarı" – Burada həzrətin mənəvi və ictimai keyfiyyətlərindən söz açılır.
**Üçüncü fəsil:** "Günəş cəbhədədir" – Bu fəsildə böyük dini rəhbərin dilindən müharibə haqqında deyilməmiş fikirlər oxuculara təqdim edilir.
**Dördüncü fəsil:** "Dost sözü" – Həzrət İmamın (r) böyük dini rəhbər haqqında söylədiyi fikirlər açıqlanır.
**Beşinci fəsil:** "Ustadın hüzurunda" – Burada böyük dini rəhbərin Həzrət İmam (r) haqqında dediklərindən bəhs edilir.
**Altıncı fəsil:** "Şəriət elmində yüksək səviyyəyə çatma" – Bu fəsildə böyük dini rəhbərin fəaliyyəti və şəriət elmi sahəsində məqamı Həzrət İmamın (r) silahdaşlarının dilindən açıqlanır.
**2.** Bu kitabda qeyd olunan bütün məsələlər etibarlı sənədlərə əsaslanır və onlar şərh və qeydlərdə öz əksini tapmışdır.
**3.** Məsələlərin açıqlanması zamanı heç bir müdaxilələrə yol verilməmiş və hər şey olduğu kimi çatdırılmışdır.
**4.** Kitabın yazılmasında yol verilə biləcək səhvlərin çox cüzi olacağına baxmayaraq, sizdən üzr istəyir və deyirik ki, əgər hər hansı bir yanlışlıqla qarşılaşsanız, naşirin ünvanına göndərin. İnşaallah, kitabın yeni çaplarında həmin səhvləri aradan qaldırarıq.

***Həsən Sədri Mazandarani,***
***Qum şəhəri, 1381-ci hicri şəmsi ilinin baharı***

**Günəşin doğması**

Həzrət Ayətullah Seyid Əli Xameneyi 1318-ci hicri şəmsi ilində, müqəddəs Məşhəd şəhərində ruhani ailəsində dünyaya göz açmışdır.
Atası Ayətullah Ağa Hacı Seyid Cavad Məşhədin müctəhidlərindən və möhtərəm alimlərindən biri olub, uzun illər sübh çağlarında Gövhərşad məscidində, gündüzlər və axşamlar isə Məşhəd bazarındakı məsciddə camaat namazlarına rəhbərlik edir və dinin təbliği ilə məşğul olurdu.
Onun babası Ayətullah Seyid Hüseyn Xameneyi Nəcəfdə yaşayan azərbaycanlı alimlərdən idi. O, əvvəlcə Təbriz xiyabanı məhəlləsində yaşayırdı, sonra müqəddəs Nəcəf şəhərinə getdi və orada təhsil almağa başladı. O, çox pəhrizkar, elm və din adamı idi və ömrünü qənaətlə keçirirdi.[1]
Şəhid ruhani Hacı Şeyx Məhəmməd Xiyabani onun bibisinin əri idi və o, Təbriz şəhərinin Xamənə qəsəbəsində dünyaya göz açmasına baxmayaraq, Təbrizin Xiyaban məhəlləsindəki Kərimxan məscidində cümə namazlarına rəhbərlik etdiyindən Xiyabani ləqəbi ilə tanınmışdı. O, Məşrutə dövrünün ən məşhur ruhanilərindən və mübarizlərindən biri olub, Milli Şura məclisində Təbriz əhalisinin nümayəndəsi idi. Xiyabani ölkədəki mövcud özbaşınalığa qarşı qiyam edərək Təbrizdə şəhid oldu.
Bu möhtərəm şəxsin anası, Məşhədin məşhur alimlərindən olan Ağa Seyid Haşım Nəcəfabadi Mirdamadinin qızı idi. O, çox ismətli bir qadın olub, dini məsələlərə yaxından bələd idi və ilahi əxlaqa malik xanım kimi tanınmışdı.

1 Həzrət Ayətullah Xameneyinin ictihada yetişməsi haqda görkəmli alimlərin və fəqihlərin fikri, səh.33

## İlk uşaqlıq günləri

Onun uşaqlıq illəri çox ciddi və tələbkar, amma eyni zamanda çox sevimli və mehriban atasının, habelə son dərəcə mehriban və istiqanlı anasının tərbiyəsi altında, ancaq ehtiyac və yoxsulluq şəraitində keçmişdir.
O özü də bu barədə deyir:
– Uşaqlıq illərim həddən artıq ehtiyac içində keçirdi, xüsusilə də ona görə ki, mənim uşaqlığım müharibə illərinə təsadüf edirdi. Məşhəd şəhərinin müharibə gedən döyüş meydanlarına yaxın olmasına baxmayaraq, ölkənin digər şəhərləri ilə müqayisədə orada hər şey ucuz və bol idi. Bununla belə, ailəmizin vəziyyəti elə idi ki, biz hətta həmişə buğda çörəyi ala bilmirdik. Adətən, arpa çörəyi yeyirdik, bəzən də arpa və buğdadan hazırlanmış çörəkdən istifadə edirdik, çox nadir hallarda buğda çörəyi alırdıq. Mən uşaqlıq illərimin axşamlarını yadıma salanda xatırlayıram ki, o vaxtlar evimizdə şam olmazdı, bəzən isə anam nənəmizin mənə, yaxud qardaş və bacılarımdan birinə verdiyi xırda pulla bir qədər kişmiş və ya süd alırdı, biz də onu çörəklə yeyərdik...
Həzrət atasının evi barədə belə buyurur:
– Mənim də dünyaya gəldiyim atamın evi (mənim 4-5 yaşımadək) Məşhəd şəhərinin yoxsullar yaşayan məhəlləsində 60-70 m2 olan mənzildən ibarət idi, yalnız bir otağı və bir qaranlıq zirzəmisi var idi. Atamın yanına qonaqlar gələndə (bir qayda olaraq, atam ruhani olduğundan və bura insanların müraciət etdiyi ünvana çevrildiyindən onun həmişə qonaqları var idi) biz hamımız qonaqlar gedənədək aşağıda – zirzəmidə qalırdıq. Sonralar atama sadiq olan bir qrup adam bu evin yanındakı kiçik torpaq sahəsini alıb evimizə əlavə etdilər və beləcə bizim mənzilimiz üçotaqlı oldu.
Həzrət evlərində geydikləri paltarlar haqda belə deyir:
– Ailəmizdə geyim baxımından da vəziyyət eyni qaydada idi. Anam atamızın köhnə paltarlarından bizə elə bir şey düzəldirdi ki, çox əcayib və qəribə görünürdü: nə ləbbadə idi, nə də uzunətəkli köynək, dizdən aşağıya düşən uzun bir paltar idi, əksər yerlərində də yamaq var idi. Əlbəttə, deməliyəm ki, atam da tez-tez paltarlarını dəyişdirmirdi. Məsələn, o, bir ləbbadəsini dörd il müddətində geyinmişdi.

## Məktəbə və ibtidai təhsilə doğru

Həzrət 4-5 yaşında böyük qardaşı ilə birgə məktəbə gedirlər ki, burada Quranı öyrənsinlər. Bir müddətdən sonra onların hər ikisini "Darültəalimi diyanəti" adlı ibtidai din məktəbinə göndərirlər.
Rza xanın təlatümlü günlərindən sonra bu cür məktəblər çoxlu adamlar tərəfindən açılmışdı və həmin məktəblərdə daha çox şagirdlərin dini tərbiyəsinə diqqət yetirilirdi. Ancaq onların təhsil haqqında sənəd vermək hüququ yox idi. Bu cür ibtidai məktəblərdə adi ibtidai məktəblərdəki dərslərdən savayi, Quranın qiraəti, habelə "Hilyətul-Muttəqin", "Hesabe siyağ" və "Nesab-ul səbiyan"dan müxtəlif mövzular tədris edilirdi.

## Susuzdan da susuz

Həzrət bu məktəbdə altıncı sinfi bitirdikdən sonra atasının gözündən uzaq axşam sinfinə gedərək həmin sinfi qurtarmaq barədə sənəd alır və bundan sonra gizli şəkildə orta məktəb siniflərində qeydiyyatdan keçib, orta məktəb üzrə təhsilini iki il ərzində başa vuraraq attestat alır.

**Dini dərslərin öyrənilməsi**

Həzrət həmin islam mədrəsəsində şəriət elmlərini, habelə ərəb ədəbiyyatını öyrənməyə başlayır. Öncədən "Şərhe əmsele"ni anasının yanında öyrənmişdi. "Sərfe mir" və "Təsrif"i atasından mənimsəmişdi və "Əvamel"i, eləcə də "Unmuzəc"i mədrəsədə müəllimlərdən ikisinin yanında mənimsəmişdi. Sonra o, Süleymanxan dini elmlər mədrəsəsinə gedərək, orada "Səmədiyyə"ni, Süyutini və qismən də "Muğni"ni öyrənməyə başlayır.

"Şəraye" dərsini də atasının yanında alır və "Ketabe həcc"ə yetişəndə atası onlara deyir ki, "Şərhe lümə" dərsində həcc mövzusuna çatanda iştirak etsinlər və öz din qardaşları ilə elmi müzakirəyə başlasınlar. O, Süleymanxan mədrəsəsindən sonra Nəvvab dini elmlər mədrəsəsinə gedir və orada "Səth" dərsini başa çatdırır. Bundan sonra mərhum Ayətullah Milaninin "Xaric" dərsində iştirak edir.

Ayətullah Xameneyi məhz atasının sayəsində və onun zəhməti hesabına bu müvəffəqiyyətləri əldə etdiyini bildirir: "Bu nurlu və işıqlı yolu seçməyimin başlıca səbəbkarı atam olmuşdur. Anam da dinə bağlı bir insan idi. Mən dərslərimə başlayanda mənim yaşımla atamın yaşı arasında böyük fərq var idi. Düz qırx beş il, bundan əlavə atam yüksək elmi dərəcəyə çatmışdı və müctəhidlər, ali dərəcəli şagirdlər yetişdirmişdi. Buna görə də belə bir yüksək elmi dərəcəyə malik olan bir şəxsin mənə – ibtidai dini dərslərə başlayan bir şagirdə dərs öyrətməsi düzgün deyildi. Onun bu kimi işlərə hövsələsi də yox idi. Lakin bizim tərbiyəmizə olan diqqət və marağına görə mənə, böyük qardaşıma, eləcə də kiçik qardaşlarımıza dərs verməyə başladı. Qardaşlarımın, xüsusilə mənim təhsilimdə və tərbiyəmdə onun həqiqətən də böyük haqqı vardır. Əgər o olmasaydı, mən dini təhsildə bu qədər böyük uğurlara nail ola bilməzdim.

Əlbəttə, Qum şəhərinə getməmişdən qabaq atamın yanında dini dərs almaqla yanaşı, Məşhəddə ümumi dərslərə də hazırlaşırdım. Yay fəslində bu cür məktəblərdə tətil olanda atam bu dərslərin əvəzində mənə yeni dərslər verirdi və özü də həmin dərsləri keçirdi.

Buna görə də mən yalnız ümumi məktəblərdə dərs alan şagirdlərin əksinə olaraq təhsildə heç bir boşluğa yol verməmişdim və on altı yaşımda ikən bütün "Səth" dərslərini başa vurmuş və "Xaric" dərslərə başlamışdım".[1]

1 Həzrət Ayətullah Xameneyinin ictihada yetişməsi haqda görkəmli alimlərin və fəqihlərin fikri, səh.35-36

**Tədris kürsüsündə**

Həzrət dini elmlər sahəsində verdiyi tədrisdən belə söz açır:
– Rəsmi tələbəlik illərinin əvvəllərindən, yəni ibtidai təhsilimi başa vurandan sonra dərhal tədrisə başladım. İlk tədris etdiyim kitablar “Ketabe əmsele” və “Sərfe mir” idi ki, Məşhəd rövzəxanlarından olan iki yaşlı şagirdə öyrətməyə başladım. 1337-ci ilin yayında Məşhəddə olanda sintaksis və morfologiyanı, habelə stilistikanı, dinin əsaslarını, bəyanı (bəlağət elmini) tədris edirdim. 1336-cı ildə ziyarət məqsədilə imamlarımızın Kərbəla, Nəcəf və Bağdaddakı məqbərələrinə baş çəkdim. Nəcəf şəhərinin səmimi atmosferi məni bu elm mərkəzində qalmağa sövq edirdi, buna görə də Nəcəfdə qalmaq fikrində idim. Bir müddət burada qaldım, ancaq atam orada qalmağıma razı olmadı və mən Məşhədə qayıtdım. 1337-ci ildə atamın icazəsi ilə Qum şəhərinə getdim və 1343-cü ilədək orada qaldım. Həmin il atam göz xəstəliyindən öz görmə qabiliyyətini tamamilə itirdi və mən məcbur olub yenidən Məşhədə qayıtdım. O vaxt Qum şəhərindəki bəzi müəllimlərim də mənim qayıtmağımı istəmirdilər.
Qum şəhərindən Məşhədə qayıtdıqdan sonra (1343-cü ildə) tədris mənim əsas və daimi fəaliyyətimə çevrildi və bu illər ərzində (1356-cı ilədək) ən yüksək səviyyədə tədrislə məşğul oldum.

## Ustadların hüzurunda

Böyük dini rəhbər (Allah-Təala xeyir-duasını əbədi etsin) ibtidai təhsilindən ən ali təhsil illərinədək ona təlim verən müəllimləri haqda belə buyurur: "Müqəddəs Məşhəd şəhərində 1343-cü ildən etibarən özüm də təhsilimi davam etdirməyimə baxmayaraq, tədrislə də məşğul olurdum və 1349-cu illədək fiqh (islam qanunvericiliyi) dərsində iştirak edirdim.

"Unmuzəc" və "Səmədiyyə" kitablarını Məşhəddəki Süleymanxan mədrəsəsində, tibb sahəsində təhsilini davam etdirən Ulum adlı bir alimin yanında oxudum. Ondan sonra yenə də həmin mədrəsədə Məsud adlı bir şəxsin yanında "Süyuti"ni oxudum və qismən də olsa "Muğni"dən təhsil aldım. Böyük qardaşımın Nəvvab mədrəsəsində otağı olduğundan həmin yerə getdim və orada "Süyuti"ni oxumağa, habelə "Muğni"dən dərs almağa başladım.

Həmin vaxt atam təklif etdi ki, Mühəqqiq Hillinin "Şəraye-ul İslam" kitabından mənə dərs versin. Bu kitabın dərslik olmamasına baxmayaraq, atam hiss edirdi ki, mənim irəliyə getməyimdə onun böyük əhəmiyyəti ola bilər və həqiqətən də belə oldu. Yəni o, bu kitabın əvvəlindən "Həcc" kitabınadək mənə dərs verdi. Həmin vaxt atam qardaşıma "Şərhe lümə" dən Həcc bölməsini dərs verirdi və o zaman mənə dedi:

– Gəl, sən də "Şərhe lümə" dərsində iştirak et. Mən dedim ki, axı bu dərsi başa düşə bilmərəm. O isə dedi ki, başa düşə bilərsən. Ona görə də mən də bu dərsi öyrənməyə başladım və təsadüfən başa düşə bildim. Beləcə həmin kitabın dörddə üç hissəsini atamın yanında öyrəndim, qalan hissəsini isə mərhum Ağa Mirzə Əhməd Müdərris Yəzdinin (O, Nəvvab mədrəsəsində "Şərhe lümə" və Qəvanin kitablarının məşhur müəllimi idi.) yanında oxudum. Bu dərsi başa vurduqdan sonra mərhum Ayətullah Hacı Şeyx Haşim Qəzvininin (O, mərhum Ağa Mirzə Mehdi İsfəhaninin şagirdi olub, Məşhədin birinci dərəcəli müəllimlərindən sayılırdı. Son dərəcə möhtərəm şəxs olub, Məşhədin adlı-sanlı adamları arasında çox azad, təmiz qəlbli adam kimi tanınırdı.) yanında "Məkasib" və "Rəsayil" dərslərini oxudum. O, çox bəlağətli və ünsiyyətcil şəxs idi. Mən Nəcəfdə, eləcə də Qumda dərslərin böyük hissəsini başa vurandan sonra da onun kimi natiq görməmişdim.

Beləliklə mən "Məkasib", "Rəsayil" və "Kifayə" dərslərinin böyük hissəsini onun yanında oxudum. Ona görə böyük hissəsini deyirəm ki, qalanını atamın yanında oxumuşdum. Deməliyəm ki, atamın mənə etdiyi köməkliyin dərslərdə irəlil-əməkdə çox faydası oldu. Mənim rəsmən tələbəliyə qədəm qoyub "Xaric" dərsinə başladığım vaxtadək beş il yarım keçdi. Bu müddətdə "Səth" dövrünü tam beş il yarımda başa vurdum və "Xaric" dərsini Məşhəddə çox bilikli və təhqiqatçı şəxs olan mərhum Ayətullah Milanidən almağa başladım.

1337-ci ilin sonunadək onun yanında bir il dinin Usul və iki il yarım fiqh dəsrlərini öyrəndim və Qum şəhərinə getdim. Onu da qeyd etməliyəm ki, Məşhəddə bir müddət də Ayətullah Hacı Şeyx Haşim Qəzvininin yanında "Xaric" dərsini aldım. Yəni o özü bizim israrımızla Usulun bir dövrə Xaric dərsini tədris etməyə başladı. Mərhum Hacı Şeyx Haşim geniş bir mövzu ilə bütün fikirləri söyləyir sonra isə onları inkar edirdi. Məşhəddə başqa bir dərsə də getdim ki, bu da Ayətullah Mirzə Cavadağa Tehraninin fəlsəfə dərsi idi. O, mərhum Hacı Molla Hadi Səbzevarinin "Mənzumə və mətaleb" kitabından dərs keçərək, onun fikirlərini inkar edirdi. Belə bir vaxtda Qum şəhərində fəlsəfə dərsi keçmiş dostlarımdan biri dedi:

– Sənin Mirzə Cavadağanın "Mənzumə" dərsinə getməyin doğru deyil, çünki onun özü "Mənzumə"ni inkar edir. Buna görə də sən fəlsəfə terminlərini öyrənə bilməyəcəksən, odur ki, fəlsəfəyə inanan bir şəxsin yanına getməli və ondan dərs almalısan. Mən də dostumun sözünü qəbul etdim və Ağa Şeyx Rza İsmi adlı bir şəxsin yanına getdim. Bu şəxs Məşhəddə yaşayırdı və yaşlı, ağıllı bir müəllim idi, fəlsəfəyə də çox bağlı adam idi. Onun yanında "Mənzumə" dərsinə başladım və həmin müəllim fəlsəfəyə kamil etiqadı olan bir şəxs kimi mövzuları şərh edirdi.

**Nəcəf elm mərkəzinə yola düşmə**

Böyük dini rəhbər Nəcəf elm mərkəzinə yola düşməsi müvəqqəti olaraq böyük müctəhidlərin dərslərində iştirak etməsi barədə xatirələrinə belə davam edir:

– Sonra mən Nəcəfə getdim və orada böyük müctəhidlərin – Həkimin, Xoyinin və Şahrudinin dərslərində, habelə Ağa Mirzə Bağır Zəncaninin, mərhum Mirzə Həsən Yəzdinin dərslərində iştirak etdim, bir sözlə, harada dərs var idisə ora gedirdim.

Ancaq bütün bu dərslərin içərisində Ayətullah Həkimin dəsrlərindən daha çox xoşum gəlirdi. Ona görə ki, fiqh elminə baxışları çox yaxşı idi və dərsləri çox aydın və rəvan idi. Bundan əlavə, Tusi məscidində dərs deyən Ayətullah Ağa Mirzə Həsən Becnurdinin dərsləri də xoşuma gəlirdi. Buna görə də Nəcəf şəhərində qalmaq qərarına gəldim, ancaq atama məktub yazıb burada qalmaq istədiyimi bildirəndə razılıq vermədi.

**Doğma diyara qayıtma**

Həzrət atasının onun Nəcəf şəhərində qalmaq təklifini qəbul etmədiyindən doğma diyara qayıdır. O, öz xatirələrinin davamı olaraq daha sonra yazır:

– Buna görə də Məşhədə qayıtdım və bir müddətdən sonra Qum şəhərinə yola düşdüm. Qumda belə bir qərara gəldim ki, bütün dərslərə nəzər yetirim və hansı dərsi bəyənsəm, onu da davam etdirim. Belə də etdim və həmin dərslərin içərisində İmamın, Ayətullah Ağa Mortəza Hacı Şeyxin və Ayətullah Bürucerdinin dərslərinə getdim. İmamın Fiqh və Usul dərslərində isə ardıcıl olaraq işrirak edirdim. Fəlsəfə bölməsində isə cənab Təbatəbaidən "Əsfar" və "Şəfa" dərslərini müəyyən qədər öyrənməyə başladım.[1]

1 Həzrət Ayətullah Xameneyinin ictihada yetişməsi haqda görkəmli alimlərin və fəqihlərin fikri, səh.39

## Bilik üçün susayanlar

Həzrət Ayətullah Haşimi Rəfsəncani böyük rəhbərin elmi uğurları barədə belə buyurur: “Mən bir şahid olaraq deməliyəm ki, 1338, yaxud 1339-cu ildən etibarən onun xidmətində olmuşam, dərslərdə iştirak edir və xeyli mübahisələr edirdik. Bu gün bizim aramızda olanlardan heç biri onun ictihadı barədə tərəddüd etmirlər. Həmin günlər Ayətullah Xameneyi onlardan yüksəkdə olmasa da, aşağı səviyyədə də deyildi. Həm dərsləri yaxşı mənimsəyirdi, həm də yaxşı nəticələr çıxarırdı. Son zamanadək mübarizələrinə baxmayaraq mütaliəni, fiqh işlərini və dərsləri unutmamışdır”.
Həzrətin dərsə və mövzulara marağı elə səviyyədə idi ki, bir dəfə Qum Elmi Mərkəzinin alimlərindən bir neçəsi ondan ölkə rəhbərliyini bitirdikdən sonrakı planları barədə soruşduqda o buyurdu:
– İnşaallah, Qum şəhərinə gələcəyəm və orada illərlə intizarında olduğum işlərlə (dərs və müzakirələrlə) məşğul olacağam.

**Böyük dini rəhbərin əsərləri**

Həzrət Ayətullah Xameneyinin qələmə aldığı əsərlər çoxdur və onlardan bəziləri çap olunmuşdur:
– Həzrətin "Əl-cihad" kitabının Xaric dərsi;
– Recal elmi haqda dörd kitab;
– Gələcək İslamın sayəsində;
– Namazın dərinliyindən;
– "Nəhcül-bəlağə"yə qayıdış;
– Beş cilddə sual və cavab;
– "Nəhcül-bəlağə"dən dərslər;
– Əxlaq dərsi;
– İmam Sadiqin (ə) həyatına bir baxış;
– İmam Rzanın (ə) siyasi şəxsiyyəti;
– İmamların həyatında mübarizə elementləri;
– Səbr etmə haqda söhbət;
– Vəhdət və partiyalaşma barədə söhbət;
– Müsəlmanlar Hindistan hərəkatında;
– Ələvi hökuməti haqda söhbət;
– İslam inqilabında və peyğəmbərlərin hərəkatlarında rəqib qruplar;
– Məzlumluq fəryadı;
– Müsahibələr;
– İmam Həsənin (ə) sülhü – tarixin möhtəşəm qəhrəmanlıq səhifəsi;
– Şəhidlik ətri;
– Dini mərkəzin missiyası;
– Cümə məktəbində;
– Qəbəsat ən-Nur;
– İstiftalar;
– Günəşin cilvəsi;
– İmamın yolu bizim yolumuzdur;
– Böyük dini rəhbərin incəsənətə baxışı;
– Doktor Mustafa Çəmranın fəaliyyəti, cihadı və şəhadəti;
– Böyük dini rəhbərin xəbərdarlıqları;
– İlk şəhid – Ayətullah Mustafa Xomeyni;
– İmam Səccadın (ə) həyatı haqda təhqiqatlar;
– Vilayət hədisi (Böyük dini rəhbərin bəyanatlarının toplusu – bir neçə cilddə).
Böyük dini rəhbərin daha bir neçə mühüm əsəri çapa hazırlanmışdır və ümidvarıq ki, bugünkü nəsil onun mənəvi yazılarından lazımınca istifadə edəcək.

**Siyasi mübarizələr dövrü**

Böyük dini rəhbər cəsur və mömin bir mücahid idi və bütün zəngin həyatı boyu həmişə öz qələmi, sözü və silahı ilə cihadda idi, xüsusilə möhtərəm İmamın böyük İslam hərəkatına başladığı 1341-ci ildən etibarən bir an belə səylərini dayandırmamışdır. Əziz rəhbər bu barədə belə deyir:

– Siyasi mübarizə meydanına girdiyim və siyasi məsələlərlə məşğul olduğum 1331-1332-ci illərdə eşitdim ki, mərhum Nəvvab Səfəvi Məşhədə gəlib. O zaman gizli bir qüvvə məni mərhum Nəvvaba tərəf çəkib apardı. Onunla görüşməyə çalışırdım. Həmin vaxt belə bir xəbər gətirdilər ki, Nəvvab Süleymanxan mədrəsəsinə gəlmək istəyir. Mən də həmin mədrəsədə təhsil aldığımdan mərhum Nəvvabın Süleymanxan mədrəsəsinə gəldiyi günü həyatımın unudulmaz günlərindən biri hesab edirəm.

O, başlarına xüsusi dəri papaq qoymuş bir qrup İslam fədailəri ilə mədrəsəyə gələndə həyətdə dayanıb, şüar söyləyə-söyləyə çıxış etməyə başladı. Onun nitqinin başlıca məğzi bu idi ki, İslam mütləq yaşamalı və İslam hakimiyyətdə olmalıdır. Bu məqamda o, onları – şahı, ingilisi və məmləkətin məsul şəxslərini yalançılıqda ittiham edərək dedi: “Bu adamlar müsəlman deyillər”.

Mərhum Nəvvabın dilindən birinci dəfə bu sözləri eşidəndə o qədər ürəyimə yatdı ki, onunla həmişə bir yerdə olmaq istədim. Həmin yerdə bildirildi ki, sabah cənab Nəvvab Mehdiyədən Nəvvab mədrəsəsinə gedəcəkdir. Həmin günün səhərisi mərhum Nəvvab bir qrup adamla Mehdiyədən Nəvvab mədrəsəsinə tərəf hərəkət etdi və yol üstündə camaata müraciət edərək usa səslə şüar səsləndirir və deyirdi:

– Qeyrətli müsəlman qardaşlarım, İslam hakimiyyətdə olmalıdır. Heyət Nəvvab mədrəsəsinə yetişəndə orada da bütün qüvvəsi ilə yığcam və heyrətləndirici bir nitq söylədi. Nitqdən sonra ona camaat namazına rəhbərlik etmək təklif olundu. O da bu təklifi qəbul etdi və biz hamımız onun rəhbərliyi ilə namaz qıldıq. Mərhum Nəvvab Məşhəddən getdikdən sonra biz ondan xəbər tuta bilmədik. Bu xəbərsizlik onun şəhid olmasınadək davam etdi və biz Məşhəddə onun şəhadətə çatması xəbərini eşitdikdə qəzəbdən çox həyəcanlandıq və mədrəsənin həyətində şüarlar söyləyərək, şahı yamanlamağa başladıq. Burada ən maraqlısı odur ki, mərhum Ayətullah Hacı Şeyx Haşim Qəzvini Məşhəddə yeganə ruhani idi ki, öz səmimiliyi və alicənablığı sayəsində mərhum Nəvvabın şəhadəti ilə əlaqədar olaraq etiraz səsini ucaltdı. O, həmçinin dərs zamanı mərhum Nəvvab Səfəvinin və onun tərəfdaşlarının hakim qüvvələr tərəfindən şəhadətə yetirilməsini kəskin tənqid edərək, onların öldürülməsindən çox təəssüfləndiyini bildirib dedi: “Məmləkətimizdə iş o yerə gəlib çatıb ki, peyğəmbər övladını haqqı söylədiyinə görə öldürürlər!” Ona görə də həmin vaxtdan etibarən Nəvvab Səfəvinin vasitəsilə məndə İslam inqilabının qığılcımının əlamətləri yaranmağa başladı.

Heç bir şübhəm yoxdur ki, bizim qəlbimizdə ilk atəşi məhz mərhum Nəvvab alovlandırdı. Buna görə də mərhum Nəvvabın təsiri ilə həmin 1334, yaxud 1335-ci ildə bizim ilk mübarizə hərəkatımız başladı. Belə ki, həmin vaxt Fərrux adlı bir ostandar (vilayətin rəhbəri – Ə.B.) Məşhədə gəlmişdi və bu şəxs heç bir dini qaydalara və əlamətlərə ehtiram etmirdi. O cümlədən məhərrəm və səfər aylarında Məşhəddə kino-teatrlar, bir qayda olaraq, istirahət etməli olduqları halda əvvəlcə məhərrəm ayının 14-dək tətil elan etdi. Sonra bir qədər səs-küy baş verdiyindən məhərrəm ayının 20-dək tətil elan etdi. Buna görə də biz bir neçə nəfər oturub xeyirxah işlərə çağırış və pis əməllərdən uzaqlaşma ilə əlaqədar bir bəyannamə yazaraq poçtla müxtəlif yerlərə göndərdik.[1]

1 Həzrət Ayətullah Xameneyinin ictihada çatması haqda görkəmli alimlərin və fəqihlərin fikri, səh.42-43

**İmam Xomeyni ilə birlikdə 1341-ci ilin siyasi mübarizələri**

Qum Elmi Mərkəzi 1341-ci ildə millətin İmamının səsi ilə ayağa qalxdı və bu elm, dindarlıq, cihad və şəhadət mərkəzində başqa bir narahatçılıq baş verdi. Böyük
dini rəhbər 1342-ci ildə İmam tərəfindən tapşırıq aldı və Məşhədə üç müraciət apardı. Bu üç müraciət taleyüklü məhərrəm ayı ilə bağlı idi və həmin hadisə xordad ayının on beşində baş verdi.
Birinci müraciət din alimləri, minbərlərdə moizə oxuyanlar və dini məzhəblərin rəhbərləri ilə əlaqədar idi və İsrailə hücumu və Feyziyyə məsələlərini nəzərdə tuturdu.
İkinci və üçüncü müraciətlər isə mərhum Ayətullah Milani və Məşhədin dini alimlərindən birinə ünvanlanmışdı, məhərrəm ayının yeddisindən etibarən açıq mübarizəyə başlanması haqda idi.
Bu missiya lazımi səviyyədə yerinə yetirildi və həmin müraciətlər Xorasan vilayətində mübarizənin daha da şiddətlənməsinə gətirib çıxardı.
Böyük dini rəhbərin sayəsində Bircənd şəhəri o vaxtkı baş nazir Əsədulla Ələmin fikrincə, rejimin güc və hakimiyyət mərkəzinə çevrildi. O, Bircənddə məhərrəm ayının üçündən etibarən minbərə çıxır və camaatı məlumatlandıraraq hərəkata başlayır. İnsanların həddən artıq çox olduğu məhərrəm ayının yeddisində isə Feyziyyə mədrəsəsində baş verən həyəcanlı hadisələrdən danışır, adamlar da ağlayırlar.

**İşgəncə illəri**

Böyük dini rəhbər xatirələrinin davamı olaraq deyir:
– O gün ilk olaraq minbərdə olan xətib nitqini çox uzatdı və çox gec aşağı düşdü. Mənim üçün yarım saat vaxt qalmışdı. Mövzuya başlayanda həyəcandan əssəm də, əsla qorxmurdum və insanların vəziyyəti də mənə çox təsir edirdi. İnsanlar yanğı ilə ağlayırdılar və mən minbərdən aşağı düşəndə onlar məni dövrəyə aldılar ki, şahın adamları həbs etməsinlər.
Minbərdəki bu söhbət şəhərdə böyük səs salır və ertəsi gün şəxsi mənzildə növbəti toplantı keçirilir, buraya da xeyli adam gəlir və yenə də gündəlikdə olan məsələ müzakirəyə çıxarılır.
Böyük dini rəhbər bu barədə deyir: “Bircənddə Təhami adlı məşhur bir ruhani həmin gün mənə dedi: Mən bu şəhərdə hamıdan daha çox məlumatlı olmağıma baxmayaraq, bunlardan xəbərim yox idi və əgər sizdən savayı başqa birisi bunları desəydi, inanmazdım. Həm də heç bir hadisə ilə əlaqədar bu qədər ağlamamışam».
Həzrət doqquzuncu günün səhərisi Tasua günü çox gərgin bir vəziyyətdə minbərə çıxır və bundan sonra həbs edilir. Onu iki gün Bircənddə saxlayırlar, sonra isə Məşhədə aparıb SAVAK-a təhvil verirlər. Oradan da hərbi polisin boşaldılmış zindanına aparırlar və o, burada əvvəlki zindandakı imkanlardan da məhrum edilir.
Beləcə, o, on gün bu zindanda qalmalı olur və özü də bu barədə belə deyir: “Pis deyildi, ancaq mənim üçün yeni idi. SAVAK-la, müstəntiqlərlə, mübahisələrlə, narahatedici ovqatlarla, kəskin alçaltmalarla, bir sözlə, siyasi mübarizənin narahatlıqları ilə dolu yeni bir dünya idi mənim üçün”.
Həzrət azadlığa çıxandan sonrakı fəaliyyəti haqda buyurur:
– Azadlığa çıxandan sonra oturduq və dostlarla belə qərara gəldik ki, bu dəfə doğru-düzgün, hesablanmış, ölçülüb-biçilmiş qərarla hər birimiz ölkəmizin bir nöqtəsinə gedək, həqiqətləri bəyan edək, əlbəttə, əks-təsir də çox idi. Dövlət strukturları da bizi məhv etməyə hazır idilər, həmin vaxt adamlar hələ on beş xordad hadisəsinin təsiri altındaydılar. Adamların kəskin şəkildə təzyiq altında saxlanılması, habelə rejimin cinayətləri bəzilərini mühafizəkarlığa vadar edirdi. Bütün bunlara baxmayaraq, bir qisim şəxslər başqa adamları daha çox müqavimət göstərməyə və böyük cihada səsləyirdilər.
1342-ci ilin ramazan ayı bəhmən ayı ilə üst-üstə düşürdü və şah tərəfindən keçirilən saxta referendumun ildönümü idi. İmam Xomeyni təcrid olunmuşdu və mübarək ayla əlaqədar hər hansı bir planlaşdırma da apara bilməmişdi. Ona görə də ruhanilər, xüsusilə də İmama yaxın olan şagirdləri planlaşdırdıqları kimi yola düşdülər.
Həzrət bu barədə belə deyir:
“Qumdan yola düşəndə içərisində otuz nəfər tələbə olan bir avtobusla hərəkətə başladıq. Avtobusda müxtəlif dərəcəyə malik olan tələbələr əyləşmişdi. Həmin qayda ilə yol üstündə onlar avtobusdan düşürdülər. Mən axıra qalmışdım və Kirmanda düşməliydim”.
O, Kirmanda 2-3 gün çıxışlar edir, alimlərlə, tələbələrlə, və mübariz insanlarla müzakirələr aparır, sonra isə maşınla Zahidana gedir. Həhayət, ramazan ayının 15-də, yəni Həzrət İmam Həsən Moctəbanın (ə) təvəllüd günü çox kəskin, məzmunlu və həyəcanlı bir nitq söyləyir. SAVAK-ın məntəqə üzrə yerli nümayəndəliyi həmin günün axşamı, yəni ramazan ayının on altısı axşam onu həbs edib, təyyarə ilə Tehrana göndərirlər. Bir gecə şahlığın qarnizonunda saxlayırlar və ertəsi gün onu Qızılqala zindanına aparırlar. Bu zindanlıq dövrü təxminən iki ay davam edir və o, azadlığa çıxandan sonra əslində Qeytəriyyədə ev dustağı olan İmamın görüşünə gedir və özü də bu barədə deyir:
– Bütün yorğunluğum aradan qalxdı, o qədər zövq almışdım ki, ağlayırdım. İmam isə çox mehribançılıq edirdi. İmama dedim ki, onun olmamasına görə ramazan ayından lazımi səviyyədə istifadə olunmamışdır. Ona görə də indidən gələcək məhrumiyyətlər barədə düşünürdü.
Bundan sonra 1346-cı ilin fərvərdin ayının on dördündə böyük dini rəhbəri “Gələcək İslamın təsiri altındadır” kitabını tərcümə etdiyinə görə yenidən həbs edirlər və zindana salırlar. O, dörd ay zindanda qalır və SAVAK-ın kəskin təzyiqləri ilə üzləşir. Ancaq Allah-Təalanın köməkliyi ilə SAVAK-ı aldadırlar və SAVAK ondan heç bir şey öyrənə bilmir.
Böyük dini rəhbər həmin il, yəni 1346-cı ildə Qumda “İmam Həsənin (ə) sülhü”, “Gələcək İslamın təsiri altındadır” və “Müsəlmanlar Hindistan hərəkatında” kitablarına görə dəfələrlə həbs olunur, ancaq elə həmin gün azad edilir.

**Başqa bir cəhd**

1349-cu ildə, yəni Ayətullah Həkimin vəfatından sonra İmamın kursunun və mərcəiyyətinin təbliği və onun ictihada yetişməsi və İslam inqilabının rəhbərinə münasibətdə ona sadiq qalmağın nümayiş etdirilməsindən ötrü növbəti bir fürsət yaranmışdı. Ancaq o, yenə də həbs olundu. Zindandan çıxdıqdan sonra isə yenə də etibarlı adamların, habelə təşkilatçıların yetişdirilməsi ilə məşğul olur, fəal və döyüşkən dəstələrlə əlaqələr yaradır, həmçinin bütün bu işləri asanlaşdırmaq üçün imamlığı və tədris məsələlərini də qəbul edir.[1]

Əvvəlcə Məşhəd bazarında yerləşən və "Türklər məscidi" kimi tanınana Siddiqilər məscidində "Təfsir" dərsini başladı. Az bir müddətdən sonra adamların sayı xeyli artdığından onlar Mirzə Cəfər mədrəsəsinə, kitabxana salonunun ikinci mərtəbəsinə köçdü və dərsi davam etdirdi. Bu dərsdə tələbələrlə yanaşı, bəzi möminlər və dini məsələlərlə maraqlanan bir qisim şəxslər iştirak edirdilər. 1349-cu ildə baş verən həbslər müvəqqəti olaraq həmin dərslərin dayandırılmasına gətirib çıxardı.

1349-cu ildə baş verən bu həbs dörd aydan çox davam etdi və azadlığa çıxandan sonra yenidən fəaliyyətə başladı. 1350-ci ildə şahlıq rejiminin 2500 illik yubileyi ilə əlaqədar keçirilən təntənələrdə elektrik dirəklərinin partladılması əməliyyatından sonra həzrəti həbs edirlər və bu dəfə onu ağır işgəncələrə məruz qoyurlar. Onu qaranlıq bir zindanda, heç bir işıqlandırma olmadan saxlayırlar və o, təxminən iki aya yaxın burada qalmalı olur. Bundan sonra isə onu azad edirlər.

Həzrət yenidən İmam Həsən (ə) məscidində fəaliyyət göstərməyə başlayır və bir müddətdən sonra onu Məşhəddə Nadir bağının yaxınlığında yerləşən Kəramət məscidinə icma başçısı dəvət edirlər. Bu məntəqə şəhərin ən həssas və ən narahat yerlərindən biri olmasına baxmayaraq, həzrət həmin təklifi qəbul edir. Burada həddən artıq adamların toplaşmasını və onu çoxsaylı insanların qarşılamasını nəzərə alan SAVAK məscidi müəyyən müddətədək bağlayır.

Bütün bunlar ona gətirib çıxardı ki, SAVAK onu nəzarət altına götürür və ardıcıl olaraq ya çağırıb sorğu-sual edir, ya da mənzilini mühasirəyə alıb, adamların gedib-gəlmələrinə maneə törədirdilər. Tədricən SAVAK onun dərslərini də dayandırdı. Nəhayət, 1353-cü ilin dey ayında həbs edib Tehrana gətirdilər və burada zindanda, yəni SAVAK-ın təxribatçı məhbusların saxlanıldığı qorxulu işgəncə məhbəsinə saldılar. Onun zindanda qalması iki aydan da bir qədər çox çəkdi və bu müddət ərzində fərdi, yaxud iki-üç nəfərlik kameralarda ağır işgəncələrə məruz qaldı.

Zindandan azad olunduqdan sonra həzrət yenidən Məşhədə qayıtdı və öz yorulmaq bilməyən mübarizəsinə və cihada başladı. Ancaq bu dəfə daha ağır məsuliyyətin altına girmişdi.

Mübarizə şiddətləndikcə 1356-cı ildə ruhanilərin və adamların islami birlik yaratmaq istəyi ilə Məşhəddə İmamın rəhbərliyi, habelə ruhanilərin idarəçiliyi ilə həmin birliyin ilk özəyi yaradıldı və inqilabi forma aldı.

Həzrət bu barədə deyir:

– 1356-cı ilin yayında Məşhəddə qardaşlarımızdan ikisi ilə oturmuşduq, mərhum Rəbbani Əmləşi və Mövhədi Kirmani bildirdilər ki, nə üçün rejimə qarşı mübarizə aparan əsas qüvvələr, xüsusilə ruhanilər mütəşəkkil deyillər?

Həmin vaxt təklif olundu ki, birlikdə bir təşkilat yaradaq. Həmin iclasda bildirildi ki, əgər cənab Behişti bu təşkilatda olsa, həmin qurumun sonu çox yaxşı olacaqdır və mütləq bir nəticə əldə ediləcəkdir.

Xoş təsadüfdən həmin vaxt cənab Behişti və cənab Bahönər də orada idilər. Ona görə də Məşhəddəki həmin toplantı bu möhtərəm insanların iştirakı ilə keçirildi və islami birliyin bünövrəsi qoyuldu.

Təşkilatın yaranması xəbərini zindanlarda yatan alimlərə, o cümlədən Haşimi Rəfsəncamiyə çatdırdılar və onlar bu birliyi təqdir etdilər.

Şəhid Motəhərri də həmin il İmam tərəfindən göndərilən müraciətə əsasən müəyyən təcrübəsi olan mübariz insanları öz ətrafına topladı. Bu əlaqələr sonradan 1356-1357-ci il hadisələrinin baş verməsinə gətirib çıxardı. Böyük dini rəhbərin bu birliyin yaradılmasında mühüm rolu olmuşdur. Əlbəttə, bu birlik hakimiyyətpərəstlik, yaxud yüksək məqam və vəzifələr əldə etmək üçün yox, Allah-Təala, cihad və şəhadət naminə yaradılmışdı.

---

1 Bir qayda olaraq 1347-1350-ci illərdə inqilabi mədəni fəaliyyətlər və səylər çox aram idi ki, dini rəhbər bu illəri "məxfi fəaliyyətlərin həyəcanlı illəri" adlandırır

**Başqa bir sürgün**

Bütün bu fəaliyyətlərin nəticəsində, yəni 1356-cı ildə istibdad rejimi tam qəddarlıqla onu həbs edir və bir neçə gün zindanda saxladıqdan sonra İranşəhrə sürgün edirlər. Bu, 1357-ci ilədək davam edir. Həmin il inqilabın böyük vüsət alması və vəziyyətin rejimin nəzarətindən çıxması nəticəsində həzrət Məşhədə qayıdır və İmamın göstərişi ilə İslam İnqilab Şurasına dəvət olunur. Beləcə, o, Tehrana gəlir.

### Yeddi saat ayaq üstündə çıxış etdi və kommunistlərin mənhus planı nəticəsiz qaldı

İstibdad rejiminin son günlərində kommunistlər belə bir fikrə düşdülər ki, fürsətdən istifadə edib öz nümayəndələrini yaratmaqla İslam inqilabının dəyişdirilib, necə deyərlər, demokratik xalq inqilabına çevrilməsinə nail olsunlar. Bu məqsədlə də yaxşı bir yer – Kərəc yolundakı "General-Motors" zavodunu seçdilər. Ona görə ki, həmin yer Tehrandan uzaqda idi, mərkəzdə isə mömin müsəlmanlar qiyam etmişdilər. Onlar istəyirdilər ki, kommunistləri və başqa əks-inqilabçı qüvvələri mömin şəxslərin gözlərindən uzaq bir yerdə toplasınlar. Bununla da öz xam xəyallarına görə sonradan Tehrana tərəf hərəkət edib, son dərəcə həssas olan bu məntəqəni ələ keçirməyə çalışırdılar. Beləcə, ölkədə kommunist hökumətini bərqərar etmək fikrində idilər. Əlbəttə, bu plan baş tutmadı, ancaq son dərəcə həssas olan günlərdə, yəni bəhmən ayının 19-22-də tamamilə məhv edilməkdə olan rejimə özünün ən böyük köməyini göstərə bilərdi. Bununla da xalqın uğurları əldən gedə və istibdad rejiminə yeni bir fürsət verilə bilərdi ki, özünün növbəti planlarını həyata keçirsin.
Beləcə, onlar kommunist əqidəsinə malik olan təxminən beş yüz tələbəni, qulluqçuları, məmurları və müxtəlif peşələrə malik olan digər şəxsləri zavodda toplayaraq, özlərinin vadaredici çıxışları ilə fəhlələri də ətraflarına yığa bildilər. Həmçinin qəzetlərdə müraciətlərlə çıxış edərək, bütün demokratik və xalq qüvvələrini də dəvət etdilər ki, həmin xalq kütlələrinin inqilabına qoşulsunlar.
Bu xəbər İmamın təbliğat üzrə dəftərxanasına çatanda bir neçə ilahiyyatçı, habelə tir ayının yeddisində şəhid olanlardan cənab Dəyalemə həmin məntəqəyə yollandılar, ancaq onlar bir iş görə bilmədilər.
Belə olduqda böyük dini rəhbər həmin əraziyə getdi. O, günorta vaxtı özü maşını idarə edərək zavoda tərəf hərəkət etdi və çörək yemədiyinə görə yolda bir qədər çörək və pendir alıb, maşını sürə-sürə yeməyə başladı. Zavoda yetişəndə qısa bir çıxış edib geri qayıtdı. Amma bəhmən ayının 20-də vəziyyət çox təhlükəli bir həddə gəlib çatdı. Beş yüz nəfər kommunist, habelə zavodun səkkiz yüz nəfər fəhləsi bir yerə toplaşmışdılar və hətta onların silahlanmaları da tam yəqin idi. Ən qorxulusu isə bu idi ki, onlar silahlanıb rejimlə son mübarizədə ölkə daxilində müharibə törədə bilərdilər. Kommunistlər tərəfindən belə bir xəyanətin törədilməsi istisna deyildi. Buna görə də şəhid Dəyalemə İmamın təbliğat üzrə dəftərxanasına gəlib narahatçılıqla dedi: "Vəziyyət çox təhlükəlidir və mütləq ciddi tədbir görülməli və bu işin öhdəsindən gələ biləcək bir şəxs həmin yerə getməlidir".
Böyük dini rəhbər şəxsən bu işi öz öhdəsinə götürdü və tələsik zavoda getdilər. Rifah mədrəsəsindən də bir Hizbullah qrupunu onlara arxa olmaq üçün məntəqəyə göndərdilər. Böyük dini rəhbər axşam zavoda çatanda böyük bir zəhmətlə və cəsarətlə tribunaya qalxıb nitq söyləməyə başladı və suallara cavab verdi.
O, suallara cavab verərkən kommunistləri kəskin şəkildə ittiham etdi. Ona görə də onlar bu çıxılmaz vəziyyətdən yaxa qurtarmaq üçün kollektiv şəkildə kommunist nəğmələri oxumağa və əllərini başlarının üstünə qaldırıb möhkəm "əl çalmağa" başladılar. Ancaq həzrət tribunanı tərk etmir və öz çıxışını davam etdirməkdə idi. Axşam düşəndə azan oxundu və camaat namazı qılındı.
Kommunistlər yaranmış vəziyyətin onların xeyrinə olmadığını görüb, həzrətin sözlərini fəhlələrin eşitməməsindən ötrü işığı söndürürlər. Qaranlıqda böyük dini rəhbər səsucaldıcını silahdaşlarından birinə verib, özü uca səslə bildirdi ki, narahat olmayın, heç bir şey yoxdur, mənim sözlərimə qulaq asın. Sonra o, masaların üstündən bir-birinə keçərək şüarlar söyləyir, söhbətlər edir, fəhlələri başa salmağa çalışırdı. O deyirdi: "Hər halda biz camaat üçün namaz qılacağıq".
Onlar mübahisə etməyə başlayırlar. Fəhlə geyimində olan bir tələbə sual verəndə o, belə buyurur: "Vəsiqəni göstər". Həmin adam çıxılmaz vəziyyətdə qaldıqda hər şey məlum olur. Daha bir neçə nəfəri də bu qaydada ifşa edir. Sonra isə belə bir fikrə gəlirlər ki, fəhlələrin böyük əksəriyyəti müsəlman olduqlarından onları kommunistlərdən ayırmaq lazımdır. Bunun üçün isə ən yaxşı yol camaat namazıdır.
Buna görə də elan edirlər ki, müsəlman və namaz əhli olan hər bir kəs zavodun həyətində toplaşsınlar. Nəhayət, axşam saat 20:30-da məğrib namazından iki saat sonra camaat həzrətin imamlığı ilə zavodun həyətində toplaşır. Beləcə, fəhlələr namaz qılmağa gəlirlər və kommunistlər zavodun zalında qalırlar. Həzrət uca və ürəyə yatımlı olan səsi ilə fəhlələrin halını dəyişdirir, namazdan sonrakı dualar isə şəraiti tamamilə dəyişdirir. Onlar yaranmış bu fürsətdən istifadə edərək fəhlələri məscidə dəvət edirlər. Sonra hamısı zavodun məscidinə gedir və orada Rifah mədrəsəsindən gətirilmiş hizbullahçılarla birləşirlər. Onlar həzrətin rəhbərliyi ilə kommunistlərin əleyhinə çıxırlar və ertəsi günü fəhlələr kötəklə kommunistləri zavoddan qovurlar. İnqilabın qızğın vaxtında daxili müharibənin başlanmasını və rejimə özünü yenidən qüvvətləndirmək imkanı verilməsini nəzərdə tutan həmin böyük plan həzrətin fədakarlığı və bəsirəti sayəsində aradan qaldırıldı.
Burada ən əhəmiyyətlisi odur ki, həmin axşam Ayətullah Xameneyi yeddi saat ayaq üstdə dayanıb nitq söylədi və sübhədək

fəaliyyət göstərdi ki, yaranmış təhlükəni aradan qaldırsın.[1]
Böyük dini rəhbər həmin günləri belə xatırlayır: "Biz "Ələvi-ye İslami" məktəbində daha bir qərargah yaratdıq ki, onlar təbliğat işləri ilə məşğul olsunlar, yaxud zavodlara nümayəndələr göndərsinlər. Əsas məqsəd isə fəhlələri başa salmaq və onları zavodlardakı dağıdıcı fəaliyyətlə məşğul olan şəxslərin təsirindən qurtarmaq idi. Həmin gün İmamın təbliğat dəftərxanası, İslam Təbliğat Təşkilatı, Şəhid Motəhhəri mədrəsəsi və başqa təşkilatlar öz fəaliyyətləri zamanı məhz bu qərargaha istinad edirdilər.
Bir gün mən bir işi görmək üçün bu məntəqələr arasında gedib-gələrkən dostlardan biri məni saxlayıb dedi: "Siz burada öz işlərinizlə məşğulsunuz. Ancaq kommunistlərin səlahiyyətli nümayəndələri zavodlara gedərək, fəhlələri təhrik edir və dağıdıcı fəaliyyət göstərirlər". Həmin günlər hər an o qədər böyük hadisələr baş verirdi ki, insanın bütün bunları görməyə və ya onlar haqda məlumat toplamağa belə gücü çatmırdı. Həmin bir neçə gün ərzində ölkədə baş verən hadisələr məhz bu kiçik məkanda özünü büruzə verirdi. Sonra bu məsələlər kiçik bir qrupa tapşırılırdı ki, onlar həmin məsələlərin həlli ilə məşğul olsunlar. Həqiqətən də heç bir kəsin belə bir imkanı yox idi, çünki çox ağır və çətin günlər idi. Ona görə də məsələ mənim üçün o qədər də ciddi görünmədi, həssaslıqla yanaşmadım və həmin məntəqəyə getdim. Ələvi məktəbində həmin qeyd etdiyim qardaşlarımızla bərabər başqa bir şəxs də mənim yanıma gəlib ətraflı məlumat verdilər. Mən hiss etdim ki, nə isə ciddi bir hadisə baş verib. Ona görə də həmin yerə gedib, yaxından vəziyyətlə tanış olmaq istədim. Soruşdum ki, harada vəziyyət daha həssasdır? Bir zavodun adını çəkdilər və bildirdilər ki, orada bir qrup insan vardır. Həmin zavodda səkkiz yüz nəfər fəhlə vardır. Siz də bilirsiniz ki, Tehranda fəhlə məntəqələrinin hər hansı birində çoxlu zavodlar vardır və onlar bir-birinə yaxın olduqlarından hər hansı birində bir hadisə baş verəndə sürətlə başqa zavodlara da bu barədə məlumat yayılırdı və öz təsirini göstərirdi. Məlum olurdu ki, onlar özləri üçün bir dayaq məntəqəsi yaratmaq istəyir və həmin yeri özlərinə qərargah seçirdilər. Onlar həmin zavodların məsul şəxslərini ölümlə hədələyərək qorxudurdular ki, fəhlələr qələbə əhval-ruhiyyəsində olsunlar və onlar öz planlarını həyata keçirə bilsinlər.
Mən gedib vəziyyəti belə gördükdə problemləri həll etməyə başladım".

1 Həzrət Ayətullah Xameneyinin ictihada çatması haqda görkəmli alimlərin və fəqihlərin fikri, səh.61-63

**Xidmət göstərməyin iftixarı**

Mən də özümü sizin xidmətçiniz, bu xalqın xidmətçisi hesab edirəm. Əgər mənə belə bir ləqəb – xidmətçi ləqəbi verilsə, onunla fəxr edərəm. Mən hətta özümü əslində bu ifadədən, yəni xidmətçi olmaqdan daha kiçik bilirəm. İmam (r) demişdir: "Mən bir tələbəyəm. Mən özümə icazə vermirəm ki, bu ifadədən istifadə edib deyəm ki, mən bir tələbəyəm. Əks-təqdirdə İmamın (r) bu kəlamı nəzərə alınmasa belədir və bizlər həqiqətən bir tələbə, yaxud adi bir insanıq. Buna baxmayaraq, indi bizim hər birimizin öhdəsində bir vəzifə vardır və biz həmin vəzifəni yerinə yetirməliyik".[1]

1 "Hədise vilayət", VI cild, səh.57, İran İslam Respublikasının dövlət məmurları və məsulları ilə görüşdə nitq

**“1323-cü il – bizim məktəbə getdiyimiz ilk günlər”**

Böyük dini rəhbər özünün 1323-cü ildə məktəbə necə getməsi barədə buyurur:
– Mənim ilk olaraq dərsə getdiyim yer mədrəsə yox, məktəb olub. Mədrəsədən öncəki yaşımda, ola bilsin ki, dörd, yaxud beş yaşım olanda məni və mənim böyük qardaşımı (o, məndən üç yaş yarım böyük idi) qız məktəbinə qoydular. Yəni burada qadın müəllimlər dərs deyir, təhsil alanların da çoxu qızlar idilər. Bir neçə nəfər oğlan da var idi. Əlbəttə, mən yaşca hamıdan kiçik idim.
O illərdə qazandığım təcrübəni xatırlayanda bunu deməliyəm ki, həmin yaşlarda, yəni dörd və ya beş yaşında olan uşağı mədrəsəyə, məktəbə və ya başqa bir yerə qoymaq əslində düzgün deyildi. Ona görə ki, bunun uşağa heç bir faydası yoxdur. Yadıma salanda görürəm ki, həmin mədrəsədən öncəki məktəb dövründən qətiyyən istifadə edə bilməmişəm. Qoymuşdular ki, biz Quranı öyrənək. Əlbəttə, həmin vaxt məktəbdə, bir qayda olaraq, Qurandan dərs verilirdi. O zaman mədrəsələrdə Quran istifadə olunmurdu, ondan dərs verilmirdi.
Onu da bilməyiniz yaxşı olardı ki, mən 1318-ci ildə anadan olmuşam. Haqqında danışdığım illər 1323-1324-cü illərdir, bizim məktəbə getdiyimiz ilk illərdir. Buna görə də həmin ilk dövr, yəni məktəbə getdiyim ilk gün yadımda deyil.
Bir müddətdən sonra, yəni həmin məktəbdə bir-iki ay oxuduqdan sonra bizi bu məktəbdən apardılar və başqa bir yerə – oğlanlar məktəbinə qoydular. Burada yaşlı kişilər dərs deyirdilər.
Ola bilsin ki, siz qədim dastanlarda məktəb mollası haqqında oxumusunuz. Biz də həmin məktəb mollasının yanında dərs oxuyurduq.
Bizi həmin mədrəsəyə apardıqları ilk gün mənim yadımdadır. Mənim fikrimcə, çox qaranlıq, pis və xoşa gəlməyən günlər idi. Atam məni və böyük qardaşımı böyük bir otağa apardı. Fikrimcə, çox böyük otaq idi. Əlbəttə, ola bilsin həmin vaxt bu otağın yarısı qədər idi, yaxud bu otaqdan bir qədər çox idi. Ancaq mənim o vaxtkı uşaq baxışlarımla çox böyük bir yerə bənzəyirdi. Pəncərələrində şüşə olmadığından və müşəmbə ilə örtüldüyündən içəri qaranlıq və hisli idi. Bir müddət də orada qaldıq.[1]

1 Yeniyetmələr və gənclərlə söhbət, 14/XI-76

**“Yazıq, könlünü xoş edirdi”**

Əziz rəhbərimiz “Molla məktəbi”nə getməsi ilə bağlı xatirələrində buyurur: “Mən həmin məktəbin ən kiçik nümayəndəsi idim, ola bilsin ki, həmin vaxt mənim beş yaşım olardı. Mən çox kiçik, habelə seyid və alim oğlu olduğumdan məktəb mollası hər gün səhər tezdən məni öz yanında otuzdurur və bir qədər pul, məsələn beş riallıq əskinas verirdi. (Bu, bir tümənlik, yaxud iki tümənlik əskinas idi. Siz görməmisiniz.) Və ya o, öz cibindən iki tümənlik çıxarıb mənə verirdi və deyirdi:
– Sən bunları Qurana sürt ki, bərəkətli olsun. Yazıq, könlünü xoş edirdi ki, bu qayda ilə pulu bərəkətli olsun. Ona görə ki, başqa gəlirləri yox idi”.[1]

1 Yeniyetmələr və gənclərlə söhbət, 14/XI-76

**"Bizi ibtidai məktəbə apardıqları ilk gün"**

Böyük dini rəhbər ibtidai məktəbə getdiyi ilk gün haqqında buyurur:
– Bizi ibtidai məktəbə apardıqları ilk gün çox yaxşı gün idi, çox hay-küylü bir gün idi. Uşaqlar oynayırdılar, biz də oynayırdıq. Bizim otağımız böyük bir sinif idi, əlbəttə ki, mənim o vaxtkı uşaq baxışlarıma əsasən. Birinci sinifdəki uşaqların sayı çox idi. Hardasa I sinif şagirdlərinin sayı 30, yaxud 40 nəfər idi. Çox hay-küylü və qızğın günlər idi və həmin günlər haqda yaxşı xatirələrim vardır.
Əlbəttə, mənim gözüm zəif görürdü, bunu heç bir kəs bilmirdi, mən özüm də bilmirdim. Yalnız başa düşürdüm ki, bəzi şeyləri dəqiq görmürəm. Sonralar bir neçə il keçdi və mən özüm başa düşdüm ki, gözlərim zəifdir. Atam və anam başa düşdülər və mənim üçün eynək düzəltdirdilər.
O zaman, yəni mən eynək taxanda belə düşünürəm ki, təxminən on üç yaşım olardı. Lakin mədrəsənin ilkin dövründə bütün bunlar mənə mane olurdu. Uzaqdan müəllimin üzünü görmürdüm, yazı lövhəsindəki yazıları görmürdüm. Bütün bunlar mənim təhsilimdə çətinliklər yaradırdı.
İndi xoşbəxtlikdən uşaqlar körpəlikdə ikən müayinə edilir və əgər kiminsə gözləri zəifdirsə, onlara eynək yazırlar və ona nəzarət edirlər. Həmin vaxtlar hər hansı bir mədrəsədə belə bir imkan yox idi.
Əlbəttə, bizim mədrəsə, necə deyərlər, qeyri-dövlət mədrəsəsiydi, bundan əlavə, dini mədrəsə olduğundan müəllimlər və müdirləri həddindən artıq dindar adamlardan seçilirdilər. Həmin mədrəsələrdə dərslər çox zəif və dini proqramlar əsasında keçilirdi. Bundan başqa bu mədrəsələrdə, ümumiyyətlə, doğru-düzgün bir dini proqram da yox idi və heç bir kəs buna diqqət yetirmirdi".[1]

1 "Xatirələr və hekayətlər", I cild, səh.10

**“Anam bizim əmmaməmizi sarıyırdı”**

Böyük dini rəhbər hələ yeniyetmə yaşlarından başına əmmamə qoyması barədə buyurur:
– Sizin üçün maraqlı ola biləcək məsələ budur ki, həmin vaxt mən başıma əmmamə qoyurdum. Yəni on və ya on üç yaşlarımda başımda əmmamə, əynimdə əba var idi.
Ondan əvvəl, yəni mədrəsəyə getdiyim ilk vaxtlarda da əba ilə gedirdim, amma yayda başıma əmmamə qoymurdum. Qış gələndə isə anam başıma əmmamə sarıyırdı.
Anam da ruhani idi və onun qardaşları da ruhani idilər. Ona görə də yaxşı əmmamə sarımağı bacarırdı. O, həmişə bizim başımıza əmmamə sarıyırdı və biz yalnız bundan sonra mədrəsəyə gedirdik. Əlbəttə, uşaqların qarşısında birimizin uzun əba, digərimizin isə başqa bir geyimdə olması narahatçılıq yaradırdı.
Təbiidir ki, bir qədər də başqalarının diqqətini cəlb etmək istəyi var idi. Ancaq biz oynamaq, dostluq etmək, nadinclik etmək və s. məsələləri aradan qaldırmışdıq, qoymurduq ki, bu sahədə çətinlik olsun.[1]

1 Yeniyetmələr və gənclərlə söhbət, 14/XI-76

## “İbtidai məktəbin II-III sinfindən başımıza əmmamə qoydular”

Həzrət xatirələrinin davamında deyir: “Mən xatırlayıram ki, ibtidai məktəbin II-III sinfindən başımıza əmmamə qoydular. Həmin uşaqlıq illərindən, o cümlədən bir problem olaraq illərlə davam edən çətinliyimiz bu idi ki, uşaqlar bizi məsxərəyə qoyurdular, əmmaməmizə gülürdülər. Böyüdükdən sonra elə fikirləşdik ki, artıq bu məsxərələr daha olmayacaqdır. Ancaq belə olmadı, yenə də məsxərəyə başladılar. Baxmayaraq ki, biz Məşhəd şəhərində yaşayırdıq, yenə də yoldan, bazardan ötən hər hansı bir şəxsi məsxərəyə qoymaq nə qədər də gülüncdür. Amma heç bir kəs başqa bir şəxsə qarşı bu hərəkəti etmirdi. Lakin çoxları ruhanilərə münasibətdə belə bir hərəkət etməyi özlərinə rəva görürdülər. Ona görə ki, bu cür təbliğat aparılırdı”.[1]

1 Dini mərkəz və ruhanilər böyük dini rəhbərin göstərişlərinin aynasında, I cild, səh.12-13

**“İbtidai məktəbdə istifadə etdiyim kitablar”**

Böyük dini rəhbər ibtidai məktəbdə maraq göstərdiyi kitablar haqqında deyir:
– İbtidai məktəb illərinin I, II və III sinifləri haqda indi heç bir fikir söyləyə bilmərəm və həmin illəri artıq unutmuşam. O zaman hansı dərslərə daha çox marağım olduğunu deyə bilmərəm, amma yay fəslinin sonunda, yəni beşinci və altıncı siniflərdə riyaziyyata və coğrafiyaya böyük marağım var idi. Tarix, həndəsə fənlərinə xüsusilə böyük diqqət yetirirdim. Əlbəttə, dini dərslərə də çox həvəs göstərirdim. Quranı uca səslə oxuyurdum, mədrəsənin Quran oxuyanı idim. O zaman bizə “Təlimati dini” kitabından dərs verirdilər. Bu kitab həmin illər üçün çox yaxşı kitab idi. Mən həmin kitabın bütün fəsillərini əzbərləyirdim.

**“O qədər mütaliə edirdim ki, azan səsini də eşitmirdim”**

Əziz rəhbər gənc yaşlarında dərslik və başqa kitabları oxuması barədə buyurur: “Mən gənc yaşlarımda çox mütaliə edirdim. Oxuduğum dərs kitablarından savayı, tarix, ədəbiyyat, şeir, hekayələr kitablarını, habelə romanları mütaliə edirdim.
Hağıl kitablarına daha çox maraq göstərirdim, gənc yaşlarında xeyli məşhur romanları da oxumuşdum. Şeir də oxuyurdum. Mən yeniyetmə və gənclik dövründə əksər şairlərin divanları ilə tanış idim. Tarix kitabına böyük maraq göstərirdim. Ərəb dili dərsi keçdiyimdən ərəb dili ilə tanış olmuşdum, hədislərə də böyük marağım var idi.
İndi yadımda olan hədisləri yeniyetmə dövründə oxumuş və dəftərimə yazmışdım. Mənim kiçik bir kitabçam var idi və hər bir şeyi orada qeyd edirdim. Dünən, yaxud həmin həftə baxmış olduğum hər hansı bir hədis yadımda qalmırdı. Ancaq o illərdə oxuduqlarım tamamilə yadımdadır. Sizlər də əslində bunun qədrini bilməlisiniz, bu gün mütaliə etdiyiniz hər bir şey sizin yadınızda qalır və əsla yaddaşlarımızdan silinmir”.

**“Qəflətən özümü qorxutdum”**

Əziz rəhbər məlumat almaq üçün öz əlaqələri barədə, habelə ağır iş şəraitində kitab mütaliə etməsi və onlardan xəbərsiz qalmaması haqda buyurur:
– Hər bir sahədə təbliğatla, yaxud işlə məşğul olan adamlar daim məlumat əldə etməli və bunu dayandırmamalıdırlar. Deməyək ki, işimiz vardır, vaxtımız yoxdur. Mən özüm inqilab baş verəndə iki il kitab oxumadım. Bizim məşğul olduğumuz işlərin məgər əvvəli və ya sonu var idi?
Mən axşamlar saat 11-də, yaxud ondan da gec evə gedirdim. İş isə səhər saat 5 və ya 6-da başlayırdı. Əlavə olaraq evdə də bəzi görüşlərim olurdu.
Bizim evimiz yaxınlıqda idi. Gedirdim, qaçırdım və görürdüm ki, ölkənin müxtəlif orqanlarından, inqilab qurumlarından, müxtəlif sahələrdən adamlar, habelə vilayətlərdən gələn ilahiyyatçılar otaqda oturublar və mənimlə işləri vardır. Ümumiyyətlə, vaxt yox idi, hətta mən uzun müddət ərzində öz uşaqlarımı belə görmürdüm. Halbuki mən də öz evimizdə qalırdım. Bununla belə, axşam evə qayıdanda onlar artıq yatmış olurdular, sübh tezdən də evdən çıxanda yuxuda olurdular.
Mən günlərlə uşaqları görmürdüm. Bu vəziyyət artıq bizim həyatımız idi. Amma birdən özümə qarşı üsyan etdim və indi artıq üç, dörd ildir ki, mütaliə etməyə başlamışam. Mənim yenidən mütaliəyə başlamağım ölkəyə rəhbərliklə məşğul olduqdan sonraya təsadüf edir.
İndi mən mütaliə də edirəm, işlərimi də yerinə yetirirəm və görürəm ki, bunlar arasında heç bir ziddiyyət yoxdur. Elmi və tarixi ədəbiyyatın mütaliəsi ilə məşğulam, əyləncə məqsədli ədəbiyyatı da mütaliə edirəm.

**Bədii zövq və onun tənqidi**
**“Qəlbim sənsiz qəm-qüssədən qərar tuta bilmir”**

Böyük dini rəhbər gənclik illərində gənclərin və yeniyetmələrin bir qrupu ilə “şeir və onun tənqidi” mövzusunda söhbət edərkən buyurur:
– Mən gənclik yaşlarımdan şeir deməyə başlamışam və bəzən şeir deyirdim. Nəhayət, müxtəlif səbəblərə görə mən uzun müddət şeirimi ədəbi məclisdə (bu məclis o zaman Məşhəddə təşkil olunurdu və mən də burada iştirak edirdim) oxumurdum. İndi şeirimi hansı səbəbə görə oxumadığımı deməyimin heç bir eybi yoxdur.
Səbəbi bu idi ki, mənim şeirlə bağlı böyük təcrübəm var idi, mən şeiri yaxşı dərk edirdim. Yəni şeirin yaxşı və ya pis olduğunu bilirdim. Həmin məclisdə şeir oxunan zaman orada adlı-sanlı şəxslər də iştirak edirdilər. Onların bir qismi indi də oradadırlar, bəziləri isə artıq vəfat ediblər. Mənim hər hansı bir şeiri tənqid etməyim əksər hallarda məclisdə iştirak edənlər tərəfindən qəbul olunurdu, o cümlədən həmin şair də təsdiq edirdi.
Öz şeirimə baxanda da bir tənqidçi gözü ilə həmin şeirə baxırdım. Məni razı salmayan hər hansı bir şeiri oxumaq istəmirdim. Yəni əgər həmin gün söylənilən şeirdən yüksək idisə, onu mütləq oxuyurdum. Ancaq oturub fikirləşirdim, şeiri deyirdim, yazırdım və yenidən ağ kağıza köçürürdüm. Lakin həmin məclisdə oxumurdum. Niyə? Ona görə ki, mənim özümün də əksər hallarda tənqid etdiyim və ümumiyyətlə, çoxlu tənqidlərə məruz qalan bu məclisin səviyyəsi həmin şeirdən yüksəkdə idi. Ola bilsin həmin şeirin səviyyəsindən qat-qat aşağı səviyyəli şeirlər də oxunurdu. Amma onlar da tənqidə məruz qalırdı.
Hər halda deyə bilərəm ki, o şeir məni bir tənqidçi kimi razı salmırdı. Bizim məclisdən savayı, həmin vaxtlar ölkənin digər şəhərlərində bu cür məclislər fəaliyyət göstərirdi. Bir dəfə bir hadisə baş vermişdi, İranın indi adını çəkə bilməyəcəyim bir şəhərində şeir məclisində iştirak edirdim. O zaman orada gördüm ki, həmin məclisin səviyyəsi bizim Məşhəddəki məclisdən tənqid nöqteyi-nəzərindən aşağı səviyyədədir. Məndən şeir istədilər, mən də oxudum, həmin keçmiş illərdə.
Böyük dini rəhbərin şeirindən bir beyti diqqətinizə təqdim edirik:

Sənsiz  fəqan edirəm, qəlbimdir yanan, aman,
Sapandtək əlimdən vermişəm ixtiyarı, sənsizəm aman

İnsanın yeniyetməlik dövrü mütaliə və öyrənmək üçün çox yaxşı dövrdür. Əslində qızıl dövrdür və heç bir dövrlə müqayisə olunmazdır.
Mən çoxlu kitablara baxmışam, mənzilimizdə də xeyli kitab var idi. Atamın yaxşı kitabxanası vardı və həmin kitabların böyük bir qismini mən istifadə edirdim. Əlbəttə, bizim öz kitablarımız da var idi, kirayə də götürürdük. Bizim evimizin yaxınlığında balaca bir kitab mağazası fəaliyyət göstərirdi, kitabları kirayəyə də verirdilər. Mən oxuduğum romanları və s. kitabları həmin mağazadan götürürdüm.
İndi yadıma düşdü, mən müqəddəs İmam Rza (ə) ziyarətgahının kitabxanasına müraciət edirdim. Bu müqəddəs məkanda da çox yaxşı kitabxana vardır. Tələbəliyin ilk illərində – on beş, on altı yaşlarında da həmin kitabxanaya müraciət edirdim.
Bəzən gündüzlər həmin kitabxanaya gedir və mütaliə ilə məşğul olurdum. Azanın səsi səsucaldıcı vasitəsilə yayılırdı, ancaq mənim başım o qədər mütaliəyə qarışmışdı ki, azanın səsini də eşitmirdim. Çox yaxın idi və azanın səsi qiraətxanaya daxil olurdu. Günorta keçirdi və mən bir müddətdən sonra başa düşürdüm ki, günortadır. Kitabla məşğul olurdum.
Əlbəttə, indi altmışa yaxın yaşım olduğu bir vaxtda, sizin də dediyiniz kimi, bəzileriniz övladım yaşındasınız, bəzileriniz nəvəm yaşındasınız, bütün bunlara baxmayaraq, indi də gənclərin çoxundan daha artıq mütaliə edirəm. Bunu bilin.[1]

1 Böyük dini rəhbərin yeniyetmələrdən və gənclərdən bir qrupuna müraciəti,  14/XI-76, “Xatirələr və hekayətlər”, I cild

**Arpa çörəyi**

“İkinci Xomeyni” öz uşaqlıq həyatının çətinlikləri və məşəqqətləri barədə buyurur: “Uşaqlıq illərim ehtiyac içərisində keçirdi. Bundan əlavə, mənim uşaqlıq illərim müharibə dövrünə təsadüf edir. Məşhəd şəhəri müharibə gedən əraziyə yaxın olmasına baxmayaraq, ölkənin digər şəhərləri ilə müqayisədə burada hər şey həm bol, həm də ucuz idi. Bununla belə, bizim ailəmizin vəziyyəti elə idi ki, hətta həmişə buğda çörəyi yeyə bilmirdik. Bir qayda olaraq arpa çörəyi yeyirdik, bəzən də arpa və buğdadan bişirilmiş, yaxud da çox nadir hallarda buğda çörəyi yeyirdik.

Mən uşaqlıq illərinin axşamlarını xatırlayıram, o zaman evdə axşam yeməyi olmazdı və anam bəzən nənəmizin mənə, qardaş və bacılarımızdan birinə verdiyi xırda pulları toplayıb azacıq kişmiş, yaxud süd alırdı ki, biz çörəklə yeyək...”[1]

---

1 “Comhuriye İslami” qəzeti, 20/V-64

**İki anadan səkkiz bacı və qardaş**

Əziz rəhbər ailəsinin müqəddəs Məşhəd şəhərində yaşadığı illərdəki vəziyyəti barədə buyurur:
– Biz iki anadan səkkiz bacı və qardaş idik, yəni atamın bir arvaddan üç övladı var idi ki, onların hər üçü qız idi. Həmin qadın vəfat etdikdən sonra atam başqa bir qadınla ailə qurmuşdu. Biz, yəni ikinci qadından olan uşaqlar beş nəfər idik və onlardan 4-ü oğlan, 1-i isə qız idi. Bu beş nəfərin içərisində mən ikinci uşaq idim. Əlbəttə, bu arada iki uşaq da düşmüşdü, əgər onları da hesablasaq, mən o zaman dördüncü olardım. Ancaq ortancıllar azaldığından mən ailənin ikinci uşağı idim. Əlbəttə, böyük bacılarımız atamın birinci arvadından idilər. Onlar bizdən yaşca çox böyük sayılırdılar.
Atam və anam çox yaxşı valideyn idilər. Anam çox dərrakəli, savadlı, mütaliəni xoşlayan, poeziyaya və incəsənətə böyük marağı olan, Hafizşünas bir xanım idi. Əlbəttə, Hafizşünas deyəndə, mən bunun elmi tərəfini nəzərdə tutmuram. Qurana tam bələd idi və yaxşı səsi də var idi.
Biz uşaq olanda hamımız otururduq və anam Quran oxuyurdu. O, Quranı çox yaxşı və şirin oxuyurdu. Biz ətrafında yığılırdıq və o, bizə peyğəmbərlərin həyatından bəhs edən ayələri oxuyurdu.
Mən özüm birinci dəfə Həzrət Musanın, Həzrət İbrahimin və bəzi başqa peyğəmbərlərin həyatı haqqında məlumatı anamdan eşitdim. Bu yerə çatanda isə onları şərh etməyə başladı. İndi yadımda olan Hafizin bəzi şeirlərini anamdan eşitmişəm və onları altmış yaşımdan sonra da unutmamışam.
O, çox mehriban, dərrakəli bir qadın idi. Övladları da onu, əlbəttə, çox istəyirdilər, ona qulaq asırdılar. Atam dini alim və böyük bir molla idi. Kifayət qədər cəlbedici olan anamdan fərqli olaraq, atam çox sakit və az danışan bir adam idi. Bu isə uzun müddətli tələbəlik illərinin və mədrəsədə hücrədə tənha oturmanın təsirləridir. Əlbəttə, atam türk dilli idi, biz əslən təbrizli idik, yəni atam Təbrizdən, Xamənədən idi. Anam isə fars dilli idi, biz hələ uşaqlıqdan həm fars dili, həm də türk dili ilə tanış idik. Ailə mühiti çox yaxşı bir mühit idi.
Əlbəttə, çox hay-küylü idi, evimiz həm çox xırda idi, həm də həyat şəraitimiz rahat deyildi. Bütün bunlar isə təbii olaraq bizim işlərimizə mənfi təsir göstərirdi.

## Ata ocağı

Həzrət atasının müqəddəs Məşhəd şəhərindəki evinin keyfiyyəti barədə buyurur: “Mənim də dünyaya gəldiyim atamın evi 4-5 yaşımadək birotaqlı olub, 60-70 m2 idi və Məşhədin yoxsullar yaşayan məhəlləsində yerləşirdi. Bu ev bir otaqdan və qaranlıq bir zirzəmidən ibarət idi. Atam ruhani olduğundan və evimiz adamların müraciət etdikləri yer olduğundan tez-tez qonaqlar gəlirdi. Bu cür hallarda qonaqlar gedənədək biz zirzəmidə qalırdıq. Sonra atama yaxın olan adamlar bu evin yaxınlığında kiçik bir torpaq sahəsini alıb bizim evimizə qatdılar və beləliklə bizim üç otağımız oldu”.[1]

1 Böyük dini rəhbərin yeniyetmə və gənclərə müraciəti, 14/XI-76, “Xatirələr və hekayətlər”, səh.7

**“Atamın köhnə paltarları”**

Həzrət Zəhranın (ə) əzizi, səmimi insan olan Ayətullah Xameneyi əyninə geydiyi paltarlar haqda deyir:
– Anam atamın köhnə paltarlarından bizim üçün müxtəlif geyim növləri tikirdi. Ancaq bu, çox qəribə və əcaib bir şey olurdu, yəni nə əba idi, nə də ləbbadə. Uzun bir paltar idi, yəni dizdən aşağı və bir neçə yamağı olurdu. Əlbəttə, qeyd etməliyik ki, atam da paltarlarını tez-tez dəyişdirmirdi. Məsələn, bir ləbbadəsi var idi ki, təxminən 40 il həmin paltarı geymişdi.[1]

1 “Comhuriye İslami” qəzeti, 20/V-64

## Minbəri yamsılama

Əziz rəhbər yeniyetmə yaşlarında minbəri yamsılaması barədə deyir:
– İbtidai məktəbin sonlarında, yəni beşinci və altıncı siniflərdə radio ilə cənab Fəlsəfinin minbərdəki söhbətlərini yayırdılar. Biz də radio ilə bu söhbətlərə qulaq asırdıq və mən hələ uşaqlıqdan onu təqlid edirdim. Belə ki, uca səslə və tələsmədən həmin dini kitablardakı bölmələri oxuyurdum. Müəllimim, ata və anam bundan çox xoşhal olurdular və məni daha da həvəsləndirirdilər.

### Ata xətrinə Allahla sövdələşmə

Böyük dini rəhbər atası üçün etdiyi bir yaxşı işi öz uğurlarının əsası hesab edir və bu barədə buyurur:
– Özüm haqda bir məsələni sizə danışmağım pis olmazdı. Mən müsahibələr verəndə həyatda qazandığım uğurlarımı həmişə bir məsələ ilə əlaqələndirirəm və bu da mənim valideynlərimdən biri üçün gördüyüm yaxşı işlə bağlıdır. Mərhum atam qocalıq yaşlarında, təxminən vəfat etməzdən iyirmi neçə il əvvəl (o vaxtı onun 70 yaşı var idi) korluqla nəticələnə biləcək göz xəstəliyinə tutulmuşdu. Onun gözlərindən yaş axırdı. Mən həmin vaxt Qum şəhərində idim. Onun yazdığı məktublardan tədricən mənə aydın olurdu ki, gözləri yaxşı görmür. Mən Məşhədə gəldim və gördüm ki, onun göz həkiminə ehtiyacı vardır.
Bir qədər həkimin yanında olduq və sonra mən təhsilimi davam etdirmək üçün Qum şəhərinə qayıtdım. Mən Qumda yaşayırdım və tətil olanda yenidən Məşhədə qayıtdım və atama müəyyən qədər köməklik göstərdim. Yenə də təhsilimi davam etdirmək üçün Quma qayıtdım.
Müalicə heç bir nəticə vermirdi. 1343-cü ildə onu Tehrana gətirməli oldum. Ümid edirdim ki, Tehrandakı həkimlər onun gözlərini müalicə edə biləcəklər.
Müraciət etdiyim bir neçə həkim məni məyus etdi. Dedilər ki, onun hər iki gözü artıq görmür və onları sağaltmaq mümkün deyil.
Əlbəttə, iki, üç ildən sonra onun bir gözü sağaldı və ömrünün sonunadək gözləri görürdü. Ancaq qeyd etdiyim vaxt onun gözləri tamamilə görmürdü və yol gedərkən onun əllərindən tutmalı olurduq. Ona görə də məni qəm-qüssə bürümüşdü. Əgər həmin vaxt atama diqqət yetirməsəydim və Qum şəhərinə gəlsəydim, o, evin bir küncündə oturmalı olacaq və heç bir mütaliə, yaxud işlə məşğul ola bilməyəcəkdi. Bu isə mənə çox ağır gəlirdi.
Atamın mənə olan münasibəti də tamamilə başqa cür idi, digər qardaşlarımla bu cür ünsiyyəti yox idi. Mənimlə həkimə də gedirdi. Başqa qardaşlarımla həkimə getməsi onun üçün bir problem idi.
Mən onun yanında olanda onun üçün kitablar oxuyur və biz bir-birimizlə elmi mübahisələr edirdik. Buna görə də mənimlə dost idi, amma qardaşlarım belə bir imkana malik deyildilər. Yaxud da belə bir imkan olmurdu.
Hər bir halda hiss edirdim ki, onu Məşhəddə tək qoysaydım və özüm Qum şəhərinə qayıtsaydım, o, işsiz və əldən düşmüş bir adama çevrilərdi. Bu isə onun üçün çox ağır ola bilərdi. Mənim üçün də çox ağrılı və deyərdim ki, bədbəxtlik olardı.
Digər tərəfdən əgər onunla birgə olsaydım və Qumdan əl çəksəydim, bu da mənim üçün məqbul deyildi. Ona görə ki, mən Qum şəhərinə qəlbən bağlı idim və belə bir qərara gəlmişdim ki, ömrümün sonunadək orada qalım və bu şəhərdən çıxmayım.
O zaman mənim müəllimlərim, xüsusilə onlardan bəziləri israrla tələb edirdilər ki, mən Qum şəhərindən getməyim. Onlar deyirdilər ki, əgər sən Qum şəhərində qalsan, gələcək üçün faydalı ola bilərsən. Mən özüm də çox istəyirdim ki, Qum şəhərində qalım. Mən iki yol arasında qalmışdım.
Bu məsələ Tehrana müalicə məqsədilə gəldiyimiz vaxtlarda baş verirdi. Belə ağır günləri mən tərəddüd içərisində keçirirdim.
Bir gün mən çox narahat idim və həmin günü tərəddüd, nigarançılıq və iztirab içərisində başa vurdum. Əlbəttə, belə qərara gəlmişdim ki, atamı Məşhədə gətirim və onu orada saxlayıb Qum şəhərinə qayıdım. Amma mənim üçün çox ağır və dözülməz olduğundan Tehran şəhərinin Həsənabad məntəqəsində, dördyol ayrıcında yaşayan dostlarımdan birinin evinə getdim. Dostum çox mərifətli bir adam idi. Gördüm ki, çox narahatam, telefon etdim və dedim: “Əgər vaxtımız varsa, mən sizin yanınıza gəlirəm”. O da razılığını bildirdi.
Mən onlara gedəndə yay axşamı idi və hər şeyi olduğu kimi danışdım. Dedim ki, mən çox narahatam və ürəyim ağrıyır. Narahatçılığımın da səbəbi məlumdur. Atamı indiki vəziyyətində tək qoya bilmirəm. Bu, mənim üçün çox ağırdır. Başqa bir tərəfdən əgər qismət olsa, atamla birgə olum, mən dünyanı və axirətimi Qumda görürəm və əgər dünya əhli olsam, mənim dünyam da Qumdadır. Əgər axirət əhli olsam, mənim axirətim də Qumdadır. Mənim dünyam və axirətim Qum şəhərindədir. Mən dünyadan və axirətimdən keçməliyəm ki, atamla gedib Məşhəd şəhərində qalım.
Dostum azacıq fikrə gedib dedi: “Siz gəlin bir iş görün. Allah xatirinə Qum şəhərindən əl çəkin və gedib Məşhəddə qalın. Allah-Təala sizin dünya və axirətinizi Qumdan Məşhədə gətirə bilər”.
Mən bir qədər fikrə getdim və gördüm ki, çox qeyri-adi və maraqlı söz söyləyir, adam Allah-Təala ilə sövdələşmə apara bilər. Mən hiss edirdim ki, mənim dünyam və axirətim Qum şəhərindədir. Əgər burada qalsaydım, həm Qum şəhərinə, həm buradakı dini mərkəzə, həm də Qumdakı hücrəyə böyük məhəbbətim var idi. Əslində ürəyim Quma bağlı idi və mən belə fikirləşirdim ki, dünyam və axirətim Qumdadır.
Gördüm ki, yaxşı sözdür və mən Allah xatirinə atamı Məşhədə aparıb, onun yanında qala bilərəm. Allah-Təala əgər istəsə

mənim dünya və axirətimi Qumdan Məşhədə gətirə bilər. Beləcə, qərara gəldim və könlüm açıldı. Gözlənilmədən əhvalım tamamilə dəyişildi, yəni tamamilə rahatlaşdım. Həmin məqamda qərara gəldim və çox rahat, sevinclə evə qayıtdım.
Valideynlərim görürdülər ki, mən narahatam. Eyni zamanda mənim şadlanmağıma da təəccüb edirdilər. O zaman dedim ki, mən Məşhədə gəlməyi qərara almışam. Onlar da öncə inanmaq istəmədilər. Ona görə ki, mənim belə bir qərara gəlməyimi, yəni Qumdan əl çəkməyimi mümkünsüz hesab edirdilər. Biz Məşhədə getdik və Allah-Təala bizə böyük uğurlar bəxş etdi. Hər halda öz iş-gücümün dalınca getdim. Ona görə də əgər mən həyatda hansısa uğurlara nail olmuşamsa, tam əminəm ki, onlar həmin yaxşılıqla, yəni atam, bəlkə də ata və anam üçün etdiyim işlərlə bağlıdır.
Bu söhbəti ona görə etdim ki, siz məlum məsələnin Allah-Təala yanında nə qədər mühüm olduğunu biləsiniz.[1]

---

1 “Əxlaq dərsi” kitabçası, 1371-ci il, xordad ayı, “Vəli-ye fəqih”in ordudakı nümayəndəliyinin nəşri

**“Həyatımın unudulmayan günü”**

Böyük dini rəhbər 1331-1332-ci illərdə mübarizə meydanına və siyasi məsələlərə qatılması barədə buyurur:
– Siyasi mübarizə meydanına və siyasi məsələlərə qatılmaqla əlaqədar olaraq qeyd etmək istərdim ki, 1331-1332-ci illərdə mərhum Nəvvab Səfəvinin Məşhədə gəldiyini eşitdim. Həmin vaxt gizli bir cazibə qüvvəsi məni mərhum Nəvvaba tərəf çəkirdi və mən onu görmək istəyirdim. Bizə bildirdilər ki, Nəvvab mənim də tələbə olduğum Süleymanxan mədrəsəsinə gəlmək istəyir. O gün mərhum Nəvvabın Süleymanxan mədrəsəsinə gəlməsi mənim həyatımda unudulmayan günlərdən biri idi.
O, başlarında xüsusi olaraq dəri papaq olan bir qrup İslam fədaisi ilə mədrəsəyə daxil olanda həyətdə dayanıb şüar deyə-deyə çıxış etməyə başladı. Çıxışının məğzi isə bundan ibarət idi ki, İslam dini yaşamalıdır və İslam hakimiyyətə gəlməlidir. O, çox əsəbi halda ingilis şahını və məmləkətin məsul şəxslərini yalançılıqda ittiham edərək dedi: “Bu məsul şəxslər müsəlman deyillər”.
Mən həyatımda ilk dəfə olaraq mərhum Nəvvabın dilindən bu sözləri eşidirdim. Həmin sözlər o qədər ürəyimə yatdı ki, həmişə onunla bir yerdə olmaq qərarına gəldim. O zaman bildirildi ki, sabah cənab Nəvvab Mehdiyyədən Nəvvab mədrəsəsinə gələcəkdir. Ertəsi gün mərhum Nəvvab icmanın nümayəndələri ilə Mehdiyədən Nəvvab mədrəsəsinə tərəf hərəkət etdi və yol üstündə adamlara müraciət edərək uca səslə şüarlar söyləyir və deyirdi: “Mənim qeyrətli müsəlman qardaşlarım, İslam hakimiyyətdə olmalıdır”.
O, Nəvvab mədrəsəsinə daxil olub orada bütün gücü ilə geniş və həyəcanlı nitq söylədi. O, nitqini başa vurduqdan sonra ona camaat namazına başçılıq etmək təklif olundu və o, bu təklifi qəbul etdi. Beləcə, namazı onun rəhbərliyi ilə qıldıq və bundan sonra mərhum Nəvvab Məşhəddən getdi. Biz bundan sonra ondan xəbər tuta bilmədik və yalnız sonradan onun ölüm xəbəri Məşhədə çatdırıldı. Onun ölüm xəbəri Məşhədə yetişəndə biz qəzəbdən həyəcanlandıq. Belə ki, mədrəsənin həyatində şüarlar söylədik, şah haqqında xoşagəlməz sözlər işlətdik. Burada ən maraqlı cəhət odur ki, mərhum Ayətullah Hacı Şeyx Haşim Qəzvini Məşhəddə yeganə ruhani idi və məhz o, kifayət qədər azad düşüncəli insan olduğundan Nəvvabın öldürülməsi ilə əlaqədar olaraq öz etiraz səsini ucaltdı. Dərs zamanı mərhum Nəvvab Səfəvinin və onun silahdaşlarının hakim rejim tərəfindən qətlə yetirilmələrini kəskin şəkildə tənqid etdi. O, bu şəxslərin qətlə yetirimələrindən təəssüfləndiyini qeyd edərək bildirdi: “Məmləkətimizdə iş o yerə gəlib çatmışdır ki, həqiqəti söylədiklərinə görə öz peyğəmbər övladlarını öldürürlər”.
Ona görə də həmin vaxtdan etibarən mərhum Nəvvabın vasitəsilə inqilabın ilkin qığılcımları özünü büruzə verməyə başladı. Şübhə etmirəm ki, mərhum Nəvvab bizim ürəyimizdə ilk atəşi alovlandırdı. Buna görə də mərhum Nəvvabın qətlə yetirilməsi vəziyyəti dəyişdirdi və bu, 1334 və 1335-ci ildə bizim mübarizəmizin ilkin hərəkatına səbəb oldu. Həmin vaxt Fərrux adlı bir ostandar Məşhədə gəlmişdi və o, dini normalara və qaydalara heç bir ehtiram göstərmirdi. Məhərrəm və səfər aylarında Məşhəddə kino-teatrların fəaliyyətinin dayandırılmasının adi hal olmasına baxmayaraq, öncə məhərrəm ayının 14-dək istirahət elan etdi. Həmin vaxt baş verən hay-küydən sonra isə bu müddəti ayın 20-dək artırdı. Bununla belə, biz bir neçə nəfər əyləşib insanları xeyir əməllərə çağırmaq məqsədilə bir müraciət yazdıq və onu poçt vasitəsilə müxtəlif ünvanlara göndərdik.[1]

1 Həzrət Ayətullah Xameneyinin ictihada yetişməsi haqda görkəmli alimlərin və fəqihlərin fikri, II nəşr, səh.42-43

**“Məni elə məsxərəyə qoydular ki, dostum da xəcalət çəkdi”**

Böyük dini rəhbər Rza xanın proqramlarından biri – ondan sonra 10 il müddətində ruhaniləri bədnam etmək və əmmamələri ləğv etmək üçün onların məsxərəyə qoyulması barədə buyurur: “Bu hadisə 1329-1330-cu illərə aiddir, yəni mən həmin vaxt on bir, yaxud on iki yaşında olardım. Bu ab-hava Rza xan hakimiyyətdən getdikdən sonra on il müddətində, nə az, nə çox, inqilabadək (həmin vaxt mən tələbə idim) davam etdi.

Məşhəddə bizim çox mühüm toplantılarımız olurdu. Mənim toplantılarımda kifayət qədər tələbə və doktorlar iştirak edirdilər və mən onlara təfsirdən dərs deyirdim. Təhsilimi başa vurmuş və çox savadlı olan öz dostlarımdan biri ilə Tehrana getmək istəyirdim. Dəmiryol vağzalında birlikdə gəzişir və qatarın yola düşmə vaxtını gözləyirdik. Həmin vaxt təhsilləri olub-olmadığı bilinməyən, o dövrün Avropa geyimlərini geymiş (bu, İranda yenicə vüsət tapmaqda idi) bir neçə gənc məni elə məsxərəyə qoydular ki, dostum xəcalət çəkdi.

Bu cür məsxərəyə qoyma halları geniş yayılmışdı və artıq uşaqlara, yaxud xüsusi bir təbəqəyə məxsus deyildi. Bunları ruhaniləri gözdən salmaq üçün edirdilər. Həmin adamlar ruhanilərin cəmiyyətdəki rolunu və onlara iman gətirməyin nə olduğunu çox yaxşı başa düşürdülər. Müdərrisin və mərhum Kaşaninin hadisəsində, ondan əvvəl isə Məşrutə və Mirzə Şirazinin hadisəsində ruhanilərin rolunu dərk etmişdilər və bilirdilər ki, bu qrup insanları gözdən salmaq lazımdır.

Onlar bu iş üçün kifayət qədər pul xərcləyir və hər bir vasitədən istifadə edirdilər. O zaman həmin adamların istəklərinin əksinə olaraq və müxtəlif qurumlarda, habelə universitetlərdə bütün təbliğat mərkəzlərinin biz ruhanilərə qarşı olmasına baxmayaraq, ruhanilər məhz iki şeylə – elmlə və öz zahidlikləri ilə cəmiyyətə nüfuz edə bildilər. Həmin universitetdə oxuyan uşaqlar dərsə getmirdilər və həmin vaxt nə pulu, nə də gücü olmayan və hətta sonradan müəyyən problemlərə səbəb ola biləcək axundun yanında dərs almağı daha üstün tuturdular”.[1]

1 “Hədise vilayət”. V cild, səh.304-305

**Feyziyyə hekayəti**

Böyük inqilab rəhbəri "Aşna" jurnalında öz mübarizə illəri haqda belə deyir:
– Mən İmamın müraciətini Məşhəddəki ağalara çatdırdım və bundan sonra Bircəndə yola düşdüm ki, aşura gününü həmin şəhərdə minbərdə keçirim. Belə planlaşdırdım ki, məhərrəmin yeddinci günü təntənəli bir məclisdə öz missiyama başlayım.
Təyin olunmuş gün gəlib çatdı, cümə gününün axşamı idi. Məndən öncə birisi minbərə çıxdı və onun çıxışı çox çəkdi. Mən minbərə çıxanda qüruba iyirmi dəqiqə qalmışdı. Söz deməyə kifayət qədər fürsətim qalmadığından çox narahat oldum və qəzəbləndim. Bir yerdə dayana bilmirdim.
Hər halda minbərin üstündə oturub, heç bir müqəddimə olmadan söhbət etməyə başladım. Bir-iki kəlmə xütbə oxudum, uca səslə Qərbin ölkəmiz üzərindəki ağalığı barədə çıxış etdim və mövzunu Feyziyyə mədrəsəsi faciəsinə yönəldərək dedim:
"Feyziyyə mədrəsəsində baş verən hadisə İslamın məhv edilməsindən ötrü planlaşdırılan sui-qəsd idi. İşi o həddə çatdırmışdılar ki, müqəddəs günlərdən birində Feyziyyə mədrəsəsinə, İmam Sadiqin (ə) evinə hücum edərək göstərişlər verməyə başladılar. Mən tələbələrin döyülməsi və söyülməsindən, əmmamələrin yandırılmasından, Quranın yandırılmasından, qarətçilik əməllərindən, tələbələrin əşyalarının məhv edilməsindən və s. gördüyüm və eşitdiyim bütün məsələlərdən camaata danışdım. Gözlənilmədən adamların qışqırıq səsləri və ah-naləsi ucaldı. Adamlar ağlayırdılar və mən indiyədək insanların bu cür qəzəblənmələrinin və ağlamalarının şahidi olmamışdım. Həqiqətən də çox böyük bir hay-küy qopmuşdu. Sonda Kərbəla müsibətindən də bir neçə kəlmə söz açdım.
Lakin mən gördüm ki, Feyziyyə faciəsi insanları o dərəcədə təsirləndirmişdi ki, onlar Kərbəla müsibəti barədə düşünmürdülər. Həmin vaxt başa düşdüm ki, İmam nə qədər dərin müdriklik və uzaqgörənliklə bu işi planlaşdırmışdı. Aydındır ki, məhərrəm ayında heç bir şey "Feyziyyə"də baş verən hadisələr kimi insanları oyada, rejimi rüsvay və məhv edə bilməzdi".[1]

1 "Aşna" jurnalı, № 15,16,17, İslam inqilabı mühafizəçiləri korpusunun orqanı

**“Bunlar gedəcəklər, siz isə qalacaqsınız”**

İnqilabın əziz rəhbəri şahın muzdlu dəstələrinin Feyziyyə mədrəsəsinə hücumu barədə buyurur:
– 1342-ci ilin fərvərdin ayının 2-də xəyanətkar şahın muzdlu dəstələrinin Feyziyyə mədrəsəsinə hücum etdikləri zaman biz gənc tələbələr idik və əli çomaqlı, soyuq və odlu silahlara malik olan bir qrup muzdluların xalqın üstünə hücum etmələrini görməmişdik. Onlar bir qisim adamları öldürür, bəzilərini isə damdan aşağı atırdılar. Məğrib namazından sonra İmam Xomeyninin ardınca onun otağına getdik. Biz çox təcrübəsiz olduğumuzdan narahatçılıqla İmamın sözlərinə qulaq asırdıq.
İmam 20 dəqiqə söhbət etdi və dedi: “Bunlar gedəcəklər, siz qalacaqsınız”. Bu gün həmin vaxtdan 16, yaxud 17 il ötür və öz gözümlə gördüm ki, Qurana olan bu ümid doğru-dürüst ümiddir. O gün bizim hansı silahımız var idi, hansı top-tüfəngə malik idik? Biz məktubu çap edə bilmirdik. Məcbur qalıb çox böyük çətinliklərlə olsa da bir müraciəti hazırlayıb, onu əllə çoxaldıb yaya bilirdik. Nə idi İmama bu ümidi verən, əlbəttə ki, Allah-Təalaya olan ümid və inam. Ey böyük millət, əgər Allah-Təalaya inamınız olsa, bir-birinizlə ittifaq bağlasanız, bu gün bütün dünyanı bürümüş olan batil qüvvələrə qalib gələcəksiniz.[1]

1 “Comhuri-ye İslami” qəzeti, 5/XII-59

**Xalqın münasibəti**

Böyük dini rəhbər inqilabdan əvvəlki dövrdə Bircənddə şah məmurları tərəfindən həbs olunduğu zaman adamların onlara münasibəti barədə deyir: “İnqilabın qalib gəlməsindən bir neçə il qabaq şahın məmurları məni axtarırdılar. İmamın müraciətini çatdırmaq məqsədilə Bircəndə getdiyim günlərdən birində məni həbs etdilər. Bir neçə gün Bircənd polis bölməsinin həbsxanasında qaldım. Ancaq mənim bu dəfə həbsxanada qalmağım əvvəlkilərdən xeyli fərqlənirdi. Ona görə də ən şirin xatirələrim həmin bir neçə günlə bağlıdır. Həmin günlər bütün həbsxana işçiləri nahar və şamda mənim qonağım idilər. Adamlar mənim tutulduğumu bildiklərindən hər bir kəs həbsxanaya mənə yemək gətirirdi. Onlar bu yolla mənə olan münasibətlərini büruzə verirdilər. Yeməklər üst-üstə yığılmışdı, hər cürə xörək gətirirdilər. Amma mən nə qədər yemək yeyə bilərdim. Yeməklərlə hətta böyük bir qonaqlığı da yola vermək olardı. Mən yalnız bir nəfərin yeyə biləcəyi qədər həmin yeməklərdən istifadə edirdim. Ona görə də qalanlarını həbsxana işçilərinə verirdim”.[1]

1 “Rəhbərin siması”, Hərəkatın təhsil və insani qüvvələrə yardım şöbəsi

**"Pis olmadı, xeyli vaxt idi ki, çənəmi görməmişdim"**

Böyük dini rəhbər 1342-ci ildə İmam tərəfindən Məşhədə üç müraciətin çatdırılması barədə tapşırıq aldı. Həmin müraciətlər orada məhərrəm ayında baş verəcək taleyüklü hadisələrlə əlaqədar idi. Birinci müraciət din alimləri, xütbə oxuyanlar, minbərlərdə moizə oxuyanlar, məzhəb başçıları üçün nəzərdə tutulmuşdu və İsrailə hücum, habelə Feyziyyə mədrəsəsi haqqında idi.
İkinci və üçüncü müraciətlər mərhum Ayətullah Milanı və Məşhəd alimlərindən biri üçün nəzərdə tutulmuşdu. Bu müraciətlər məhərrəm ayının yeddisindən etibarən açıq mübarizəyə başlanması ilə əlaqədar idi.
Məhərrəmin yeddinci günü vaxtın çox az olmasına baxmayaraq, "Feyziyyə" hekayətini oxudu və bu söhbət şəhərdə xeyli hay-küyə səbəb oldu. Doqquzuncu günün səhərisi, yəni Tasua günü o, artıq gərgin bir vəziyyətdə minbərə çıxır və vəziyyət o qədər mürəkkəbləşir ki, rejimin məmurları narahatçılıq keçirməyə başlayırlar. Tasua və Aşura günlərində bir qayda olaraq ruhanilərə toxunmamalarına baxmayaraq, qorxudan onu həbs edirlər. Onu iki gün Bircənddə saxlayırlar və sonra isə Məşhədə aparıb orada SAVAK-a təhvil verirlər.
Öncə onu SAVAK-a, oradan da komendaturadakı yararsız vəziyyətdə olan həbsxanaya aparırlar. Burada əvvəlki həbsxana ilə müqayisədə şərait daha da pis idi və onu hədələyirdilər ki, saqqalını quru-quru qırxacaqlar. Ancaq sonradan onlar öz fikirlərini dəyişib, maşınla onun saqqalını qırxırlar.
O, bu barədə deyir: "Bu hadisədən sonra üzümü yumaq üçün getmək istəyəndə çox təkəbbürlü və xudbin bir leytenant məni məsxərəyə qoyub gülə-gülə ucadan dedi:
– Gördün, saqqalını qırxdım.
Mən sakitcə dedim:
– Pis olmadı, xeyli vaxt idi ki, çənəmi görməmişdim. Məlumdur ki, SAVAK-ı və onun bütün təzyiqlərini bu cür məsxərəyə qoymaq hakim rejimi nə qədər sarsıdır və onu alçaldırdı".[1]

---

1 Həzrət Ayətullah Xameneyinin ictihada yetişməsi haqda görkəmli alimlərin və fəqihlərin fikri, səh.46

**“Təhqir etmək üçün onların üzünə sillə vururdular”**

Şəhid Recayi 1353-cü ildə həbsxanada olması ilə bağlı xatirələrində deyir: “O ili mən Komitədə[1] keçirəndə (1353-cü il) həqiqətən də cəhənnəm idi. Bütün Komitədə gecələr sübhədək insanların ah-naləsi eşidilirdi. Sübhdən axşamadək də eyni vəziyyət təkrarlanırdı.

Orada saxlanılan adamlar nə ölü idilər, nə də diri. Ona görə ki, onları o qədər döyürdülər ki, ölümcül vəziyyətə düşürdülər və sonradan azacıq özlərinə gələn kimi yenidən döyürdülər. Komitədə insanları müxtəlif işgəncələrə məruz qoyurdular. Mənim oturduğum kamera 18-ci kamera idi, 20-ci kamerada isə Ayətullah Xameneyi yatırdı.

Mən kamerada olanda Morze əlifbasını öyrənmişdim və qonşu kameralarda yatanlarla əksər hallarda bu yolla əlaqə saxlayır və bir-birimizə informasiya ötürürdük. O cümlədən xəbərləri qonşu kameraya, oradan isə Ayətullah Xameneyiyə çatdırırdılar.

Xatırlayıram, onun saqqalını qırxmışdılar, həmçinin onu təhqir etmək üçün üzünə sillə də vurmuşdular. O da dəyanət və müqavimət göstərərək həbsxana köynəyini əmmamə formasında başına bağlayaraq, get-gəl edirdi. Mən bir gün yuyunma otağında olanda onun çox şad və sevinc içərisində olduğunu gördüm”.

Bütün bu təzyiqlərə və işgəncələrə baxmayaraq, şahın çox qorxulu təşkilatı olan SAVAK İmamın bu cür dəyanətli şagirdinin sirlərini öyrənə və onu məhkum edə bilmədi.

1 SAVAK 1353-cü ildə siyasi məhbuslara işgəncə verilməsi məqsədilə Təxribatçılıqla Mübarizə Komitəsi yaratmışdı. Komitənin yaradılmasında məqsəd təxribatçılıqla mübarizə idi

**Yanlış və ağılsız bir təhlil**

İslam inqilabının rəhbəri inqilabın qalib gəlməsindən əvvəl mövcud olan qeyri-sağlam düşüncələr barədə deyir:
– İnqilabın qalib gəlməsindən öncə qarışıq və qeyri-sağlam fikirləri olan adamlar kiminsə yoxsullara, ehtiyacı olan insanlara yardım göstərdiyini, yaxud ehsan verdiyini görəndə narahat olur və narazılıqlarını bildirirdilər. Onlar bizə deyirdilər: "Nə üçün qış olanda gəlib sizə daş kömür verirlər ki, yoxsullara paylayasınız. Siz də onu qəbul edib yoxsullara verirsiniz?!"
O zaman Məşhəddə belə bir qayda var idi ki, xeyirxah adamlar gəlirdilər və öz daş kömür paylarını bizim kimi insanlara verirdilər, biz isə onu yoxsullara verirdik ki, gedib götürsünlər və istifadə etsinlər.
Onlar deyirdilər: "Nə üçün bu işi görürsünüz? Qoyun soyuqdan üşüsünlər və bunun nəticəsində dövlət qurumlarından narazı qalsınlar və inqilab tez baş versin".
Nə qədər də yanlış və ağılsız bir təhlildir, maddiyata söykənən, reallıqlardan və İslam həqiqətlərindən uzaq bir düşüncə tərzidir.[1]

[1]"Hədise vilayət", Böyük dini rəhbərin göstərişlərinin toplusu, I cild, səh.197

**“Adamlar mənim adımı İmam Xomeyninin adı ilə qarışdırır və deyirdilər: İmam Xomeyni gəlib...”**

Dağıdıcı zəlzələnin Ferdous, Kaxək və Qonabad məntəqəsinə böyük xəsarətlər və tələfatlar yetirdiyi bir vaxtda həzrət Məşhədin mübariz tələbələrindən bir qrupunu öz ətrafına toplamışdı. Onlar Məşhədin dini alimlərinin himayəsi və inqilabçı ticarətçilərinin maddi köməyi ilə, habelə ilahiyyatçıların yardımı sayəsində Ferdousa gedib orada ilahiyyatçıların imdad qrupunu yaradırlar.

Böyük dini rəhbər bu barədə deyir: “Düşünürdüm ki, biz gərək bir qrup tələbə yetişdirək və onlar qəlbən mübarizəyə inansınlar və bu istiqamətdə çalışsınlar. Buna görə də həmin məsələ üzərində işləyirdim və tələbələrlə bu fikri həyata keçirmək üçün proqram da hazırlamışdıq. Zəlzələ baş verəndə biz yaranmış vəziyyətdən istifadə etmək istədik və bu məqsədlə dostlarımızın bir qismi ilə ünsiyyət yaratdıq. Onlara Ferdousa getmək istədiyimizi bildirdik, bəziləri bu təklifi razılıqla qarşıladılar.

Cənab Təbəsi, şəhid Haşeminejad, bir qrup ticarətlə bağlı adamlar, tələbələrdən bir hissəsi, on, yaxud on beş maşın, yetmiş, yaxud həştad nəfər adam yola düşdük və zəlzələ baş vermiş məntəqəyə tərəf getdik. Ayətullah Hacı Şeyx Əliəsğər Mirvarid bir qrup adamla həmin yerə gəlmişdi və onu burada ağlamaq tutdu.

O, bizim belə bir vəziyyətdə orada qayda-qanun yaratdığımızı görəndə sevincdən yenidən ağlamağa başladı.

Biz oraya getdiyimiz ilk günlər, təxminən on, yaxud on beş gün müddətində adamlar mənim adımı İmam Xomeyninin adı ilə qarışıq salırdılar və deyirdilər: “İmam Xomeyni gəldi”. Hətta kəndlərdən bir qrup adam, habelə uzaq yollardan belə insanlar gəlirdilər ki, Həzrət Xomeynini görsünlər. Orada aydın olurdu ki, Həzrət Xomeyni hamının ürəyindədir və ona olan bu doğma münasibət yalnız bizə məxsus deyildir. Oradakı kəndlərdə, hətta uzaq kəndlərdə belə Həzrət Xomeyninin adı sevimli bir ad idi. Nəhayət, mənim adım da öz yerini tutdu və adamlar bildilər ki, mən varam, çox maraqlı idi. Dövlət tamamilə özünü itirmişdi. Bir jandarm bölməsi də orada idi. Polis idarəsi güclə bizi oradan çıxarmaq istəyirdi, bizi hədələyir və deyirdilər: “Əgər getməsəniz, güclə sizi buradan çıxaracağıq”. Biz isə dedik ki, getmirik. Dostlarımızdan bəziləri qorxurdular. Mən onlara dedim ki, biz qorxmamalıyıq və indiki vəziyyətdə qorxunun heç bir mənası yoxdur. Səbəbi də budur ki, biz insanlara kömək etmək üçün buraya gəlmişik. Adamların bütün imkanları bizim əlimizdədir. Qızıl Şir və Günəş təşkilatının heç bir şeyi yoxdur və olsa da verməyəcəkdir. Həqiqətən də belə oldu və rejimin göndərdiyi məmurlar bizə müqavimət göstərə bilməyib qayıtdılar. Biz isə öz işimizi davam etdirdik”.

**“Özümüz son gecə bölərik”**

İnqilabdan bir neçə il qabaq Quçan şəhərində sel olmuş və bu təbii fəlakət orada yaşayan insanlara böyük xəsarət yetirmişdi. Ölkənin müxtəlif şəhərlərindən, o cümlədən müqəddəs Məşhəd şəhərindən yardım karvanları yola düşmüşdü. Böyük dini rəhbər də karvanla birgə Quçana getmişdi, ancaq burada görmüşdü ki, insanlara yardımları paylayan şəxslər daha çox gətirilən malları öz dostlarına və tanışlarına verirlər. Əziz rəhbər bunu gördükdə narahat olmuş və öz həmfikirlərinə buyurmuşdur: “Siz əl saxlayın! Biz Məşhəddən gətirdiyimiz bağlamaları son gecə özümüz paylayacağıq”.

Beləcə, onlar oturub gözlədilər ki, başqaları öz işlərini başa çatdırıb getsinlər.

Hamı getdikdən sonra, yəni son gecə adamlara çatacaq yardımları seldən ziyan çəkmiş şəxslərin evlərinə apararaq, onları doğru-dürüst bölüşdürdülər.[1]

---

1 “Rəhbərin siması”, Hərəkatın təhsil və insani qüvvələrə yardım şöbəsi

**“Gözlə, onun dövlətinin sabahı açılsın...”**

Həzrət 1357-ci ilin şəhrivər ayının 17-si ilə bağlı xatirələri haqda buyurur:
– Mənim 1357-ci ilin şəhrivər ayının 17-ci günü haqda xatirələrim vardır. Tehranda bu qanlı hadisə baş verməzdən öncə şahın istibdad rejiminin siyasətində başlıca məqsəd siyasi mübarizləri, onun təbi ilə desək, İran millətini iti və yavaş gedənlərə, ifratçılara və mötədillərə bölmək idi. Bir məqam da diqqəti cəlb edir ki, bu gün bir ayna kimi bütün ibrətləri ilə bizə dərs verir. O dövrün qəzetlərini, şahın istibdad rejiminin məsul nümayəndələrinin fikirlərini oxuyan hər bir kəs başa düşürdü ki, bunlar onlara qarşı çıxanları və mübarizə aparanları parçalamaq istəyirlər. Onlar İmamın sadiq tərəfdarlarını və İmamın yolunu açıq şəkildə büruzə verənləri iti gedənlər, ifratçılar və təəssübkeşlər kimi təqdim edirdilər. Rejimə qarşı çıxan adamların bir qismi isə mübarizəyə meyilli olsalar da, bu yolda tam ciddiyyətlə irəliləmirdilər, yaxud ciddi olsalar da, rejim belə fikirləşirdi ki, bunlar ciddi deyillər, mötədillərdir və onlarla hər hansı bir məsələni müzakirə etmək mümkündür. Mən həmin gün bu təhlükəni hiss edirdim. O vaxt mən Ceyroftda sürgündə idim. Deyəsən, şəhrivər ayının on dördü, yaxud on beşi idi. Qumda məşhur olan şəxslərdən birinə məktub yazdım və rejimin bu siyasətini ona açıq şəkildə bildirdim. Dedim ki, bunlar belə mənəviyyatsız, alçaq hərəkətləri ilə İmamın ətrafında olan sədaqətli insanların vəziyyətlərini ağırlaşdırırlar. Beləliklə də sizin özünüz də istəmədən sizi özləri ilə üzbəüz qoymağa çalışacaqlar. Bu məktubu yazsam da, hələ göndərməmişdim. Şəhrivər ayının on səkkizi, şənbə günü idi və həmin gün ayın on yeddisində baş verən qırğın haqqında radio və qəzetlərdə informasiyalar yayıldı. Həmin günün səhərisi biz Ceyroftda bu hadisədən xəbər tutduq. Mən həmin məktubun haşiyəsində qeyd etdiyim şəxsə yazdım: “Gözlə, onun dövlətinin sabahı açılsın, bu hələ səhərin nəticələrindəndir”.
Həmin məktubu bir nəfərlə ona göndərdim. Onlar isə həqiqi inqilabçılar və mübarizlər üçün cürbəcür problemlər yaratmağa başladılar, buna misal olaraq ayın on yeddisində baş verən qırğını göstərmək olar.
Bizim düşmənlərimiz eynilə belə bir siyasəti inqilabın qalib gəlməsindən bir neçə il sonra da xaricdə həyata keçirməyə başladılar və bu günədək davam edir. Oturub öz aralarında təhlil aparırlar ki, filan şəxlər iti gedənlərdir, təəsübkeşdirlər, mətindirlər, filan şəxslər mötədildirlər, filankəslərlə söhbət etmək mümkün deyil, filankəslərlə isə hansısa bir məsələni müzakirə etmək mümkündür. Belə yanlış və qüsurlu nəticələrlə bir-birinin yanında oturub təhlillər aparır və öz radiolarında yayırlar. Mən əziz millətimi ayıltmaq üçün demək istədiyim budur ki, yaxşı diqqət yetirin, bu həmin siyasətdir ki, həmin mənəviyyatsız tədbirlərdir ki, on səkkiz, on doqquz il əvvəl onların agentlərinin köməkliyi ilə ölkə daxilində baş vermişdi. Bu gün də həmin şəxslər və həmin siyasəti davam etdirənlər tərəfindən dünya miqyasında, həm də İslam inqilabı və İslam normalarına məhəl qoymadan həyata keçirilir.[1]

1 Böyük dini rəhbərin tibb bacıları və qardaşları qarşısında çıxışı, “Comhuri-ye İslami” qəzeti, 20/VI-76

## Məşhəddə İmam Həsən Muctəba (ə) məscidində imamlıq

Böyük dini rəhbər müqəddəs Məşhəddə İmam Həsən Muctəba (ə) məscidində imamlıq etməsi ilə bağlı xatirələrində buyurur: "Mən öncədən İmam Həsən Muctəba (ə) məscidində imamlıq edirdim və bu məscid bizim evimizin yaxınlığında, nisbətən qaranlıq və xəlvəti, bir qədər də adamlardan uzaq düşmüş bir küçədə yerləşirdi. Fəaliyyətə başladığım və ilk olaraq namaz qıldığım həmin məsciddə məni imamlıq etməyə dəvət etdilər. Həmin tikili kiçik bir otaqdan ibarət idi və namaz qılanlar, habelə dinləyicilər iki və ya üç sırada, hər birində də beş-altı nəfər olmaqla, məscidin ətrafında yaşayan qocalardan və orta yaşlı adamlardan təşkil olunmuşdu. Biri Molla Hacı adlı bir yükdaşıyan idi, biri məscidin yaxınlığında işləyən qəhvəçi idi, biri mexanik şagirdi, qalanları da həmin qəbildən olan adamlar idi. Əksəriyyəti də eyniyaşlı adamlar idilər. Məscidi tikən də xeyriyyəçi bir hacı idi və məscidin qonşuluğunda yaşayırdı. Bir sözlə, təxminən iyirmi nəfər olardı. Mən oraya gedəndə birinci gecə, yaxud ikinci və ya üçüncü gecə namaz qılanda öz yerimdən qalxdım və adamlara müraciət edərək dedim:
– Bu bir neçə gecədə biz bir yerə toplaşdıq və beləcə sizin mənim boynumda bir haqqınız, mənim də sizin boynunuzda bir haqqım əmələ gəldi. Ancaq sizin bizim boynumuzdakı haqqınız budur ki, mən bir qədər sizin üçün söhbət edim və sizə bir hədis oxuyum. Mənim də sizin boynunuzdakı haqqım ondan ibarətdir ki, siz mənim sözlərimi dinləməli və öyrənməlisiniz. Buna görə də mən öz haqqımı yerinə yetirirəm.
Bəs siz öz haqqınızı yerinə yetirməyə hazırsınızmı? Adamlar çox xoşhal olub dedilər: "Bəli".
Az bir müddət ərzində bu kiçik məscid camaatla doldu və yer darısqallıq etdi. Həmin məscidin qonşuluğunda yaşayan hacı alicənablıq göstərib məscidin arxa tərəfindən bir qədər də torpaq ayırıb ona əlavə etdi və məscid daha da böyüdü. Beləcə iki-üç ay ərzində bu məscidin səsi bütün Məşhəddə, xüsusilə cavanların arasında yayılmağa başladı. Məşhəddə ən böyük və ən yaxşı məscid hesab edilən Kəramət məscidi tikiləndə və tam hazır olanda məscidin bünövrəsini qoyan, habelə yaxın və uzaqda yaşayan xırda ticarətçilər məni pişmanaz olduğum həmin məscidə gətirməyi münasib bildilər ki, orada yaxşı bir icma formalaşsın. Həqiqətən də belə oldu. Məni həmin məscidə apardılar və orada böyük bir cəmiyyət təşkil olundu. Siz də orada olmusunuz və həmin məsciddə formalaşan cəmiyyəti görmüsünüz, həqiqətən də ayrı-ayrı təbəqələr arasında vahid bir fikir yarandı.
Bundan əvvəl isə mən tələbələrlə yaxşı əlaqələrə malik idim. Gənclər, tələbələr üçün çoxlu siniflər açdım, lakin şəhərin orta təbəqələri və inqilab məsələlərindən, xüsusilə inqilabın əsas məsələlərindən xəbərsiz olan küçə və bazar adamları 1342-ci ildən etibarən, yəni məsələlər hər yanı bürüyəndə, habelə Kəramət məscidinin fəaliyyətindən bir neçə il ötdükdən sonra yenidən inqilab ab-havasını qoruyub saxlamaqla Məşhəddə böyük bir dəyişiklik yaratdılar. Əlbəttə, Kəramət məscidi haqda xatirələr çoxdur. O cümlədən mənə bildirdilər ki, SAVAK Kəramət məscidinə getməyi bizə qadağan etmişdir. Həmin məscidə get-gəl etdikdən bir müddət sonra, bəlkə də hər həftə altı gecə orada söhbət edirdim və orada çox böyük kütlə toplanmışdı. Nəhayət, SAVAK orada toplaşmağa icazə vermədi və biz yenidən İmam Həsən (ə) məscidində qayıtdıq. Son nəticədə İmam Həsən (ə) məscidində mənim də iştirakımla heç bir toplantı olmadı. Ona görə ki, məhəllə sakini, həmin adını çəkdiyimiz Hacı (Allah-Təala inşallah, qorusun onu) çox xeyirxah və yaşlı bir adam idi və o, alicənablıq göstərib həmin məhəllədə Kəramət məscidindən daha böyük bir məscid – İmam Həsən (ə) məscidini yaratdı ki, indi də ora məsciddir".[1]

1 Müsahibələr, "Seda və sima"nın müxbiri ilə müsahibə, 22 bəhmən hadisələri ilə bağlı xatirələr, 11/XI-1363. səh.176 və 1077

**Məşhədin Kəramət məscidində imamlıq etmə**

Höccətülislam vəl-Müslimin İzədpənah müqəddəs Məşhəddə böyük dini rəhbərin şagirdlərindən biri idi və o, həzrətin Kəramət məscidində camaat namazına rəhbər seçilməsi barədə buyurur:

– Hamıya məlum idi ki, cənab Kəramət (o, xüsusi bir nüfuza malik idi) məscid yaratdıqdan sonra camaata İmam axtarışında idi. O, gecə ikən yuxuda görür ki, məsciddə böyük bir kütlə toplaşıb və mərhum Ayətullah Hacıağa Hüseyn Qumi və bəzi başqa dini alimlər camaatın ön cərgəsində dayanıblar. Təəccüblənib mehraba baxır və orada nurani bir seyidi görür. Həmin günün səhərisi Ayətullah Xameneyi ilə tanış olub, onu məsciddə namaz qılmağa dəvət edir.[1]

Höccrətülislam İzədpənah Kəramət məscidində mövcud olan xüsusi şərait və vəsfə gəlməyən ab-hava barədə deyir:

– O, Kəramət məscidində camaat namazı qılırdı. Tələbələrdən, xırda ticarətçilərdən ibarət olan böyük bir kütlə bu namazda iştirak edirdi. Həmin dövrdə Məşhədin ən böyük məscidləri belə bu məscidlə ayaqlaşa bilmirdi. Həm də bu məsciddə toplaşan insanların böyük əksəriyyətini gənclər və təhsilli adamlar təşkil edirdilər. Onlar hamının diqqətini namaza yönəldirdilər və Məhəmməd Peyğəmbərin (s) saf təliminə susayanları sərməst edirdilər. O məsciddə həmin vaxtlar xüxusi vəziyyət və vəsf olunmayan ab-hava hakim idi.[2]

1 Orduda İslami Təhqiqat Mərkəzinin müsahibəsi, 11/III-72, “Kövsər nəslindən ağıllı bir rəhbər”, səh.121-122

2Orduda İslami Təhqiqat Mərkəzinin müsahibəsi, 11/III-72, “Kövsər nəslindən ağıllı bir rəhbər”, səh.121-122

**Kəramət məscidi Ceyrofta sürgündən sonra əsas fəaliyyət mərkəzi idi**

İkinci Xomeyni Ceyrofta sürgündən sonra Məşhəddəki Kəramət məscidində öz fəaliyyəti barədə deyir:
– Kəramət məscidi bir neçə il keçdikdən sonra, yəni 1357-ci ildə yenidən fəaliyyət mərkəzinə çevrildi və bu o zamanlar idi ki, mən aban ayında, yaxud mehr ayının sonunda Ceyrofta sürgündən qayıtmışdım. Bu o vaxt idi ki, Məşhəddəki və başqa yerlərdəki hadisələr başlamışdı.
Biz qayıtdıq və Məşhəddəki işləri idarə etmək üçün bir qərargah təşkil etdik. Həmin qərargahda mərhum şəhid Haşeminejad, cənab Təbəsinin qardaşları və mən, habelə gənc-tələbə qardaşlarımızdan bir qrupu həmişə bizimlə eyni bir yerdə idilər, onlardan ikisi – Musəvi Quçani və Kamyab (indi həyatda deyillər) şəhid olmuşlar. (Bu iki nəfər o tələbələrdən idilər ki, daim bütün işlərdə bizi müşayiət edirdilər.) Biz orada toplaşırdıq və həmin məntəqənin adamları həmişə get-gəl edirdilər. Ən maraqlısı isə budur ki, güc qüvvələri və polis camaatın təşviş içərisində olmasından qorxaraq bu məscidin yerləşdiyi Nadiri dördyol ayrıcından bu tərəfə gəlməyə cürət etmirdilər. Buna görə də biz gündüzlər bu məsciddə tam təhlükəsizlik şəraitində çalışırdıq və heç bir qorxumuz yox idi ki, onlar gəlib məscidi tuta bilərlər, yaxud da bizi həbs edə bilərlər. Ancaq gecələr çox sakitcə qaranlıqdan istifadə edirdik, çölə çıxırdıq və öz mənzillərimizdən kənar bir mənzilə gedirdik və hər gecə bir neçə nəfər isə məsciddə qalırdı.
Gecə və gündüzlərimiz çox həyəcanlı və narahat keçirdi və nəhayət, bu, Məşhəddə azər ayında baş verən hadisələrə qədər davam etdi. Bu, həqiqətən də çox çətin məsələlər idi. Öncə xəstəxanaya hücum etdilər ki, həmin gün biz xəstəxanaya sığınmışdıq.

**Həmin hadisələr inqilab günlərinin tarixini yaradırdı**

Böyük dini rəhbər gərgin inqilab illəri barədə xatirələrinin davamı olaraq buyurur: "Xəstəxanaya getmək hadisəsi də çox maraqlı idi və bu, elə bir məsələdir ki, heç bir kəs agah olmadığı üçün girişməmişdir. Əlbəttə, bütün şəhərlərdə çox gərgin və taleyüklü proseslər gedirdi və bu, Məşhəddə də baş verirdi. Ancaq çox təəssüflər olsun ki, heç bir kəs bunları dilə gətirməmişdir, halbuki bu hadisələr inqilab günləri tarixini yaradırdı. Bizə xəbər yetişəndə rövzə məclisində idik və o zaman məni telefona çağırdılar, mən getdim və telefona cavab verdim. Gördüm ki, dost-tanışlardan bir neçə nəfər, habelə mənə tanış olmayan şəxslər xəstəxananın o biri tərəfindəki xətdən tələsə-tələsə deyirlər:
– Hücum etdilər, vurdular, öldürdülər, köməyə gəlin! Mən gəldim və cənab Təbəsini çağırdım. Bir otağa keçdik, burada Məşhədin tanınmış alimlərindən bir qrupu toplaşmışdı, Məşhədin məşhur alimlərindən olan bir rövzəxan da iştirak edirdi. Mən üzümü məclisdəkilərə tutub dedim:
– Xəstəxanada vəziyyət qeyd etdiyim kimidir, ona görə də bizim bu meydana girməyimiz vacibdir. Bu, xəstəxanaya – həkimlərə və tibb bacılarına qarşı yönəlmiş hücumlara mane ola bilərdi, mən cənab Təbəsi ilə qəti olaraq gedəcəyik.
Mən bu sözləri deyəndə biz hələ qərara gəlməmişdik, ancaq bilirdim ki, cənab Təbəsi də gedəcəkdir. Hər halda dedim:
– Əgər siz də gəlsəniz, daha yaxşı olacaqdır, əgər gəlməsəniz, biz yenə də gedəcəyik.
Bizim qəti şəkildə dediyimiz bu sözlər ona gətirib çıxardı ki, Məşhədin ən tanınmış və möhtərəm alimlərindən bir neçəsi də dedi: "Biz də gedirik".
Cənab Mirvarid və bəzi başqaları da daxil olmaqla biz xəstəxanaya doğru hərəkət etdik. Biz həmin mənzildən çıxanda, küçədə, meydanda və bazarda toplaşmış xeyli sayda adam gördü ki, biz xəstəxanaya tərəf gedirik. Biz onlara dedik ki, adamlara bu barədə xəbər çatdırsınlar. Onlar bizim dediyimizi etdilər və adamlar bizim, bu dəstənin ardınca düşüb piyada getməyə başladılar. Bazardan xəstəxanaya olan məsafə təxminən bir saatlıq yol idi. Biz piyada gedirdik və irəlilədikcə də sayımız artırdı. Sakitcə, heç bir həyəcan keçirmədən məqsədimizə doğru hərəkət edirdik.
Nəhayət, xəstəxananın yaxınlığına çatdıq. Bildiyiniz kimi, Məşhədin İmam Rza xəstəxanası ilə sonuclanan həmin küçənin qarşısında bir meydan var idi ki, indi İmam Rza meydanı adlanır. Küçənin yuxarı hissəsi həmin meydanla bitir.
Biz Cəhanbani kuçəsi ilə xəstəxanaya tərəf gələndə uzaqdan gördük ki, əsgərlər yolu bağlayıblar. Yəni onlar bir sıraya düzülərək tüfəngləri də əllərində tutaraq dayanmışdılar. Oradan keçmək qətiyyən mümkün deyildi.
Mən gördüm ki, adamlar bir qədər iztirab hissi keçirirlər. Odur ki, sakitcə öz qardaşlarıma yaxınlaşaraq dedim:
– Biz mütləq mətanətlə və öz vəziyyətimizdə heç bir dəyişiklik etmədən əsgərlərin dayandığı həmin sıranı keçməliyik ki, adamlar da bizim ardımızca gəlsinlər. Həqiqətən də biz bu işi gördük, yəni başımızı aşagı saldıq və sanki qarşımızda silahlı əsgərlərin olmadığı kimi irəliləməyə başladıq. Nəhayət, əsgərlərin bir metrliyinə çatdıq və mən gözlənilmədən gördüm ki, əsgərlər qeyri-ixtiyari olaraq geri qayıdırlar və onların arasından üç-dörd nəfərin keçə biləcəyi ölçüdə bir yol açıldı və biz getdik. Əlbəttə, onların məqsədi bu idi ki, biz keçək, sonra isə yolu bağlasınlar. Ancaq onlar bunu edə bilmədilər. Ona görə ki, biz həmin xəttən keçən kimi adamlar hücum etdilər və əsgərlər yaranmış vəziyyətə artıq nəzarət adə bilmədilər. Nəticədə təxminən bir neçə yüz nəfər bizimlə birgə xəstəxanın qapısınadək gəldilər. Sonra da qapını açdılar və biz xəstəxanaya daxil olduq. Xəstəxanaya daxil olar-olmaz orada olan həmin tələbələr, tibb bacıları və həkimlər bizi görən kimi sanki cana gəldilər. Biz xəstəxananın ortasında fikrimcə, heykəl qoyulmuş meydana tərəf irəlilədik və adamlar həmin heykəli aşağı salaraq sındırdılar".

**Adamlar 50 kalibrli güllələrə tuş gəldilər**

Həzrət inqilab günləri tarixini yaradan hadisələrin davamı olaraq buyurur: “Belə bir vəziyyətdə adamlar 50 kalibrli güllələrə tuş gəldilər. Halbuki adamların bir hissəsini dağıtmaq və ya öldürmək üçün daha kiçik kalibrli, yəni j-3 kalibrli güllələrdən istifadə etmək kifayət idi. Ancaq son dərəcə təhlükəli olan və başqa işlər uçun hazırlanmış 50 kalibrli güllələrlə ataş açmağa başladılar. Sonradan xarici jurnalistlər vəziyyəti yerindəcə öyrənmək üçün oraya gələndə mən 50 kalibrli güllələrin gilizlərini onlara göstərdim və dedim ki, bu cinayət barədə xəbəri bütün dünyaya çatdırsınlar. Dünya ictimaiyyəti bizimlə necə rəftar edildiyini bilsin.

Hər bir halda bir saatdan sonra özümüz də bilmirdik ki, bundan sonra hansı işi görməliyik. Odur ki, biz bir neçə nəfər ruhani bir otağa keçib növbəti addımlarımızı müəyyənləşdirmək istədik. Belə bir vaxtda hücumun davam edib-etməyəcəyi də bizim üçün məlum deyildi. Mən orada təklif etdim ki, hamıya elan edək və biz həmin yerdə özümüz üçün sığınacaq düzəldək. Həm də öz istədiklərimizə çatanadək oranı tərk etməyəcəyimizi elan etdik. Məşhədin elm adamlarından təxminən səkkiz və ya on nəfər həmin iclasda iştirak edirdilər. Mən məsələ ilə bağlı hər hansı bir tərəddüdün və ziyanın olmaması üçün dayanmadan bir kağız gətirir və yazırdım ki, biz imza edənlər bildiririk ki, tələblərimiz yerinə yetirilənədək burada qalacağıq. Tələblərimizdən biri hərbi komandirin vəzifəsindən kənarlaşdırılması, başqa birisi İmam Rza xəstəxanasını gülləbaran etməyi tapşıran şəxsin mühakimə olunması və s. məsələlər idi.

Beləliklə biz burada sığınacaqda qalacağımızı bildirdik və bu bildiriş həm Məşhəddə, həm də Məşhəddən kənarda çox böyük təsirə malik oldu. Nəticədə Məşhədin yaxın məntəqələrində qarşıdurmalar baş verdi və sonralar bu həyəcanlı hadisələrin və proseslərin ardınca Məşhəddə adamlar qətlə yetirildi”.[1]

1 Müsahibələr, səh.177-180

## Tehran universitetindəki bəstə girmə Məşhəddəki bəstin nəticəsi idi

Mənhus rejimin ömrünün son günlərində Bəxtiyar Həzrət İmamın (r) ölkəyə daxil olmasına mane oldu və ölkənin təyyarə meydanları bağlanıldı. Ancaq İmam (r) bildirdi ki, təyyarə meydanı açılan kimi ölkəyə qayıdacaqdır. Ona görə də böyük dini rəhbər ruhanilərlə birgə inqilabın gərgin meydan¬larında, Tehran Universitetinin məscidində bəstə oturmağa hazır idilər. Həzrət universitetdə bəstə oturmaq barədə belə buyurur:

– İmamın ölkəyə gələcəyi barədə qərar çıxarılan həmin gün biz belə qərarlaşdırdıq ki, ertəsi günü sübh çağı bəstə oturaq, ancaq həmin gün İmam (r) gəlmədi. Biz “Behişti-Zəhraya” getdik və orada şəhid Behişti böyük bir nitq söylədi. Sonra isə biz hazırladığımız qətnaməni oxuduq və qayıtdıq. Qayıdan zaman öz aramızda növbəti addımlarımızın nədən ibarət olacağı barədə söz açdıq. Əlbəttə ki, Tehranda bəstə girmə fikri heç şübhəsiz ki, Məşhəddə əldə etdiyimiz təcrübə ilə birbaşa bağlı idi. Yəni Məşhəd xəstəxanasında uğurla başa çatan bəstə oturmanın təctübəsinin nəticəsi idi ki, Tehranda da belə bir hal baş verdi. Ancaq bir müddət öz aramızda bu bəstin harada həyata keçiriləcəyi barədə müzakirələr apardıq.

Bəzi adamlar deyirdilər ki, o zaman Şah məscidi adlandırılan İmam Bazar məscidini, bəziləri isə başqa yerləri təklif edirdilər. Bu təkliflərlə yanaşı, Tehran Universitetində də belə bir tədbirin keçirilməsi təklif olundu və bu həm son dərəcə maraqlı, həm də yaxşı təklif idi. Buna görə də sübh tezdən qardaşlarımız universitetə tərəf getdilər. Biz qorxurduq ki, universiteti bağlasınlar. Ona görə də biz universitetin məsul şəxslərindən biri ilə (zənnimcə həmin şəxs sonralar universitetin rektoru oldu) anlaşdıq və bununla belə bizim yolumuzda kifayət qədər problemlər yarada bildilər. Lakin xoşbəxtlikdən universitetin məscidi açıq olduğundan biz vaxtı itirmədən məscidə daxil olduq və məscidin yuxarı təbəqəsindəki kiçik otağı öz gələcək işlərimiz üçün qərargaha çevirdik. Bizim burada gördüyümüz ilk iş isə yazdığımız bəyanat oldu.

Dedik ki, bu bəyanat yayılmalıdır. Çünki biz belə düşünürdük ki, burada olmağımız o zaman fayda verə bilər ki, hərəkətlərimizi öz fikirlərimizlə ətrafdakılara çatdıraq və biz bu siyasəti sonadək davam etdirdik.

Bu hərəkətimiz öz təsirini göstərdi və əgər bizim bu bəyanatlar və çıxışlarımız olmasaydı, gördüyümüz işlər də heç kəsə aydın olmazdı. Yəni insanlar burada baş verənlərdən xəbər tuta bilməzdi, rejimin təbliğat strukturları isə bizim burada oturmağımızı xalqa başqa formada çatdıra bilərdi. Ona görə də universitetdə müxtəlif proqramlarımız var idi və onlardan birini gündəlik çıxışlarımız təşkil edirdi və biz universitetin məscidində bunu ardıcıl olaraq həyata keçirirdik. Beləcə, bizim hər birimiz orada bir çıxış edirdik. Proqramlarımızdan biri isə bəyanatların yayılması idi, bundan əlavə, biz gündəlik bülletenlər də nəşr edirdik ki, zənnimcə, həmin vaxt iki bülleten nəşr etdik. Birini universitetdə “Təhəsson” adı ilə buraxdıq. Birini də İmamın (r) təşrif gətirməsindən sonra və Rifah mədrəsəsinə daxil olduğu zaman oxucuların ixtiyarına verdik. Məndə həmin bülletenin bir, yaxud iki nömrəsi vardır. Bu bülletenlər həmin günlər ölkədə baş verən hadisələrə, proseslərə münasibətdə o dövrdəki son dərəcə sadə və səmimi hissləri büruzə verir. Bülletenlərə nəzər yetirən hər bir şəxs o dövrdə bizim məsələlərə necə yanaşdığımızı aydın şəkildə görə bilər.

## Yetmiş tümən, velosiped və ya kostyum

Kəramət məscidinin qulluqçusu deyirdi:

– Mübarək ramazan ayı gecələrində o (əziz rəhbər) bu məsciddə iclas keçirirdi. Uşaqları toplayırdıq və onlara Quranı öyrədirdi. Fitir bayramının axşamı isə onlara müxtəlif mükafatlar verirdi. O, mükafatları verərkən uşaqları əlinin üstünə qaldırır və hər birinə yetmiş tümən təqdim edirdi. Yaxud onlara velosiped və ya kostyum alırdı. Mən də oxumaq və yazmağı bilməsəm də, bu yığıncaqlarda savadlandım və Quran oxumağı öyrəndim.[1]

1 Kəramət məscidi müqəddəs Məşhəd şəhərinin məscidlərindən biridir. İnqilabın rəhbəri İslam inqilabının qalib gəlməsindən bir neçə il əvvəl bu məsciddə camaatın imamı idi və orada Quranın təfsiri ilə əlaqədar yığıncaqları bərpa etməklə, habelə digər yollarla şah rejimi ilə mübarizə aparırdı

**"Mən heç kimə söz vermədim, istefa verməsə, qəbul etmərəm"**

Böyük dini rəhbər "Seda və sima"nın müxbirinə İmamın ölkəyə daxil olması barədə verdiyi müsahibədə buyurur: "Bu, o gecə ilə bağlı bir xatirədir ki, həmin gün bildirildi ki, ertəsi gün aeroportu bağladılar və Bəxtiyar istəyirdi ki, bu bəyanatı radioda oxusunlar. İnqilab Şurasının bir neçə üzvü Bəxtiyarla keçmişdə dostluq etdiklərindən, həmçinin müəyyən qədər də utandıqlarından bəyanatı göndərdilər ki, İnqilab Şurasında baxıb öz razılıqlarını versinlər.
Əlbəttə, ola bilsin ki, həmin gün İnqilab Şurasının adını hələ bu qrup insanlara uyğun hesab etmirdilər, ancaq bilirdilər ki, İnqilab Şurası mövcuddur. Hər halda Şuraya kimlərin daxil olması onlara aydın deyildi. Lakin hər bir halda bu məlim idi ki, bir qrup şəxs İmamla əlaqəyə malikdirlər və onlardan şəhid Behiştinin, şəhid Motəhərrinin, bizim bəzi qardaşlarımızın, o cümlədən cənab Haşiminin, şəhid Bahönərin adlarını çəkmək olar. Onlar inqilabi proseslərlə bağlı məsələlərdə İmamla əlaqə saxlayırdılar.
O gecə Bəxtiyarın qrupu ilə əlaqə saxlayan həmin şəxslərdən biri Bəxtiyarın bəyanatını gətirib bildirdi ki, o, bəzi məsələləri Ayətullah Xomeyni ilə müzakirə etmək üçün Parisə getmək istəyir. Həmin şəxs bəyanatı gətirib dedi ki, onu Bəxtiyar verib və deyir ki, İmam da bu bəyanatla razılaşmışdır. Əlbəttə, bu məsələ bizim üçün inanılmaz idi və biz İmamın Bəxtiyarla görüşü belə sadəliklə qəbul etməsinə inanmırdıq. Çünki biz əvvəlcədən bilirdik ki, İmamı ziyarət etməyin əsas şərti vəzifədən istefa etmək və hətta ondan daha da yuxarı, yəni şahlıq sistemindən imtina etmək və s. bu kimi məsələlərlə bağlıdır. Bizim aramızda bu şərtlərin İmamın xidmətinə nail olmaq üçün izn rolu oynaya biləcəyi deyilmişdi. Ona görə də biz qətiyyən təsəvvür edə bilmirdik ki, Bəxtiyar belə adi bir yolla İmamın yanına getmək barədə icazə ala bilsin. Ancaq bəyanatı gətirən həmin şəxsin özü də İnqilab Şurasının üzvü idi və deyirdi ki, belə bir işin olmasına heç bir şübhə yoxdur.
İclasın əvvəlində bəyanatı gətirdilər və şəhid Behişti həmin iclasda yox idi. O gələnədək şəhid Motəhərri bəyanatdakı ifadələrdən birini düzəltdi. Şəhid Behişti gəldikdən sonra o da başqa bir səhvi düzəltdi. Nəticədə bu iki düzəliş təxminən bəyanatın məzmununu dəyişdirdi və onlar bildirdilər ki, əgər bu ifadələr belə olsa, onda Həzrət İmam tərəfindən qəbul edilə bilər. Lakin əksəriyyətin fikrincə, İmamın bu bəyanatı qəbul etməsi inandırıcı deyildi. Söhbət zamanı məclisdə iştirak edən silahdaşlarımızdan biri dedi: "Bu problem deyil, yaxşı olar ki, özümüz Parisə zəng edib ondan soruşaq".
Şəhid Motəhərri dedi: "Mən özüm soruşaram". O, bu sözü deyib telefon olan qonşu otağa keçdi. O, bir qədər sonra qayıdıb dedi: "Bəli, İmam qəbul etdi". Cənab Motəhərri bildirmişdi ki, biz burada iki məsələni düzəltmişik və onları Bəxtiyara qəbul etdirməliyik. Ancaq o tərəfdən deyilmişdi ki, siz bəyanatı dəyişdirməyə israr etməyin. İmam həmin mətni qəbul edib. Siz ancaq bir iş görün, bəyanatı günortadan sonra, yəni axşam saat səkkizdə "Xəbərlər"ə çatdırın.
O qayıtdı və dedi ki, İmam qəbul etdi və deyir ki, israr etməyin. Biz dedik onda heç olmasa bu iki düzəliş edilsin. Həmin vaxt görüşmək ümidi ilə Qumdan gələn alimlər və şəhərlərdən gələn başqa alimlər "Əbəvi-ye İslami" adına orta məktəbdə toplaşdılar. Biz də onların toplantısına getdik. Dəqiq yadımda deyil, şəhid Behişti idi, yoxsa şəhid Motəhərri həmin məclisdə bir məsələni yeni xəbər kimi camaata çatdırdı ki, Bəxtiyar belə bir bəyanatı vermişdir, çox güman ki, İmam həmin bəyanatı qəbul etmişdir. Həmin məclisdə olan qardaşlarımız dedilər: "Yox, İmam bu bəyanatı qəbul etməmişdir, bu, bizim fikrimiz idi".
Biz də belə düşünürdük ki, bu bəyanatın İmam tərəfindən qəbul olunması mümkün deyildir. Nəhayət, həmin telefon danışığına və Parisdən verilən "İmam qəbul etmişdir" cavabına gəldikdə isə, deməliyik ki, həmin toplantıda iştirak edən dostlarımız dedilər: "Biz özümüz Parislə əlaqə yaratdıq, İmam qəbul etmişdir..."
Həzrət dedi: "Mən özüm Parislə söhbət etməyincə buna inanmaram. Həmin yığıncaqda bu söhbətlə əlaqədar mübahisə başladı ki, görəsən, İmam düzəliş edilmiş bu yeni mətni qəbul edir, yoxsa yox?"
Biz hamımız əmin idik ki, əgər İmam bunu qəbul edibsə, çox təəccüblü bir iş olmuşdur və bunu da hamı bilirdi ki, həmin əvvəlki iclasda iştirak edənlərin ixtiyarında elə bir telefon olmamışdır və onlar özləri Parislə söhbət etməmişdilər. Özləri birbaşa olaraq söhbət etmək fikrində idilər...
O, Parisdəkilərə dedi ki, mənim dediyimi yazın və İmama çatdırın, sonra isə onun cavabını mənə verin. Biz Rifah mədrəsəsinə getdik və İmamın cavabını gözləməyə başladıq. Gecə yarısınadək həmin yığcam şəkildə yazılmış bəyanat Həzrət İmama çatdırıldı və İmam buyurdu: "Xeyr, mən heç bir kəsə söz verməmişəm".
Həmin gün səhərisi qəzetlərdə bunu yazdılar və bu, həmin gecə ilə bağlı xatirələrin ən maraqlı parçalarından biri idi ki, indiyədək heç bir kəs söyləməmişdir".[1]

1 Müsahibələr, "Seda və sima"nın müxbiri ilə 22 bəhmən xatirələri haqda müsahibə, 11/XI-1363, səh.180-182

**“Tehranlıların Allahu-Əkbər fəryadını eşitdim”**

Böyük dini rəhbər 1357-ci ilin məhərrəm ayının ilk gecəsi səslənən Allahu-Əkbər fəryadları ilə bağlı buyurur:
– Tehranda məhərrəm ayının ilk gecəsində səslənən Allahu-Əkbər fəryadları sarayın, mənəviyyatsız rejimin, dövlətin baş nazirinin, Amerika səfirliyinin və başqa qüvvələrin dayaqlarını yerindən oynatdı. Mən həmin vaxt Məşhəddə idim. Tehrandan qardaşlarımızdan biri telefon edib dedi:
– Allah-Əkbər səsləri hər yanı bürüyüb. Mən onun daha sonra nə deyəcəyini gözləyirdim. Sonra o, telefonun dəstəyini otağın pəncərəsinə tərəf apardı. Mən Məşhəddə olsam da, tehranlıların Allahu-Əkbər fəryadını eşitdim. Öz-özümə dedim ki, məsələ artıq həll olunub. Çoxları “Allahu-Əkbər”dən qorxmurdular. İki nəfər bu ifadəyə əhəmiyyət verirdilər.
Birisi o idi ki, Allahu-Əkbəri dərk edirdi, digəri isə o idi ki, öz mənəviyyatsızlığını qəbul edirdi. Özü pozğun, puç və zəif olan birisinin torpaqda kökü və damarları ola bilməz. Belələri Allahu-Əkbər fəryadından sonra öz-özünə silkələnməyə başlayar.[1]

1 “İran” qəzetindən nəql edilib, 6/XI-76, 1374-cü ilin mehr ayı

**“Gərək Tehrana gedəm”**

Böyük dini rəhbər İslam İnqilabı Şurasına necə dəvət olunduğu barədə deyir: “Mən Məşhəddə bu şəhərin işləri ilə məşğul olurdum və bu istiqamətdə fəaliyyət göstərirdim. Mərhum Motəhərri bir neçə dəfə telefonla birbaşa və vasitəçi ilə mənə xəbər göndərmişdi ki, mütləq Tehrana getməliyəm. Mən elə təsəvvür edirdim ki, bizim özümüzün həmin adi işlərimiz üçün (həqiqətən də müştərək işlərimiz çox idi, həm elmi, həm ideoloji, həm də siyasi) Tehrana getməliyəm.
Bu gedişin İnqilab Şurası ilə bağlı olduğunu düşünmürdüm və deyirdim ki, gəlirəm. Nəhayət, Məşhəddə kifayət qədər problemlərim olduğundan, habelə mənim çiyinlərimə daha böyük yük düşdüyündən Tehrana getmə məsələsi hər dəfə təxirə salınırdı. Axırda Parisdən mənə xəbər çatdırıldı ki, İmamın tapşırığına uyğun olaraq mən Tehrana getməliyəm. Hiss etdim ki, bu elə bir məsələdir ki, mən mütləq Tehrana getməliyəm. Xüsusilə də cənab Motəhərri də mənə zəng edən zaman bir qədər əsəbiliklə bildirmişdi ki, nə üçün mən Tehrana getmirəm və nəyi gözləyirəm?
Tehranda mənə dedilər ki, şəhid Motəhərrinin evində keçiriləcək iclasda iştirak etməliyəm. Həmin iclasda İnqilab Şurasının bütün üzvləri iştirak edirdilər. Mən məhz orada bu Şuranın üzvü olduğumu öyrəndim, halbuki həmin anadək bunu bilmirdim”.[1]

---

1Həzrət Ayətullah Xameneyinin ictihada çatması haqda görkəmli alimlərin və fəqihlərin fikri, səh.59

## On beş ildən sonra yürüş

İkinci Xomeyni 1357-ci ilin on üçüncü gecəsi ilə bağlı xatirələrində birinci Xomeyni haqqında buyurur:
– Mənim ən maraqlı xatirələrimdən biri həmin ilk gecə haqqındadır ki, o gecə İmam Tehrana gəlmişdi. Bu, bəhmən ayının on ikinci günü idi, ola bilsin ki, məlumatınız vardır. Yəqin bilirsiniz ki, İmam gələn kimi "Behişti-Zəhra"ya getdi və orada bir nitq söylədi, sonra isə vertalyotla qalxıb getdi.
Bir neçə saat camaat İmamın haraya getdiyindən xəbər tutmadı. Səbəbi də bu idi ki, vertalyotla İmamı kifayət qədər məxfi saxlanılan bir yerə aparmışdılar. Çünki əgər istəsəydi ki, vertalyot camaat olan yerdə yerə ensin, o zaman camaat onun yanına axışacaqdı və imkan verməyəcəkdilər ki, istirahət etsin. Hamı istəyirdi ki, İmamın başına yığılsın.
Vertalyot Tehran şəhərinin qərbinə tərəf uçdu və oturdu, sonra isə İmamı avtomobilə mindirib apardılar. Cənab Natiq Nurinin maşını var idi və o, İmamı avtomobilə mindirdi. Mərhum Hacı Əhmədağa da orada idi. İmam buyurur: "Məni Vəliye əsr küçəsinə apardılar, orada qohumlardan birinin evi var idi".
Evin yerini də dəqiq bilmirdilər, gedə-gedə adamlardan soruşur və ünvanı götürürdülər. Nəhayət, tapırlar: İmamın qohumlarından birinin mənzili idi. İmam ev sahibinə xəbər vermədən mənzilə daxil olur.
İmam hələ namazını da qılmamışdı, axşam idi. Sübh ikən gəlməsinə baxmayaraq, axşamadək "Behişti-Zəhra"da olmuşdu, nə nahar etmişdi, nə də namaz qılmışdı. İstirahət də edə bilməmişdi. Artıq heç kimlə görüşmür, yəni hara gedirsə, heç kimlə ünsiyyət yaratmırdı. İndi əməliyyat qərargahlarında oturan adamlar çox böyük narahatçılıq keçirirdilər. Nə isə, bu qalsın sonraya, heç kimin İmamdan xəbəri yox idi. Sonra məlumat verdilər ki, bəli, İmam filankəsin evindədir və özü gələcəkdir, heç kim onun dalınca getməsin.
Həmin vaxt mən Rifah mədrəsəsində idim və əməliyyat mərkəzi İmamın qarşılaşmasını həyata keçirməliydi. İran küçəsində yerləşən həmin qızlar oxuyan Rifah ibtidai məktəbində, ola bilsin ki, sizdə tanıyırsınız, mənim öhdəmə götürdüyüm işləri həyata keçirirdik. Ora iki-üç otaqdan ibarət idi. Biz gündəlik qəzet də buraxırdıq. İmamı gözlədiyimiz həmin günlərdə qəzetin üç-dörd nömrəsini çap etdirmişdik.
Bir qrup adam burada qalmışdı və biz özümüzə aid olan işlərlə məşğul idik. Axırıncı gecə, yəni saat 2030-da, yaxud 10-da hamı yorulmuşdu, çünki çox ağır gün keçirmişdilər və tədricən adamlar seyrəlirdilər. Mən işlədiyim otaqda oturub işlə məşğul idim. Qəflətən gördüm ki, həyətdən səs gəlir. Rifah mədrəsəsinin binasının ön tərəfində kiçik bir həyət var idi və bura gediş-gəliş yeri deyildi. Gördüm ki, həmin həyətdən söhbət səsləri eşidilir. Deyəsən, kimsə gəldi və getdi. Ayağa qalxdım və həyətdə nə baş verdiyini öyrənmək istədim. Birdən gördüm ki, İmam küçədən tək-tənha binaya tərəf gəlir. Mənim üçün bu mənzərə son dərəcə maraqlı və həyəcanlı idi. Uzun illərdən sonra mən onu görürdüm. Artıq on beş il olardı ki, onu sürgün etmişdilər və biz bundan sonra onu görməmişdik. Ani olaraq sanki binaya vəlvələ düşdü. Otaqlardan çoxlu adam, təxminən iyirmi, otuz nəfər çıxıb elə oradaca dayanmışdılar. Hamı bir yerə toplaşmışdı. O, binaya daxil olanda adamlar onu dövrəyə alıb əlindən öpməyə başladılar. Bəziləri isə deyirdi ki, İmama əziyyət verməyin, o, çox yorğundur.
Yuxarıdakı mərtəbədə onun üçün bir otaq ayrılmışdı. Fikrimcə, Rifah mədrəsəsində indi də həmin otağı böyük ehtiramla qoruyub saxlayırlar, 12 bəhməndə baş verən hadisələri səmımiyyətlə yad edirlər. İmam yuxarıdakı otağa qalxmaq üçün pilləkənlərə çatanda dayanıb bizə tərəf döndü və pilləkənin üstündə oturdu. Məlum olurdu ki, o da burada dayanmış iyirmi-otuz nəfəri buraxıb öz otağına çəkilmək və istirahət etmək istəmirdi. Təxminən beş dəqiqə pilləkənin üstündə oturub bizimlə söhbət etdi. İndi onun nə danışdığı dəqiqliklə yadımda deyil.
Hər halda yorulmayasınız deyib, bizdə gələcəyə böyük ümid yaratdı. Sonra isə öz otağına gedib istirahət etdi. Əlbəttə, həmin günün səhərisi, ayın on üçündə İmam Rifah mədrəsəsinin qonşuluğunda olan 1№-li Ələvi mədrəsəsinə deyil, İran küçəsində yerləşən 2№-li Ələvi mədrəsəsinə getdi. Bundan sonra bütün işlərimiz yalnız həmin mədrəsə ilə bağlı idi. Bax, bunlar yadımda qalmışdır.[1]

1İnqilabın əziz rəhbərinin bir qrup yeniyetmə və gənclə səmimi görüşü, 14/XI-76

**“Mənim heç bir otaqda xüsusi stulum olmayıb”**

Böyük dini rəhbər məsuliyyət hissi ilə əlaqədar olaraq buyurur: “Dəfələrlə dostlarıma deyirdim ki, mən hər hansı bir otağa daxil olanda “həmin stul mənə məxsusdur” – deyən şəxslərdən deyiləm. Otaqda hansı stul boş olubsa, onda əyləşmişəm, boş stul olmayıbsa bir qədər qəhərlənib çölə çıxmamışam. Xeyr, mənim heç bir otaqda xüsusi stulum olmayıb.
Mən otağa daxil olanda harada boş yer olurdusa, orada da otururdum. Əgər adamlar həmin yerin mənim üçün münasib olmadığını hiss edib başqa bir yer göstərirlərsə, orada otururam. Əgər həmin işi də münasib hesab edirlərsə, o işi yerinə yetirirəm”.[1]

1 “Hədise vilayət”, II cild, səh.40

**“Mən çay dəmləməyi yaxşı bacarıram”**

Böyük dini rəhbər buyurur:
– İmamın təşrif gətirəcəyi ilə bağlı olaraq hazırlıq işlərinin aparılmasından ötrü dedilər: “O (İmam) binaya daxil olanda hər birimizin üzərinə müəyyən məsuliyyət düşəcəkdir. Dedik ki, oturaq və bu məsələ ilə əlaqədar olaraq təşkilati işlərə baxaq. Bir gün axşam vaxt müəyyən edib bir otaqda yığışdıq. Məsuliyyətin bölüşdürülməsindən söhbət düşəndə mən dedim ki, İmama çay verməyi öz öhdəmə götürürəm. Hamı təəccüb etdi və dedilər: Nə, çay verəcəksiniz? Dedim: Bəli, mən çox yaxşı çay dəmləyirəm.
Mənim bu təklifimdən sonra yığıncaqda tamamilə başqa bir əhval-ruhiyyə yarandı. Bu, mənə məxsus olan bir keyfiyyət idi. Əlbəttə, mən orada həmin təklifi irəli sürəndə bilirdim ki, heç bir kəs çay verilməsi işini mənə həvalə etməyəcək və buna heç imkan da verməyəcəklər. Ancaq həqiqətən də əgər çay hazırlanması məsələsi mənə həvalə olunsaydı, mən əbamı çıxarıb bir kənara qoyar, qollarımı çırmalayar və çay dəmləyərdim. Ona görə də bu təklif yalnız söz xətrinə deyilməmişdi və əslində mən bu işə hazır idim”.[1]

1 “Hədise vilayət”, II cild, səh.40

**"Əksər gecələrimiz həyəcanlı olurdu"**

Böyük dini rəhbər İmamın doğma Vətənə qayıtmasından sonra inqilabın kulminasiya səviyyəsinə çatdığı günlərin həssaslığı ilə əlaqədar olaraq buyurur: "Həzrət İmamın bizim icmanın oturduğu Rifah və Ələvi mədrəsələrində yerləşməsi, habelə müvəqqəti hökumətin də bəhmən ayının 15-də həmin Rifah mədrəsəsində fəaliyyətə başlaması ilə əlaqədar olaraq həmin məntəqənin hücuma məruz qalması ehtimalı çox yüksək idi. Deyirdilər ki, gəlib həmin ərazini bombardman edə bilərlər, yaxud desant salarlar və ya başqa işləri də həyata keçirə bilərlər.

Məsələn, təhlükəli işlərdən birinə əl ata, o cümlədən yanğın törədə bilərdilər. Hər bir halda bu cür əməllərin baş verə biləcəyi ehtimal olunurdu. Ona görə də gecələr bizdən israrla tələb edirdilər ki, müxtəlif yerlərə gedək və bir yerdə qalmayaq. Ona görə ki, hər hansı bir hadisə baş verdiyi təqdirdə hamımız həlak olmayaq, heç olmasa bəzilərimiz sağ qalaq. Əlbəttə, biz özümüz Ələvi mədrəsəsinə getməyi və İmamın yerləşdiyi yerdə qalmağı daha üstün tuturduq. Ancaq bizə xəbər gətirdilər ki, İmam buraya toplaşmamağı, ayrı-ayrı yerlərdə olmağı məsləhət görür. Odur ki, biz müxtəlif mənzillərdə yatırdıq və mən iki gecəni mərhum şəhid Behişti və şəhid Bahönərlə birlikdə yaxınlıqda – Hacı Mohsen Ləbbaninin mənzilində qalmalı oldum. Biz Rifah mədrəsəsinə yaxın olan evləri seçdiyimizdən həmin gecələri unuda bilmirəm. Oturub düşünürdük ki, baxaq görək sabah hansı işləri görməliyik. Mütəmadi olaraq partlayış səsləri eşidilir və hətta İmamın qaldığı evə tərəf yanar güllələr atırdılar. Ümumiyyətlə, əksər gecələrimiz çox həyəcanlı keçirdi".[1]

---

1 Müsahibələr, "Seda və sima"nın müxbiri ilə müsahibə, 22 bəhmənlə bağlı xatirələr, 11/XI-63, səh.175

**İmamın (r) vaxtında qəbul etdiyi qərar**

Böyük dini rəhbər mərhum İmamın 1357-ci il bəhmən ayının 21-də axşam vaxtı hərbi hökumətin haqqında qəbul etdiyi qərarla əlaqədar olaraq deyir:

– 1357-ci il bəhmən ayının 21-də axşam vaxtı Tehranda hərbi hökumətin yaradılması elan ediləndə İmam camaata bildirdi: “Adamlar meydanlara çıxsınlar”.

Əgər İmam həmin an bu qərarı qəbul etməsəydi, bu gün hələ də Məhəmməd Rza bu məmləkətdə iş başında idi. Yəni hərbi hökumət hakimiyyətə gəldikdən sonra, camaat evindən çıxmayacaqdı və onlar öncə İmamı, sonra Rifah mədrəsəsindəki, daha sonra isə qalan yerlərdəki adamları tutub qətlə yetirəcəkdilər. Onları məhv edəcəkdilər, Tehranda beş yüz mindən çox adamı öldürəcəkdilər və bununla da hər şey başa çatmış olurdu. İmam çox gərəkli bir vaxtda zəruri olan qərarı qəbul etdi.[1]

1 “Tarixi yaradan keyfiyyətlər və anlar”, I cild, səh.40

**Bura İran İslam inqilabının radiosudur**

Əziz rəhbərimiz İslam inqilabı radiosunun 22 bəhməndə yayımı barədə buyurur: “Mən “General Motors”[1] zavodundan qayıdarkən yolda gözlənilmədən radioda deyildi: “Bura İran İslam inqilabının radiosudur”. Mən dərhal avtomobildən düşdüm, yerə oturdum və səcdə etdim. Yəni bu hadisə mənim üçün çox təəccüblü idi. İmamın gəlməsindən sonra bu hadisənin baş verməsinə baxmayaraq, radiodan, ölkənin rəsmi ötürücüsündən həmin səsin mənim qulağıma çatması əslində inanılmaz bir şey idi.

Burada gülməli olan o idi ki, bunu sizə deyirəm, bəlkə də bir neçə həftə ərzində məndə belə bir şübhə, belə bir fikir yaranmışdı ki, Allah eləməsin, bəlkə mən yuxu görürəm. Ona görə də düşünürdüm ki, əgər yuxudayamsa, onda yuxudan ayılım, ancaq məlum oldu ki, yuxuda deyiləm”.

1 “General Motors” zavodu Kərəc yolundadır və bura 19-22 bəhmən hadisələrində kommunistlərin təsiri altında idi, ancaq cənab Xameneyinin tədbirləri sayəsində onların təsiri aradan qalxdı

**İlk qələbədən sonra**

Əziz rəhbərimiz İslam inqilabının qələbəsindən sonra İslam inqilabı radiosundan yayımlanan birinci məqaləsi barədə deyir:
– İmamın təbliğat şöbəsində həyata keçirilən ən yaxşı işlərdən biri "İmam" adlı bir nəşrin buraxılması idi ki, İmamın Tehranda yerləşməsi münasibətilə həmin nəşrin bir neçə nömrəsi oxucuların ixtiyarına verilmişdir.
Ayətullah Xameneyi bu xatirə nəşrində bir neçə məqalə ilə çıxış etmişdir və burada ən maraqlısı odur ki, radionun xalqın əlinə keçdiyi bəhmən ayının 22-də o, "İlk qələbədən sonra" başlıqlı məqalə ilə çıxış etmişdir. Bu, həm də radioda səsləndirilən ilk məqalə oldu.[1]

1 "General Motors" zavodu Kərəc yolundadır və bura 19-22 bəhmən hadisələrində kommunistlərin təsiri altında idi, ancaq cənab Xameneyinin tədbirləri sayəsində onların təsiri aradan qalxdı

**Bir enlikürək ordu generalı daxil oldu**

Böyük dini rəhbər öz xatirələrində inqilabın ilk günlərində deyir:
– Onların gördüyü ilk iş bundan ibarət oldu ki, özlərinə ən sadiq olan adamları ordunun ən həssas nöqtələrinə cəlb etməyə və öz tərəflərinə çəkməyə çalışdılar. İnqilabın əvvəlində hər dəfə ordunun yerləşdiyi meydana baxanda görürdük ki, həmin ilk günlərdə hərbi qüvvələrin komandirləri o adamlardır ki, hər bir şəxsi təəccübləndirirdi. Yadımdan çıxmır, Rifah mədrəsəsində dayananda gördük ki, enlikürək bir ordu generalı daxil oldu. Soruşduq, bu kimdir? Dedilər ki, filan hərbi hissənin komandiridir. Təəccüb etdik.
Əlbəttə, az bir müddətdən sonra hər şey məhkəmə orqanlarına aydın oldu və onun barəsində lazımi tədbir görüldü.
Çox qəribədir, bir inqilabçı bir hərbçi üzərində qələbə çalır, sonra həmin qurumun fırıldaqçıları gəlib bu yeni ordunun ən həssas nöqtələrində əvəz olunmaq istəyirlər...
Həssas məntəqələrdə yerləşdirilmiş həmin yad ünsürlərin kimliyi isə dərhal həmin ordudakı mömin şəxslər tərəfindən İnqilab səlahiyyətlərinə çatdırılır və həqiqət budur ki, biz onların kim olduğunu bilmirdik.
Keçmişi nədir, hansı şəxsi işə malikdir? Ordunun öz möminləri və onun inqilabçı simaları dərhal özlərini çatdırıb bildirdilər ki, filan vəzifəli şəxs bu adamı gətirib həssas nöqtəyə qoymuşdur. Elə o dəqiqə bu məsələ yuxarılara çatdırıldı və beləcə problem öz həllini tapırdı.[1]

1 “Comhuriye İslami” qəzeti, 5/II-74

## Baş nazir kim olsun?

Böyük dini rəhbər şəhid Recayinin necə baş nazir seçilməsi barədə deyir: “Bir gün İslam Şurası məclisi tərəfindən bir qrup nümayəndə seçildi və onlara belə bir tapşırıq verildi ki, gedib keçmiş Milli Şuranın yerləşdiyi binanın vəziyyəti ilə tanış olsunlar və baxıb görsünlər ki, İslam Şurası məclisi həmin yerə köçə bilər, ya yox? Həmin nümayəndə heyətinin tərkibində mən, şəhid Recayi və bəzi başqa şəxslər də var idi. Biz getdik və həmin yerə baxdıq. Çox yorulmuşduq və bir tərəfdə şəhid Recayi ilə oturmuşduq. Həmin vaxt kabinet barədə söhbət oldu və kimin baş nazir olacağı haqda söz açıldı. Mən ilk olaraq şəhid Recayinin bu posta layiq olub-olmadığı barədə düşündüm və dedim ki, nə üçün siz baş nazir olmursunuz? Axı bunlar Bəni Sədri təklif edirlər, halbuki o, sizdən heç də  bacarıqlı deyildir. Siz özünüzü bu iş üçün hazırlayın.

O, bu təklifi rədd etmədi və sonra mən mərhum Behişti və bəzi başqa qardaşlarımızla da bu barədə söhbət etdim. Onlara dedim ki, ilk olaraq onun barəsində düşündüm və özü ilə də söhbət etmişəm.Təklifimi rədd etməyib. Bu fikir tədricən bizim aramızda daha da qüvvətləndi  və biz bir namizəd olaraq onun baş nazir vəzifəsinə təyin olunmasının  üstündə dayandıq. Xoşbəxtlikdən partiyanın Mərkəzi Şurasında bu məsələ müzakirə olundu və  o, çox böyük səs topladı. Cənab  Recayi  İslam  Respublikası Partiyasının üzvü olmamasına baxmayaraq, partiyanın Mərkəzi Şurasının üzvləri ona daha çox səs verdilər. Məsələn, 50 imtiyazdan qırxdan çoxu ona verildi. Hətta partiyanın üzvü olanların bir qismi, daha doğrusu  yarısı isə ona səs verməmişdi. Beləcə məsələ başladı və onun baş nazir təyin olunması ilə başa çatdı”.[1]

1 “Comhuriye İslami” qəzeti, 8/6-63

**“ABŞ prezidenti dünyanın ən mənfur şəxsidir”**

Böyük dini rəhbər “Müsahibələr” kitabının 114-116-cı səhifələrində Böyük İslam hərəkatında ABŞ-la mübarizə, 1358-ci ildə Amerikanın casusluq yuvasının ələ keçirilməsi, müvəqqəti hökumətin və Ali Müdafiə Şurasının toplantıları ilə bağlı öz xatirələrindən söz açarkən buyurur:

– Deməliyəm ki, bizim Böyük İslam hərəkatında ABŞ-la mübarizə bu hərəkatın əsas və ayrılmaz xətlərindən biri olub, bu mübarizənin kulminasiya nöqtəsi hesab edilən casusluq yuvasının ələ keçirilməsi ilə başlamışdır və bu gün də həmin mübarizə davam edir.

1342-ci ildə İmam bildirdi ki, ABŞ prezidenti İran xalqı üçün ən mənfur şəxsdir.

Yəni İmam həmin gün bu cümlə ilə İranda Amerikanın siyasətinin əksinə böyük bir siyasi və təbliğati hərəkət etdi. Həmçinin siz də bilirsiniz ki, dünyada hakim gücə malik olan rəhbərlər istəyirlər ki, müxtəlif xalqlar arasında nüfuza malik olsunlar. Onlar bu cəhəti öz siyasətlərinin daha da inkişaf etdirilməsi üçün münasib zəmin hesab edirlər. Ona görə də hər hansı bir ölkədə sonuncu olaraq əldən verdikləri imkan həmin siyasi nüfuzdur. Yəni onlar çalışırlar ki, iqtisadi mənafelərini əldən versələr də, heç olmasa abırlarını əldən verməsinlər. Odur ki,həmin gündən bizim mübarizəmiz şaha və Amerikaya qarşıdır. Həqiqətən də biz şahı Amerikadan ayırmırdıq. Ona görə də rejim əleyhinə həyata keçirdiyimiz hər bir hərəkəti eyni zamanda Amerikaya münasibətdə də zəruri hesab edirdik. İnqilab qalib gələnədək bizdə belə bir fikir formalaşmışdı və bu, bizim qəti mövqeyimiz idi. İnqilabın qalib gəlməsindən sonra da təbii olaraq belə bir münasibət qalmaqdadır. Ona görə də biz azacıq da olsa Amerikanın tərəfdar olduğu hər bir məsələyə qarşı çıxırdıq.

**Nə üçün xalq “Amerikaya ölüm!” ifadəsindən əl çəkmir?**

Böyük dini rəhbər liberalların və millətçilərin müvəqqəti hökumətin komissiya iclaslarında fəaliyyəti və onların tutduğu mövqe barədə deyir:
– Yadımdadır, bir gün hökumətin  kollegiya iclasında müvəqqəti hökumətin sədri tam əsəbiliklə və narahatlıqla dedi: “Nə üçün adamlar bu “Amerikaya ölüm!” ifadəsindən əl çəkmirlər?”
Onun belə narahat olması və təəccüblənməsi bizdə narahatçılıq yaratdı və biz ona bildirdik ki, bu nə sözdür deyirsiniz? Məgər təbii bir şüar olub, heç kimin xalqın yaddaşına həkk etmədiyi, əksinə mübarizə və inqilab mədəniyyətini bu xalqa öyrədən bir şüarı – “Amerikaya ölüm!” şüarını adamların hafizəsindən silmək mümkündürmü? Məgər belə bir işi biz görə bilərikmi?

**“Həft tir” meydanında baş verən böyük nümayiş**

Əziz rəhbərimiz inqilabın ilk aylarında ABŞ Senatında senatorlardan birinin cavabına İran xalqının münasibəti haqda buyurur: “Əgər yadınızdadırsa inqilabın qalib gəldiyi ilk aylarda Amerika senatorlarından biri Senatda İrana qarşı bir fikir söyləmişdir ki, bu da İranda indiki “Həft tir” meydanında böyük bir nümayişə səbəb olmuşdur. Cənab Haşimi orada çıxış etdi və ertəsi gün ona qarşı sui-qəsd törətmişdilər. Yəni o qədər həssas idilər ki, hətta bu hadisə üstündə dərhal cənab Haşiminin çıxışından sonra (həqiqətən də çox yaxşı bir çıxış idi) ona qarşı sui-qəsd törətdilər. Sonradan İmamın xəttini davam etdirən müsəlman tələbələrin köməkliyi ilə casusluq yuvasından çıxarılan sənədlərdən aydın oldu ki, ABŞ səfiri və səfirliyin nümayəndələri elə həmin gündən və nümayişdən sonrakı günlərdə səfirliyə hücum edilməsini gözləyirmişlər. Həmin gün onlar narahat idilər ki, səfirliyə hücum təşkil edilə bilər. 1358-ci ilin aban ayının 13-də İmamın xəttini davam etdirən tələbələrin köməkliyi ilə casusluq yuvasının ələ keçirilməsi prosesi baş verdi. Onların bu hərəkəti İmam, ümumi xalq, məclis nümayəndələri və bu meydanda iştirak edən bütün insanlar tərəfindən təqdir edildi. Bu, İranın və İslamın Amerikaya qarşı apardığı mübarizənin zirvəsi idi”.

**Müvəqqəti hökumət ABŞ-ın mənafeyini açıq şəkildə müdafiə edirdi**

Həzrət müvəqqəti hökumətin ABŞ-ın İrandakı mənafeyini açıq şəkildə himayə etməsi barədə deyir:
– Amerikalılar inqilabdan sonra ümidvar idilər ki, İranda artıq əldən çıxmış olan mənafelərinin heç olmasa müəyyən hissəsini yenidən bərpa edə biləcəklər. Bu ümid həm də yersiz deyildi. Çünki həmin vaxt müvəqqəti hökumətdə elə adamlar var idi ki, açıq şəkildə ABŞ-ın İrandakı mənafeyini müdafiə edirdilər. Bəziləri isə bunu açıq-aydın büruzə vermirdilər. Amma müvəqqəti hökumətin amerikalılar qarşısında ümumiyyətlə hər hansı bir mənfi münasibətlərinin olmadığını tam qətiyyətlə söyləmək mümkündür. Ona görə də hökumət amerikalıların yenidən İranda özləri üçün lazımi şəraiti yaradacaqlarından narahat deyildi. Yalnız onu deyirdilər ki, biz amerikalıların şahla malik olduqları şəkildə onlarla əlaqə yaratmaq istəmirik. Bu da təbiidir ki, amerikalılar ölkəyə daxil olanda biz sizinlə şahın dövründəki əlaqələrə malik olmaq istəyirik deməyəcəklər. Müvəqqəti hökumət də narahat deyildi ki, belə bir münasibət mümkündür, bir gün nəhayət, elə bir münasibət baş tuta bilər və sadəlovhlükdən yenidən məmləkət belə bir inqilabdan, fədakarlıqdan sonra İrandan çıxarılmış lovğa bir dövlətin tələsinə düşə bilər.

**“Mənim üçün çox təəccüblü idi”**

Həzrət inqilabın ilk vaxtlarında Müdafiə Şurası ilə bağlı xatirələrində buyurur:
– Mənim Ali Müdafiə Şurası haqqında bir xatirəm var və indi onu sizə danışmaq istəyirəm. Yadımda qaldığına görə həmin günlər Ali Müdafiə Şurasının iclaslarından birində bir məsələ müzakirə olundu və həmin məsələ mənim üçün çox təəccüblü idi. O zaman Ali Müdafiə Şurası baş nazirdən, onun köhnə dostlarından olan müdafiə nazirindən, o vaxtkı qərargah rəisindən, iki nəfər dövlət başçısının müşaviri olan hərbçidən və məndən ibarət idi.
Ancaq mənim həmin iclasda iştirak etməyimin səbəbini bilmirəm və dəqiq yadımda deyil. Görəsən, necə oldu ki, mən də həmin iclasda iştirak etdim. Axı bizə həmin iclaslarda iştirak etmək hüququ verilmirdi. Sonralar mərhum şəhid Çəmran da həmin iclaslarda iştirak edirdi. Ancaq mən şəhid Çəmrandan əvvəl həmin iclasların üzvü idim və yadımda qaldığına görə iki nəfər hərbçini cənab Mühəndis Bazərqan seçmişdi. Onlardan biri şah dövründə Hərbi Hava Qüvvələri komandanının müavini, korpus generalı Azər Bərzeyn, digəri isə piyada qoşunları üzrə diviziya generalı general Xəzayi idi. Təsəvvür edirəm, bu iki nəfər şah rejimi ilə bağlı orduların tərkib hissəsi və onlara çox yaxın idilər. O dövrün qərargah rəisi ilə çox ehtimal ki, Hərbi Hava Qüvvələrinin komandanı sonralar həbs olunub həbsxanaya salındılar. Burada başqaları da var idi. Bir gün Ali Müdafiə Şurasının yığıncağında iclasın katibi gündəlikdəki məsələləri oxuyanda belə bir söz dedi və şərh etdi ki, Amerikanın İrandakı müşavirliyinin bürosu özlərinin İrandakı hərbi kontoru üçün dörd nəfəri təklif edirlər. Onlar deyiblər ki, öncə bizim hərbi kontorumuz hərbi müşavirlik adlandırılsa da, indi həmin müşavirlik sistemi əvvəlki parametrlərə malik deyil. Həmin dörd nəfərdən birini qeyd etdiyimiz qurum üçün təklif edirik.
Mən həmin yerdə gözlənilmədən tam təəccüb içində idim ki, amerikalılar hələ də ordunun içindədilər. Halbuki biz belə düşünürdük ki, amerikalılar tamamilə kənarlaşdırılıblar və ordudan çıxarılıblar. Bununla belə, həmin iclasda məlum oldu ki, amerikalılar orduda iştirak edirlər. Ona görə də mən təəccüblə soruşdum: “Nə ad, nə büro, nə mərkəz? Məgər amerikalılar hələ də Hərbi Hava Qüvvələrində və orduda vardırlar?”
Dedilər ki, bəli, belə bir büro vardır.
Ona görə də mən dedim ki, belə bir mərkəzin, büronun mövcudluğundan xəbərim olmadığı üçün bu məsələ müzakirə olunmayacaqdır. Buna görə də öncə bizim üçün bu suallara cavab verin: bu büro nə vaxt yaradılıb, üzvləri neçə nəfərdir? Onun təşkil edilməsinə kim icazə verib? Daha bir neçə başqa suallar da verdim ki, indi həmin sualları tam dəqiqliklə xatırlamıram. Ancaq hər halda dedim ki, öncə həmin sualların cavabını bizə söyləyin, sonra bu məsələ ətrafında müzakirə apararıq.
Əlbəttə, həmin iclasda heç bir kəs mənim bu suallarıma qarşı çıxmağa cürət etmədi. Məsələ amerikalılarla əlaqədar olduğundan və təhlükəli xarakter kəsb etdiyindən qorxurdular ki, mənə qarşı çıxsalar, özləri üçün pis olacaqdır.
Məqsədim budur ki, məmləkətin ən həssas siyasi və hərbi orqanlarından biri olan Ali Müdafiə Şurasında amerikalıların İranda bürosu haqda müzakirə açılır və o dövrün hökumət başçısı bunu çox rahatlıqla dinləyib, məsələyə münasibətdə heç bir həssaslıq nümayiş etdirmir. Görünür, əgər mən o iclasda olmasaydım, ona bir nəfər də təyin edərdilər və bununla da məsələ bitirdi, qanunilәşirdi və ya ona bənzər olurdu. Beləliklə amerikalılar İrana qayıtmaq ümidinə malik olurdular və bu ümid yersiz də deyildi.

**İmamın xəttini davam etdirən tələbələrin ABŞ-ın casusluq yuvasının ələ keçirilməsində inqilabi addımı**

Böyük dini rəhbər xatirələrinin davamı olaraq daha sonra İmamın xəttini davam etdirən tələbələr tərəfindən ABŞ-ın casusluq yuvasının ələ keçirilməsi haqqında deyir:

– Xoşbəxtlikdən İmamın xəttini davam etdirən tələbələr tərəfindən gözlənilmədən ABŞ-ın casusluq yuvasının ələ keçirilməsi hadisəsi baş verdi və bu addım öncə bir tələbə hərəkatı idisə sonradan ümumxalq hərəkatına çevrildi. İmam bu hərəkatı təqdir etdi və mərhum şəhid Ayətullah Behişti, habelə Dini İşlər üzrə Ali Mütəxəssislər Məclisinin sədr müavini də bunu bəyəndiklərini bildirdilər. Sonra bundan xəbər tutan bütün insanlar, məsələ ilə birbaşa məşğul olanlar, habelə qəzetlərdən də biri, xüsusilə "Comhuriye İslami" qəzeti ardıcıl şəkildə və israrla həmin hadisəni təqdir etdiklərini bildirdilər.

Ümumiyyətlə, İnqilab Şurasında iki meyl özünü büruzə verirdi: bir qrup adam İmamın xəttini davam etdirən tələbələrin bu cəmiyyəti ilə müxalif idilər, ikinci qrup adamlar isə onların tərəfində dururdular. Həmin cəmiyyətin tərəfində duranlar bizlər idik, yəni İnqilab Şurasının ruhaniləri və bəzi qeyri ruhanilər. Əsas müxaliflər isə Bəni Sədr, Bazərqan və Qütbzadə idilər ki, Bəni Sədr təbiətən belə şeyləri xoşlamırdı. Bazərqan da bu tendensiyalara əks siyasət yürüdürdü və əslində həmin tendensiyanı aradan qaldırmaq istəyirdi.

Qütbzadə xarici işlər naziri idi və o da həmin əhval-ruhiyyəyə və siyasi baxışa malik olub, təbii olaraq qeyd edilən tendensiyanın tərəfdarı deyildi. Ona görə də daim çalışırdı ki, bu uşaqları kommunist və Tudə partiyasına bağlı adamlar kimi təqdim etsin. Hətta Qütbzadə bir neçə dəfə İnqilab Şurasında iddia etmişdi ki, bunlar tudəlilərin təsiri altındadırlar. Mən bu adamları tanıyırdım və yeganə şəxs idim ki, həmin cəmiyyətdə uşaqların başçıları ilə tanış idim. Ona görə də onları müdafiə etdim və deyirdim ki, bunlar müsəlmandırlar və onların tudəlilərlə heç bir münasibəti yoxdur.

**“Tələbələr təklif etdilər ki, mən həmin şəxs olum”**

Həzrət İmamın xəttini davam etdirən tələbələrlə söhbət etmək üçün İnqilab Şurası nümayəndəsinin seçilməsi barədə deyir:
– İnqilab Şurasının tələbələr arasına bir nəfər nümayəndənin göndərilməsi və həmin şəxsin tələbələrin problemlərini öyrənib bizə aydınlaşdırması, habelə bizim problemlərin onlara bəyan edilməsi üçün müvafiq qərar çıxarılanda Qütbzadə könüllü olaraq “Mən gedirəm,” – dedi. Ancaq mən onun bu təklifinin əleyhinə çıxdım. Çünki bilirdim ki, uşaqlar Qütbzadənin üzünü görən kimi ondan zəhlələri gedəcək və o, əsla tələbələrdən bir söz öyrənib İnqilab Şurasına gətirə bilməyəcəkdir, yaxud da əksinə. Eyni zamanda digər tərəfdən olanların məhz onun üzərində dayandıqlarını görüb öz narazılığımı bildirmədim və dedim: İndi get, görək nə olur. Elə belə də oldu. Qütbzadə birinci dəfə gedəndə onlarla qətiyyən görüşə bilmədi. Ona görə ki, uşaqlar bu görüşə əhəmiyyət verməmişdilər. Çox güman ki, ikinci dəfə də belə bir hadisə baş verdi və məcbur qalıb belə qərara gəldilər ki, Qütbzadə daha getməsin.
Ancaq mən bəzi vaxtlar gedib uşaqlarla oturur, onların problemlərini dinləyir və müxtəlif məsələləri birlikdə müzakirə edirdik. Həm də onları maraqlandıran məsələləri İnqilab Şurasındakı dostlarıma çatdırırdım. Hətta bir dəfə qərara alındı ki, müxbirlərə girovlarla görüşməyə icazə versinlər. Həmçinin İnqilab Şurasından da bir nəfərin iştirakı vacib bilindi və tələbələr təklif etdilər ki, həmin şəxs məhz mən olmalıyam. Ona görə də mən getdim və müxbirlərlə birlikdə onların hər biri ilə görüşdük.
Burada müxbirlər bir müsahibə aldılar və hətta geniş bir film də çəkildi. Ancaq bilmirəm, həmin film qalır, ya yox? Hər halda İnqilab Şurası məsələsi belə bir məsələ idi. Lakin ruhanilər hər bir yerdə bu tendensiyanı müdafiə edirdilər. Həm Tehranda İnqilab Şurasının və partiyanın ruhaniləri, həm də Qumda ruhanilərin tanınmış nümayəndələri və müəllimlər cəmiyyəti, habelə Dini İşlər üzrə Ali Mütəxəssislər Məclisinin üzvləri açıq şəkildə bu cərəyanın xeyrinə olan mövqedə dayanmışdılar.

## İkinci inqilab

Böyük dini rəhbər İmamın (r) sözləri ilə onun xəttini davam etdirən tələbələrin Amerikanın casusluq yuvasının ələ keçirilməsi sahəsindəki xidmətləri haqda buyurur:
– Tərəfdarların və sevimli şəxslərin insanlar arasında tutduqları müsbət mövqe böyük təsirə malik oldu və nəticədə hərəkat öz yerini tutdu və İmam (r) tərəfindən də öz təsdiqini tapdı. İmam (r) dedi: “Bu inqilab birinci inqilabdan daha güclü idi.
Bu böyük inqilab yalnız casusluq yuvasının ələ keçirilməsi ilə bağlı bir istək deyildi, əksinə Amerikanın İrana tədricən və sakitcə qayıtmaq istəyini aradan qaldırmaq məqsədi daşıyırdı. Bizim birinci inqilabımız əslində qapıdan qovulub pəncərədən çox sakitcə içəriyə girmək istəyən Amerika və amerikalılara qarşı yönəlmiş bir inqilab idi.Ancaq bu hərəkat çox qəti şəkildə pəncərəni onların üzünə bağladı və çox uzaq zamanlaradək həmin pəncərə bağlı qalacaqdır. Ona görə də İmam (r) dedi ki, bu, ikinci inqilabdır və həqiqət də budur”.

**“Liberallar deyinə-deyinə həmin yaraya əlac axtarırdılar”**

Əziz rəhbərimiz liberalların İnqilab Şurasında Amerikanın casusluq yuvasının ələ keçirilməsi ilə əlaqədar olaraq tutduqları mövqe barədə buyurur:

– Bəni Sədrin, onun kimilərin və Bazərqanın da o vaxtkı hökumətə daxil olduqları bir zamanda İnqilab Şurasının daxilində də hamı müxalifətçi mövqeyində dayanmışdı, ancaq həmin vaxt biz hərəkatı müdafiə edirdik. Yəni casusluq yuvası məsələsi tamam olan vaxtadək İnqilab Şurasında mən, cənab Haşimi, mərhum Behişti və daha bir neçə nəfər həmişə tələbələri müdafiə edib, casusluq yuvası hərəkatının tərəfdarları idik.

Digər tərəfdən də Bəni Sədr, Bazərqan, Qütbzadə, bəzi başqa şəxslər və liberallar həmin tendensiyanın əleyhinə idilər. Onlar tələbələr tərəfindən İran-Amerika münasibətlərinə uzun müddət üçün vurulmuş həmin yaranı sağaltmaq istəyirdilər. Həmişə bu fikirdə idilər ki, hansısa formada həmin hadisəni aradan qaldırsınlar. Onlar istəyirdilər ki, öz maraqlarına xidmət edən siyasətdəki, habelə Amerikanın regionda və məmləkətimizdəki siyasətində yaranmış mövcud boşluğu doldursunlar və axıradək belə davam etsin.

**"İnqilab Şurasında həmin tələbələrin addımını müdafiə edirdik"**

Həzrət Amerikanın Tehrandakı casusluq yuvasının ələ keçirilməsi, habelə adamların şücaəti barədə buyurur:

– Əlbəttə, əsl hadisə baş verərkən biz İranda deyildik, yəni Həcc ziyarətində idik, mən cənab Haşimi ilə Məkkəyə getmişdik. Yadımdadır ki, bir gecə Məkkədə Besənin damında oturmuşduq və radioya qulaq asırdıq. Gecə saat on ikidə İran radiosu xəbər verdi ki, İmamın xəttini davam etdirən müsəlman tələ¬bələr Amerika səfirliyini ələ keçiriblər və bu məsələ bizim üçün son dərəcə mühüm idi. Eyni zamanda bir qədər də qorxu hiss etdik, fikirləşdik ki, bunlar kimlərdir, hansı cinah və qrupdandırlar ki, bu işi gördülər. Belə ehtimal etdik ki, sol cinahlar öz siyasi məqsədləri üçün istifadə etməkdən ötrü hansısa bir addımı atmaq istəyirlər. Təsadüfən özləri üçün çox maraqlı və şəffaf şüarlar da müəyyən edə bilərlər. Buna görə də biz çox narahat idik. Nəhayət, axşam saat 12-də verilən xəbərlərdə eşitdik ki, İmamın (r) xəttini davam etdirən müsəlman tələbələr haqda söhbət açıldı. Həmin vaxt ayrıca olaraq müsəlman və İmamın xəttini davam etdirənlər sözlərini eşitdikdə tam rahat olduq ki, bunlar sollar, münafiqlər və fürsət güdənlər deyillər, əksinə öz müsəlman tələbələrimizdir və onlar bu işi gördülər.

Sonra biz qayıtdıq və əlbəttə ki, mən və cənab Haşimi çox tez qayıtdıq. Həcc səfərimiz cəmisi on gün çəkdi. Yəni Tehrandan hərəkət etdiyimiz gündən Tehrana qayıdana qədər yalnız on gün müddətində Həcc səfərində olduq. İrana qayıtdıqda isə ilk günlərdə baş verən hay-küylü hadisələrlə üz-üzə gəldik. Böyük və son dərəcə keşməkeşli hadisələr baş verirdi, bir tərəfdən müvəqqəti hökumətin üzvləri çox narahat idilər və deyirdilər ki, bu nə vəziyyətdir, nə hadisədir, digər tərəfdən adamlar həyəcan içərisində idilər.Bu da müvəqqəti hökumətin istefasına gətirib çıxardı.Biz təbii olaraq real şəkildə Amerika ilə mübarizə aparan insanların nöqteyi-nəzərindən bu problemə baxırdıq.Ona görə də İnqilab Şurasının daxilində bu gənclərin hərəkatını himayə edirdik. Mən həmin vaxt casusluq yuvasında bir çıxış da etdim və məhərrəmlik olduğundan tələbələr bir rövzəxanı yola saldılar.Tehranın bütün sinəzənləri də hər gecə orada toplaşırdılar. Onlar burada sinəzənliklə məşğul olur və tələbələrin yerləşdiyi ərazini müqəddəs bir yer, yaxud imamzadə kimi əhatə etmişdilər. Hər biri sinəzənliklə və rövzəxanlıqla məşğul olurdu.

**Amerika hər şeyi əldən verdi**

Böyük dini rəhbər bu söhbətin ardınca deyir: “Hər gecə bir natiq oraya gəlirdi və çıxış edirdi. Bir gecə də mən getdim və orada tutarlı, qızğın bir çıxış etdim, ancaq indi bilmirəm, kaseti radio və televiziyada saxlanılır, ya yox. Ancaq hər halda çox həyəcanlı və qızğın bir çıxış idi. Mən bu məsələni orada şərh etdim və dedim ki, hadisənin baş verdiyi bu günlərdə biz nə itirmişik, Amerika nə itirmişdir. Dedim ki, Amerika hər şeyini əldən vermişdir, ancaq biz bu hadisələrdə yalnız qazanc əldə etdik. Bu isə əslində İnqilab Şurasının daxilində olan liberal siyasətçilərə verilən bir cavab idi. Çünki onlar daim deyirdilər ki, bu hərəkətlə inqilab aradan gedəcək, İran məğlub ediləcək və Amerika İranı udacaqdır. Yəni onlar qorxu və ümidsizlik qapısından problemlə üz-üzə gəldilər, ona görə də bu çıxış əslində onlara bir cavab idi və camaat üçün bir arxayınçılıq idi.Çünki biz Amerika ilə bu mübarizədə bir şey itirmədik, əksinə qazancımız oldu. Bundan əlavə, millətlərə ümid verdik və inqilaba təntənə bəxş etdik, İran millətini dünyada əzəmətlə təqdim etdik. Çıxışımda bu kimi başqa məsələlərə də toxundum və son dərəcə ümidverici, yaxşı bir çıxış oldu”.[1]

1 Müsahibələr, səh.114-119

**Sadəlövhlük məsələsi və Amerika ilə müzakirə**

Böyük dini rəhbər Amerika ilə müzakirə barədə deyir: “Bəs sadəlövhlük məsələsi və müzakirə dedikdə, müzakirə nə deməkdir? Tutaq ki, siz gedirsiniz Amerika ilə oturub danışırsınız, müzakirə aparırsınız və problem həll edilir? Axı, belə deyil. Müzakirə siyasi praktikada sövdələşmə deməkdir. Amerika ilə müzakirə Amerika ilə sövdələşmədir. Sövdələşmə, yəni alqı-satqı, bir şeyi verib, başqa birisini almaqdır.

Sən İslam inqilabından Amerikaya nə vermək istəyirsən ki, ondan başqa bir şeyi alasan? Sizin Amerikaya nəyisə verib, onun müqabilində almaq istədiyiniz şey nədir? Biz Amerikaya nə verə bilərik? O, bizdən nə istəyir? Məgər bilirsiniz, o, bizdən nə istəyir?”

Vallah, Amerika İran millətinin müsəlman olması, Məhəmməd Peyğəmbərin (s) qoyub getdiyi İslama bağlılığı qədər onun başqa heç bir şeyindən narahat deyil. O, istəyir ki, siz İslam dininə bağlılığınızdan əl çəkəsiniz. O, istəyir ki, siz belə qürurlu və xoşbəxt olmayasınız?[1]

1 “Hədise vilayət”, IV cild, səh.171-172

**“Mən Amerika ilə müzakirənin əleyhinəyəm”**

Böyük dini rəhbər başqa bir açıqlamasında Amerika ilə müzakirə barədə buyurur: “Kimlərinsə gedək lovğa və beynəlxalq hüquqa, habelə bəşəri normalara riayət etməyən bir rejimlə bir masa arxasında oturub müzakirələr aparaq, – deməsi nə qədər də sadəlövhlükdür. Amerikalılar beynəlxalq hüquq normalarına riayət etmirlər.
Amerika dövləti həmin dövlətdir ki, onun cinayətkar zabitinin əmri ilə atəş açıldı, raketlər atıldı, bir neçə yüz nəfərlik sərnişin təyyarəsini dənizin üstündə vurdular, kişi və qadınları, uşaq və böyükləri məhv etdilər. Ancaq Amerika dövləti həmin zabiti mühakimə etmədi və mən eşitmişəm ki, Amerikanın indiki prezidenti Corc Buş həmin zabitə “Ləyaqət” medalı təqdim etmişdir. Onlar bu cürdürlər. Siz nə deyirsiniz? Məgər bunlar beynəlxalq hüquq normalarına riayət edirlər? Məgər bunlar insanların hüquqları barədə düşünürlər? Xeyr.
Mən Amerika ilə müzakirənin əleyhinəyəm və İran İslam Respublikasının dövləti məndən icazə almadan belə bir iş görə bilməz. Onlar özləri də, bir qayda olaraq, belə bir işə razı olmazlar”.[1]
Böyük dini rəhbər başqa bir açıqlamasında Amerika ilə müzakirə barədə deyir:
– Mən əminəm ki, bizim lovğa və təkəbbürün başçısı ilə, yəni Amerika ilə müzakirə aparmalı olduğumuzu düşünən adamlar ya sadəlövhlüyə düçar olublar, ya da qorxaqdırlar. Mən dəfələrlə bu məqamı xüsusilə vurğulamışam ki, lovğa öz qüdrət və bacarığının çörəyini yeməzdən daha çox öz heybət və hədələrinin çörəyini yeyər. Həqiqətən də lovğa və təkəbbürlü adamları qorxutmaqla, onları hədələməklə və özünü naza qoymaqla yaşayır.[2]

1 “Hədise vilayət”, IV cild, səh.171-172
2 “Hədise vilayət”, IV cild, səh.171-172

**“Amerikadan qorxmadığınızı bilirik, bizi özünüzlə müqayisə etməyin”**

Bu xatirəmi dəfələrlə danışmışam, beynəlxalq toplantıların birində dünyada istismarçı quruluşların və qüdrətlərin hökmranlığının əleyhinə yönəlmiş çox qızğın bir nitq söylədim və Amerikanı, Sovet İttifaqını dövlət başcıları və yüzlərlə nümayəndənin qarşısında mühakimə etdim. Həmin nitqdən sonra xeyli adam mənim yanıma gəlib, sözlərimi bəyəndiklərini və təsdiq etdiklərini dedilər: “Sizin dedikləriniz doğrudur”.
Ölkə başçılarından biri inqilabçı bir gənc idi, ancaq sonralar onu öldürdülər, mənim yanıma gəlib dedi: “Sizin bütün sözləriniz doğrudur, ancaq mən sizə demək istəyirəm ki, siz Amerikadan qorxmursunuz, bizi özünüzlə müqayisə etməyin. Amma burada oturanların hamısı Amerikadan qorxur”.
Sonra isə başını mənə tərəf əyib “mən də Amerikadan qorxuram” – dedi![1]

1 “Hədise vilayət”, III cild, səh.244-245

**Şəhid Nujə meydanında çevriliş macərası**

Böyük dini rəhbər 1359-cu ilin tir ayında şəhid Nujə meydanında baş verən çevriliş haqda deyir:
– Şəhid Nujə meydanında çevriliş hadisəsini təşkil etdilər. Bu, ordunu ələ almaq üçün düşmənin casusluq strukturları tərfindən törədilmişdi. Əgər uğur əldə etsəydilər, öz fikirlərincə, inqilabın ömrünə son qoyardılar, əgər müvəffəq olmasaydılar, xalqla ordu arasında, inqilabla ordu arasında müəyyən məsafə yarada bilərdilər.
Bu çevriliş təhlükəli bir çevriliş idi və ordu tərəfindən aradan qaldırıldı. Ola bilsin ki, İran xalqı bilmir, ancaq şəhid Nujə meydanında çox təhlükəli olan bu çevrilişin aradan qaldırılmasına səbəb olanları həmin orduda xidmət edən gənclər idilər ki, gəldilər və bizə bu barədə xəbər verdilər.
Həmin vaxt gənc bir təyyarəçi gecə yarısı gəlib bizim qapımızı döydü və çox böyük israrla bizi onun sözlərinə qulaq asmağa məcbur etdi. O, qeyd etdi ki, bu çevriliş yaxın 24 saat ərzində həyata keçiriləcək.
Bu hadisənin ardınca gedən qüvvələr – həmin bazanın hərbçiləri, mömin əsgərləri çevrilişin aradan qaldırılmasında böyük rol oynadılar. Yənu bu meydanda ordunu müdafiə edən adamlar elə ordunun özündən idilər. Özü imkan vermədi ki, düşmənin caynaqları ondan yapışsın və orduda öz çevrilişini həyata keçirsin.[1]
Həmin gənc təyyarəçi də sonralar fədai oldu, indi də haradadırsa, inanıram ki, ilahi kamilliyə malikdir.[2]

1 Çevriliş 1359-cu ilin tir ayının 18-də gecə vaxtı həyata keçirilməliydi və əməliyyat keçmiş dövründəki hərbi hava qüvvələrinin, xüsusi polis qoşununun, habelə rejimin başqa ordu bölmələrinin köməyi ilə baş tutmalıydı. Çevriliş ərəfəsində xarici ölkənin hərbi gəmiləri də İran sahillərinə yaxınlaşmalı və öz hücumları ilə çevrilişə yardım göstərmə-liydilər. Çevriliş baş tutduqdan sonra isə böyük dövlətlər, o cümlədən Amerika dövləti gecikdirmədən yeni hökuməti rəsmi şəkildə tanımalıydı.
Höccətülislam Məhəmmədi Reyşəhri – hərbi məhkəmələrin rəisi 1359-cu il tir ayının 24-də çevrilişlə əlaqədar olaraq belə deyib:
– Çevrilişlə əlaqədar olaraq üç yüz nəfər həbs edildi. Çevriliş planında əsas üzvləri Nujə yaşılpapaqlıları briqadasından təşkil olunmuş bir hərbi qanad iştirak edirdi, planın siyasi qanadı isə Milli Cəbhəyə və ya millətçilərə məxsus idi. Onların ixtiyarında 17 təyyarə var idi və Mehrabad aerodromunu bombardman etməklə işə başlamalıydılar. Sonra Tehranda səs maneələrini aradan qaldırmalı və əgər hərbi baza onlarla əməkdaşlıq etməsəydi, həmin təyyarələrlə oranı bombardman etməliydilər. Bu adamlar istəyirdilər ki, qalib gəldikdən sonra hərbi hökuməti təşkil etsinlər. Hərbçilərin hökuməti iki il davam etməliydi və çevrilişin başçıları üç kişidən və bir qadından təşkil olunmuşdu. Arada kifayət qədər maliyə vəsaiti dövr edirdi və Nujə yaşılpapaqlıları bütün hərbi vəzifələri çox sürətlə həyata keçirməliydilər. Onlar radio-televiziyanı və Tehranın əsas siyasi məntəqələrini tutmalıydılar. Nujə yaşılpapaqlılarından savayı, təqaüddə olan hərbçilərin bir hissəsi də hərbi təşkilatın əsasını təşkil edirdi. Maraqlı burasıdır ki, bu çevriliş aradan qaldırıldıqdan bir ay sonra İraq öz hərtərəfli hərbi hücumuna başladı.
2 "Cumhuri islami" qəzeti, 5/2/74

## İnqilabın böyük fədaisi

Müxbirlərin 1360-cı il tir ayının 6-da Tehranın Abuzər məscidində baş vermiş hadisə haqda məlumatında bildirilir ki, Həzrət Ayətullah Xameneyi sağ əlinin yaralanması ilə əlaqədar olaraq sol əli ilə İmam Xomeyniyə (r) belə bir şərhlə məlumat yazdı: “Millətin imamına salam çatdırın”.[1]
Partlayış hadisəsindən sonra həkimlər təsdiq etdilər ki, ağanın bədəninin ayrı-ayrı hissələri, o cümlədən ciyəri, boğazı, kürəyi və s. yerləri zədələnmişdi.
Həzrət İmam Xomeyni (r) Ayətullah Xameneyiyə qarşı törədilmiş sui-qəsd hadisəsindən bir gün sonra müraciətlə çıxış etdi və həmin müraciətdə deyirdi:
– Allah-Təalaya şükürlər olsun ki, İslamın düşmənləri ayrı-ayrı qruplardan və axmaq adamlardan ibarətdir. Allaha şükür ki, böyük İslam inqilabının ilk günündən bu günədək düşmənlərimiz nə plan cızıblarsa, hansı çevrilişi həyata keçirmək istəyiblərsə, nə çıxışlar ediblərsə fədakar millətimiz daha da bərkimiş və əlaqələr möhkəmlənmişdir.
Həzrət İmam Xomeyni (r) bu müraciətində Həzrət Ayətullah Xameneyini fədakar əsgər, Məhəmməd Peyğəmbərin (s) nəslindən olan insan, Hüseyn ibn Əlinin (ə) sülaləsinin nümayəndəsi kimi təqdim etmişdir ki, İslama və İslam ölkəsinə xidmətdən savayı heç bir günahı yoxdur.[2]

---

1 “İnqilab xəbərləri” nəşri, № 323

2 1360-cı il tir ayının 6-sı Tehranın Abuzər məscidi əvvəlki günlər kimi yenə də təntənəli bir toplantının intizarında idi və bugünkü toplantı əvvəlkilərdən daha təntənəli olmalıdır. Hamıya xəbər verilmişdi ki, ağa adamların suallarına cavab vermək üçün buraya gələcəkdir. Namaz qılan adamlar günorta namazının başa çatmasından sonra İmamın ən yaxın silahdaşının dilindən inqilab sözünü eşitməyə hazır idilər. Beləcə, ağa kürsünün arxasına keçir. Kürsünün üstünə isə iki ədəd diktafon qoyurlar. Onlardan birini azyaşlı gənc bir oğlan gətirir və ağadan bir qədər aralıda masanın üstünə qoyub qayıdır. Tir ayının 6-da günorta saat 1235-də dəhşətli partlayış səsi ilə hər şey bir-birinə qarışır.Mütəxəssislərin bildirdiyinə görə, partlayan diktafonun bir parçasının üstündə düzbucaqlı paralelepiped şəklində bir filiz parçası qalmışdı ki, onun yarığında partlayıcı maddə qoyulmuşdu. Başqa bir parçasının üstündə isə partlayış meydanında hadisənin baş verməsindən sonra oraya düşən “Fürqan qrupunun hədiyyəsi”ndən ibarət ifadə idi.
Abuzər məscidində namaz qılan və hadisənin şahidi olan bir nəfər deyir: “Həmin hadisənin baş verdiyi vaxtdan bu günədək Tehranın Abuzər məscidində namaz qılanlar və yerli adamlar Həzrət Ayətullah Xameneyiyə qarşı törədilmiş sui-qəsdin uğursuzluğa düçar olmasına sevinərək, bu məsciddə həmin hadisənin ildönümü münasibətilə dua və şükür etmə mərasimləri keçiriblər. Onlar Allah-Təalaya minnətdardırlar ki, inqilab gəmisinin sükanı bu gün elə bir adamın əlindədir ki, o, bu İslam ölkəsinin böyük fədaisidir”.

**“Mən həmişə istəmişəm ki, siz (fədailər) ən yaxşılardan olasınız”**

Fədailər böyük dini rəhbərin görüşünə getdilər, behiştin ətri anbaan daha da yaxından duyulurdu, mən həmin xoş ətri daha da yaxından hiss edirdim. Anlar keçdikdən sonra çiyinlərim bərk istidən tamamilə başqa bir hal almışdı. Burada istədiyim hər bir şeyi əldə etdim. Ağanın yaralı əlini öpdüm və gözlərimlə ona xeyir-dua verdim. Ağa həmin mübarək əli ilə sanki qəlbimizə bir məlhəm kimi lütfkarlıq göstərirdi.

Ağaya bildirdim ki, döyüş paltarı geymişəm və gəlmişəm ki, sizdən icazə alım və bu formanı həmişə əynimdə saxlayım. Ağa təbəssümlə buyurdu: “Siz öncədən döyüş formasını geyinmisiniz, indi məndən icazə istəyirsiniz”.

Ağanın bu sözündən sonra orada olanlar gülüşdülər.

Ağanın nəzərinə çatdırdım ki, döyüş formasını ona görə geyinmişik ki, son damla qanımızadək sizin tabeliyiniz altında fədakarlıq göstərməyə hazır olsuğumuzu deyə bilək.

Ağa dedi: “Mən həmişə istəmişəm ki, siz yaxşılardan olasınız”.[1]

1 “Canbaz” jurnalı, № 33 və 34, 1379-cu il

**İslam inqilabının rəhbəri 7 tir hadisəsi haqda**

Böyük dini rəhbər 1360-cı ildə Tehranın Abuzər məscidində çıxış edərkən sui-qəsdə məruz qaldı və sağ əlindən ağır yara alaraq 42 gün müddətində müalicə olundu.
Tir ayının 7-də son dərəcə acı və ürək yandırıcı bir hadisə İslam Respublikası Partiyasında baş verdi və şəhid doktor Behişti, habelə 72 nəfər İmama (r) sadiq olan şəxs şəhid oldu. Ona görə də böyük dini rəhbər bu hadisə, yəni partiyada baş verən hadisədən xəbər tutması ilə əlaqədar olaraq buyurur:
– Həmin vəziyyətdə çox istəyirdim ki, onu (doktor Behiştini) öz yanımda görüm və hiss edirdim ki, əgər onu görsəm yaxşılaşaram, daha da güclü olaram, əhvalım yüksələr. Sonra da soruşdum ki, Behişti xəstəxanaya gəlmədi?
Dedilər ki, o gəlmişdi, ancaq siz huşsuz vəziyyətdə idiniz və yatmışdınız. Ona görə də getdi. Ondan sonra heç bir şey başa düşmədim. Bir neçə gündən sonra dostlar yanıma gəldilər, ancaq cənab Behişti gəlmədi. Öz-özümə belə təsəvvür edirdim ki, onun işləri çox olduğundan və daim özü üçün iş düzəltdiyindən xəstəxanaya gələ bilmir. Ancaq mən yenə də onun yolunu gözləyirdim.
Birinci və ikinci gecə mürgüləməkdə idim ki, həkimlərdən biri yanıma gəlib, başını mənə tərəf əydi və dedi: mən bir həqiqəti sizə deməliyəm və o da bundan ibarətdir ki, partiyada bir partlayış olub. Ancaq keyləşdirilmiş vəziyyətdə və azacıq huşsuz olduğumdan həqiqətdə məsələyə həssaslıq göstərə bilmədim və həmin hadisə mənə o qədər də mühüm hadisə kimi görünmədi. Ona görə də xəstəxana xidmətçilərindən mənə qəzet gətirilməsini xahiş etdim. Amma onlar imtina etdilər. Mənim başıma gələn hadisənin səkkizinci və ya doqquzuncu günü idi, bir gün axşam cənab Haşimi və Hacı Əhmədağa gəldilər və mənim yanımda oturdular. Məni müalicə edən həkim otağa daxil oldu və dedi ki, əgər icazə verirsinizsə, qəzet və radio məsələsini bu cənablara deyim. Mən israrla radio gətirilməsini tələb etdiyimdən onlar da dedilər ki, əgər radio gətirsək, həmin elektron aparatlar sıradan çıxacaqdır. (Mənim bədənimdə – ciyərimdə, ürəyimdə və s. də çoxlu sistemlər var idi.) Həmin vaxt, yəni birinci gecə radionu gətirdilər, İmamın (r) müraciətinə qulaq asdıq. Amma dedilər ki, xəstəxanada bunu mənə irad tutdular.
Bir gün uşaqlardan birisini göndərdim ki, gedib qəzet alıb gətirsin. Getdi, ancaq qayıtmadı. Mən çox əsəbiləşdim və başqa birisini göndərdim və qəzet almağı tapşırdım. O, qayıdanda bildirdi ki,bu ətraflarda qəzet yoxdur.
Ona dedim ki, get, gəz dolan, bu böyüklükdə bir şəhərdən bir qəzet alıb gətir, ancaq əliboş qayıtma.
O da getdi və qayıtmadı. Başqa birisini göndərdim, o da getdi və qayıtmadı. Mən xəstəlik müddətindəki əsəbiliklə əlaqədar olaraq bir qədər çılğınlıq etdim. Həmin gün, yaxud ertəsi gün gördülər ki, məni heç cürə sakitləşdirə bilmirlər, cənab Haşimi xəstəxanaya gələndə həkim ona dedi ki, mən radio və qəzet gətirilməsini tələb edirəm. Biz bilmirik, məsləhətdir, yoxsa yox?
Cənab Haşimi mənə dedi:
– Qəzet və radionu nə üçün istəyirsən?
Dedim: Mənim heç bir şeydən xəbərim yoxdur, burada tək qalmışam.
O dedi: İndi sən elə fikirləşirsən ki, xəstəxanadan kənarda çox yaxşı xəbərlər vardır və sən burada özünü narahat edirsən?
Dedim: Hər halda eybi yoxdur.
Dedi: Sizin partiyada baş vermiş partlayış haqda xəbəriniz vardır?
Elə bu zaman həkimin birinci gün mənə dediyi "partiyada partlayış olub" – fikri yadıma düşdü və mən dedim:
– Partiyada partlayış olub? Orada nə baş verib?
Dedi: Heç, bəzi dostlarımız üçün narahat oldum.
Dedim: Cənab Behiştiyə nə olmuşdur? Çox narahatam.
Dedi: Cənab Behişti də yaralanıb. Yaralanıb sözünü eşidəndə özümdən asılı olmayaraq ağlamağa başladım. Əhmədağa da ona köməklik etdi.
Soruşdum: Cənab Behiştinin yarası hansı səviyyədədir? Mənim kimidir, məndən yaxşıdır, yoxsa məndən daha ağırdır?
Dedi: Xeyr, elə sizin kimidir.
Mən ondan xahiş etdim ki, cənab Behiştinin xilas edilməsi üçün ölkənin bütün tibbi imkanlarını səfərbər etsin. Əsla ona diqqətsizlik göstərməyin. Sonra isə soruşdum ki, o, haradadır?
Dedi: Filan xəstəxanadadır, nə isə məni nigaran qoyub getdi.

O gedəndən sonra oradakı adamların birindən məsələnin necə baş verdiyini soruşdum, cənab Behiştinin harada yaralandığını öyrənmək istədim. Başa düşdüm ki, nəyisə məndən gizlədirlər. Bu zaman mənim ətrafımda olan uşaqlardan biri otağa daxil oldu. İndi yadımda deyil, nə olmuşdur – deyə ondan soruşdum. Amma yadımda qalan budur ki, necə deyərlər, fürsəti fövtə verməmişdim. O dedi, bəli, bir qədər əvvəl ömrünü başa vurdu. Mən onun artıq şəhid olduğunu bildim, ancaq hadisənin bütün incəliklərini sonradan öyrəndim. Ağa Məhəmmədrzanın mənə baş çəkməyə gəldiyi gün dedilər ki, Məhəmmədrza Behişti görüşə gəlib. Mən son dərəcə narahat olduğumdan danışa bilmirdim. Bu hadisəni qəbul etmək mənim üçün çox ağır idi. Hətta indi də yadıma salanda düşünürəm ki, həmin vaxt çox ağır zərbə almışdım.

Böyük dini rəhbər Ayətullah Behiştinin şəxsiyyəti barədə buyurur:

– Mərhum Behiştinin şəxsiyyətinin iki tərəfi vardır: Biri cənab Behiştinin şəxsiyyət tərəfi, o birisi isə onun cəmiyyətdə tutduğu mövqe ilə bağlıdır. O, həqiqətən də öz yaxın dostlarından ötrü cəmiyyətdə tutduğu mövqe baxımından çox əziz bir insan idi. Keyfiyyətlərinə gəldikdə çox mehriban bir insan idi, heç vaxt kiminləsə düşmənçilik etməzdi, pisliklə işi olmazdı, yersiz əsəbiləşməzdi və əbəs yerə kimisə incitməzdi.

İnsanın bəzən öz dostlarında və tanışlarında müşahidə etdiyi ikiüzlülük və hiyləgərlik kimi hallar əsla onda özünü büruzə verməzdi, heç vaxt özünün bu kimi xüsusiyyətlərin əsirinə çevrilməsinə imkan verməzdi.[1]

1 Müsahibələr, səh.260-261

**Döyünən ürək**

On il əvvəl, yəni 1358-ci ildə Həzrət İmamın ürəyində narahatçılığın baş verməsindən xəbər tutanda biz başa düşə bilmirdik ki, belə bir qarlı havada necə oldu ki, bu gün böyük əksəriyyəti şəhid olmuş və ya həyatlarına əlvida deməyə yaxın olan adamlarla birlikdə Tehrandan Quma getdik və inqilabın taleyinin ondan asılı olduğu həmin əziz insanı Tehrana, ürək xəstəxanasına gətirdik. Nə qədər də ağır günlər idi.

Çox böyük narahatçılıq və nigarançılıq keçirirdik. Əlbəttə, bunları təsvir etmək qeyri-mümkündür və həmin günlərdən ötən bu şənbə gününədək ürəyimiz məlum hadisənin təsirindən döyünməkdədir. Bu ötən on il müddətində dəfələrlə Allah-Təalaya yalvarmışıq ki, bu sədaqətli mömin millətin böyük sövqlə sənin dərgahından istədiklərini yerinə yetir – bu döyünən qəlbi salamat və əbədi et.[1]

1 İslam İnqilabı Komitəsi üzvlərinin böyük dini rəhbərə beyəti mərasimində həzrətin nitqi, 18/III-1368

**“Bura İslamın mərkəzidir”**

Millətin İmamı (r) mən Pakistana səfər etməzdən qabaq dedi: “Siz pakistan alimlərinə deyin ki, onların qarşılaşdıqları bütün bu təzyiqləri Amerika, Qərb, Şərq və başqa mürtəce qüvvələr bizə qarşı da həyata keçirirlər. Bunun səbəbi o deyil ki, biz İranıq və iranlıyıq. Əksinə onun üçündür ki, biz müsəlmanıq. Bizim İslama münasibətdə ciddi olmadığımızı dünya hiss edəndə, yaxud bizim İslamla bağlı olaraq hər hansı sövdələşməyə getməyə hazır olduğumuzu, o qədər də böyük əhəmiyyət vermədiyimizi biləndə bu təzyiqlər də səngiyəcəkdir”.
Mən İmamın (r) həmin sözlərini Pakistanın bütün əyalətlərindən gəlmiş müsəlman alimlərin böyük bir hissəsinə dedim və bu, bizim üçün həssas və cəlbedici bir məsələdir.
Bütün təzyiqlərin əsas səbəbi İslamdır və müsəlmanlar bunu başa düşürlər. Dünya müsəlmanları hiss edirlər ki, Bura İslamın həqiqi mərkəzi və əsas vətənidir.[1]

---

1 Səfərbər olunanlar qrupu ilə beyət zamanı böyük dini rəhbərin nitqi, 5/VII-1368

**“Siz yaşayın”**

Bir dəfə mənim də iştirak etdiyim bir səfərdə çıxışım başa çatdıqdan sonra istədim ki, avtomobilə oturum. Adamların mənə yaxınlaşmamasından ötrü orada mühafizəçilər dayanmışdılar və həmin vaxt mən gördüm ki, bir xanım onların arxasından mənə müraciət edərək nəsə demək istəyir. Mən mühafizəçilərə bildirdim ki, yolu açsınlar və həmin xanımın mənim yanıma gəlməsinə icazə versinlər. Onun nə demək istədiyini bilmək istəyirdim. Xanım irəli gəlib dedi:

– Mənim adımdan İmama deyin ki, uşağım düşmənin əlində əsir idi və mənə xəbər veriblər ki, onu öldürmüşlər. Mənim adımdan İmama bildirin ki, onun başına fəda olum, təki siz sağlam olun, mən bu yolda başqa uşaqlarımın da şəhid olmasına hazıram. Tehrana qayıdanda İmamın yanına getdim. Onunla görüşəndə bu sözləri söyləməyi unutdum. Sonra otaqdan çıxanda həmin sözlər yadıma düşdü və öz-özümə dedim: şəhidin anasının sözlərini çatdırmamağım heç düzgün deyildir.

Həmin vaxt İmamın otağında olan qardaşlara dedim ki, mən İmama bir sözü çatdırmağı unutdum. İmam isə həmin kiçik otaqdan çıxıb həyətin qapısının astanasında dayanmışdı. Ona dedim ki, mən bir sözü sizə çatdırmaq istəyirəm. Sonra həmin ananın mənə dediyi sözləri ona çatdırdım. İmam həmin ananın sözlərini eşitcək onun çöhrəsi tutuldu və elə ağladı ki, ürəyim sıxıldı!

İmam cəbhələrdəki döyüşçülərin sədaqətindən, şəhid ailələrinin fədakarlıqlarından və insanların mənəviyyat və fəallığından həyəcana gəlirdi.

**"Həyatımızın ən ağır məqamları"**

Böyük dini rəhbər həyatının ən ağır məqamları barədə buyurur:
– Həqiqətən də biz deməliyik ki, həmin həssas məqamlarda biz həyatımızın ən çətin anlarını keçirirdik. O gecə və ertəsi gün bizim saat və dəqiqələrimiz necə keçdi? Allah bilir, necə keçdi.
Həmin şənbə gününün gecəsi və ertəsi gün sübh tezdən (xordadın 14-ü) bizim başımıza nə gəldi? Qardaşlar öz öhdələrinə düşən vəzifənin məsuliyyət və həssaslığından tam gərginlik içində düşünürdülər və çalışırdılar ki, problemi necə aradan qaldırsınlar. Mənim adımı rəhbərlik şurasının üzvü kimi dəfələrlə xatırlamalarına baxmayaraq, mən əlbəttə ki, bunu fikrən rədd edirdim. Əgər bir cəmiyyət olaraq mənə bu məsuliyyəti öz öhdəmə götürməyi təklif etsəydilər, rəhbərlik şurasının üç, yaxud beş üzvündən biri kimi mən həmin gün Allaha pənah aparardım.
Həmin şənbə günü Dini İşlər üzrə Ali Mütəxəssislər Məclisinin toplantısı keçirilməmişdən öncə mən Allah-Təalaya ərz etdim: Pərvərdigara, əgər xahişlə, minnətlə və yalvarışla ümumi üzvlərdən biri kimi mənə diqqət yetirilsə, bu məsuliyyətdən ötrü mən xahiş edirəm ki, əgər bu iş azacıq da olsa mənim imanım və axirətim üçün zərərli olsa (sən bütün işlərdə böyük və qüdrətli olduğundan) işləri elə təşkil et  ki, nəzərdə tutulan məsələ baş tutmasın.
Ancaq Dini İşlər üzrə Ali Mütəxəssislər Məclisinin üzvləri, oradakı qardaşlar öz mülahizələrini bildirdilər və Həzrət Ayətullah Meşkini buyurdu:
– Müzakirələr aparıldı, fikirlər söylənildi və nəhayət, bu seçimlə başa çatdı. Mən çox çalışdım ki, baş tutmasın, Məclisdə də buna çox səy göstərdim, arqumentlər irəli sürdüm, bu işin alınmamasından ötrü mübahisələr etdim, ancaq həmin iş baş tutdu.Beləcə, bu mərhələ keçdi.

**Gecə saat 10:20-də**

Əziz rəhbər ağrı-acılı şənbə günündə baş vermiş hadisələr haqda deyir:
– Həmin ağrı-acılı şənbə günündə, günorta vaxtı mən ölkə Konstitusiyasına yenidən baxan qardaşlardan bir qrupunu dəvət etdim və onlara bildirdim ki, İmamın halı yaxşı deyil. Çünki həmin dəhşətli hadisədən qabaq, yəni həmin gün günorta vaxtı biz artıq bunun əlamətlərini görürdük və bütün bunlar bizi lərzəyə salmışdı. Onlara demək istəyirdim ki, Konstitusiyaya yenidən baxılması işini bir qədər sürətləndirsinlər. Çünki İmam bizə buyurmuşdu ki, həmin işi tez başa çatdırsınlar və bu şad xəbəri xəstəxana çarpayısında ona çatdıraq,onun qəlbini şad edək. Bu onun əhval-ruhiyyəsinə müsbət təsir edə bilərdi. Mən bunları həmin şəxslərə çatdırmaq istəyirdim, ancaq baş verəcəyi gözlənilən hadisənin mümkünlüyündən ürəyim titrədi, səsim tutuldu. Sözlərimi başa çatdıra bilmədim. İki-üç saatdan sonra xəbər tutduq ki, onun halı pisləşib və daha bir neçə saatdan sonra o ilahi əmanəti və o qiymətli gövhəri əlimizdən verdik. Nə etmək olar?
Bütün peyğəmbərlər və müqəddəs şəxsiyyətlər bu dünyaya əlvida demişlər, bunun heç bir çarəsi də yoxdur. Bu sonluq qaçılmaz olduğundan və bizim bundan sonra yaşamağımız üçün mütləq özümüzdə belə bir ağır hadisəni qəbul etməkdən ötrü güc tapmalıydıq və mütləq tapmalıyıq. Allah-Təala Peyğəmbərinə buyurdu: "Həqiqətən, sən öləcəksən və onlar da ölməlidirlər".[1]
Ancaq onun mirası – böyük dəyərlərə malik olan İran İslam Respublikası, daha yaxşı desək, onun həmin dəyərlərlə bərqərar etdiyi İslam respublikası bizim əlimizdədir.
Həmin gecənin səhərisi o şəxsiyyət İlahinin xeyir-duasını aldı və saat 10:20-də həzrətin ruhu göylərə yüksəldi, biz saat 12-dək orada qaldıq, sonra mən gəldim.
Sübh tezdən həyəcanlı bir halda dedim ki, İmam barəsində Quranla fal açım. "Kəhf" surəsinin müqəddəs ayəsi açıldı və təsadüfən ayənin əvvəli idi: "Bismillahir-rəhmanir-rəhim. İman gətirib saleh əməl edənlər üçün daha yaxşı əcr vardır. Və ona əmrimizin asan olanını söyləyəcəyik".[2]
Gördüm ki, həqiqətən də bu ayənin tam təsdiqi həmin möhtərəm şəxsiyyətdir, iman, sağlam əməl, gözəlliyin qiymətləndirilməsi və bütün bunlar ən yaxşı mükafatdır.[3]

1 'Zumər" surəsi, ayə 30
2 "Kəhf" surəsi, ayə 88
3 Hökumət üzvlərinin böyük dini rəhbərlə görüşündə həzrətin çıxışı, 17/3/1368

**İmamın gördüyü hər bir iş Allah qiyamı məqsədi daşıyırdı**

Böyük dini rəhbər əzizimiz mərhum İmamın bütün ömrü boyu nəzərində olan Allah qiyamı "De: Mən sizə təkcə nəsihət verirəm. Allah üçün bir-bir və iki-iki qiyam edin!" ayəsi[1] haqda belə buyurur:

– Bir neçə il əvvəl onun mərhum Vəzirinin xatirə dəftərindəki yazısını Yəzd şəhərində gördüm. Mərhum məni öz mənzilinə apardı və sandıqçaya qoyduğu həmin yazının təfsilatı ilə tanış etdi. O, bu məktubu evinin bir küncündə gizlətmişdi, onu gətirib açdı və iyirminci onillikdə yazdığı "Qiyamullah" başlıqlı yazını mənə göstərdi.

Əslində onun bu yazısının əsas məğzini Allah üçün qiyam təşkil edirdi. Onun geniş tutumlu yaddaşı və dünyagörüşü həmin dövrdə, yəni xalqın Rza xanın əsarətindən yenicə xilas olduğu bir zamanda nəzərdə tutulan işlər adamlar tərəfindən yerinə yetirilməliydi və onlar bu işin-Allah üçün qiyamın məsuliyyətini hiss etməliydilər.

Mərhum bir-iki səhifə yazmışdı və həmin məktub yeni bir hərəkat haqqında deyildi və məlum olurdu ki, həzrətin yaddaşında və həyatının bütün mərhələlərində "Allah üçün bir-bir və iki-iki qiyam edin" fikri başlıca yer tutmuşdur...

Baş vermiş bu hadisə və İslam inqilabının ardınca dünyada böyük dəyişikliklərin özünü büruzə verməsi həqiqətən də bir möcüzə idi. Bu möcüzə İmamın (r) əli ilə baş verdi və İmam da "Allah üçün qiyam edin" fikrinə əsaslanaraq həmin işi görə bildi.[2]

---

1 "Səbə" surəsi, ayə 46

2 "Hədise vilayət", III cild, səh.201-204

**İmamın "Kumeyl" duası və şaban munacatına bağlılığı**

Böyük dini rəhbər Həzrət İmamın (r) dua ilə bağlılığı barədə deyir:
– Bir dəfə ondan soruşdum ki, ən məşhur dualar içərisində hansı duaya daha çox bağlılığınız var, yaxud hansına daha çox inanırsınız? O, bir qədər düşündükdən sonra buyurdu: "Kumeyl duası və şaban munacatına".
Əbu Həmzə Səmalinin və ya İmam Hüseynin (ə) Ərəfə günündə oxuduğu dualar kimi çoxsaylı digər dualar da Allah-Təala ilə əlaqə yaratmalarına baxmayaraq, siz bu iki duaya müraciət edəndə Allahı sevə-sevə onun günahların yuyulması, tövbə edilməsi və köməyə çağırılması hallarını müşahidə edirsiniz.
Kumeyl duası da Allah-Təala ilə munacatdır və bəndə ilə Allah arasındakı eşq və məhəbbət münasibətlərini bildirir. Bu həmin məsələ idi ki, bizim böyük İmamımız öz ruhunu  və qəlbini onunla daha da aydınlaşdırırdı.[1]

1 "Hədise vilayət", III cild, səh.300

**İran nümayəndə heyətində İmamı görür və onun ətrini alırdı**

Həzrət Zəhranın (s) sülaləsindən olan İmamın rəhbərlik etdiyi dövrdə Afrika ölkələrindən birinə etdiyi səfər barədə buyurur:
– Respublikaya rəhbərlik etdiyim günlərdə Afrika ölkələrindən birinə rəsmi səfər etdim. Təyyarənin pilləkanından aşağı enəndə gördüm ki, həmin ölkənin prezidenti qorxa-qorxa məni gözləyir. Bu, onun sifətində də açıq-aydın görünürdü. Avtomobillərə oturub qonaq evinə tərəf yola düşdük. Avtomobildə gördüm ki, həmin şəxs bir kənarda oturub, mənim sifətimə baxmağa belə cürət etmir. Mən çox böyük zəhmətlə yavaş-yavaş onu söhbətə tutdum.
İrana qayıdanda İmama dedim ki, onlar bizdə sizin vücudunuzun zərrələrini görürlər.
Həmin ölkənin prezidenti mənim qarşımda bu cür itaətkar deyildi, axı mən kim idim ki, o, İmamın qarşısında belə müti idi, inqilabın rəmzi olan İmamın qarşısında. Adını çəkmək istəmədiyim həmin şəxs özünü saxlaya bilmirdi. O, tanınmış bir prezident idi və adi adamlardan deyildi. Ancaq İran nümayəndə heyətində İmamı görür və onun ətrini alırdı.[1]

---

[1]“Hədise vilayət”, VI cild, səh.108, Böyük dini rəhbərin komandanlarla görüşdə çıxışı

**“Əqidə qoruyucuları ona diqqət yetirməlidirlər”**

Böyük dini rəhbər ziyarət məsələsi ilə əlaqədar olaraq yeni qeyri-adi və maraqlı adətlər barədə deyir:
– Yaxın zamanlarda ziyarət məsələsi ilə əlaqədar olaraq çox qeyri-adi və maraqlı bir adət yaratmışlar. Siz hər halda eşitmisiniz ki, dini alimlərdən hər hansı biri və ya imamlardan biri ziyarət etmək istədikləri zaman həyət qapısından içəri daxil olub, torpağın üstünə uzanır və sürünə-sürünə özlərini müqəddəs ocağa çatdırırlar. Bir qrup adamlar vardır ki, onlar Əli ibn Musa Rzanın (ə) ziyarətgahına daxil olanda torpağın üstünə düşürlər və iki yüz metrlik yolu sürünə-sürünə gəlirlər. Məgər bu düz işdir? Xeyr, bu iş yanlış işdir və bu, dinə, ziyarətə xəyanətdir. Kim bu məsələləri adamların arasında adət halına salıb? Yoxsa bu da düşmən işidir?
Bunları adamlara deyin. Onların zehinlərini aydınlaşdırın. İslam məntiqi bir dindir və İslamın ən məntiqli bölməsi həmin qüvvətli təfsirdir və şiə bu təfsirə malikdir. Şiə alimlərinin hər biri öz zamanlarında bir günəş kimi parlamışlar... Şiəlik budur. Bəs nə üçün nəinki yalnız arqumentləri olmayan şeyləri, hətta bu mövhumatları belə dinə daxil edirlər? Bu, həmin o böyük təhlükədir ki, din və dinin maarifi sahəsində mövcuddur. Əqidə qoruyucuları buna diqqət yetirməlidirlər.[1]

1 Elmi mərkəz və ruhanilər böyük dini rəhbərin göstərişlərinin fonunda, II cild, səh.173-174

**“Bu, mənim etiqadımdır”**

Əziz rəhbərimiz mərhum İmama xidmət göstərərkən İslam inqilabının qələbəsi ilə bağlı onun əqidəsi barədə buyurur:
– Mən iki-üç gün əvvəl İmamın (r) xidmətində olarkən bir məsələni onun nəzərinə çatdırmaq istəyirdim. Həmin fikri mən onun nəzərinə çatdırdım və o fikir bundan ibarət idi ki, mənim əqidəmcə, bu quruluşun qələbəsi yalnız bizim zəmanəmizin ruhanilərinin şərəf və ləyaqəti sayəsində baş verməmişdir. Əksinə bu inqilabın qalib gəlməsindən ötrü bizim xərclədiyimiz həmin sərmayə Şeyx Kuleyni və Şeyx Tusinin zamanından bizim dövrümüzədək olan şiə ruhanilərin şərəf və ləyaqətindən ibarətdir. Həmin ehtiyat və əmanət istifadə olundu və bizim böyük inqilabımız qalib gəldi. Həqiqətən də çox böyük bir möcüzə hesab edilən bu hadisə baş verdi. Bu, mənim etiqadımdır. İmam da mənim həmin gün irəli sürdüyüm bu fikri qəbul etdi və məlum oldu ki, onun da qeyd olunan məsələ barədə fikri eynilədir və o da bu həqiqəti təsdiq edir.[1]

1 Ruhanilərin bir qrupu ilə görüşdə böyük dini rəhbərin çıxışı, 11/V-1369

**“Çalışın ki, dinin şöləsi aşağı düşməsin”**

Bir gün Həzrət İmamın (r) yanında idim, yadımda deyil müxbirlərin məlumatları, yaxud cümə imamları ilə əlaqədar olaraq onun yanına getmişdim, böyük alimlər icması da orada idi. Hardasa qırx, ya əlli nəfər olardı. Orada Qum və elmi mərkəz barədə söhbət açıldı. Qum alimlərindən biri, Qumda hamının ehtiram göstərdiyi və qəbul etdiyi bir professor həmin iclasda İmama bir cümlə dedi: “Siz Quma münasibətdə bu diqqəti və köməyi həmişə göstərin”.
Həmin gün İmam buyurdu: “Bu məsələlərə ehtiyac yoxdur, siz Qumda yalnız iki məsələyə diqqət yetirin, bütün məsələlər həll ediləcək. Biri fiqhdir, indi dəqiq yadımda deyil, deyəsən belə bir ifadə işlətdi: Çalışın ki, fiqhin şöləsi aşağı düşməsin, ikincisi isə əxlaq və tərbiyədir”.[1]

1Qumun bir qrup tələbəsinin böyük dini rəhbərə beyəti mərasimində həzrətin göstərişləri, 23/III-1368

**“Gördün, bu uşaqlar nə etdilər?”**

Böyük dini rəhbər uşaqların müharibəyə köməyi barədə deyir:
– Bir dəfə mən İmamın (r) yanına getmişdim. Həmin gün cümə namazında uşaqlar öz pul daxıllarını da gətirmişdilər. Onlar pul daxıllarını sındırıb pulları yerə tökdülər və yerdə bir qalaq pul düzəldi. Həmin günlər xəstəxanada olan İmam bu hadisəni televiziyada görmüşdü və mən həmin vaxt İmamın olduğu otağa getdim. Orada adamlardan, onların sədaqətli olmalarından söhbət düşdü və o dedi: “Gördün, bu uşaqlar nə etdilər?”
Həmin vaxt onun gözləri yaşardı və ağlamağa başladı.[1]

1 Bir qrup şəxsin böyük dini rəhbərlə görüşündə həzrətin çıxışı, 12/IV-1367

**Sevincin təsiri**

Mən bir səfərdə Kürdüstana və Qərbi Azərbaycana gəldim və Səhəndəc, Mehabad camaatı, habelə kürd qardaşlarımız əziz İmama və inqilaba münasibətdə ruhanilər, ziyalılar və bütün xalq tərəfindən göstərilən həmin səmimiliyin və sədaqətin həqiqətən də düşmənlərə, ayrı-seçkilik salanlara və rəqiblərə böyük zərbə olduğunu bildirdilər. Mən səfərdən qayıdanda İmamın yanına getdim və baş verənlər barədə ona məlumat verdim. Onun işıqlı qəlbi xeyli şad oldu və sevincinin təsiri pak və müqəddəs çöhrəsində özünü büruzə verdi.[1]

1 Lərestan vilayətindəki tayfaların böyük dini rəhbərə beyətində həzrətin çıxışı, 13/IV-1368

**“Mən özüm işləri görər və ağır yükləri öz çiynimə götürərəm”**

Əziz rəhbərimiz mərhum İmamın (r) çalışqanlığı və böyük iş qabiliyyəti barədə buyurur:
– Bu xalqın və inqilabın rəhbəri elə bir şəxs idi ki, hətta 80 yaşlarında belə dünyanın ən ağır, ən çətin işlərini öz çiyinlərinə götürürdü. İmam İrana daxil olduğu gün təxminən 80 yaşı var idi. Mən qocayam, yaxud yorulmuşam demədi.
1359-cu ildə günlərin birində Əhvazdan Tehrana qayıdanda həzrətin yanına getdim və incik halda məsələ ilə bağlı söhbət etdim. O, mənə bildirdi ki, camaata iclasın keçiriləcəyi barədə məlumat verək. Yığıncaq günün ortasında və əvvəlkilərdən fərqli bir şəkildə keçirildi. Cavan ürəkli, qəlbi sevinclə dolu olan bu yaşlı adam iclası heç bir yorğunluq hiss etdirmədən idarə etdi. Allah üçün görülən iş yorğunluq gətirməz və bu, vaxta tabe deyildir.
Bir dəfə yanlış olaraq iman əhlinin sıralarına qatılmış vicdansızlardan birisi danışanda İmam ona cavab olaraq bildirdi: “Əgər siz yerinə yetirmək istəmirsinizsə, bizdən kənar olun. Mən özüm işləri yerinə yetirərəm və ağır yükləri öz çiyinlərimə götürərəm”. Heç kim inanmırdı ki, İmam bu cür gənc adam kimi meydana girə bilər.[1]

---

1 “Comhuriye İslami” qəzeti, 6/VII-1374

**“Minbərdə oturduğu ilk gün ağladı”**

Əziz rəhbərimiz İmamın birinci gün minbərdə oturması barədə deyir:
– O möhtərəm insan (mərhum İmam) Qumda dərs keçmək üçün minbərdə oturduğu ilk gün mən onun dərslərinə hazır idim. O, öncə yerdə oturdu və dərs deməyə başladı. Ancaq bir qədər sonra məclisdə oturanların sayı artdı və tələbələr bildirdilər ki, onun çöhrəsini daha yaxşı görmək və səsini daha yaxşı eşitmək istəyirlər. Odur ki, onlar israr etdilər ki, İmam minbərdə otursun. Məncə, İmam Ayətullah Büricerdinin rəhmətə getməsindən sonra bunu qəbul etdi.
O böyük şəxsiyyət həyatda olduğu müddətdə həzrət minbərdə oturmadı. Bu böyük insan həmin gün bütün vaxtını nəsihətlə başa vurdu.
Onun “Bismillah”dan sonra buyurduğu ilk məsələ ondan ibarət idi ki, mərhum Nayini (r) dərs keçmək üçün minbərdə oturduğu birinci gün ağladı və dedi:
– Bu, həmin minbərdir ki, Şeyx Ənsari (r) onun üstündə oturmuşdur, indi isə mən onun üstündə oturmalıyam. O, oturduğu yerdən tələbələrə nəsihət etməyə başladı ki, nə iş gördüyünüzü başa düşün və bu məsuliyyətin nə qədər ağır olduğunu dərk edin.[1]

1 “Hədise vilayət”, IV cild, səh.24

**“İlahi bir qüvvə bizə yardım edir”**

Böyük dini rəhbər 1366-cı ilin baharında mərhum İmama ilahi bir qüvvənin kömək etməsi barədə deyir:
– 1366-cı ilin baharında İmamla əlaqədar təhlükəli bir hadisə baş verəndə onun ürəyində problem yarandı. Biz həmin vaxt Tehranda deyildik və hadisə ilə bağlı xəbər alan kimi Tehrana qayıtdıq. Hadisədən bir neçə gün əvvəl İmamın yanında olan yoldaşlarımızdan bir neçəsi bir gecə onun yanında əyləşmişdik ki, imamlardan birinin doğum gününə təsadüf edən fərvərdin ayının ilk günlərində xalqla bir görüş keçirsin. Həzrət bu təklifi qəbul etmədi və dedi: “Halım yoxdur”.
Mən, cənab Haşimi Rəfsəncani və Hacı Əhmədağa nə qədər israr etdiksə və Hüseyniyyədə camaatla bir görüş keçirməsinin zəruri olduğunu bildirdiksə, o, bizimlə razılaşmadı və qəti şəkildə dedi: “Halım yoxdur”.
Bundan dörd-beş gün sonra bayram idi və mən Məşhədə getmişdim. Cənab Haşimi də cəbhədə idi, bizim heç birimiz Tehranda deyildik. Bayramın üçüncü, yaxud dördüncü günündə onda ürək ağrıları başladı. Həzrətin əziz oğlu Hacı Əhmədağa, həqiqətən də onun bütün adamların boynunda böyük haqqı vardır, bütün bu illər ərzində İmama qulluq göstərirdi və baş verə biləcək belə hadisələr üçün hazırlıqlı idi. O, dərhal özünü İmama yetirmiş və beləcə təhlükə sovuşmuşdu. Təhlükə aradan qalxdıqdan sonra mən onun yanına, xəstəxanaya getdim. Orada bəzi şəxslərin yanında İmama bildirdim ki, ağa, nə yaxşı oldu ki, o gecə biz sizin camaatla görüşməyinizi israr edəndə siz qəbul etmədiniz. Əgər siz bu görüşü qəbul etsəydiniz və görüşün vaxtı bildirilsəydi, camaat da gəlsəydi, sizə belə bir vəziyyətdə onlarla görüşmək müyəssər olmayacaqdı. Bu da istər-istəməz öz mənfi təsirini göstərəcəkdi. Deməli, bu, Allahın işi idi ki, o gecə biz nə qədər israr etdiksə, siz çox möhkəm dayandınız, heç bir təsir altına düşmədiniz və buyurdunuz: “Mən camaatla görüşmürəm”. Əlbəttə ki, bu, İlahi bir kömək idi. Həzrət orada mənə bir söz dedi və mən otaqdan çölə çıxanda həmin fikri qeyd etdim. O zaman İmam mənə demişdi: “İnqilabın ilk günlərindən bu günədək bütün işlərdə sanki İlahi bir qüvvə həmişə bizə yol göstərir və bizi müdafiə edir”.
Bu, eynilə İmamın dediyi fikirdir və həqiqətən də belədir. Odur ki, adi iqtisadi hesablamalar və bütün dünyanı idarə edən hesablamalar sizin gördüyünüz bu nəticələri vermir. O hesablamalar tamamilə başqa bir nəticə verir.[1]

1 İslam İnqilabı Komitəsi üzvlərinin böyük dini rəhbərə beyətində həzrətin çıxışı, 18/III-1368

**İmamın verdiyi böyük dərs**

Böyük dini rəhbər İmamın verdiyi böyük dərs barədə buyurur:

– İmam həyatının son anlarınadək Allaha dua etməkdən və namaz qılmaqdan uzaqlaşmadı. Bizim çox ağır və təsəvvür edə bilməyəcəyimiz həmin saatlarda günortadan üç-dörd saat sonra gecə saat 10:20-dək Həzrət İmamın əziz övladı Ağa Hacı Əhmədağa bir şeyi deyirdi, yenə də deyirdi: İmam günortadan qabaq taxtın üstündə namaz qılmağa başlayırdı və dayanmadan namaz qılırdı.

O deyirdi ki, bilmirəm, İmam vacib olmayan (nafilə) namaz qılırdı, yoxsa başqa namaz qılırdı. Sonra İmam soruşdu: günorta olub? Dedim, bəli. O, bunu eşitcək yenə də vacib olmayan namazı qılmağa başladı. Günorta və axşam namazları başa çatdı, sonra zikr etməyə başladı. Həzrət həmin hadisəyədək bu işi davam etdirdi və o, koma vəziyyətində belə bir-birinin ardınca "Subhanəllah, əlhəmdülillah, La İlahə İlləllah, Allahu əkbər" sözlərini təkrar edirdi. Həzrət son anadək Allaha zikr edirdi və buna görə də onun bütün işləri rəhbəri sevən bizlər üçün böyük dərs olmalıdır. Biz də onun bu işlərini və mənəvi keyfiyyətlərini davam etdirməliyik.[1]

1 İslam İnqilabı Komitəsi üzvlərinin böyük dini rəhbərə beyətində həzrətin çıxışı, 18/III-1368

**“Hər bir şey bizim borcumuz idi”**

Mən dəfələrlə əziz İmamımızdan soruşmuşam ki, o, hansı ildən etibarən və nə vaxtdan İslam hökumətinin bərqərar edilməsi barədə düşünməyə başlayıb? Onun dini rəhbərlik barədə dərsləri Nəcəfdə 1347-ci ildə başlayıb və 1348-ci ildə də həmin dərslərin kasetləri buraya gətirilib. Bilmək istəyirdim ki, görüm, həzrət bundan əvvəl belə bir fikirdə olmuşdurmu?

İmam buyurdu ki, dəqiq yadımda deyil, nə vaxtdan İslam hökuməti barədə düşünməyə başlamışam. O deyirdi ki, ancaq ilk günlərdən bilmək istəyirdik görək, bizim üzərimizə hansı vəzifələr düşür, şah rejimi ilə mübarizə bizim borcumuz idi.

Onların hər hansı bir günah əməllərinə qarşı etiraz etmək bizim borcumuz idi. Onların göstərdikləri müqavimətin qarşısında dayanmaq bizim borcumuz idi. Sionist rejimin və israillilərin hakimiyyətini ifşa etmək bizim borcumuz idi. Son onda Allah-Təala özü belə bir vəziyyəti yaratdı.

Bu, baş vermiş hadisə ilə əlaqədar olan həqiqətdir, əlbəttə, bu, iman idi, cihad idi, sədaqətin, sağlam əməlin nümayiş etdirilməsi idi, böyük qələbə də bütün bunların qaçılmaz nəticəsiydi.[1]

1 Məşhəd Elmi Mərkəzinin bir qrup müəllim və tələbələrinin böyük dini rəhbərə beyətində həzrətin çıxışı, 20/IV-1368

**“Bizim həyatımız bu şeylərə uyğunlaşmamışdı”**

Böyük dini rəhbərin şagirdlərindən biri belə söhbət edirdi:
– Əziz rəhbərimiz inqilabın qələbə çalmasından bir neçə il əvvəl öz evində toplantı təşkil etmişdi. Biz də həmin yığıncaqda iştirak edirdik. Onun evində münasib bir xalça da yox idi. Bir gün belə qərara aldıq ki, onun evi üçün xalça alaq.
Bu məqsədlə də bazara getdik. Oradan iki xalça alıb, ona xəbər vermədən xalçaları həmin evin döşəməsinə saldıq. Həzrət həmin vaxt evdə yox idi. O, evə gələndə və xalçaları görəndə çox narahat olub dedi: “Öncə məndən tapşırıq alsaydınız və sonra bu xalçaları alıb gətirsəydiniz, daha yaxşı olardı. Bizim həyatımız bu cür şeylərə uyğunlaşmayıb. Əgər yerə döşənəcək bir şey almaq istəyirdinizsə, kilim alardınız”.
Buna görə də biz məcbur qalıb həmin xalçaları satdıq və həzrətin evi üçün kilim aldıq.[1]

1 “Rəhbərin siması”, Hərəkatın təhsilə və insan qüvvələrinə yardım şöbəsi

**“Əgər düyü yoxdursa, düyü yemərik”**

Böyük dini rəhbərin yaxın adamlarından olan bir şəhid anası deyirdi:

– Bir dəfə onların qonağı idik. Günorta olardı, biz süfrənin arxasında oturub Hacıağanı gözləyirdik. O, gəlib yeməyə baxanda dedi:

– Deyəsən, düyünün növünü başqa günlərin düyüsü ilə qarışdırıb?

Onun xanımı dedi:

– Hacıağa! Bayram günüdür, evdə qonağımız da var. Talonla aldığımız düyü də qurtarıb. Məcbur qalıb talonsuz satılan düyü aldım. Hacıağa narahat olub dedi:

– Bizim həyatımızda dəyişiklik etməyin əsası yoxdur. Axı, biz qonaqlarla bu barədə danışmamışıq. Əgər düyü yoxdursa, düyü yemərik.[1]

1 “Rəhbərin siması”, Hərəkatın təhsilə və insan qüvvələrinə yardım şöbəsi

**Hacıxanımın sağlamlığı üçün salavat**

Böyük dini rəhbərin yaxın adamlarından biri deyir:

– Böyük dini rəhbər öz həyat yoldaşına çox hörmət edirdi və bu ehtiram onun həyat yoldaşının illərlə göstərdiyi səbir və dözümlülüyə cavabı idi. Həzrət həyat yoldaşı barədə buyurur: “O, hətta bir dəfə belə həyatımızın çətinliyindən və həbsxanada keçirdiyimiz günlərdən şikayətlənməmişdir”.[1]

Bir dəfə mən rəhbərin yanında bir süfrənin yuxarı başında oturmuşdum. Onun həyat yoldaşı hələ gəlməmişdi. O, gələndə bizim rəhbərimiz zarafatla və ehtiramla dedi: “Hacıxanımın sağlamlığı üçün xeyir-dua verin”.

---

1“Rəhbərin siması”, Hərəkatın təhsilə və insan qüvvələrinə yardım şöbəsi

**“Bu bahalıqda bananı mənə almısan?”**

Əziz rəhbərimizin yaxın adamlarından biri deyir ki, həzrət şah rejimi dövründə apardığı mübarizələri ilə əlaqədar olaraq bir müddət həbsxanada qalmışdır.Bir gün onun azadlığa buraxılması qərara alınanda şahın məmurları onu həbsxanadan buraxmadılar.Əksinə onu avtomobillə başqa bir yerə apardılar və mən həmin yerdən onu öz avtomobilimə mindirdim.
Biz yola düşəndə, yolda gördüm ki, o narahatdır. Yadıma düşdü ki, onda mədə xəstəliyi var və belə olan hallarda mütləq bir şey yeməlidir.
Buna görə də heç bir söz demədən avtomobili bir parkın yanında saxladım. Avtomobildən düşdüm və 1 kq. banan aldım. Bananlardan birini qırıb ona verdim və dedim: “Buyurun, yeyin!”
O, banana baxıb dedi: “Bu bahalıqda bananı mənə almısan?”
O zaman banan digər meyvələrlə müqayisədə o qədər də baha olmamasına baxmayaraq və nə qədər israr etdimsə, bananı yemədi və buyurdu: “Adamlar bu bahalıqda meyvəni yeyə bilmədiklərinə görə, mən də yemirəm!”[1]

1 “Rəhbərin siması”, Hərəkatın təhsilə və insan qüvvələrinə yardım şöbəsi

**Çörəkxanada başqalarının hüququna riayət etmə**

Əziz rəhbərimizin Məşhəddəki qonşularından biri deyir:
– İslam inqilabının qələbəsindən bir neçə il əvvəl rəhbərimiz şah rejimi ilə mübarizə aparırdı. Şahın məmurları hər bir yerdə onun axtarışında idilər və hər bir an onu tuta bilərdilər. Bir gün mən çörək almaq üçün növbədə dayanmışdım, bu zaman o da gəldi və növbədə durdu. Mənlə onun arasında iki nəfər var idi. Mən ona salam verib, əhvalını soruşduqdan sonra dedim: “Hacıağa, siz neçə çörək istəyirsiniz? İcazə verin, sizin üçün çörək alım”.
O, ciddi görkəm alıb dedi: “Bizim aramızda iki nəfər vardır. Onların haqqının tapdalanmaması üçün özüm çörək alaram”.[1]

1 “Rəhbərin siması”, Hərəkatın təhsilə və insan qüvvələrinə yardım şöbəsi

**“Evin fasadını düzəltməyə ehtiyac yoxdur”**

Böyük dini rəhbərin müqəddəs Məşhəd şəhərində bir evi var idi. O, Məşhəddən Tehrana köçəndə onun qardaşlarından biri evi satmaq üçün bir nəfərlə söhbət etmək istədi. Həmin adam evi gördükdən sonra dedi: “Bu evi satmaq üçün öncə onun fasadına əl gəzdirməliyik. Bundan sonra evi sata bilərik. Əgər evin fasadına əl gəzdirməsək, onu yaxşı qiymətə sata bilmərik”.
Ancaq bizim əziz rəhbərimiz bu təklifə qarşı çıxıb, həmin şəxsə dedi: “Əgər mənim evimi satmaq istəyirsənsə, olduğu kimi sat. Onun fasadına əl gəzdirməyə gərək yoxdur”.
Həmin şəxs dedi: “Evin satılması üçün onun fasadı düzəlməlidir. Ona görə ki, heç bir kəs evi bu vəziyyətdə almaz”.
Rəhbərin dediyi kimi oldu və ev beş ayadək boş qaldı. Bundan sonra onun qardaşı bir müddət həmin evdə yaşadı.

**“Voleybolu çox xoşlayırdım”**

Böyük dini rəhbərdən oyun oynamaq barədə soruşanda həzrət dedi:
– Bəli, oyun da oynayırdım. Ancaq küçədə oynayırdıq, evdə oynamağa yer yox idi. Uşaqların o vaxtkı oyunları tamamilə fərqlənirdi. Bir qədər də idman oyunlarını xatırladırdı. Futbol, voleybol və s. idman oyunları kimi. Mən o zaman küçədə uşaqlarla voleybol oynayırdım, bu idman növünü həm də çox xoşlayırdım. İndi də bəzən kollektiv idman növü ilə məşğul olmaq istəyəndə, əlbəttə, öz uşaqlarımla voleybol oynayırıq. Bu, çox yaxşı idman növüdür.
O dövrün idmanla əlaqəsi olmayan oyunlarından biri “qaçdı-tutdu” oyunu idi və ümumiyyətlə, həmin oyunlarda elə bir məna yox idi. Yəni fərz etsək ki, həmin oyunlardan bəzisi uşaqlar üçün öyrədici xarakter kəsb edə və təfəkkürə malik olan uşaq onu seçə bilər, indi mənim hafizəmdə olan oyunlar əslində həmin xüsusiyyətlərə malik deyildir, amma oyun və əyləncədir.

**Məhəbbətdən yaranan göz yaşları**

Əziz rəhbərimiz incəsənət fəaliyyət sahələri ilə əlaqədar olaraq buyurur: “Dəfələrlə belə hadisələr olmuşdur ki, fikir və incəsənət sahələrilə bağlı olan çağdaş nəslin nümayəndələrinin sənət nümunələrini, yaxud onların zövqlü əsərlərini eşidəndə və ya görəndə onların təsiri altına düşmüş və çox həyəcanlanmışam.
Əksər hallarda ssenarilər, pyeslər, yaxud şeirlər məni o qədər təsirləndirmişdir ki, vəcdə gəlib göz yaşları tökmüşəm”.

**“Ölkəmiz müharibə vəziyyətindədir”**

Böyük dini rəhbərin yaxınlarından biri belə deyirdi:
– O, bir gün ölkəyə rəhbərlik etdiyi zaman onun üçün bir samovar almağı xahiş etdi. Mən bazara getdim və çox böyük zəhmətlə bir ədəd elektrik samovarı aldım. Həmin günün səhərisi o buyurdu: “Samovarı geri qaytarın”. Mən dedim:
– Hacıağa, biz çox çalışdıq ki, kooperativ qiyməti ilə bir ədəd elektrik samovarı tapaq. Ancaq əziz rəhbərimiz buyurdu: “Bizim üçün adi samovar hazırlayın. Ona görə ki, indi ölkəmiz müharibə vəziyyətindədir. Belə bir vəziyyətdə bizim elektrik samovardan istifadə etməyimiz doğru deyil”.[1]

[1]“Rəhbərin siması”, Hərəkatın təhsilə və insan qüvvələrinə yardım şöbəsi

**Həmin əvvəlki məhəbbət və əvvəlki həvəs**

Böyük dini rəhbərin yaxın adamlarından biri deyir:
– Bir dəfə o, ölkəyə rəhbərlik etdiyi dövrdə mənə buyurdu: "Məşhəddəki bütün qonşularımızı dəvət edin, Tehrana gəlsinlər". Mən də onun dediyini etdim. Hətta o demişdi ki, məscidin xidmətçisini də dəvət edim. Qonşular elə fikirləşmişdilər ki, o, ölkəyə rəhbərlik etdiyi indiki zamanda heç kimi xatırlamayacaq və onlarla səmimi görüşməyəcəkdir. Ancaq onlar Tehrana gələndə ölkə rəhbərinin davranışı onlarda böyük iz buraxdı. Rəhbər onların hər birini əvvəlki məhəbbət və əvvəlki həvəslə qarşıladı.[1]

1 "Rəhbərin siması", Hərəkatın təhsilə və insan qüvvələrinə yardım şöbəsi

**“Səni cəddimə and verirəm, bir söz də demə”**

Böyük dini rəhbərin yaxın adamlarından biri deyir:

– Məşhəddə bir qonşumuz var idi ki, əxlaq və şəriət qaydalarına riayət etməzdi. Həzrət də öz işləri naminə əksər günlərini evdə keçirirdi. Evə gedəndə gördüm ki, həmin qonşuya görə narahatdırlar. Dedim: “Hacıağa, icazə verin, gedim və ona xəbərdarlıq edim”.

Buyurdu: “Səni cəddimə and verirəm, bir söz belə demə. Ona heç bir söz deməməlisən, elə mənim narahat olduğumu görsə bəlkə də özünü düzəldər”.

**“Mənim o ağadan heç bir şikayətim yoxdur”**

İslam inqilabından əvvəl böyük dini rəhbərlə yaxşı münasibətləri olmayan bir nəfər inqilab qalib gəldikdən sonra da ona yazdığı məktubda həzrətə qarşı hörmətsizlik etmişdi. Sonralar həmin şəxs tutulur və məhkəmədə qazi həmin məktuba işarə edərək, onu məhkum edir. Ancaq həmin şəxsin məhkum olunması xəbəri böyük dini rəhbərə çatanda o, qaziyə belə bir xəbər göndərir: “Mənim o ağadan heç bir şikayətim yoxdur”.
Bir şəxs inqilabın əvvəllərində qəzetlərin birində böyük dini rəhbərə nalayiq sözlər yazmışdı. Bir neçə ildən sonra həmin şəxs uşaqları ilə birgə rəhbərin görüşünə gəldi. O, evə daxil olanda ailənin bütün üzvləri narahat olub dedilər: “Nə üçün bu şəxs buraya gəlmişdir. O, dediyi nalayiq sözlərə baxmayaraq, yenə də rəhbəri görməyə gəlmişdir!”
Ancaq həzrət bütün bunları onun üzünə vurmayıb, onunla söhbət etməyə başladı, onu və uşaqlarını çox yaxşı şəkildə qəbul etdi.

**“Mən sizdən xahiş edirəm”**

Bir gecə Əhvazda 92-ci zirehli diviziyada zabitlərdən biri xahişlə mənim yanıma gəlib dedi:
– Mənim sizə bir-iki kəlmə sözüm var. Mən fikirləşdim ki, o, məndən yəqinki icazə almaq istəyir. Nədənsə ağlıma gələn elə bu oldu. Nəhayət, dedim, çox yaxşı, gəlin görüm nə işiniz vardır?
O, mənim yanıma gəlib ağladı və dedi: “Mən sizdən xahiş edirəm, məni də Xuzestan torpaqları üzərində, Əhvaz şəhərinin 15 kilometrliyində yerləşən düşmən qüvvələrini dəf etmək üçün gecələr göndərilən və fərdi silahlarla, habelə qumbara-atanla silahlanmış həmin könüllü qüvvələrlə göndərin, yaxud özünüzlə birlikdə aparın”.
Zirehli hərbi hissələrdən birinə baxış keçirərkən mən həmin zabiti gördüm. O, tankın kənarında dayanıb namaz qılırdı. Ola bilsin ki, bu məsələlərin çoxunu camaat bilmir.[1]

---

1 “Comhuriye İslami” qəzeti, 5/II-1374

## Qənaət

Höccətülislam vəl-Müslimin Qiraəti böyük dini rəhbərin həyatda sadəliyi və qənaətcilliyi barədə buyurur: "Qızımın nikah mərasimi ilə əlaqədar olaraq onun evinə gəlmişdik. Ağanın evindəki xalça xeyli köhnəlmişdi.[1]
O, ölkəyə rəhbərlik etdiyi zaman biz namaz vaxtı ona iqtida edirdik. Həzrət otaqdakı artıq lampaları söndürdü, yalnız bir lampanı söndürmədi".[2]

1 Müsahibə, Orduda İslam Tədqiqatları Mərkəzi, 30/IX-1372, "Kövsər nəslindən ağıllı bir rəhbər", səh.123-124
2 Müsahibə, Orduda İslam Tədqiqatları Mərkəzi, 30/IX-1372, "Kövsər nəslindən ağıllı bir rəhbər", səh.123-124

**“Namazımın vaxtını ötürmək istəmirəm”**

Höcətülislam vəl-Müslimin Qiraəti deyir: “İstibdad rejimi dövründə o, qatarla yol gedirdi. Həmin vaxt mənə dedi: Qatarın həddən artıq dayanması namazı vaxtında qılmağıma mane olduğundan gözlükdən aşağı atıldım ki, namazın vaxtını ötürməyim”.

**“Elə ağlayırdı ki, çiyinləri də tərpənirdi”**

Höccətülislam vəl-Müslimin Qiraəti əziz rəhbərimizin munacatı və yalvarışları barədə deyir: “İnqilabın ilk ilində onu Kəbənin kənarında gördüm. Elə ağlayırdı ki, çiyinləri də tərpənirdi. Cənab Rəfsəncani başını aşağı əyib Xameneyi ağanın munacatına qulaq asırdı və hər ikisi çox məmnun görünürdülər”.[1]

1Müsahibə, Orduda İslam Tədqiqatları Mərkəzi, 30/IX-1372, “Kövsər nəsindən ağıllı bir rəhbər”, səh.123-124

**İmamın (r) böyük dini rəhbərə xüsusi qayğı göstərməsi**

Həzrət İmam idarə işlərində müəyyən normalara və qaydalara bağlı olduğundan həmişə xəbərlərin xülasəsindən sonra, səhər tezdən saat səkkizdə dəftərxana işlərinin icrasını və qəbzlərə möhür vurulmasını nəzərdə tutmuşdu. O, heç bir vaxt nəzərdə tutulan bu proqramı dəyişdirməzdi. Hətta yorğun olduğu və havanın soyuq keçdiyi vaxtlarda belə iş otağına gəlmirdi. Belə olanda biz onun yaşadığı evə gedirdik ki, dəftərxana işləri və əlaqədar xahişlər təxirə salınmasın, görüləsi işlər nəyin bahasına olursa-olsun yerinə yetirilsin. Nizam-intizam və vaxtın bir-birinə qarışmamasından ötrü başqa bir məsələ ilə əlaqədar olaraq qeyd edildiyi kimi, əgər vaxtında yerində olmasına mane ola biləcək xüsusi bir problem çıxsaydı, bir gün əvvəl xəbər verərdi.
Bu işlər başa çatdırıldıqdan sonra nikah və andiçmə mərasimi yerinə yetirilirdi, daha sonra isə məsul şəxslər və müxtəlif adamlarla öncədən nəzərdə tutulmuş görüşlər həyata keçirilirdi. Bütün bunlarla yanaşı, bir neçə istisna təşkil edən proqram da olurdu ki, Həzrət İmam göstəriş verib başqa proqramları ləğv etdirirdi. Onlardan biri də Həzrət Ayətullah Xameneyi ilə bağlı idi ki, İmam onun əvvəldən, yəni saat 800-da dəftərxanada görüşə hazır olmasından xəbər tutanda tapşırıq verdi ki, siz işlərinizi sonraya saxlayın. Beləcə, o, ümumi qaydalara zidd olaraq, öncə Həzrət Ayətulla Xameneyi ilə görüşdü, sonra biz öz işimizlə məşğul olduq.
O zamanlar biz Həzrət İmamın Ayətullah Xameneyiyə xüsusi münasibət göstərməsinin səbəbini sezə bilmirdik. Ancaq çox keçmədi ki, vaxtın ötməsi ilə İmamın uzaqgörənliyinin və dərindən düşünmə qabiliyyətinin daha bir nümunəsinin şahidi olduq.[1]

1 “Günəşin kölgəsində”, İmam Xomeyninin (r) həyatından qeydlər və xatirələr, səh.190

**Azan səsi ruhdan düşmüş könülləri ruhlandırır**

Mən bu yerdə bizim icmada azanın eşidilmədiyini yadıma salıram. Bu Tehranda azan səsi insanın qulağına çatmır. Bəs nə üçün? Azan islami bir əlamətdir. Biz gecə vaxtı çox gec səsucaldan vasitəsilə şeir, Quran, yaxud növhə oxudub qonşuların narahat edilməsinin əleyhinəyik. Biz belə işləri bəyənmirik və onlara qarşı çıxırıq. Ancaq eyni zamanda günorta məğrib və sübh namazlarından qabaq xüsusilə boğazlardan azan səsinin çıxmasının tərəfdarıyıq. Buna yüz faiz əminik və azan çox yaxşı bir nemətdir: "Həyyə ələs-səlat, həyyə-ələl-fəlah, Allahu əkbər".
Nə üçün cəmiyyətdə azan yoxdur?
Azan könüllərə ümid bəxş edir. Azan səsi ruhdan düşmüş könülləri nurlandırır. Əlbəttə, səhərlər sübh azanı üçün səsucaldandan istifadə olunmamalıdır. Ancaq boğazla azan vermək olar. Oyanma vaxtı olmasına baxmayaraq, səsucaldan insanları narahat edə bilər. Cəmiyyətimizdə bütün vəziyyət bu cür olmalıdır. Məscidlər namaz vaxtı mömin, etiqadlı insanlarla dolu olsun.[1]

1 "Hədise vilayət", IV cild, səh.206, Fədai və şəhid ailələri ilə görüşdə çıxış, 2/3-1369

## İstixarə

Əziz rəhbərimiz öz xatirələrində tutulması haqda buyurur: “Bir dəfə şahın məmurları məni evin yanında tutdular. Vəziyyət elə idi ki, tutulmağım barədə ailə üzvlərimə və qohumlarıma xəbər verə bilmədim. Məmurlar sonra məni avtomobilə mindirib Çabəhara tərəf apardılar. Şəhərlərdən birində məmurlar yorğunluqlarını aradan qaldırmaq və istirahət etmək üçün bir neçə dəqiqə dayandılar. Hamısı avtomobildən düşdü, mən də düşdüm və bir qıraqda oturdum. Məmurlar çalışırdılar ki, camaat mənim tutulmağımdan xəbər tutmasın. İstirahət vaxtı başa çatanda avtomobilə tərəf getmək istərkən bir gənc mənə yaxınlaşdı və dedi:  Hacıağa, əgər mümkündürsə mənim üçün istixarə edin.
Mən öz Quran kitabımı çıxartdım ki, onun üçün istixarə açım. Həmin vaxt şahın məmurları gəncin mənim onlar tərəfindən tutulmağımı hiss etməməsi üçün bir qədər aralı dayandılar. Gənc də fürsətdən istifadə edib yavaşca dedi: Hacıağa, mən istixarə açmağınızı istəmirdim. İstəyirəm soruşum, sizi hansı şəraitdə tutublar, indi hara aparırlar ki, bir iş görək.
Mən onun bu münasibətinə görə öz minnətdarlığımı bildirdim və Məşhəddəki qohumlarımın telefon nömrəsini verdim ki, onlara xəbər versin”.[1]

1 “Rəhbərin siması”. Savadsızlığın aradan qaldırılması hərəkatının təhsilə və insan qüvvələrinə yardım şöbəsi, səh.12-13

## Müqəddəs Cəmkəran məscidi

Höccətülislam vəl-Müslimin Əxtəri (rəhbərin beynəlxalq məsələlər üzrə müşaviri) deyir: ”Əziz rəhbərimiz Həzrət İmamla (r) əlaqə saxlayaraq, İslam inqilabına rəhbərlik edir və onun dəfələrlə Qumdakı Cəmkəran məscidinə getdiyini müşahidə etmişlər. O, məhz İmamla (r) əlaqə yaradıb onunla fikir mübadiləsi apardıqdan sonra ürəklə, iman və təvəkkül dolu bir qüvvə ilə yenidən Tehrana qayıdırdı”.[1]

1 Höccətülislam Əxtərinin vilayət təntənəsində çıxışı, 12 rəbiolsani 1421, Babol

**Ağa və şəhidlər**

Höccətülislam vəl-Müslimin Qolpayeqani şəhid ailələrində həzrətlə görüşməsi barədə deyir:
– Onun ardıcıl olaraq davam etdirdiyi proqramlarından biri şəhid ailələri ilə görüş idi. Bu görüşlər də elə planlaşdırılırdı ki, xüsusi ailələr öncədən onların evlərinə hansı şəxslərin gələcəyindən xəbərsiz olurdular. Yəni onların evlərinə daxil olanadək bu məsələ üstüörtülü qalırdı. Şəhid ailəsi bilmirdi ki, kim onun görüşünə gəlir. Qonaqlar da öncədən maraqlanırdılar ki, onların baş çəkəcəkləri evin sakinləri evdədirlər, ya yox. Ən maraqlısı isə bu idi ki, bir qayda olaraq, şəhərin aşağı hissəsində yaşayan vətəndaşlar seçilirdilər. Yəni şəhərin çox ucqar və qaranlıq məntəqələrində yaşayanlara üstünlük verilirdi.[1]

1 Cəbhə gündəliyi, nəşrin birinci nömrəsi

**İdman**

Hacıağa Qolpayeqani İslam inqilabı rəhbərinin alpinizm idman növünə böyük maraq göstərməsi barədə deyir:
– Sizə bildirmək istəyirəm ki, o, öz sağlamlığı naminə həftədə ən azı bir dəfə alpinizmlə məşğul olurdu və bu proqram saatlarla davam edirdi. Hətta gənclərin böyük əksəriyyəti onunla ayaqlaşa bilmirdi.[1]

1 Cəbhə gündəliyi, nəşrin birinci nömrəsi

**Şəhid ailəsi ilə görüş**

Kürəkəni də şəhid olan üç şəhid atası belə deyir:
– Bir gecə bizə telefonla bildirdilər ki, bu gecə bir neçə nəfər ailə üzvlərimizi görməyə gəlirlər. Mən belə fikirləşdim ki, yəqin bu adamlar məsciddən və ya Hüseyniyyədəndirlər və bizə baş çəkməyə gəlirlər.
Ona görə də hazırlıq işləri gördük. Axşam saat səkkizə az qalmış qapının zəngi çalındı. Qapını açanda öncə bir nəfər evə daxil oldu və onun ardınca böyük dini rəhbər evə təşrif gətirdi. Həmin vaxt mənim əhvalım xeyli yaxşılaşdı. Sanki bütün dünyanı mənə vermişdilər. Mən dörd şəhidimizin şəklini əziz rəhbərimizə göstərdim. O, bizim ailəmizin şəhidlərinə dua etdi. Mən dedim: "Hacıağa! Dua edin ki, şəhidlərin qanı yerdə qalmasın".
O dedi: "Şəhidlərin qanı heç bir zaman yerdə qalmır. Bizim inqilabımız ona sahiblik edəcək və onu qoruyacaqdır".[1]

1 "Rəhbərin siması", səh.14-15

**Əmmamənin mənəvi çəkisi çox böyükdür**

Böyük dini rəhbər tələbələrdən bir qrupunun əmmamə qoyması mərasimində əmmamələrin mənəvi çəkisi barədə buyurur: “Cənablar, siz bu əmmaməni başınıza qoydunuz, maddi və fiziki baxımdan onun bir neçə sir[1] çəkisi vardır. Əmmamənin özü bir neçə metr parçadan ibarətdir ki, əgər tərəziyə qoysaq, bir neçə sir olacaqdır. Ancaq bu əmmamənin mənəvi çəkisi çox böyükdür. Həqiqətən də nüfuzlu və mənəvi cəhətdən qüvvətli bir adam lazımdır ki, bu yükün altına girə bilsin. Bəzi boyunlar əmmamənin ağırlığı altında qalıb sınırlar, bəziləri də əslində o qədər qorxurlar ki, həmin yükü hiss etmirlər.
Bunlar düz deyil. Biz həqiqətən də mənəvi cəhətdən özümüzü qüvvətləndirməliyik. Güclü mənəvi sağlamlığa böyük ehtiyac var”.[2]

1 Sir - çəki vahidi olub, 75 qrama bərabərdir
2“Hədise vilayət”, III cild, səh.147

**“İslam sisteminin qılınc və qamçısının olmadığını düşünənlər səhv edirlər”**

İnqilabımızın sevimli rəhbəri Məşhəd alimləri və ruhani tələbələrin toplantısında buyurur: “Siz diqqət yetirin, biz Əmirəl-möminin (ə) hakimiyyəti dövründə iki cür böyük İslam səhabələrinə malik idik. Bəziləri o kəslər idilər ki, Əmirəlmöminin (ə) hakimiyyətə gələndən sonra haqqı qəbul etdilər və bütün varlıqları ilə onun xidmətində dayandılar. Əlbəttə, bəziləri o səviyyədə deyildilər, ancaq yenə də dayanmışdılar. Bir qismi isə hələ də tərəddüd edirdi.
Peyğəmbərin (s) rəhmətə getməsindən iyirmi üç il keçmişdi, ancaq bu müddət ərzində heç bir məsələdə şəkk-şübhə etmirdilər. İndi isə Əmirəl-möminin (ə) iş başına keçəndə bunlar şübhələnməyə başladılar. Bəziləri də dedilər: “Həqiqətən, biz bu müharibənin doğru-dürüstlüyünə şübhə edirik”.[1] Əmirəl-möminin (ə) belələrinə qarşı sərt mövqe tutdu. Mədinə məscidində Əmirəl-mömininə (ə) beyətdən sonra həzrət bildirdi ki, beyəti pozanları bir-bir gətirsinlər. Buyurdu: Siz nə üçün beyət etmədiniz?
Dedi: Ağa, mən başqalarının beyət etmələrini gözləyirəm. Sonra beyət edərəm. Buyurdu: Çox yaxşı, get.
Başqaları da eyni şeyi dedilər. Onların arasında ən hörmətlisi Abdulla ibn Ömər idi ki, o da beyət etməmişdi.
Onu da məscidə gətirdilər. Əmirəl-möminin (ə) soruşdu: Nə üçün siz beyət etmədiniz? O, əllərini bir-birinin üstünə qoyub, bir qədər fikirləşdi və məsələn dedi: İndi, bəli, yaxşı..! Orada dayanan Malik Əştər dedi: Ya Əmirəl-möminin (ə)! Siz icazə verin, mən bunun, əvvəlki xəlifənin oğlunun başını bədənindən ayırım ki, başqaları da özləri üçün dərs götürsünlər. Başa düşsünlər ki, məsələ çox qətidir.
Əmirəl-möminin (ə) gülümsədi və buyurdu: Xeyr, bu adam cavanlığında yaxşı keyfiyyətlərə malik olmayıb, indi isə artıq qocaldığından mənəviyyatı pisləşmişdir. Qoy çıxıb getsin. Həmin gün Malik Əştər Əmirəl-mömininə (ə) dedi: Ya Əmirəl-möminin (ə)! Bunlar bilmirlər ki, sənin də qılıncın və qamçın var. Elə təsəvvür edirlər ki, sənin qılıncın və qamçın yoxdur. Qoy, mən bunu cəzalandırım, başqaları da bilsin ki, sənin qılıncın və qamçın vardır.
Kimlərinsə İslam quruluşunun qılıncı və qamçısı olmaması, onun müqavimət göstərə bəlməməsi barədə düşünmələri yanlışdır. Xeyr, bu müqavimət Allah-Təala naminədir. Allah üçün olan işdə güzəşt olmamalıdır. Bu cür müqavimət göstərən şəxslər, eləcə də müqavimət göstərməyib, xidmət etməyənlər də öz mövqelərinə bir daha diqqət yetirməli və İslam quruluşunun qədrini bilməlidirlər.
Ötən bu əsrlər ərzində nə vaxt İslam bugünkü kimi hakimiyyət əsaslarına malik olmuş və dünyada bu qədər nüfuz qazanmışdır? Onun dəyərini bilmək lazımdır”.[2]

1 “Bihar-ul Ənvar”, 32-ci cild, səh.406
2 “Hədise vilayət”, IV cild, səh.32, Məşhəd alimləri və ruhani tələbələrin toplantısında böyük dini rəhbərin çıxışı, 4/I-1369

**Novruz – bəşər tarixində yeni gün**

Böyük dini rəhbər Novruz haqda deyir: “Müxtəlif rəvayətlərdə Novruz haqda, onun mənası barədə cürbəcür fikirlər irəli sürülür. Məsələn, Peyğəmbərin (s) Əmirəlmömininini (ə) xilafətə başçı təyin etdiyi həmin gün yeni gün idi. Yaxud başqa bir rəvayətdə deyilir ki, yalançı peyğəmbərin Həzrət Mehdinin (ə) əli ilə qətlə yetiriləcəyi gün yeni gündür. Başqa rəvayətlərə görə Adəmin göydən yerə endiyi gün novruz idi. Novruz bəşər tarixində yeni bir ovqatdır.

Aydındır ki, bu rəvayətlərlə İmam onu demək istəmir ki, bu hadisələrin baş verdiyi və ya baş verə biləcəyi həmin gün həməl ayının ilk gününə (bahar fəslinin birinci gününə) təsadüf edir, yaxud təsadüf edəcəkdir. Xeyr, bizim məqsədimiz bu olsaydı, heç inandırıcı olmazdı. Məqsədimiz budur ki, novruzun mənasını başa düşək.

Novruz, bu elə bir gündür ki, siz öz əməlinizlə, baş verə biləcək hadisə ilə onu təzələyirsiniz. Bəhmən ayının iyirmi ikisində İran milləti üçün Allah-Təalanın köməyi ilə elə böyük bir hadisə baş verdi ki, o gün yeni gündür. Millətin İmamının dünyanın ən təkəbbürlü quldurunun, yəni ABŞ-ın ağzına qəti olaraq yumruq vurduğu həmin gün yeni gün və yeni yoldur. Yeni bir hadisə idi ki, baş verirdi və baş verdi. Biz gərək novruzu yeni günə çevirək. Novruz təbiətinə, xarakterinə uyğun olaraq yeni gün deməkdir, hadisənin insani tərəfi də bizim əlimizdədir ki, onu yeni günə çevirək”.[1]

1 “Hədise vilayət”, IV cild, səh.6, Ölkənin və ordunun məsulları ilə görüşdə

**“Gedin və həmin döşənəcəkləri gətirin”**

Cənab Rəfiqdust deyirdi: “Ağanın evində bir qədər köhnə palaz var idi. Onları aparıb satdım və özüm də müəyyən məbləği əlavə edib onun üçün bir xalça almaq istədik. Getdik yeni xalçalar alıb gətirdik və yerə saldıq. Ağa gələndə onları görüb dedi:
– Bunlar nədir, Ağa Möhsün?
Dedim: Xalçaları dəyişdirdik.
Dedi: Səhv etmisiniz, gedin və həmin xalçaları gətirin.
Mən sonradan min bir əziyyətlə həmin xalçaları tapıb gətirdim və öz əvvəlki yerinə saldım. Mən o xalçaları görmüşdüm, ağanın evinə gedəndə həqiqətən də orada artıq sapları tökülən bir köhnə palaz var idi”.[1]

1 Cəbhə gündəliyi, nəşrin birinci nömrəsi

**Sadə yaşama tərzi**

Höccətülislam Seyid Əhməd Xomeyni deyir: “Burada onu da bildirməyi zəruri hesab edirəm ki, Həzrət Ayətullah Xameneyinin şəxsi həyat tərzi çox sadədir. Əlbəttə, inqilabımızın böyük rəhbərinin bu sözlərə heç bir ehtiyacı yoxdur. Sadəcə olaraq bunu özümə borc bilirəm ki, bu mühüm məsələni xalqa çatdırım. Mən onun evinə tam bələdəm, onun evində, süfrədə yalnız bir növ yemək olur. Ailəsi kovrolit üzərində yaşayır. Bir gün onun evinə getdim, evində yalnız bir köhnə xalça var idi və o, həddən artıq bərk olduğundan mən də kovrolitin üstündə rahatlıq tapdım”.[1]

1 “Comhuriye İslami” qəzeti, 13/XI-1373

**Mayasız fətirdir**

Böyük dini rəhbər Qum Elmi Mərkəzində alimlərlə və tələbələrlə görüşündə mərkəzin rəsmi dərslərinin mənimsənilməsi barədə buyurur:

Mən Məşhəddə olanda tələbələrlə tez-tez ünsiyyətə girmişəm. Qumlu tələbələr və gənclər də dəfələrlə mənim yanıma gəlirdilər və gedirdilər. Bəzi məsələləri mənə açıqlayırdılar və mən görürdüm ki, onlar dərslərə o qədər də maraq göstərmirlər.

Dəfələrlə həmin tələbələrə deyirdim ki, qardaşlar, "Resayil" və "Məkasib" dərslərini oxuyun. "Kifayə"ni yaxşı mənimsəyin. Əgər özünüzü mübariz hesab edirsinizsə, bu nə deməkdir, hərfi mənanın nə faydası var, – deyə düşünürsünüzsə çox səhv fikirdəsiniz. Xeyr, bu cür ola bilməz. Bunları mütləq öyrənməlisiniz. Bu, bizim sahəmizdir. Dəfələrlə demişəm, indi də deyirəm ki, mayasız fətirdir.[1]

[1]"Hədise vilayət", VI cild, səh.186, Qum Elmi Mərkəzində alim və tələbələrlə görüşdə çıxış, 4/XI-1369

**Şagird müəlliminin nökəri kimi olmalıdır**

Əziz rəhbərimiz müəllimə ehtiram göstərilməsi barədə buyurur: "Şagirdlərin ədəb normaları, yəni onların öz müəllimlərinə ehtiram göstərməsi haqda kifayət qədər kitab yazılmışdır. Şəhid Saninin "Munyətul-mürid fi adabul mofid vəl-Mostəfid" adlı bir kitabı vardır, yəni öyrədənlə öyrənən arasındakı ədəb qaydalarından bəhs edir bu kitab. Bəs bu münasibətlər necə tənzimlənir. Şagird müəlliminin nökəri kimi olmalıdır.
Əslində bizlər elmi mərkəzlərdə elə bu cür olmuşuq. Həqiqətən, əgər bir müəllim icazə versə ki, şagirdi onu evinə qədər müşayiət etsin, həmin şagird çox xoşhal olar. Əslində şagird müəllimini seçir.
Elmi mərkəzdə müəllimin seçilməsi məcburi deyil. İndi də belədir. Tələbə o dərsə, bu dərsə gedir və nəhayət, birini seçir. Sonra dərsdə müəllimə irad tutur və ondan hətta bircə sözü də sübutsuz qəbul etmir. Hazırda da eyni cürdür. İndi də hər kim olsa, fərqi yoxdur".

## Məntiqsiz və sadəlövhlüklə irəli sürülən arqument bəladır

Böyük dini rəhbər sistemdəki bəlanı izah etmək üçün ikiüzlü xəlifələrdən iki sübut gətirir:
– Adətən, ərəblər soy-kökə çox böyük əhəmiyyət verirlər. Filankəs hansı ailədəndir? Ataları kimlərdəndir? Əbdülməlikin dövründə İraq və Kufənin başçısı olan Xalid ibn Abdulla Qəsri çox zülmlər və sui-istifadələr etmişdir. Kitablarda yazmışlar ki, o, çox vicdansız bir adam idi və onu soy-kökünə görə bu işə təyin edən bir kəs belə yox idi. Ancaq yaxın olduğundan bu vəzifəyə gəlib çata bilmişdi.
Xalid ibn Abdulla Qəsri haqda yazıblar ki, o, elə bir şəxs idi ki, deyirdi: xilafət nübüvvətdən üstündür. O, buna dəlil gətirirdi və deyirdi:
– Siz səfərə gedəndə bir nəfəri öz yerinizə təyin edirsiniz ki, o, ev işlərinə və mağazaya nəzarət etsin. Buna xəlifə deyirik. Səfərə gedəndən sonra isə, məsələn, bir nəfərdən yazdığınız məktubu və ya xəbəri çatdırmasını xahiş edirsiniz. Həmin şəxs isə rəsuldur. İndi deyin görüm, hansı daha üstündür? Evinizə başçı təyin etdiyiniz adam, yaxud ailənizə bir parça kağızı çatdıracaq şəxs? O, məhz belə bir məntiqsiz və sadəlövhlüklə irəli sürdüyü dəlillə sübut etmək istəyirdi ki, xəlifə peyğəmbərdən üstündür! Bu cür fikri təbliğ edən belə bir adama mükafat verirdilər.
Əbdülməlikin zamanında və onun bəzi oğlanlarının dövrünə Yusif ibn Ömər Səqəfi adlı bir şəxsi uzun illər boyu İraqa hakim təyin etdilər. O da illərlə İraqa rəhbərlik etdi.
Bu şəxs çox bədbəxt bir adam olub, əsəb xəstəliyinə tutulmuşdu. Onun xəstəliyi haqda da kifayət qədər yazılıbdır. Kiçik cüssəli bir adam idi. Dərziyə parça verib paltar tikməsini xahiş edəndə ondan soruşurdu ki, bu parça mənim bədənimin ölçüsündədir? Dərzi həmin parçaya baxırdı və əgər, məsələn, desəydi ki, bu parça sizin bədəninizin ölçüsündədir, bəlkə də bir qədər böyükdür, onda dərhal parçanı həmin dərzinin əlindən alıb, onun özünü də cəzalandırırdı! Dərzilər artıq vəziyyəti anlamışdılar. Buna görə də o, dərziyə parça verib, “bu parça mənim üçün kifayət edər, ya yox” – deyə soruşanda, dərzi ona baxıb deyirdi: Xeyr, məncə bu parça sizin bədəninizə kifayət etməz, çox çalışmalıyam ki, bundan sizin bədəninizə münasib bir paltar tikim. O, dərzinin yalan söylədiyini bilirdi, ancaq dərzinin bu hərəkəti onun xoşuna gəlirdi. Bəli, o,bu qədər axmaq adam idi.
Bu, həmin şəxsdir ki, Zeyd ibn Əlini (ə) Kufədə şəhadətə yetirdi. Belə bir adam illərlə insanların canı, malı və şərəfi, ləyaqəti üzərində hökmranlıq etdi. Onun nə doğru-dürüst soykökü, nə savadı, nə də təfəkkürü var idi. Amma güc, qüdrət sahibi olduğundan belə bir vəzifəyə təyin olunmuşdu. Bunlar bəladır. Bunlar bir sistem üçün ən böyük bəlalardır.

**“Radio və televiziyada ayıq olun ki, aşağıdakı üç eybdən qoruna biləsiniz”**

Böyük dini rəhbər radio və televiziyada siyasəti müəyyən edən şuranın üzvləri ilə görüşündə buyurub: “İnqilabdan əvvəlki musiqinin öz dəyəri, əhəmiyyəti baxımından üç əsas eybi var idi. Biz bu sahədə mütəxəssis olmadığımızdan yalnız onu deyə bilərik ki, dəyəri baxımından onda üç qüsur vardır.

Biri budur ki, bəzi musiqilərdə məzmun və formanın seçilməsində bayağılığa kəskin meyl var idi. Musiqinin formaları və şeirin dili-hər ikisi iranlı idi, ancaq bu təsniflər həm məzmun baxımından, həm də sənət baxımından bayağı idi. Necə ki, biz görəndə ki, musiqiçi musiqini sındırır və korlayırlar, habelə bu vasitələrdən pis istifadə edirlər, müxtəlif formalarda onu-bunu təqlid edirlər, əlbəttə, o, narahat olur. Belə olduğu təqdirdə bayağılığa meyl yaranır, məsələn, həmin vaxtlar kifayət qədər geniş yayılmış təsniflərdə belə bir vəziyyət yaranmışdı. Musiqilər iranlı müsiqiləri, vasitələr də İranın idi. Amma forma və məzmun bayağı idi. İndi mən bu məsələlərə toxunanda ola bilsin ki, nümunə olaraq həmin şeirlərdən və təsniflərdən bir neçə beyt sizin yadınıza düşsün.

İkinci eyb budur ki, o dövrdə Qərb müsiqisinə  kəskin şəkildə meyl yaranmışdı.

Üçüncü eyb ondan ibarət idi ki, İranın klassik, sağlam və milli müsiqisi çox pis və mənəviyyatdan kənar məzmunlu məsələlərin xidmətində idi...

Buna görə də inqilabdan qabaqkı musiqi qeyd etdiyim bu üç qüsura malikdir və onlardan ən qorxulusu birincisidir. Ən az zərərlisi isə ikincisidir. Yəni Qərb musiqisinə olan meyl çox pis bir prosesdir. Odur ki, radio və televiziyada diqqətli olun, özünüzü qeyd etdiyim qüsurlardan qoruyun. Əlbəttə, hər üçü qüsurdur, ancaq birincisi daha pisdir. Üçüncü eyb ikinci sırada dayanır və ikinci eyb üçüncü sıradadır. Diqqətli olun, musiqi sahəsində bu üç hal əsas dəyərli maneələrdir”.[1]

1 ”Hədise vilayət”, VI cild, səh.284-285, Radio və televiziyada siyasəti müəyyən edən şura üzvləri ilə görüşdə həzrətin çıxışı

## “Çox qeyri-adi dualardır”

Böyük dini rəhbər Şeyx Rağib Mustafa Ğəlvəş və Şeyx Məhəmməd Bəsyuni ilə vidalaşma mərasimində Əhli-beytdən (ə) söylənilən dualar haqda buyurur:

– Sizə söyləyəcəyim əsas məsələ budur ki, şiələr və Əhli-beyt (ə) tərəfindən çox yaxşı dualar nəql olunmuşdur və həqiqətən də bu dualar yüksək məzmuna malik olub, son dərəcə əhəmiyyətlidir.

Mən həqiqətən də müxtəlif kitablarda və səhihlərdə oxuduğum bu dualar qədər yüksək məzmunlu dua heç bir vaxt, heç bir yerdə görməmişəm. İndi oxunması təqdir olunan şəban ayının minacatları kimi, yaxud “Peyğəmbərlərin şəcərəsi” (“Allahumə səlli əla Muhəmmədin və Ali Muhəmməd şəcərətul nübüvvət...”) duası qeyri-adi duadır. Ürəyim istədi ki, kaş bu səfər vaxtı imkan olaydı və bu duaları oxuyardınız. Yadımda deyil, ağalara bunu çatdırdım, ya yox.Hər halda bilmirəm, onlar bu işi gördülər, ya yox. Əlbəttə, Kumeyl duası çox yaxşı duadır, lakin əgər bir vaxt sizdə duaları belə oxumaq istəyi baş qaldırsa, oxuyun. Mənə elə gəlir ki, nəsə çox yaxşı bir şey olacaq və bütün möminlər də bundan istifadə edəcəklər, yəni daha çox müraciət edənlər olacaq və xeyrimiz də artacaqdır. Əlbəttə, indi bu dualar çap olunub, jurnallar da buraxılıb. Ancaq mən deyirəm ki, həm şəban ayının minacatı, həm şəcərətül-nübüvvət, həm də “xəmstə-əşər” minacatı çox qeyri-adi dualardır və yaxşı olardı ki, onları yaxşı nəsx xətti ilə yazıb ağalara göndərəsiniz. Qoy, istədikləri zaman həmin duaları oxusunlar.

“Səhifeye səccadiyyə” də həqiqətən qeyri-adi kitablardan hesab olunur. Bu kitab qədim alimlər arasında Məhəmməd Peyğəmbərin (s) ailəsinin “Zəbur”u kimi məşhurdur. Bu möhtərəm şəxsin duaları çox yüksək səviyyədə olub, Allah-Təalaya yalvarışla doludur və İslam dini baxımından maarifləndirmə xarakteri kəsb edir. Yəni yalnız dua deyil, əksinə dua formasında İslam dinini – tövhidi, nübüvvəti və s. məsələləri təbliğ edir.[1]

1 “Hədise vilayət”, III cild, səh.309-310

**“Pərvərdigara, sənə təvəkkül edirəm”**

Böyük dini rəhbər Dini İşlər üzrə Ali Mütəxəssislər Məclisinin toplantısında İmamın (r) rəhmətə getməsindən sonra özünün son dərəcə mühüm məsuliyyət tələb edən rəhbərlik postuna seçilməsi barədə deyir:

– İmamın (r) rəhmətə getməsindən sonra Dini İşlər üzrə Ali Mütəxəssislər Məclisində – mən də məclisin üzvü idim – nəhayət, mənim adım irəli sürüldü və kimi seçmək barədə müzakirələr başladı. Nəhayət, belə bir fikrə gəldilər ki, mənim kimi zəif bir insanı bu cür mühüm bir vəzifəyə seçsinlər. Mən fəaliyyət göstərdim, ciddi şəkildə etiraz da etdim. Eyni zamanda qaydalara da əməl etmək istəyirdim. Allah özü bilir ki, həmin anlarda mənim qəlbimdə nə baş verirdi. Getdim, orada dayandım və dedim: “Cənablar, səbr edin, icazə verin!”

Bütün bunlar yazılıb,hamısı saxlanılır, həm şəkillər, həm də səslər. Müxtəlif dəlillər gətirərək, xahiş edirdim ki, məni bu vəzifəyə seçməsinlər. Hər nə qədər çalışdımsa, dediklərimi qəbul etmədilər. Nə qədər israr etdimsə, oradakı alimlər və müctəhidlər mənim gətirdiyim arqumentləri cavablandırdılar.

Mənim qəti qərarım bu idi ki, təklifi qəbul etməyim. Ancaq sonra gördüm ki, heç bir çarə yoxdur. Nə üçün çarəsi yox idi? Çünki mənim etibar etdiyim şəxsin bildirdiyinə görə bu zərurət mənim üzərimdə idi, yəni əgər mən bu yükü götürməsəydim, o, yerdə qalacaqdı. Buna görə də dedim ki, qəbul edirəm. Ona görə ki, yükün yerdə qaldığını gördüm və onun yerdə qalmamasından ötrü onu götürdüm. Əgər orada başqa birisi olsaydı və mən onun həmin yükü götürə biləcəyini bilsəydim, başqaları da onu qəbul etsəydilər, çox güman ki, bu təklifi qəbul etməzdim.

Sonra isə dedim: “Pərvərdigara, sənə təvəkkül edirəm və Allah-Təala da bu günədək köməyini əsirgəmədi”.[1]

1 “Comhuriye İslami” qəzeti, 24/9-1373

**İslamın öhdədarı və millətin xidmətçisi**

*Siz bütün dünya üzrə ölkə prezidentlərinin, sultanlarının və onlar kimi başqa insanların arasında cənab Xameneyi kimisini tapa bilməzsiniz ki, həm onun qədər İslama öhdədar olsun, həm də tam qəlbi ilə millətinə xidmət etsin. Mən onu uzun illərdir ki, tanıyıram və hərəkatın ilk günlərindən bizimlə bir yerdə olaraq, tapşırıqların ətrafa çatdırılmasında yaxından iştirak etmişdir. İnqilab özünün ən yüksək mərhələsinə çatdıqdan sonra isə o, hər zaman yerində olmuşdur və inşallah axıradək də belə olacaqdır. O, Allah-Təalanın bizə bəxş etdiyi bir nemətdir.[1]

1 "Səhifeye nur", XVII cild, səh.170, 10/11-1361

**Mərhum İmamın kəlamında üç dost**

*Allah inhisarçılara, yəni Behiştini, Xameneyini, Rəfsəncanini və onun kimi başqa şəxsləri meydandan çıxarmaq istəyənlərə insaf versin.[1]

*Mən cənab Xameneyini, Haşimini və cənab Behiştini göylərə yüksəltdim. Mən gördüm ki, bunlar əvvəldən axıradək, onların çoxunu mən yaxşı tanıyırdım, bu adamlar başqalarının dediyi kimi, inhisarçı deyillər.

Əlbəttə, inhisarçılıq dedikdə, ancaq İslam başa düşülürsə, onda bizim hamımız inhisarçıyıq və İslam öz mahiyyəti etibarilə bu cürdür.

İslam Peyğəmbəri (s) də "La ilahə illəllah" deməklə inhisarçıdır, yəni yalnız İslam, başqa heç bir şey yox. Bizim də sözümüz budur ki, yalnız İslam və yenə də İslam.

Deyilən inhisarçılıq əgər budursa, onda bütün müsəlmanlar inhisarçıdır. Bütün peyğəmbərlər də inhisarçıdır. Allah-Təala da inhisarçıdır, bu doğrudur.[2]

---

1 "Səhifeye nur", XV cild, səh.46, 8/4-1360

2 "Səhifeye nur", XV cild, səh.139, 17/6-1360

**Elmdə və əməldə qabiliyyətli**

*Cənabınız Allaha şükürlər olsun ki, elmdə və əməldə qabiliyyətli olduğunuza görə Tehran Cümə məscidinə imam təyin olunursunuz.[1]

1 "Səhifeye nur", XI cild, səh.245, 24/10-1359

**Cənab Ağa Seyid Əliağa**

*“Əlbəttə, danışa bilən şəxslər universitetə gəlməlidirlər və mən təklif edirəm ki, cənab Ağa Seyid Əliağa gəlsin, cənab Xameneyi. Siz onun yanına gedin və mənim adımdan deyin, o, cənab Mütəhhərinin əvəzinə gəlsin. O, çox yaxşıdır, təfəkkürlüdür, söhbət edə bilər, danışa bilər”.[1]

1 “Səhifeye nur”, V cild, səh.105-106, 23/3-1358

**Mən Seyid Əliağanı ədalətli insan hesab edirəm**

*Gedin, buraya gəlib danışmağı bacaran şəxsləri tapıb gətirin. Gedin, onları universitetə dəvət edin. Gözləməyin ki, mən onları təyin edim. Əlbəttə, mən Seyid Əliağanı bu iş üçün ədalətli şəxs hesab edirəm. Lakin oturub gözləməyin ki, mən onları dəvət edim.[1]

1 "Səhifeye nur", V cild, səh.105-106, 23/3-1358

**Cənab Xameneyi Səlləməhullah**

*Mən indi böyük zəhmətlə təşrif gətirən bu möhtərəm cənabın gəlişindən çox xoşhalam. Çünki təşrif gətirən cənab Xameneyi Səlləməhullahdır.
Axı o, nə etmişdi?
Yaxşı, deyin, axı o, nə iş görmüşdür, nə etmişdir ki, siz onu öldürmək istəyirdiniz. Allaha şükürlər olsun ki, buna nail ola bilmədiniz.[1]

1 "Səhifeye nur", XV cild, səh.83, 11/5-1360

## Prezidentin sərəncamını təsdiq etmə

Həzrət İmam Xomeyni (r) prezidentin – böyük dini rəhbərin sərəncamının təsdiq olunması barədə deyir:
*“Allah-Təala bizə minnət qoydu ki, ümumi fikri birbaşa İslam, din və siyasət aləmində öhdədar və mübariz olan bir prezidentin seçilməsi istiqamətində yönəltdi. Biz ümidvarıq ki, böyük millətimizin dəstəyi ilə problemlər bir-birinin ardınca aradan qaldırılacaq və İslamın müqəddəs normaları bütün ölkə miqyasında yerinə yetiriləcəkdir”.[1]

1 “Səhifeye nur”, XV cild, səh.179-180, 17/7-1360

**Danışan dil**

*“Mən əllərində qələm olan və danışan dilləri olan bütün şəxslərə bildirmək istəyirəm ki, onların qələmi və dilləri Allah-Təalanın hüzurundadır və sabah onlar cəzalandırıla bilərlər. Burada dövlətdən və ya ölkə prezidentindən söhbət getmir. Söhbət quruluşla bağlıdır, İslam quruluşu ilə. Cənab Xameneyi prezident olsun, ya başqa birisi, cənab Musəvi baş nazir olsun, yaxud başqa birisi, bu məsələ müzakirə olunmur. Müzakirə olunan İslam respublikası sistemidir. Onu qorumaq bizim vəzifəmizdir, bütün yazıçılar da bu quruluşu qorumalıdırlar”.[1]

[1] “Səhifeye nur”, XX cild, səh.36-37, 8/6-1365

**Mərhum İmamın əziz rəhbərimiz haqda duası**

*“Allah-Təaladan cənabınıza sağlamlıq və səadət diləyirəm və ümid edirik ki, sizin kimi başqa şəxslər də öz ali məqsədlərinə çatmaq yolunda uğurlar qazanacaq və başlarını uca tutacaqlar”.[1]

1 “Səhifeye nur”, XX cild, səh.171, 16/10-1366

**İslamın xidmətçisi**

*“İnşallah, Allah-Təala həyatını yalnız İslama xidmət etməyə həsr edən sizin kimi şəxsləri öz pənahında qoruyub saxlayacaqdır”.[1]

1 “Səhifeye nur”, səh.173, 21/10-1366

**Möhtərəm alim**

*“Böyük millətimizin möhtərəm seçkisinə  və hörmətli alimimizin öz məqamı və göstərəcəyi xidmətlə tanışlığına əsaslanaraq millətin seçdiyi ideal şəxsiyyət olan Höccətülislam Seyid Əli Xameneyinin hazırkı mərhələsinin başa çatması ilə əlaqədar olaraq onu təsdiq edir və İran İslam Respublikasının prezidenti postuna təyin edirəm. Allah-Təaladan İslama, müsəlman ölkəsinə və millətinə xidmət yolunda ona uğurlar diləyirəm”.[1]

1 “Səhifeye nur”, XIX cild, səh.222, 13/6-1364

**Mütəfəkkir və alim**

*“Mən böyük millətimizin seçkisini və möhtərəm alim, mütəfəkkir, ideal şəxsiyyət Höccətülislam Seyid Əli Xameneyinin tutacağı məqam və postla bağlı məlumatlılığını əldə rəhbər tutaraq millətimizin rəyini təsdiq edir və onu İran İslam Respublikasının prezidenti vəzifəsinə təyin edirəm”.[1]

1 “Mütəfəkkir və alim”, XV cild, səh.179, 17/7-1360

**“Nə üçün özünüz bilmirsiniz?”**

Həzrət Ayətullah Haşimi Rəfsəncani deyir:
– Üç qüvvənin başçılarının, cənab baş nazirin və Hacı Əhmədağanın iştirakı ilə İmamın yanında iclas keçirilirdi. Bizim Həzrət İmama (r) sözümüz bundan ibarət idi ki, biz sonradan Konstitusiyada çətinliklərlə qarşılaşacağıq. Çünki rəhbərliyin ləğv olunması məsələsi ortaya çıxa bilər. İmam (r) dedi: “Rəhbərliyin ləğvi məsələsi ortaya çıxmayacaq və sizin adamınız vardır”.
Soruşduq ki, o kimdir?
O, Ayətullah Xameneyinin yanında dedi: “Bu, cənab Xameneyi”.
Bir gün mən məxsusi olaraq İmamın yanına getdim və rəhbərliyi əvəz edəcək şəxs barədə və yarana biləcək çətinliklərlə bağlı onunla açıq şəkildə söhbət etdim.O, yenə də çox aydın şəkildə dedi:
– Siz çıxılmaz vəziyyətdə qalmayacaqsınız, Ayətullah Xameneyi kimi bir şəxs sizin aranızdadır. Nə üçün özünüz bilmirsiniz?

**O, həqiqətən də rəhbərliyə layiqdir**

Hacı Əhmədağa belə nəql edir ki, Ayətullah Xameneyi Şimali Koreyaya səfər edərkən İmam həmin səfər haqqında məlumatları televiziyada seyr edirmiş. Səfər zamanı Şimali Koreyada cənab Xameneyinin qarşılanması, adamlarla görüşü, çıxışları, aparılan müzakirələr və s. İmamın diqqətini cəlb etdiyindən həzrət buyurur: "Həqiqətən də o, rəhbərliyə layiqdir".

Nəticədə İmamın (r) Həzrət Ayətullah Xameneyiyə xitabən dediyi "Hər zaman sən səfərə gedəndə oradan qayıdanadək mən çox narahat oluram, tez-tez səfərə getmə" fikri diqqəti cəlb edir.[1]

1 Həzrət Ayətullah Xameneyinin ictihada yetişməsi haqda görkəmli alimlərin və fəqihlərin fikri, səh.70

**Cənab Xameneyi kimi**

*Bütün dünya əlləri, qələmləri ilə bizim əleyhimizə olan tərəfdədir. İndi bizim özümüz də oturaq və hər kim hər nə istəyirsə desin, bu doğrudur, ya yox?
Mən ümidvaram ki, cənablar da öz danışıqlarında cənab Xameneyi, cənab Rəfsəncani kimi hər bir kəsə nəsihət verərlər, bütün adamlara nəsihət verərlər ki, məsələlərə yanaşma mövqelərini bir qədər dəyişdirsinlər. Hər kəs yalnız eyblərdən bəhs etməsin. Yaxşı! Bir qədər də etdikləri xidmətlərdən danışsınlar.
Bəziləri həmin xidmətlər haqqında ümumiyyətlə heç bir kəlmə belə yazmır, əvvəldən başlayıb yalnız eyb, eyb deyirlər. Bəs bunlar haradadır, haradadır, haradadır... Bütün bu müddətdə bəziləri İslamın heysiyyatına, bəziləri isə İslam quruluşuna zərər vururlar.[1]

1 "Səhifeye nur", XX cild, səh.39, 8/6-1365

**İmamın böyük xəbərdarlığı**

*Hərəkatın əvvəlindən və inqilabın ilk günündən bir tendensiya özünü göstərməkdə idi və bu, təsadüfi deyildi, etibarlı, nüfuzlu adamları, bu millət üçün qiymətli olan isanları bir-birinin ardınca ya şəhid edirdilər, ya da şəhid etmək istəyirdilər. Ancaq Allah-Təala bu şəxsləri qoruyub saxlayırdı.
Əlbəttə, bir şəxsin mərhum Mütəhərrini, yaxud mərhum Mufəttihi terror etməsi təsadüfi də ola bilməzdi. Cənab Haşimi, cənab Xameneyi və ya mərhum Behişti, bir sözlə, onların hər biri İslam üçün dəyərli şəxsiyyətlər idilər.
Məsələ tənzimlənmiş bir məsələ idi və indi də belədir, bu, elə bir məsələ idi ki, artıq inqilabın formalaşdığı bir vaxtda başladı.[1]

---

1 “Səhifeye nur”, XVI cild, səh.63, 4/-1360

**Ruhanilərin müqəddəs işi**

*Bu ölkəni həmin dəstəyə məxsus olan insanların idarə etdiyini və onların ruhani olmadıqlarını başa düşdüyümüz hər bir gün cənab Xameneyi təşrif gətirir və öz böyük ruhanilərinin, eləcə də digər şəxslərin işləri ilə maraqlanır və onların işlərinə nəzarət edirdi.[1]

1 “Səhifeye nur”, XVI cild, səh.211, 30/-1361

**İmamın müşaviri**

Həzrət İmam Xomeyni (r) özünün bir fərmanı ilə böyük dini rəhbəri Milli Ali Müdafiə Şurasının təşkil olunması üçün müşavir təyin etdi:

Bismillahir-Rəhmanir-Rəhim

Cənab Höccətülislam Hacı Seyid Əli Xameneyi (Allah iltifatını artıq etsin!)
İran İslam Respublikasının Konstitusiyasının 110-cu maddəsinə uyğun olaraq Milli Ali Müdafiə Şurasının təşkil olunması məqsədilə siz mənim tərəfimdən müşavir təyin edilirsiniz. İndi biz elə bir vəziyyətdə yaşayırıq ki, hər həftə siz ordunun müxtəlif idarələrinin daxilində baş verən bütün hadisələri mükəmməl şəkildə araşdırıb mənə dəqiq məlumatlar çatdırmalısınız.[1]

*Vəs-səlamu əleykum və rəhmətullahi və bərəkatuh*
*Ruhulla Musəvi Xomeyni*

1 "Səhifeye nur", XII cild, səh.78, 20/2-1359

**Fədakar əsgər və öyrədən müəllim**

Həzrət İmam Xomeyni (r) Tehranın Abuzər məscidində böyük dini rəhbərə qarşı törədilmiş sui-qəsddən sonra belə bir açıqlama verir:

Bismillahir-Rəhmanir-Rəhim

Cənab Höccətülislam Hacı Seyid Əli Xameneyi (Allah iltifatını artıq etsin!)
Allah-Təalaya şükürlər olsun ki, İslamın düşmənləri axmaq şəxslərdən və qruplardan ibarətdir. Allah-Təalaya şükürlər olsun ki, böyük İslam inqilabının ilk günlərindən etibarən düşmənlərimizin hazırladıqları bütün planlara, bütün sui-qəsdlərə və çıxışlara baxmayaraq, fədakar millətimiz daha da birləşdi, daha da möhkəmləndi və beləcə "Bu din həmişə mənəviyyatsız insanların axmaq hərəkətləri vasitəsilə güclənər" fikri öz təsdiqini tapdı.
Bunlar harada danışdılarsa özlərini rüsvay etdilər. Hər nə məqalə yazdılarsa milləti daha da oyatdılar. Hər nə qədər görkəmli şəxsiyyətləri terrora məruz qoydularsa millətimizin müqavimət gücünü daha da artırdılar.
İndi inqilabımızın düşmənləri sizə – Peyğəmbərin (s), Hüseyn ibn Əlinin (ə) nəslindən olan bir insana, həyatını İslama və İslam ölkəsinə xidmətə sərf edən bir şəxsə, müharibə meydanında fədakar bir əsgərə, mehrabda öyrədən müəllimə, cümə və camaat namazında bacarıqlı natiqə, inqilab meydanında qayğıkeş rəhbərə, öz siyasi təfəkkürünü, millətə sədaqətli olduğunu və zülmkarlara qarşı daim müxalifətdə qalacağını sübuta yetirən bir şəxsə qarşı sui-qəsd etməklə nəinki ölkəmizdə, eləcə də bütün dünyada yaşayan milyonlarla insana əzab verdilər.Onlar siyasətdə o qədər binəsibdirlər ki, sizin məclislərdə, cümə namazlarında və xalq qarşısında etdiyiniz söhbətlərdən sonra bu cinayətə əl atdılar və elə bir şəxsə qarşı sui-qəsd törətdilər ki, onun çağırışının səsi dünyanın milyonlarla müsəlmanının qulaqlarında indi də əks-səda verməkdədir. Onlar bu qeyri-insani əməlləriylə milyonlarla insanı qorxutmaq istəsələr də, əksinə onların sıralarını daha da möhkəmləndirdilər, daha da sıxlaşdırdılar.
Görəsən, bu vəhşi əməllərdən və onların dərslərindən sonra aldadılmış gənclərimizin həmin adamların xəyanət tələsindən qurtulmalarının, ataların və anaların öz əziz gənclərini cinayətkarların əməllərinə fəda etməmələrinin, eləcə də onların cinayət əməllərində iştirak etmələrinin qarşısını almağın vaxtı gəlib çatmamışdırmı?
Məgər valideynlər bilmirlər ki, gənclərin müxtəlif cinayətlərə vadar edilməsi onları pis yollara aparıb çıxarır və bununla da gənclərin həyatı cinayətkarların əlində məhv olub gedir? Biz Allah-Təalanın qarşısında və onun haqq vəlisi olan Həzrət Bəqiyyətullahın qarşısında (Canımız ona fəda olsun!) ön və arxa cəbhədə gecələri mehrabda ibadətlə, gündüzləri isə həqiqət yolunda mübarizə aparmaqla keçirən əsgərlərimizlə fəxr edirik.
Əzizim Xameneyi, sizi təbrik edirəm ki, döyüş cəbhələrində əsgər paltarı ilə, arxa cəbhədə isə ruhani paltarı ilə bu xalqa xidmət edirsiniz. Allah-Təaladan İslama və müsəlmanlara xidmət etmək yolunda sizə cansağlığı arzulayıram.[1]

*Vəs-səlamu əleykum və rəhmətullahi və bərəkatuh*
*Ruhulla Musəvi Xomeyni*

1 "Səhifeye nur", XV cild, səh.41, 7/4-1360

## İmamın başsağlığı verməsi

Allahın adı ilə!

Cənab möhtərəm prezident, Höccətülislam Hacı Seyid Əli Xameneyi (Allah iltifatını artıq eləsin!)

Ömrünü elmə, dinə həsr etmiş möhtərəm atanızın rəhmətə getməsi məni də təəssüfləndirmişdir.Bu müsibətlə əlaqədar olaraq sizə, möhtərəm qardaşlarıma və ailə üzvlərinizə başsağlığı verir və Allah-Təaladan sizə cansağlığı və müvəffəqiyyətlər arzulayıram.[1]

*Vəs-səlamu əleykum və rəhmətullahi və bərəkatuh*

1 “Səhifeyenur”, XX cild, səh.93, 15/4-1365

**İnqilab və İslamın qayğıkeşi**

Bismillahir-Rəhmanir-Rəhim

Mədəniyyət məsələləri üzrə Ali İnqilab Şurasının rəhbəri cənab Höccətülislam Xameneyi (Allah iltifatını artıq eləsin!)

Höccətülislam Seyid Həmid Ruhaninin məktubu ürəyi İslam və inqilabla birgə çırpınan hər bir kəs üçün bir xəbərdarlıqdır. İran İslam Respublikasının təhsil sisteminin mərhum Behbəhaniyə (r) belə münasibət bildirməsi bizi təəccübləndirir və təəssüf hissi doğurur. Hətta İslama zidd keçmişi olan Kəsrəvi də onunla bağlı  belə bir pis münasibət bildirməmişdir. Din əleyhinə çıxan Kəsrəvi Behbəhani və Təbatəbayini göylərə qaldırdıqdan sonra onların xalqa xarici dövlətlərdən birinə pənah aparılması barədə təklifini rədd etmişdir.

İnqilab və İslamın qayğıkeşi olan cənabınızdan çox ciddi şəkildə istəyirəm ki, məsul bir şəxs bütün bu işləri bir daha araşdırıb sizi hər bir məsələ ilə yaxından tanış etsin.Cənab Ruhaninin məktubunun digər məqamları da ona diqqət yetirilməsini tələb edir və bu işlə bağlı məlumatın mənə çatdırılmasını xahiş edirəm.[1]

*Vəs-səlamu əleykum və rəhmətullahi və bərəkatuh*

Bütün bunlar İran İslam inqilabının rəhbəri, şiəliyin görkəmli nümayəndəsi, Həzrət Ayətullah Hacı Seyid Əli Xameneyinin həyat və fəaliyyəti haqqında müxtəsər şəkildə qeyd olunan fikirlərdir. Həzrət İmam (r) onu çox yaxşı tanıyırdı və onu özünün də dediyi kimi göylərə ucaltmışdır. Həzrət Xameneyi Peyğəmbərin (s)  və Hüseyn ibn Əlinin (ə) nəslindən idi. O, əməlisaleh bir insan, böyük alim və mütəfəkkir, son dərəcə müdrik və ağıllı, İslam dini və siyasət sahəsində yenilməz mübariz, elm və əməldə ləyaqətli, İslam və İslam ölkəsinin  xidmətçisi, müharibə meydanlarında fədakar əsgər, mehrabda öyrədici müəllim, cümə və camaat namazlarında gözəl natiq və inqilab yolunda qayğıkeş rəhbər idi.

1 “Səhifeye  nur”, XXI cild, səh.102, 4/12-1367

**Həzrət İmam Xomeyninin (r) Həzrət Ayətullah Xameneyiyə ünvanladığı fərman və müraciətlərin tarixi**

**Mövzu:**

Tehran Cümə məscidində imamlıq, 24/10-1358, “Səhifeye nur”, c.11, səh.245;
Milli Ali Müdafiə Şurasında müşavir, 20/2-1359, “Səhifeye nur”, c.12, səh.78;
Ali Müdafiə Şurasına təlimat, 20/7-1359, “Səhifeye nur”, c.13, səh.117;
Peyğəmbərin (s) cövhərinə sui-qəsd, 7/4-1360, “Səhifeye nur”, c.15, səh.41;
Prezidentin ilk dövründə onun fərmanının təsdiqi, 17/7-1360, “Səhifeye nur”, c.15, səh.179-180;
Döyüşçülərin qələbəsinin ardınca rəhbərin müraciətinə cavab, 8/9-1360, “Səhifeye nur”, səh.235-236;
İnqilabın mədəniyyət məsələləri qərargahının gücləndirilməsi, 19/9-1363, “Səhifeye nur”, c.19, səh.81;
Prezidentin ikinci dövründə onun fərmanının təsdiqi, 13/6-1364, “Səhifeye nur”, c.19, səh.221-222;
Həzrətin atasının vəfat etməsi, 15/4-1364, “Səhifeye nur”, c.20, səh.93;
İslam Respublikası Partiyasının uğurları, 11/3-1366, “Səhifeye nur”, c.20, səh.9;
Hökumətin səlahiyyətləri və mütləq dini rəhbərliyin mənası, 21/10-1366, “Səhifeye nur”, c.20, səh.173;
Mütləq dini rəhbərliyin himayəçisi, 16/10-1366, “Səhifeye nur”, c.20, səh.170-171;
İslam quruluşu məsləhətinin müəyyənləşdirilməsi, 17/11-1366, “Səhifeye nur”, c.20, səh.176;
Hökumətin cəzalandırma haqqının ləğv olunması, 13/6-1367, “Səhifeye nur”, c.21, səh.6
Cənab Seyid Həmid Ruhanidən gələn məktubun araşdırılması, 4/12-1367, “Səhifeye nur”, c.21, səh.102;
Konstitusiyanın başa çatdırılması, 4/2-1368, “Səhifeye nur”, c.21, səh.122.

**Ustadın hüzurunda**

Burada biz çalışacağıq ki, inqilabın əziz rəhbərinin milyonlarla insanın sevimlisi Həzrət İmam Xomeyni haqqında və onun Məhəmməd Peyğəmbərin (s) yaratdığı İslam dininin daha da canlandırılması sahəsindəki bəzi xüsusiyyətləri barədə söz açaq.

## Aram ruh və pak kəlmə

Mülk hicablarını yararaq baxış quşunu mələkuta qədər pərvazlandıra bilən nüfuzedici gözlər o Xomeyni aşurası günündə bəlkə də daha heyrətləndirici və görməli səhnələr gördü! Aram bir ruhun Allahın lütf və rəhmət məqamına qalxmasınımı, pak kəlmənin, razı və razı salan bir nəfsin Haqqa doğru pərvazınımı, bir çayın dəryaya, bir aşiqin məşuqa qovuşmasınımı, əzəmətli şəhidlər izdihamının o pak ruhu qarşılamasınımı, övliyanın pak ruhlarının o təzə qonağa xoş gəldin deməsinimi... Yoxsa rəhmət mələklərinin qanadları üzərində qərar tutmuş pak bir canın səadət və izzətinimi, saysız-hesabsız gözəllikləri ilə mələkləri və Haqqın nemət dolu behiştinə təhkim olunanları ətirləndirməsinimi, nurani bir əbaya çevrilərək o mücərrəd ruha geyindirilmiş, İlahi səxavət və məğfirət yağışına çevrilərək o saleh bəndəni bürüyən, əbədi Darussəlama dönərək Haqqın razılığına müştaq olan o vücudu özündə yerləşdirən saleh əmələmi?![1]

1 "Comhuriye İslami" qəzeti, 28/3-1372,"Kövsər nəsli"ndən iqtibas olunub, səh.134

**Məhəmməd Peyğəmbərin (s) pak İslam dininə hörmət gətirən şəxs**

O, İslama şərəf gətirdi və bütün dünyada Quranın bayrağını göylərə qaldırdı. O, İran xalqını yadellilərin əsarətindən xilas edib, onlara qürur, şəxsiyyətlilik, özünə inam bəxş edib. O, bütün siyasi hakimiyyətlərin dini özünə qapılma kimi təlqin etdikləri bir əsrdə din, mənəviyyat və əxlaqi dəyərlərə əsaslanan bir sistem yaratdı.[1]

1 “Comhuriye İslami” qəzeti, 28/3-1372, “Kövsər nəsli”ndən iqtibas olunub, səh.134

**Zəmanənin böyük xilaskarı**

İranda İslam hərəkatı zəmanənin böyük xilaskarı Həzrət İmam Xomeyninin (r) rəhbərliyi ilə böyük və sonuncu peyğəmbər Həzrət Məhəmməd Mustafanın (s) müəyyənləşdirdiyi yola sadiq qalaraq böyük bir inqilab kimi özünü büruzə verdi. İnqilaba xas olan keyfiyyətlərdən biri budur ki, əgər inqilab doğru-dürüst və məntiqli bir əsasa söykənirsə, onda o, sanki bir alov və ya zəlzələ kimi həyatın bütün sahələrini bürüyür, hər bir kəsi, hər bir şeyi və hər bir yeri öz təsiri altına salır.[1]

1 Böyük dini rəhbərin İmamın (r) vəfatı ilə əlaqədar müraciəti, 10/3-1369

**Böyük islahatçı**

Çağdaş əsrimiz böyük islahatçıların meydana gəldiyi əsrdir. Ötən əsrin ortalarından bu günədək xeyli islahatçı, inqilabçı və görkəmli siyasətçi meydana gəlmişdir və onlar dünyada, yaxud bölgədə çox böyük işlər görmüşlər. Ancaq bütün bunlara baxmayaraq, həmin görülən işlər bu hərəkatla, yəni dünyanın mənəvi baxımdan intibahı kimi tanınan belə bir hərəkatla müqayisə oluna bilməz.[1]

1 Mühafizəçilər Şurası üzvlərinin böyük dini rəhbərə beyəti mərasimində həzrətin bəyanatı, 21/3-1368

**Xidmətçi yox, rəhbər**

Bizə məlum olan başqa bir cəhət budur ki, İmamı dünyaya gətirən bu əsr insani dəyərlərə, haqq-ədalətə, hürriyyətə, insani prinsiplərə, insanların azad seçiminə, eləcə də insanlara ehtiram əsridir.
Bu şəxsiyyətin düşmənləri də onun böyüklüyünü çəkinmədən etiraf edirdilər və Həzrət özü də deyirdi: “Əgər mənə xidmətçi deyirlərsə, bu, mənə rəhbər demələrindən daha yaxşıdır”.
Düz deyirdi, rəsmiyyətçilik etmirdi, özünü göstərmirdi.[1]

---

1 Polis və jandarm idarəsi işçilərinin böyük dini rəhbərlə görüşündə həzrətin bəyanatı, 28/2-1369

## Mömin və həqiqi imanlı böyük insan

Bu ilin, yəni 1378-ci ilin ən mühüm xüsusiyyətlərindən biri budur ki, bu il möhtərəm İmamımızın anadan olmasının yüzüncü ildönümünə təsadüf edir. Bununla əlaqədar olaraq bu ili İmam Xomeyni (r) ili kimi qəbul etməyimiz və adlandırmağımız yerinə düşərdi. Ancaq bu da kifayət deyil. İnşallah, hamı çalışmalıdır ki, böyük insan olan İmam Xomeyninin şəxsiyyətini mükəmməl şəkildə öyrənsinlər, bu keyfiyyətləri öz həyatlarında və millətin həyatında, ölkənin mənəvi həyatında istifadə etsinlər.
Mənim fikrimcə, möhtərəm İmamımız öz aydın fikri və ağıllı xarakteri ilə, öz güclü iradəsi və qətiliyi ilə, öz yüksək insani xüsusiyyətləri və daxili aləmi ilə, öz möminliyi və həqiqi imanlı olması ilə, bütövlükdə bütün bu yüksək keyfiyyətləri ilə xalqın arzularının tərənnümçüsünə çevrilə bildi və insanların fəryad və istəklərini təcəssüm etdirə bildi.[1]

---

1 “Keyhan” qəzeti, 14/1-1378

**Munacat və təhəccüd**

O, minacat, təhəccüd və səmimi bir xahişlə “Ola bilsin ki, Rəbbin səni bəyənilən bir məqama çatdırsın” kateqoriyasına daxil oldu.[1]

1 “Ettelaat” qəzeti, 24/4-1368

**Böyük insan**

Bizim İmamımızın, o böyük insanın, azad düşünən müsəlmanın şəxsiyyətini müəyyən etmək üçün ən yaxşı yol Qurana müraciət etməkdir. Onu yaxşı olar ki, Allah-Təalanın saf bəndələrini vəsf edən həmin yol göstərən ayələr arasında axtaraq. O, cihadla və möminləri müqəddəs rəhbərliyin çərçivəsində saxlayan hicrətlə “Bəqərə” surəsi, ayə 218 – “İman gətirənlər və hicrət edib Allah yolunda cihad edənlər”in nümunəsi oldu. O, təhlükələri qəbul etməklə və Allah yolunda öz canından keçməklə elə bir zümrəyə daxil oldu ki, onları vəsf edərkən “Bəqərə” surəsi, ayə 207 – “İnsanlardan eləsi də var ki, Allahın razılığını qazanmaq yolunda öz canını satar” müqəddəs tərifi söylənilmişdir.[1]

1 Böyük dini rəhbərin İmamın (r) vəfatının qırxıncı günü münasibətilə müraciəti, 23/4-1368

## Həyatda Qurana əməl etmək

Günlərini, saatlarını və anlarını insanların qayğısına həsr edən bu şəxs Quranın sədaqətli, mömin və saf insanları xarakterizə edən yüzlərlə ayəsini təcəssüm etdirdi. O, Quranı nəinki cəmiyyətin həyatında və ya İslam cəmiyyətinin yaradıldığı mühitdə, eləcə də öz ruhunda və öz həyatında həyata keçirdi.[1]

1 "Ettelaat" qəzeti, 24/4-1368

**Mərhum İmamın (r) böyük şəxsiyyəti**

İmam çox böyük və yüksək fərdi keyfiyyətlərə malik olmuşdur, ancaq onun əldə etdiyi uğurlar adi bir insanın fərdi keyfiyyətləri çərçivəsinə sığışmır.

Şücaət, məlumatlılıq, ağıl, tədbirlilik, uzaqgörənlik və s. İmama xas olan yüksək keyfiyyətlər idi və burada heç bir şəkk-şübhə ola bilməz. Bununla belə, o böyük şəxsiyyətin həyatda qazandığı nailiyyətlər elə yüksək səviyyədə idi ki, hər hansı bir insanın səviyyəsi ilə müqayisə olunması mümkün deyildir. Əksinə bu müvəffəqiyyətlər tamamilə başqa amillərin nəticəsi idi.

İmamın bu uğurları ilk növbədə onun səmimiyyətindən irəli gəlirdi, yəni həqiqətən də Allah-Təalanın sadiq dostu idi və bütün işlərini Allah xatirinə görürdü.

Ona görə də əgər bütün dünya belə ona qarşı çıxsaydı və ondan Allah-Təalanın istəmədiyi bir şeyi tələb etsəydilər, o, yenə də bu işdən boyun qaçırardı.[1]

1 “Comhuriye İslami” qəzeti, 24/4-1368

**O, bizi yaşatdı**

O, sanki bir günəş idi ki, öz parlaqlığı ilə əşyanı aşkar edir və sanki bir ruh kimi insan bədəninə nüfuz edərək onun orqanlarını yaşadırdı. O, bizi yaşatdı və bizi hərəkətə gətirdi.[1]

[1]"Nurun gözəllikləri", səh.24

**Onun varlığında Allahla əlaqənin əlamətləri**

Təsadüfən təbiətin bahar fəsli Quran və duanın baharı ilə eyni bir zamana düşür, bir neçə gündən sonra özünü təzələmə, insanın özünü yenidən qurması və Allahla ünsiyyətin yaranması kimi özünü göstərən mübarək ramazan ayı başlayacaqdır və işin bu cəhətini unutmaq olmaz. Çünki bütün xatalar və səhvlər işin bu cəhətini nəzərə almaqdan irəli gəlir.

Səhvləri az olan, qəlbi mərifət nuru və Allahın göstərişləri ilə parlayan, bizə, millətimizə və İslamın aşiqlərinə tapşırıqlar verən o şəxs hər birimiz üçün bir yolgöstərən, yolaçan idi. Yəni bizim İmamızın dinə yanaşması bu cür idi, onun varlığında Allah-Təala ilə ünsiyyət tam təmin olunmuşdur.

**Həqiqi mömin**

İmam həqiqi mömin idi. Bir baxın, o, dünya ilə, siyasətlə, hadisələrlə və yaradanla necə münasibət yaradırdı? Bu, dinin təsiri idi.[1]

1 Həzrətin bir qrup insanın ona beyəti mərasimində çıxışı, 20/3-1369

**Səmimi etiqad və iman**

Səmimi etiqad və iman ordunun möhkəmləndirilməsində mühüm əhəmiyyət kəsb edir. Bu tendensiyanın canlı sübutu İmamdır. O, bir mömin idi və bu, onu qüdrətləndirən bir vasitə idi. Qeyd olunan sözlərin əleyhinə olaraq din ağrısızlaşdırıcıdır, İslam dini canlandıran və yenidən quran dindir. İnşallah, uğurlar qazanacaqsınız və Allah-Təala sizə güc verəcəkdir ki, İmamın yolunu davam etdirəsiniz.[1]

1 Həzrətin ordunun ona beyəti mərasimində çıxışı, 18/2-1368

**Müdrik dini rəhbər**

O, bizim xalqımız üçün nəinki bir rəhbər idi, bəlkə də böyük bir müəllim, mehriban bir ata və müdrik bir rəhbər hesab olunurdu.

**Xeyirxahlıq nişanəsi**

Heç bir gün bəhmən ayının 12-si kimi deyildi, həmin gün peyğəmbərlər nəslindən olan bir kişi onların üsulu ilə və möcüzəli bir əllə, xeyirxahlıq nişanəsi kimi aşağı endi və onları mələklərin qanadına alaraq böyüklük və yüksəklik səmasına apardı.

**Xeyirxah insan**

O, xeyirxah insan və sözün həqiqi mənasında Allah bəndəsi idi. Mən İmam üçün bundan, yəni “xeyirxah insan” ifadəsindən daha yaxşı, daha gözəl başqa bir ifadə tapa bilmirəm.[1]

1Həzrətin İslam İnqilab Komitəsi üzvlərinin ona beyəti mərasimində çıxışı,18/3-1368

**Qeybdən gələn ilhamlar**

Bizim əziz İmamımız həqiqətən də bəzi hallarda qeybdən gələn ilhamlardan ruhlanırdı və onun sözləri sanki bəzən vəhylərə söykənən sözləri xatırladırdı.[1]

1 “Nurun  gözəllikləri”, səh.24

## Həqiqi mənada müdrik insan

İmam həqiqi mənada müdrik bir insan idi. Allah-Təala həqiqətən də bu böyük insana sözün həqiqi mənasında müdriklik bəxş etmişdi və o, elə bir bəsirətə malik idi ki, bizim diqqətlə baxıb görə bilmədiklərimizi o, adi bir baxışla sezə bilirdi. Onun kəlmələri də hikmətlə dolu olan bir insan qəlbinin məhsulu idi.

## Ağıllı və ehtiyatlı bir insan

İmam çox ağıllı insanlardan biri idi və mən öz həyatımda bu ağıllılıqda bir insan görmədim. O, çox ağıllı, uzaqgörən, müdrik və adamları yaxşı tanıyan bir insan idi, o cümlədən də aldanmırdı. İmamın malik olduğu xüsusiyyətlər nəinki adi adamlarda çox az olur, əgər birisi həmin keyfiyyətlərdən hər hansı birinə malik olsa, o, böyük bir insandır.

## İmamın uzaqgörənliyi

Əgər İmamın uzaqgörənliyi və gələcək barədə ehtimalları hər hansı bir adamda olsaydı, o, böyük bir insan olardı. İmamın ağlı, əqli güc və qabiliyyəti, mətanəti, təmkinliliyi və helmi yalnız onun özünə məxsus idi.

**Böyük qurucu**

İmam Allah-Təalanın o ruhlarından idi ki, Musanın əsası və möcüzələr yaradan əli ilə, habelə Peyğəmbərin (s) buyurduqları ilə məzlumların nicatına başladı. O, dünyanın istibdad rejimlərini lərzəyə salaraq, insanların qəlbini ümid nuru ilə işıqlandırdı.[1]

1 "Ettelaat" qəzeti, 24/4-1368

**Mənəvi möhkəmlik və ruhi şücaət**

Belə bir qüdrətə, mənəvi möhkəmliyə, ruhi və əxlaqi şücaətə malik olan insan İslam və müsəlmanlar naminə elə bir mövqe tuturdu ki, bütün dünya onun qarşısında qalırdı. Dünyada öz əməllərində və davranışlarında bu qədər bacarıqlı olan rəhbərlər çox azdır.[1]

1 "Comhuriye İslami", 31/4-1368

## Seçilən, tərbiyə olunmuş və riyazət çəkmiş bir varlıq

Bizim hər birimizin öz mənəviyyatımızda və əxlaqi keyfiyyətlərimizdə dəyişikliklər etməyə ehtiyacımız vardır. Bu bir neçə il ərzində mən dəfələrlə düşünmüşəm ki, bizim qələbəmizin mühüm bir hissəsi məhz Həzrət İmamın şəxsi keyfiyyətləri ilə bağlıdır.Yəni o böyük insan həqiqətən və insafən də yüksək səviyyəli bir insan olmaqdan əlavə, həm də əvvəldən onu tanıyanların bildirdiyinə görə, çox yüksək səviyyəli, savadlı və riyazət çəkmiş bir şəxs idi. Bu insan həmişə öz üzərində işləyirdi və həmin inqilab dövründə də daim inkişaf və təkamül şəraitində yaşayırdı. Necə ki, vaxtilə Peyğəmbərimiz (s), imamlar müqəddəs şəxslər də həmişə, yəni son anlarınadək inkişaf və təkamül fikrində olmuşlar.
Yəni İslam Peyğəmbəri (s) peyğəmbərlik anlarında o dünyaya köçmə anlarında olduğu kimi olmamışdır və o, bu 23 il müddətində elə inkişaf və tərəqqi etmişdir ki, biz adi adamlardan ötrü son dərəcə heyrətamizdir. Həqiqətən mömin şəxs məhz bu cür olmalı və daim irəliyə doğru addımlamalıdır. İmam da elə bu cür olmuşdur, xüsusilə mübarək ramazan ayında tam şəkildə özünə qapılaraq, özü ilə məşğul olmuşdur. Çünki ramazan ayından sonra onunla görüşənlər hiss edirdilər ki, o, daha da nuraniləşmiş, mənəviyyatca daha da zənginləşmişdir. Çox güman ki, bu inqilabın, bu millətin əksər uğurları məhz həmin anlarla əlaqədar idi.[1]

1 Böyük dini rəhbərin çıxışı, 26/7-1368

**Dindarlığın qorunub saxlanılması**

Bizim böyük imamımız bir sıra məsələlərlə əlaqədar çoxlu öyrədici tövsiyələr vermişdir. O cümlədən ruhaniyyət ləyaqətinin qorunub saxlanılması, adamlarla həmin adi və əvvəlki əlaqələrin qorunub saxlanılması, insanlarda iman və dindarlığa bağlılığın daha da möhkəmləndirilməsi naminə atılan addımların və əməllərin qorunub saxlanılması, həmçinin ona zərər vuran hər bir şeydən imtina etməkdir ki, daim diqqət mərkəzində saxlanılmalıdır.[1]

1 Böyük dini rəhbərin ruhanilərlə görüşündə həzrətin çıxışı, 11/7-1360

**Allaha diqqət yetirmə və ondan kömək ummaq**

Burada bir məqam vardır ki, İmamın həyatında da həmin məqam əsas yerlərdən birini tuturdu və bu, Allah-Təalaya diqqət yetirmə və ondan kömək ummaq idi.[1]

1 Böyük dini rəhbərin yaradıcı adamlarla görüşündə çıxışı, 30/3-1368

**Həqiqi şükür etmə və Allaha rəğbət**

Onda həqiqətən də həqiqi şükür etmə və Allaha rəğbət var idi və onun fikirlərində heç bir şey Allah-Təalanın qüdrətindən kənarda deyildi.

O, nə Şərq, nə də Qərb siyasətini irəli sürəndə çox az adam inanırdı ki, Şərqə və Qərbə arxalanmadan hər hansı bir hökuməti qurmaq və onu idarə etmək mümkündür.

O, Amerika heç bir qələt eliyə bilməz dediyi zaman, həqiqətən də Amerikanın İmama və onun ümmətinə heç bir şey edə bilməyəcəyinə inananlar çox az idi.

O, bütün bu böyük işləri həyata keçirdi və bilirdi ki, Allaha şükür etdiyinə görə edə biləcəkdir. Bu işləri həyata keçirmək onun üçün başlıca məqsəd olmasa da, o, yalnız öz vəzifəsini yerinə yetirməkdə idi.[1]

1 “Comhuriye İslami” qəzeti, 24/4-1368

## Onun Allahla əlaqə yaratması

İmamın Allah-Təala ilə əlaqə yaratması, ona daim diqqət yetirməsi və şükürlü olması bu millətə və bu inqilaba rəhbərlik edə bilməsinə imkan yaratdı.

**“Allahın əli onun əlinin üstündə idi”**

İmam Xomeyni (r) müdrik, dəqiq və yüksək zəkaya malik bir şəxs kimi hadisələrin böyük əksəriyyətini öncədən görməyə qadir idi və o, inanırdı ki, hərəkatın  başlandığı ilk gündən Allah-Təalanın köməyi ilə inqilab və İslam irəli getmişdir.[1]

1 “Comhuriye İslami” qəzeti, 2/11-1368

**Rəhmani baxış və nurani bir sima**

İmam həqiqətən də müdrik bir şəxs idi və bu hikmət onun mələksima və ilahi bir insan olduğunu sübut edirdi. İnsan hiss edirdi ki, bütün həqiqətlər onun vücudunda öz əksini tapırdı və o, bəzi şeyləri elə rahat, elə asanlıqla  və bəlkə də öz müdrikliyi və nuraniliyi ilə elə sadə bir şəkildə başa düşürdü ki, adam həmin məsələləri anlamaqdan ötrü çox böyük əziyyətlər çəkirdi. Necə deyərlər əsa vura-vura və korkoranə gəlib çıxdığın bir yerə onun rəhmani və nurani bir baxışla gəlib çatdığını görürsən. Həqiqətən də o, ilahiyyatçı bir insan idi və bu müdrik şəxs on il müddətində bu cəmiyyəti idarə etmişdi.[1]

1Böyük dini rəhbərin ölkə cümə imamları ilə görüşdə çıxışı, 12/4-1368

**Sədaqət və səmimilik**

Kimin İmam üçün nə deyəcəyi müzakirəyə çıxarılmır və o, Allah xatirinə iş gördüyündən, Allah-Təala da ondan ötrü bütün hazırlıq işlərini görür. İmamın sözləri insanların könüllərini ələ alır və dünənədək "Müharibə, müharibə" deyən həmin adamlara İmamın sədaqəti, səmimiliyi və ürəyiaçıqlığı o qədər təsir göstərir ki, onlar qayıdırlar, yürüş edirlər və "Atəşkəs" şüarı ilə çıxış edirlər. Bu, səmimiliyin nişanəsidir. Bu hadisədə də həmin cürdür.

**Əmirəl-mömininə (ə) iqtida**

Bizim əziz İmamımız bu qətilik xüsusiyyətini əksər hallarda büruzə vermişdir və bu, dünya səviyyəsində bütün dostların və düşmənlərin marağına, heyrətinə və həyəcanına səbəb olmuşdur. Müharibə ilə bağlı hadisələrdə, qətnamə hadisəsində, ölkənin müxtəlif siyasi məsələlərində İmamın ən başlıca xüsusiyyəti olan həmin qətiliyi qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində mühüm rol oynayır. Bu, əlbəttə, Əmirəl-möminin (ə) həmin üsuludur.[1]

1 "Comhuriye İslami" qəzeti, 4/1-1369

**İlahinin əbədi mənbəyinə qovuşma**

Həmin qüdrətli şəxsdən başqa heç bir kəs İran millətini hərəkətə gətirə bilməzdi və bütün bunlar yenə də onun şəxsiyyəti ilə bağlıdır. O və onun şəxsiyyəti bütün xüsusiyyətləri və sifətləri ilə istisna təşkil edir ki, mənim fikrimcə, onun ən mühüm və ən təyinedici müvəffəqiyyəti yenə də Allah-Təalaya diqqət və sədaqətdir. Bu keyfiyyətlər onu Allah-Təala ilə qovuşdura bildi və o, öz əməllərində "səndən kömək istəyirik" ifadəsini təcəssüm etdirdi, yəni o, özünü İlahinin əbədi mənbəyinə qovuşdurdu.[1]

1 Həzrətin Mühafizəçilər Şurasının üzvləri ilə görüş mərasimində çıxışı, 21/3-1368

**Qətilik və sarsılmazlıq**

Vallah, əgər İmam müxtəlif məsələlərin həllində bu qətiliyindən, sarsılmazlığından və çəkinməməzliyindən bəhrələnməsəydi, inqilab indiyə kimi yeddi kəfən çürütmüşdü. Əslində əgər İmam həmin qətiliyə malik olmasaydı, inqilab qalib gələ bilməzdi və İslam respublikası yaradılmazdı.

**Ünsiyyət və qəlblərin birləşdirilməsi**

O böyük insanın ilahi sədaqəti onun rəhmətə getməsindən sonra da bu cəmiyyətdə müəyyən təsirə malik idi və qəlbləri bir-biri ilə birləşdirmişdi, əlaqələri daha da qüvvətləndirmişdi.[1]

1 Böyük dini rəhbərin bir qrup adamla görüşdə çıxışı, 27/3-1368

**İmam təvəkkül edənlərdən idi**

İmam belə idi, o, həm də Allaha təvəkkül edənlərdən idi, İmam eyni zamanda  Allah-Təala ilə ünsiyyəti xatirinə ilahi mərhəmət hissinə malik idi. Gəlin, biz də həmin təvəkküllə, həmin sədaqətlə, həmin səy və həmin qərarla yolumuzu davam etdirək.[1]

1 Böyük dini rəhbərin bir qrup nümayəndənin ona beyəti mərasimində çıxışı, 23/3-1368

### Mənəviyyat meyarı

Bu yeniyetmələr və şəhid uşaqları bilməlidirlər ki, onların ataları İslamın dünyadakı şeytanların və iblislərin gözündə möhtəşəmlik əldə etməsinə imkan yaratdılar. Bir vaxtlar müsəlmanların cəmiyyətinə çox az adam əhəmiyyət verirdi, onları fikir, düşüncə adamı hesab etmirdilər. Lakin bu gün onlar başa düşüblər ki, İslam dünyanın hər bir yerində şeytana məxsus olan iqtisadi sarayları silkələməkdədir. Adı, adının xatırlanması və ruhu şeytan qüvvələrinin ürəyində qorxu hissi yaradan bu böyük İmamın əzəməti onların saraylarını yerindən oynatdı və bütün bunlar İslam xatirinə idi. Çünki o, özünü İslamın və müsəlmanların xidmətçisi adlandırırdı. Onun və millətinin əqidə uğrunda mübarizəsi İslama möhtəşəmlik bəxş etmiş olsa da, İmamın əzəməti eyni zamanda İslamın əzəməti idi. Bu gün həmin şəhidlərin və onların tökülən qanları sayəsində bizim millətimiz başı uca və ləyaqətli bir millətdir ki, digər xalqlar ləyaqət və izzəti bu cür əldə etməlidirlər.[1]

1 Böyük dini rəhbərin ən yaxşı məktəblərin nümayəndələri ilə görüşdə çıxışı, 25/5-1369

**Yorulmazlıq  və alicənablıq**

Bizim əziz və böyük rəhbərimizin əsas xüsusiyyətlərindən biri odur ki, o, böyük comərdliklə adi adamların təsəvvür belə edə bilmədiyi çox nəhəng hədəfləri seçirdi.Adi adamlar öz hesabları ilə həmin hədəflərin artıq seçildiyini görəndə təəccüb edirdilər ki, bu hədəflərə çatmaq mümkündürmü? Sanki həmin alicənab insan öz imanı, təvəkkülü və yorulmazlığı ilə yanaşı, hərəkətlərində və fəaliyyətində  malik olduğu bütün imkanlarını da işə salaraq, həmin hədəflərə doğru irəli gedirdi. Gözlənilmədən hamı görürdü ki, nəzərdə tutulan hədəfə yetişmək mümkündür. Mübarizənin başladığı ilk gündən də belə olmuşdur.[1]

1Böyük dini rəhbərin dövlət nümayəndələrinin ona beyəti mərasimində çıxışı, 17/3-1368

**Zahid, dindar və dünya malına tamah göstərməmək**

İmam (r) özü çox yaxşı bir adam olduğundan onun belə yaxşı adam olması təsir dairəsində olanlara da çox yaxşı təsir göstərmişdi. Əgər bir şəxs yaxşıdırsa, ətrafında olan adamlar da onun təsiri altına düşürlər, öz evlərində də bu cür yaxşı olurlar və dostlarına da yaxşı təsir göstərirlər. Sonra öz ölkəsini yaxşılaşdırır, daha sonra isə bütün dünyanı gözəlləşdirir. İmam özü sanki hər bir yeri nurlandıran bir çıraq idi. Çünki özü də işıqlı adam idi, qara fikirli adam deyildi. Əslində biz hər bir kəsi gördük, hətta İmamın düşmənləri də zahidlik, dindarlıq və dünya malına tamah göstərməmək baxımından onun şəxsiyyətinə sitayiş edirdilər.[1]

1 Böyük dini rəhbərin ordunun məsul nümayəndələri ilə görüşdə çıxışı, 9/11-1368

**Bütün söz və fikirləri Quran və İslamla bağlı idi**

Biz İran xalqı inqilabdan sonrakı bu on il ərzində mövcud olan bütün çətinliklərə baxmayaraq, düşmənin cürbəcür hücumları qarşısında tab gətirə bildik. Ancaq onların bizə bütün hücumları zamanı bizdən çox onlar zərər gördülər. Bunun səbəbi isə o idi ki, bizim xalqımız daha çox inqilabi əhval-ruhiyyəyə malik idi. Həmçinin onların arasında inqilabi bir dindarlıq və söz birliyi hakim idi. Dinin, inqilaba olan inamın, İslamın və bütün söz və fikirləri İslamla bağlı olan o böyük şəxsiyyətin bərəkəti sayəsində bizim böyük İmamımızın rəhbərliyi ilə millətimiz ötən on il ərzində düşmənin qarşısında tab gətirə bildi və düşmən bizə hücumundan heç bir qazanc əldə edə bilmədi.

**Rəhbərlik nuru və müdriklik**

Hazırkı Məclisin ən böyük çatışmazlığı budur ki, o, Allahın mərhəmət hissi canına və qəlbinə hopmuş, müdriklik və rəhbərlik nurunu xüsusi və ümumi dairələrdə alovlandıran Həzrət İmam Xomeyninin (r) müdrik təlimatlarından, onun müqəddəs ruhundan məhrumdur. Bu çatışmazlığı Allah-Təalaya təvəkkül və Həzrət İmam Zamanın (r) lütfünə arxalanaraq davam etdirərək, cəmiyyətin bütün məsul nümayəndələri, xüsusilə möhtəşəm və həssas bir mərkəz olan Dini İşlər üzrə Ali Mütəxəssislər Məclisi gündəlik səy və təlaşların məsuliyyətini hiss etməklə aradan qaldırmalıdır.[1]

---

1 Böyük dini rəhbərin müraciəti, 1/12-1369

**Parlayan və işıq saçan cövhər**

Əksəriyyət onu görsə də tanımırdı, onu adi adamlara oxşadırdılar. Amma onun parlayan və işıq saçan cövhəri Allah-Təalanın köməyi və Allaha  mütilik sayəsində aşkar oldu. [1]

1 Böyük dini rəhbərin Məşhəd sənətkarları ilə görüşündə çıxışı, 30/3-1368

**İslam aşiqləri üçün böyük bələdçi**

Bu il təsadüfən təbiətin baharı dua və Quranın baharı ilə üst-üstə düşür. Artıq bir neçə gündən sonra mübarək ramazan ayı - insanın özünü yenidən qurma baharı, Allah-Təala ilə ünsiyyət baharı başlayır. Bu işlərdən kənarda qalmaq olmaz. Çünki bütün xatalar və səhvlər bu cür işlərə başlamamaqdan irəli gəlir.
Səhvləri az olan və qəlbi Allah-Təalanın rəhbərlik nuru və müdrikliklə işıqlanan, habelə işarələri bizim üçün, millətimiz üçün və İslamın dünyadakı aşiqlərindən ötrü bələdçi olan bir şəxs, yəni bizim böyük və mərhum İmamımız ona görə belə idi ki, Allahla belə bir əlaqə onun artıq vücudunda təmin olunmuşdu.[1]

1 Böyük dini rəhbərin bir qrup məsul işçi ilə görüşündə çıxışı, 1/1-1369

**Rövzəxanlığı  və zikri-müsibəti yaşadan şəxs**

İmam çox incəliklə inqilabdan öncə bir zaman geniş yayılmış ziyalınüma, amma  yanlış bir fikri aradan qaldıraraq, inqilabın mütərəqqi siyasi mövqeyi ilə aşura hadisəsindəki həssas mövqe arasında bir bağlılıq yaratdı.
Rövzəxanlığı və zikri-müsibəti ehya edərək bildirdi ki, bu, bizim cəmiyyətimizdə ləğv olunmuş, qədim, dəbdəbəli və lazımsız bir şey deyildir. Bu, çox gərəkli bir məslədir, yəni İmam Hüseyn (ə) və o Həzrətin başına gətirilən müsubətin xatırlanmasını, eləcə də o böyük şəxsiyyətin üstün keyfiyyətlərinin, o böyük insanla bağlı faciələrin adi və ya geniş formada, həs-saslıqla və daha təsirli formada açıqlanmasını, habelə insanların bizim millətin arasında olması üçün həmin hadisənin rövzəxanlıq, yaxud müxtəlif matəm mərasimləri formasında, həm də əvvəlkindən daha təsirli şəkildə keçirilməsini dəfələrlə təkid etmiş, özü də praktik olaraq bu tədbirlərə qatılmışdır.[1]

1 Böyük dini rəhbərin bir qrup ruhani ilə görüşdə çıxışı, 11/7-1360

**Allahsızlıqdan təmizlənmə**

Əgər o böyük şəxsiyyət bütün bu müsbət keyfiyyətlərəelmə, qətiliyə, ayıq-sayıqlığa, şücaətə, iradəyə və ondan açıq şəkildə özünü büruzə verən bu kimi xüsusiyyətlərə malik olub, ixlasa malik olmasaydı, Allah-Təala ilə ünsiyyəti də olmazdı, həmin dövrdə öz istəklərindən yayınma mənasında Allahsızlıqdan xilas olmaz və qeyd olunan uğurlara da çata bilməzdi.[1]

1 Böyük dini rəhbərin Mühafizəçilər Şurası üzvlərinin beyəti mənasında çıxışı, 21/3-1368

**Ramazan ayının gün və saatlarının qədrini bilmə**

Həqiqətən, Allah-Təalanın böyük İmamımız kimi ləyaqətli bəndələri ramazan ayının gün və saatlarının qədrini bilirdilər və ondan lazımınca istifadə edirdilər.[1]

1 Böyük dini rəhbərin fətir bayramı mərasimində çıxışı, 7/2-1369

**Öz nəfsani istəklərinin hakimi**

O, öz nəfsani istəklərinin hakimi idi və eyni zamanda son dərəcə təvazökar və sadə, səbrli və təmkinli olduğuna görə ən böyük, ağır hadisələr belə onu özündən çıxara bilmirdi. Dəfələrlə biz-ölkənin məsul şəxsləri işlərin çətinliyindən, ağırlığından məhz ona pənah aparırdıq.[1]

1 Böyük dini rəhbərin camaatın ona beyəti mərasimində çıxışı, 20/3-1368

**Mənəviyyatlı, müqəddəs və bilikli bir insan**

O, Allah-Təala ilə daimi və səmimi bir əlaqəyə malik idi. O, mənəviyyatlı, müqəddəs, ağıllı bir insan idi. O, dünyada ən zərif hisslərə malik bir insan olmaqla yanaşı, həm də son dərəcə qətiyyətli və sarsılmaz bir şəxs idi. Dünyanın ən məşhur hərbi komandanlarının çox az bir hissəsi belə keyfiyyətlərə malik olmuşdur.[1]

1 Böyük dini rəhbərin Tehranda cümə namazında çıxışı, 23/4-1368

## İmamın (r) qiyam və hərəkatının təsiri

Böyük dini rəhbər 1368-ci ildə Tehran Cümə məscidindəki birinci xütbəsində Həzrət İmamın (r) hərəkatının təsirinin on formasına toxunaraq, bunu aşağıdakı kimi şərh etmişdir:
– 1. İslama hazırlıq; 2. Müsəlmanlara böyüklük ruhunun qaytarılması; 3. Dünyada İslam ümmətinin müzakirəyə çıxarılması; 4. Dünyada və regionda ən mürtəce, ən alçaq və ən asılı olan rejimlərdən birinin aradan götürülməsi; 5. İslama əsaslanan bir hökumətin yaradılması; 6. Dünyada İslam hərəkatının yaradılması; 7. Şiəlikdə yeni bir baxışın meydana gəlməsi; 8. Hakimlərin fərdi əxlaqı fəslində yanlış inamların dəyişdirilməsi; 9. İran millətində qürur və özünə inam əhval-ruhiyyəsinin yaradılması; 10. "Nə Şərq, nə də Qərb" prinsipinin real və praktik bir prinsip kimi təsdiq olunması.[1]

1 Böyük dini rəhbərin Tehranda cümə namazında çıxışı, 23/4-1368

**Peyğəmbər geyimli, sözlü və əxlaqlı imam**

İmam sübut etdi ki, bir millətin əziz və sevimli rəhbəri, dünya müsəlmanlarının böyük rəhbəri bir zahid kimi həyat sürə bilər, dəbdəbəli saraylar əvəzinə hər hansı bir Hüseyniyyədə onun yanına gələnləri qəbul edə bilər, peyğəmbər geyimi, peyğəmbər danışığı və əxlaqı ilə camaatı qarşılaya bilər.
Dəbdəbələr, mərasimlər, izafi xərclər, çoxsaylı görüşlər, təkəbbür, mənəmlik hakimlər və başçılar üçün zəruri olan cəhətlər deyildir, onların qəlbləri müdriklik nuru və həqiqətlə işıqlanmalıdır. İmam öz həyatında və qurduğu strukturda belə bir şey də yaratdı ki, Allah-Təalanın mərhəməti sayəsində özünü büruzə verdi. Bu, o böyük şəxsiyyətin ən böyük möcuzələrindən biri idi.[1]

1 Böyük dini rəhbərin Tehranda cümə namazında çıxışı, 23/4-1368

**Müstəmləkəçilik qalalarının məhv edilməsi**

İranda şah hökumətinin devrilməsi İmamın gördüyü ən böyük işlərdən biri idi və bu qala Fars körfəzi regionunda, Orta Şərqdə və İranda mövcud olan müstəmləkəçilik qalası idi.[1]

1 Böyük dini rəhbərin Tehranda cümə namazında çıxışı, 23/4-1368

**İmamın işi bir möcüzə idi**

Müsəlmanların və qeyri-müsəlmanların ağlına gəlməyən şey o idi ki, İmam bir dinin – İslam dininin əsasında bütün strukturlara malik olan siyasi sistem, bir cəmiyyət yaratdı.
Bu, sadəlövh müsəlmanların əsla təsəvvür edə bilmədikləri və görmədikləri xoş bir yuxu idi. İmam həmin xəyalı, yəni möcüzə kimi görünən bir əfsanəni gerçəkləşdirdi.[1]

[1] Böyük dini rəhbərin Tehranda cümə namazında çıxışı, 23/4-1368

**Fiqhin əhatə dairəsinin genişləndirilməsi**

Bizim müsəlman qanunvericiliyinin çox möhkəm dayaqları olmuşdur və indi də var. Şiəlik baxımından müsəlman qanunvericiliyi ən mühüm fiqhlərdən biri olub, çox böyük qaydalara və prinsiplərə söykənir. Bizim əziz imanımız bu mükəmməl fiqhə geniş bir dairədə dünya və hökumətin baxışı ilə diqqətləri yönəltdi və bu fiqhin sütunlarını bizə açıqladı. Halbuki əvvəllər bizə aydın deyildi.[1]

1 Böyük dini rəhbərin Tehranda cümə namazında çıxışı, 23/4-1368

**İmam (r) millətdə milli qürur və iftixar ruhunu bərpa etdi**

Millətimizin milli qürur və iftixar ruhunu öldürmüşdülər. İmam İran millətinin milli qürur və iftixar ruhunu dirçəltdi. Millətimiz təkəbbürlü qüvvələrin həmişə istədiyi kimi, millətçilərin yersiz lovğalıqları ilə dolu olduğu, artıq keçmişdə qalan mənhus rejimin İran xalqını zəlil qoyduğu və onlarda yalnış millətçilik hissləri yaratdığı bir şəraitdə bütün bunlar baş verdi. İndi Allaha şükürlər olsun ki, millətimiz bu hisslərdən uzaqdır və hazırda onlarda böyüklük, iftixar və qüdrət hissləri yaşayır.
Xalqımız bu gün nəinki ötür-ötürdən, Şərq və Qərbin, habelə mürtəce qüvvələrin sui-qəsdlərindən çəkinmir, yaxud özünü zəif hiss etmir, əksinə bizim gənclərimiz hiss edirlər ki, özləri öz ölkələrini ayaq üstünə qoya bilərlər. Adamlarımız hiss edirlər ki, Şərq və Qərbin zorakılıqları qarşısında dayana bilmək qüdrətindədirlər.
İmam böyüklük, özünəinam, milli qürur və iftixar ruhunu millətimizdə bərpa etdi.[1]

1 Böyük dini rəhbərin Azərbaycan xalqının ona beyəti mərasimində çıxışı, 30/3-1368

**İmam – arzu və istəklərimizin simvolu**

Bizim İslam inqilabı dünyada yaşayan bütün müsəlmanlara gələcəyə ümid bəxş etmişdir. Siz özünüz də görürsünüz ki, Şərqdə və Qərbdə, Asiya, Afrika və Avropada müsəlmanlar İmamın vəfat etməsi ilə əlaqədar olaraq kədərlənirlər və İran xalqı kimi matəm saxlayırlar. Bəs, bu nə ilə bağlıdır?
Bu, İmamın rəhbərliyi altında İran xalqının hərəkatının insanların qəlbində doğurduğu ümiddən irəli gəlir. Onlar bizim böyük imamızı öz arzu və istəklərinin simvolu hesab edirlər. Ona görə də ona yas saxlayırlar.[1]

1 Böyük dini rəhbərin Azərbaycan xalqının ona beyəti mərasimində çıxışı, 30/3-1368

**İmamın (r) siyasi kursunun özünəməxsus xüsusiyyətləri**

Böyük dini rəhbərin mərhum İmamın səmərəli həyatının on ili müddətində İslam sisteminin fəaliyyətinin xarakterizə edən onun siyasi xəttinin özünəməxsus xüsusiyyətləri barədə qısaca olaraq belə buyurur:
– Xarici dövlətlərin güc və zorakılıqları qarşısında dayanıb, həmin fövqəl dövlətlərlə sövdələşmələrə gedilməməsi;
– Dindarlığa, fərdi hərəkətlərə, şeytani hakimiyyətlərə şeytani hiss və şəkk-şübhələrə qarşı müqavimət göstərilməsinə çalışma;
– Millətlərin qabiliyyət və bacarıqlarına əhəmiyyət verilməsi;
– Müsəlmanların birliyə çağırılması və fövqəl dövlətlərin ayrı-seçkilik salması ilə mübarizə aparılması;
– Dövlətlərlə sağlam və dostluq münasibətlərinin yaradılması (bu cür münasibətlərin yaradılmasının qeyri-mümkünlüyü barədə qüvvətli dəlillərin gətirildiyi hallar istisna olmaqla);
– İslami düşüncə və əməllərdə daşlaşmış hasarların sındırılması və seçmələrin aparılması pak İslam üçün öhdəlikdir;
– İmkansız insanlara kömək göstərilməsi və ictimai ədalətin təmin olunması;
– Qəsbkar sionist rejimi və işğalçı Qüds rejimi ilə mübarizəyə diqqət yetirilməsi;
– İran milləti arasında milli birliyin qorunub saxlanılması və bütövlüyün yaradılması, ayrı-seçkilik salan hər bir şüarla mübarizə aparılması;
– Hökumətin xəlqiliyinin qorunub saxlanılması və insanlarla əlaqələrin yaradılması;
– Ölkədə quruculuğa çağırış bütün dünyaya praktik bir nümunənun göstərilməsidir və İmamın həyatının son aylarında bu məsələ onun diqqət mərkəzində olmuşdur.[1]

1 Böyük dini rəhbərin İmamın (r) vəfatının ildönümü mərasimində çıxışı, 14/3-1371

**İmamın (r) silahdaşlarının böyük Dini Rəhbərin fəaliyyəti və şəriət elmi sahəsində məqamı haqda mülahizələri**

Bu fəsildə Həzrət İmamın (r) və onun silahdaşlarının Həzrət Ayətullah Xameneyi haqda söylədiklərini yığcam şəkildə bəyan edəcək və bununla da onun şəxsiyyətinin bəzi tərəflərini araşdırmağa çalışacağıq. Qoy, bu fikirlər Allah-Təala tərəfindən qəbul olunsun. İnşallah.

**Həzrət Ayətullah Hacı Şeyx Əli Meşkini:**

Bismillahir-Rəhmanir-Rəhim!
– Aydındır ki, çox hörmətli Həzrət Ayətullah Hacı Seyid Əli Xameneyi şəriət qanunvericiliyi məqamına cavab verdiyindən və şəriət ehkamlarından nəticə çıxarmaq qüdrətinə malik olduğundan böyük dini rəhbər məqamına layiqdir. Həzrət xalqa, müsəlman cəmiyyətinə rəhbərlik etmək qabiliyyətinə malik olduğundan, habelə böyük rəhbərimiz mərhum İmam Xomeyninin müxtəlif vaxtlradakı çıxışlarından və sübutlarından istifadə edərək Dini İşlər üzrə Ali Mütəxəssislər Məclisi bu əmri təsdiq edir. Ona görə də dünyanın bütün müsəlmanlarına – istər sünnilərə, istər şiələrə, istərsə də möhtərəm ruhanilərə və böyük din alimlərinə, eləcə də İran İslam inqilabının davamında maraqlı olan bütün şəxslərə və İslamın dünyada daha da geniş yayılmasını istəyənlərə bildiririk ki, Həzrət Xameneyini şəriətdə və rəhbərlikdə müsəlmanların hakimi kimi tanısınlar və qəbul etsinlər. Qurani-Məcidin bütün davamçılarına Allah-Təaladan daha böyük uğurlar diləyirəm.

*Əli Meşkini*
*15/5-1369; 14/1-1411*

**Həzrət Ayətullah Fazil Lənkərani**:

Mən də Dini İşlər üzrə Ali Mütəxəssislər Məclisinin üzvü olduğumdan və Ayətullah Xameneyini tanıdığımdan bildirmək istəyirəm ki, o, fikir və ictihad əhlidir.
İyirmi il bundan əvvəl, Məşhəddə Gövhərşad məscidində onu görmüşdüm. Həmin vaxt o, Məşhədin möhtərəm müəllimlərindən idi. Ondan soruşdum ki, nəyi tədris edirsiniz? Buyurdu: Məkaseb ən mühüm və ən çətin elmi kitablardandır. Mənim fikrimcə, o, fiqh alimi və müctəhiddir. Əlbəttə ki, uzun illər boyu siyasət dünyasında millətin İmamı kimi bir müəllimi olan və özü də böyük istedada malik olan belə bir insan böyük vəzifələrə layiqdir. Onun səkkizillik prezidentliyi bunun şahididir. Onun xarici ölkələrə etdiyi səfərlər isə Həzrəti dünya siyasət meydanında böyük siyasətçi kimi tanıtmışdır.

**Həzrət Ayətullah Hacı Şeyx Məhəmməd Fazil Lənkərani:**

Allahın adı ilə!
– Böyük dini rəhbər Həzrət Ayətullah Xameneyi (Allah iltifatını artıq eləsin!) haqda bildirirəm ki, həzrətin elmi, ictihad və fiqhi barədə heç bir tərəddüd yeri yoxdur. Mən onunla keçmiş tanışlığımı nəzərə alaraq, habelə onun ictihada yetişməsindən xəbərdar olduğumu, bundan əlavə, böyük imamımızın dəfələrlə onun rəhbərliyə layiq olduğunu açıqlayan fikirlərini həzrətin ictihad məqamı üçün başlıca dəlil hesab edirəm.

*Qum Elmi Mərkəzi, Məhəmməd Fazil,*
*7 məhərrəm 1411 h.q*

**Həzrət Ayətullah Hacı Şeyx Abdulla Cavadi Amili:**

Allahın adı ilə!
– Həzrət Ayətullah Hacı Şeyx Əli Xameneyinin (Allah iltifatını artıq eləsin!) ictihad və ədaləti təsdiq olunur. Odur ki, İslam ümməti Həzrətin rəhbərliyinin daha da möhkəmləndirilməsi üçün heç bir şeyi əsirgəməməlidir.

*Cavadi Amili,*
*30 zilhiccə 1410 h.q*

**Həzrət Ayətullah Hacı Şeyx Yusif Saneyi:**

Allahın adı ilə!
– Həzrət Ayətullah Xameneyinin ictihadı sübut olunduğundan bu barədə heç bir fikir söyləməyə ehtiyac yoxdur. O, nəinki müsəlmanların müctəhididir, eyni zamanda bütün şərtlərə cavab verən və itaəti vacib olan bir din alimi olduğundan ümid edirik ki, onun müsəlmanların başı üzərindəki kölgəsi daimi olacaqdır.

*Yusif Saneyi,*
*4 səfər 1411 h.q*

**Həzrət Ayətullah Hacı Şeyx Məhəmməd Mömin:**

Allahın adı ilə!
– Dini İşlər üzrə Ali Mütəxəssislər Məclisində Həzrət Ayətullah Xameneyinin (Allah iltifatını artıq eləsin!) rəhbərliyi üçün səs verilərkən, həzrətin ictihadi şəri yolla sübut olunan ictihadı mənim yanımda öz təsdiqini tapmışdı. Ancaq sonradan fiqh məsələləri ilə bağlı müzakirələr aparılan iclaslarda iştirak edərək şəxsən onun ictihadı mənə bəlli oldu və indi təsdiq edirəm ki, həzrət ədalətli və bütün şərtlərə cavab verən bir müctəhiddir.

*Məhəmməd Mömin,*
*12 məhərrəm 1411 h.q*

**Həzrət Ayətullah Hacı Şeyx Məhəmməd Yəzdi:**

Allahın adı ilə!
– İnqilabın və İran İslam Respublikasının rəhbəri Həzrət Ayətullah Hacı Seyid Əli Xameneyi yüksək vəzifə tutan şəriət bilicisi və ali rütbəli bir müctəhiddir. O, həqiqi elmlərə yaxşı bələd idi, çox yüksək səviyyədə dil və ədəbiyyatı, üsul və hədisləri, təfsiri, hətta fətvanın möhkəmləndirilməsində misilsiz rolu olan rical və dirayədə müəllim və alim idi. Nəticə çıxarmaqda və fətva verməkdə möhkəm əsaslara malik idi, İslam cəmiyyətinin ehtiyac duyduğu yeni baş məsələəər sahəsində geniş məlumatlarla və dəqiq fikirlərlə çox maraqlı fətvaları vardır. Onun bu üstünlükləri və başqa elmi və mənəvi keyfiyyətləri Dini İşlər üzrə Ali Mütəxəssislər Məclisinin möhtərəm üzvləri olan görkəmli müctəhidlər və tanınmış fiqh alimləri tərəfindən seçilməsində başlıca

meyar olmuşdur.
Ey Allah, səh şahidsən ki, əgər o, hazırda boynuna götürdüyü həmin ağır məsuliyyət və vəzifə istiqamətində olmasaydı, mən adi bir tələbə kimi, özümün məhdud biliyimlə onu təsdiq edərdim.

*Məhəmməd Yəzdi,*
*27/3-1369*

**Həzrət Ayətullah Misbah Yəzdi:**

– Mən əgər istəsəm ki, onun haqqında, Allah-Təala tərəfindən ona bəxş olunmuş keyfiyyətlər və üstün cəhətlər barədə söz açım, həqiqəti çatdıra bilməyəcəyəm. Amma bir neçə yığcam cümlə ilə fikirlərimi bildirmək istərdim ki, o, fiqhi dindarlıqla; zirəkliyi və fərasətliyi təmkinliliklə; rəhbərlik etməyi möminliklə və İslam prinsiplərinə əsaslanmaqla; aydın, parlaq fikirləri uzaqgörənliklə və İslam ümmətinin uzunmüddətli mənafelərini müəyyən etməklə; qətiliyi və ehtiyatlılığı şücaət və cəsarətlə; müxtəlif İslam elmlərindən bəhrələnməyi həqiqi incəsənət cərəyanları və zövqü ilə; nəfsə etimadı Allah-Təalaya təvəkkül etməklə; çalışqanlığı, ciddiyyəti və proqramlaşdırmanı Vəliyye-əsrlə və müqəddəs imamlarla təvəssüllə, bir sözlə, ibadət, mütilik və sadiqlik ruhu ilə rəhbərlik etmək üçün bütün üstünlükləri və keyfiyyətləri özündə cəmləşdirir.

**Həzrət Ayətullah İbrahim Əmini:**

– Həzrət Ayətullah Xameneyi fiqh və ictihadda elə bir səviyyədədir ki, rəhbərlik üçün bütün imkanlara malikdir.

**Həzrət Ayətullah İmami Kaşani:**

– Ayətullah Xameneyi siyasət və rəhbərlik etməyin bütün sirlərinə bələd olan, mömin, sevimli, səmimi, alim və fiqhi köklərə malik olan bir şəxsdir.

**Həzrət Ayətullah Xəzəli:**

– Kifayət qədər təcrübəli, ağıllı, siyasətcil və işgüzar bir şəxs olan Ayətullah Xameneyinin İslam respublikasının rəhbərliyinə seçilməsi xaricdə düşmənləri susdurdu, ölkənin daxilində isə əmin-amanlığı bərqərar etdi.

**Həzrət Ayətullahul-uzma Əraki (r):**

– Həzrət Ayətullahul-uzma Əraki (r) Dini işlər üzrə Ali Mütəxəssislər Məclisində böyük dini rəhbərin bu vəzifəyə seçilməsi zamanı demişdir:
– Möhtərəm cənabınızın İran İslam Respublikasının rəhbəri vəzifəsinə seçilməsi İranın qəhrəman millətinin ümid və əminlik mənbəyidir.

**Höccətülislam vəl-Müslimin Hacı Seyid Əhməd Xomeyni (r):**

– Həzrət İmam (r) dəfələrlə cənabınız haqqında danışarkən sizi həqiqi bir müctəhid və rəhbərliyə layiq ən yaxşı şəxs adlandırmışdır. Sizin Allahın bəyəndiyi bir şəxs olaraq ləyaqətlə seçilməyiniz bütün dünyada İslamın və İslam inqilabının dostlarının sevincinə səbəb oldu. Cənabınız İran İslam inqilabının ən parlaq simalarından biridir və həmişə bizim əzizimiz olaraq

sizə ehtiram və sayqı göstərilib.

**Həzrət Ayətullah Hayeri Şirazi:**

– Ayətullah Xameneyi rəhbərlik üçün ən ləyaqətli bir şəxsdir. Ayətullah Xameneyi bütün özünəməxsus xüsusiyyətləri ilə yanaşı, islami məsələlərə bələd olan bir alim və siyasətdə xüsusi bəsirətə malik olan bir şəxsdir.

**Həzrət Ayətullahul-uzma Bəhaəddini:**

– Həmin vaxtdan etibarən Ayətullah Xameneyinin rəhbərlik etmək qabiliyyətini görürdüm. Ona görə ki, o, İmamdan sonrakı dövr üçün ilahi bir ehtiyat idi. Ona məqsədlərinə çatmaqda kömək olmalıyıq. Rəhbərilyə qarşı müxalifətdə olmağın sadə bir iş olmamasına diqqət yetirməliyik.

**Həzrət Ayətullah Haşimi Rəfsəncani:**

– Ayətullah Xameneyinin İslam respublikası rəhbərliyinə seçilməsi bizim böyük uğurumuzdur və bu seçim Həzrət İmamın (r) buyurduqları əsasında həyata keçirilmişdir. O, Dini işlər üzrə Ali Mütəxəssislər Məclisinin iclasında böyük əksəriyyətin səsini qazanmışdır.
İnsafən yerində verilmiş səslər idi. Burada bir məsələ hər birimiz üçün böyük əhəmiyyət kəsb edirdi və bu da onun ölkənin daxili məsələləri ilə tanışlığı idi. Onun mübarizliyini, alimliyini, ədalətli olmasını və s. məsələləri bir kənara qoyaq, on-on iki il müddətində ölkənin bütün daxili məsələlərində iştirak edən bir şəxs indi əlbəttə ki, məmləkətin ən xırda işlərini belə biləcəkdir. Onun üçün hazırda hər bir məsələ göz qabağındadır. Rəhbərlik də əslində elə odur ki, öz əvvəlki məlumatlarınla fikir söyləyə biləsən, istədiyin siyasəti müəyyən edəsən. Mən tamamilə razıyam, yəni öz vicdanıma müraciət edəndə görürəm ki, bizim artıq gedilən bir yoldan daha yaxşı bir yolumuz yox idi. İstənilən digər bir fərz, məsələn, bir şura yaradılsaydı, bir sıra başqa problemlər ortaya çıxacaqdı. Əgər Ayətullah Xameneyi yox, başqa bir şəxs gəlsəydi, çətinliklərlə üzbəüz olardıq... Allah-Təala bizə doğru yolu göstərdi.

**Həzrət Ayətullah Məhdəvi Kəni:**

– Bu, ilahinin ilhamlarından biri idi ki, Həzrət İmamın (r) ruhunun mənəvi hidayəti sayəsində indi də bizim millətimizi tənha qoymamışdır və bu, Allah-Təala tərəfindən göndərilən bir mərhəmət idi ki, həmin kədərli hadisələrin davam etdiyi bir dövrdə İmamın sədaqətli və etibarlı tərəfdaşlarından birini – müctəhid və ədalətli şəxs olan Ayətullah Xameneyini İran İslam Respublikasına rəhbər təyin etməklə ölkədə əmin-amanlığı, etibar və etimadı bərqərar etdi.

**Höccətülislam vəl-Müslimin Vaizzadə Xorasani:**

– Onun fiqh və dinin prinsipləri üzrə məlumatlarına, ilahi ehkamları başa düşməklə üslubuna, habelə çağdaş əsrimizdə baş verən hadisələrdən çıxardığı nəticələrə əsasən, o, ən görkəmli şəriət bilicisidir və öz müasirlərinin böyük əksəriyyətindən üstündür.
O, yazıçılıq üslubu ilə, aparılan təhqiqatlarla və gündəlik nəşrlərlə tam tanış və kifayət qədər mütaliə ilə məşğuldur. Çox bəlağətli və ölçülüb-biçilmlş formada danışır və yazır. O, danışdığı və yazdığı zaman mübaliğəli fikirlərdən və kənara çıxmalardan çox uzaqdır. Bu günədək bir neçə məqaləsi, kitabı və çoxsaylı çıxışları vardır.
O, öncədən müxtəlif təhqiqat xarakterli layihələri – Fiqh Ensiklopediyasını, Kəlam fiqhi haqqında Təhqiqatlar Mərkəzini, Beynəlxalq Yaxınlaşma Cəmiyyətini, Neologizm məsələləri üzrə Fiqh Komitəsini, Kompüter müəssisəsini, habelə digər təhqiqat mərkəzlərini təsis etmiş və onları idarə etmişdir. Bütün bunlar onun fəaliyyət metodlarını sübut etmək üçün kifayətdir.
O, bəzi ziyalılardan fərqli olaraq islami birliyə və İslam dünyasına diqqət yetirmək, bütün dünya müsəlmanlarının qayğısına qalmaq və İslam məzhəblərinin Beynəlxalq Yaxınlaşma Cəmiyyətinin yaradılması ilə yanaşı, Əhli-beytə (ə), onların ismətinə,

təmizliyinə, onların qəbirlərinin ziyarət edilməsinə, onların maarifçiliyinin və elminin inkişaf etməsinə daha çox maraq göstərir, Əhli-beytin (ə) rəhbərliyinin və onların məhəbbətinin dünya müsəlmanları arasında daha geniş yayılmasına çalışır.[1]

1 "Kövsər nəslindən müdrik bir rəhbər", səh.88-94

**“Onun dini rəhbərlik üçün ictihadı yetərlidir”**

– Həzrət İmamın (r) qızı Zəhra xanım Mostəfəvi İmamdan (r) sonra İslam inqilabına rəhbərlik barədə deyir:

– Mən rəhbərin canişininin vəzifədən kənarlaşdırılmasından uzun müddət öncə İmamın yanında olarkən rəhbərlik barədə ondan soruşanda, o, Ayətullah Xameneyinin adını çəkdi. Bir dəfə soruşdum ki, məgər rəhbər seçilməyin mərcəiyyət və elmi tələbi yoxdur? O, bunu rədd etdi. Həzrət Xameneyinin elminin səviyyəsi barədə soruşduqda, birmənalı şəkildə buyurdu: “Onun dini rəhbərlik üçün ictihadı yetərlidir”.[1]

1 “Comhuriye İslami”qəzeti, 20/3-1368

**“Seyid Əli Xameneyi bizim fikrimizcə ən layiqli şəxsdir”**

Həzrət Ayətullah Bəhaəddini (r) İmamın (r) hələ həyatda olduğu zaman böyük dini rəhbər barədə buyurur:
– Əlbəttə, heç kim Hacıağa Ruhulla ola bilməz, ancaq cənab Xameneyi İmama hamıdan daha çox yaxındır. Bizim ümidvar olduğumuz şəxs cənab Xameneyidir. Siz bizim sözümüzü qəbul etmir və təəccüblənirsiniz. Ancaq bu, bizim fikrimizdir. Seyid Əli Xameneyi bizim aramızda ən dəqiq adamdır.[1]

---

1 “Bəsirətin əlaməti”, səh.147

**İlahinin İmamdan (r) sonrakı ehtiyatı**

Həzrət Ayətullah Bəhaəddini (r) rəhbərin bu ağır və məsuliyyətli vəzifəyə seçilməsindən öncə buyurur:
– Həmin vaxtdan etibarən rəhbərliyin cənab Xameneyiyə məxsus olduğunu gördüm, ona görə ki, o, İmamdan (r) sonra ilahinin bizim üçün ehtiyatı idi. Ona öz hədəflərinə çatmaqda kömək etməliyik. Ona da diqqət yetirməliyik ki, rəhbərliyə qarşı müxalifətdə olmaq o qədər də asan iş deyildir. Böyük Mirzə Şirazi İngiltərə hökumətinə qarşı mübarizəyə başlayanda tənbəkiyə yasaq qoyulması ilə başladı. Bir ruhani həmin vaxt ona qarşı çıxdı. Mirzə həmin ruhaninin ona qarşı çıxdığını eşidib qarğış etdi. Bu qarğışdan sonra həmin kişinin nəsli ruhanilik kateqoriyasından məhrum olundu. Sonra onun cavan oğlu vəfat etdi və o, alim övlad üzünə həsrət qaldı.[1]

**Dini İşlər üzrə Ali Mütəxəssislər Məclisinin üzvü Ayətullah Hacı Şeyx Hüseyn Rasti Kaşani:**

Allahın adı ilə!
– Həmd və salavatdan sonra əsrin Böyük İmamına (Canımız ona fəda olsun!) və böyük dini rəhbərə öz başsağlığımı çatdırır və qeyd olunan sualın cavabında bildirirəm: müsəlmanların külli ixtiyar sahibi olan rəhbəri Həzrət Ayətullah Xameneyiyə İslamın ictimai ehkamlarında itaət etmək və onun ardınca getməyin zəruriliyi heç bir kəs üçün sirr deyildir. Şəxsi və fərdi hökmlərə gəldikdə isə (baxmayaraq ki, o cənab özü başsağlığı bəyanatında Qum Elmi Mərkəzində təqlid şərtlərinə malik olan müctəhidlərin varlığını bildirmişdir) indiki şəraitdə daha layiqli müctəhidi müəyyənləşdirməyin, hətta ehtimal səviyyəsində də çox çətin olduğunu nəzərə alaraq bildirirəm ki, İslam və müsəlmanların yeganə qoruyucusu və hamisi, habelə nəyin daha məsləhətli olub-olmamasını bilən Həzrət Ayətullah Xameneyini təqlid etmək nəinki kafi, İslam düşmənlərinin hiylələrini və onların müsəlmanları parçalamağa yönəlik ayrı-seçkilik salmaq niyyətlərini nəzərə alaraq hətta ən yaxşı seçimdir. Dünya müsəlmanları Allah-Təalanın bizə bəxş etdiyi bu hədiyyəni birliyi qorumalı və Tanrının aşağıdakı iki müqəddəs ayəsində:
“Hamılıqla Allahın ipinə əl atın. Parçalanmayın və Allahın sizə olan nemətini də yada salın” *(“Ali-İmran” surəsi, ayə 103)*;
“Bir-birinizlə çəkişməyin, yoxsa zəifləyib gücdən düşərsiniz” *(“Ənfal” surəsi, ayə 46)* buyurulan ifadələrin məzmununu həmişə əsas götürüb, öz əməlləriylə müsəlmanların və İslamın böyüklüyünü, əzəmətini və müstəqilliyini bütün sahələrdə təmin etməlidirlər.

*Hüseyn Rasti Kaşani,*
*10/9-1373; 27 cəmadiolsani 1415*

**Həzrət İmam Xomeyni (r) və Ayətullah Ərakinin (r) Məsləhətləşmələr Şurasının və Müəllimlər Cəmiyyətinin üzvü Ayətullah Hacı Seyid Cəfər Kərimi:**

Allahın adı ilə!
Əsrin böyük İmamına (Canımız ona fəda olsun!) salamlarımı çatdırdıqdan sonra, onun mübarək hüzurunda və böyük dini rəhbər Həzrət Ayətulla Xameneyinin hüzurunda Şeyxülfiqəha Ayətullah Şeyx Məhəmməd Əli Ərakinin vəfatı münasibətilə başsağlığı verirəm. Sonra isə bildirirəm ki, İmami-Zamanın qaib olduğu dövrdə o həzrətin fiqhi, dini, ictimai və siyasi işlər üzrə İslam ümməti arasında naibliyi üçün lazım olan şərtləri nəzərə alaraq İslam ümmətinin fəqihi və İslam inqilabının böyük rəhbəri Həzrət Ayətullah Xameneyinin təqlidi maneəsiz və kafidir. Allahın saleh bəndələrinə salam olsun.

*Cəfər Kərimi,*
*26 cəmadiolsani 1415; 9/9-1373*

**Dini İşlər üzrə Ali Mütəxəssislər Məclisinin üzvü, Qum Elmi Mərkəzinin müəllimi Ayətullah Hacı Şeyx Mortəza Bəni Fəzl:**

Allahın adı ilə!
Böyük İmamın hüzuruna görkəmli ruhani alim Həzrət Ayətullah Qolpayeqaninin vəfatının ildönümü və böyük ruhani alim Həzrət Ayətullah Ərakinin vəfatı münasibətilə başsağlığı verirəm.Həzrət İmamın (r) rəhmətə getdiyi gün İranın hər bir yerindən, xüsusilə Qum Elmi Mərkəzindən 70 nəfərdən çox böyük və tanınmış din alimi gəlmişdilər. Böyük əksəriyyəti sədaqətli və ədalətli olan bu müctəhidlər İslam inqilabının böyük rəhbəri Həzrət Ayətullah Xameneyini fiqhin müxtəlif sahələri üzrə şəriət hökmünü çıxara bilmək səlahiyyətlərinə malik bir şəxs kimi irəli sürmüş və onu bütün dünyaya tanıtmışlar. Ona görə də bu şəxsi təqlid etmək caizdir və onun təqlidi İslam respublikası sisteminin möhkəmlənməsinə, düşmənlərin isə ümidsizliyinə səbəb olacaqdır. Allah-Təala İslama və müsəlmanlara xidmət edən bütün alimlərə kömək olsun.

*Mortəza Bəni Fəzl,*
*26 cəmadiolsani 1415*

**Nəzarətçilər Şurasının və Qum Elmi Mərkəzinin Müəllimlər Cəmiyyətinin üzvü Ayətullah Hacı Şeyx Məhəmməd Yəzdi:**

Allahın adı ilə!
Heç bir tərəddüd etmədən təqlid üçün bütün şərtlərə uyğun olan, çoxsaylı üstünlükləri ilə seçilən böyük dini rəhbər Həzrət Ayətullah Xameneyini bütün məsələlərdə təqlid etmək olar. İnşallah, Allah-Təala İslam cəmiyyətinə rəhbərlik etməkdə və bu sistemi qoruyub saxlamaqda ona uzun ömür, böyüklük və əzəmət bəxş edəcəkdir.

*Məhəmməd Yəzdi*

**Dini İşlər üzrə Ali Mütəxəssislər Məclisi və Nəzarətçilər Şurasının Müəllimlər Cəmiyyətinin üzvü Ayətullah Hacı Şeyx Əhməd Cənnəti:**

Allahın adı ilə!
Böyük dini rəhbəri təqlid etməkdə heç bir problem yoxdur və bu, İslamın, habelə inqilabın daha da qüvvətlənməsinə səbəb olacaq və düşmənlərin ümidlərini puç edəcəkdir. Onlar istəyirdilər ki, bu həyati məsələlərə müdaxilə etməklə İslam respublikası sistemini zəiflətsinlər.
Sizə uğurlar arzulayıram.

*Əhməd Cənnəti,*
*15/9-1373*

**Qum Elmi Mərkəzinin müəllimi Ayətullah Hacı Şeyx Məhəmməd İbrahim Cənnati:**

Allahın adı ilə!
Bu gün İslam cəmiyyətində təqlid ediləcək ruhani şəxsin malik olduğu xüsusiyyətləri nəzərə alsaq, mən Həzrət Ayətullah Xameneyini bu məqama layiq bilirəm.

*Məhəmməd İbrahim Cənnati,*
*9/9-1373*

**Dini İşlər üzrə Ali Mütəxəssislər Məclisinin üzvü və Qum Elmi Mərkəzinin müəllimi Ayətullah Hacı Şeyx Əbulfəzl Xunsari:**

Allahın adı ilə!
Mənim əvvəldən də fikrim belə olub ki, Həzrət Ayətullah Xameneyi Elmi Mərkəzin idarəçiliyini öz əlində saxlayıb risalə yazsın. Əgər məsləhət bilsəydi hər həftə üç dəfə Quma gəlib dərs deməyə başlayardı ki, tələbələr onun fikirlərindən bəhrələnsinlər.

*Əbulfəzl Xunsari,*
*30 cəmadiolsani 1415*

**İraq İslam inqilabı Ali Məclisinin sözçüsü, Qum Elmi Mərkəzinin müəllimi Ayətullah Hacı Seyid Mahmud Haşimi:**

Böyük mərcələrdən və yer üzündəki ilahi nişanələrdən biri olan Ayətullahul-uzma Ərakinin matəmində.
Allahın adı ilə!
Allah-Təala bizə və sizə əcr versin. Həqiqətən, o, ləyaqətli elm və əməldə möminliyin nümunəsi, əvvəlki ruhanilərin və alimlərin keçdikləri yolu davam edənlər üçün meyar idi. Allah-Təaladan istəyirik ki, onların hər birinə öz mərhəmətini göstərsin və onları müqəddəs peyğəmbərlər və imamlar ilə məhşur etsin. Bu çətin yolu keşməkdə və onların ləyaqətli yolunu Allah, Onun peyğəmbəri və möminlər istəyən tərzdə davam etdirməkdə bizim hamımıza kömək etsin.
Ancaq sizin bizim böyük rəhbərimiz Ayətullah Seyid Əli Xameneyinin mərcəiyyəti ilə əlaqədar sorğunuza gəldikdə isə, qeyd edim ki, böyük ruhani mərcə Ayətullah Qolpayeqani rəhmətə gedərkən həzrətə göndərdiyim teleqrafda bu məsələyə toxunmuşam və bu işin İslam dünyası və müsəlmanlar üçün zəruri olduğunu qeyd etmişəm. Çünki həm söz birliyi, həm haqq bayrağımızın ucalığı, həm rəhbərlik və həm də düşmənlərin və kafirlərin məğlubiyyəti onunla bağlıdır. Allah-Təaladan istəyirik ki, həzrətin şərəfli ömrünü artırsın və İmam Zamanın (Canımız ona fəda olsun!) zühur etməsinədək onun bu İslam ümmətinə rəhbərliyini səmərəli etsin. Sizlərə və bütün mömin qardaşlarımıza Allah-Təalanın salam və mərhəmətini diləyirəm.

*Mahmud Haşimi,*
*27 cəmadioləvvəl 1415*

**Qum Elmi Mərkəzi Müəllimlər Cəmiyyətinin üzvü Ayətullah Hacı Şeyx Rza Ostadi:**

Allahın adı ilə!
İslam və təşəyyü sisteminin dünyada qorunub saxlanılmasını və İslam aləminin məsləhətini nəzərə alaraq bildirirəm ki, Ayətullah Hacı Seyid Əli Xameneyini (Allah iltifatını artıq eləsin!) bütün şərtlərə cavab verən müctəhidliyini qəbul edirəm.

*Rza Ostadi,*
*1415- ci ilin cəmadiolsani ayı*

**Dini İşlər üzrə Ali Mütəxəssislər Məclisinin nümayəndəsi və Qum Elmi Mərkəzi Müəllimlər Cəmiyyətinin üzvü Ayətullah Hacı Şeyx Abbas Nəhfuzi:**

Allahın adı ilə!

Şəraiti nəzərə alaraq bildirirəm ki, Həzrət Ayətullah Xameneyi təqlid olunmağa layiqdir.

*Abbas Məhfuzi*

**Dini İşlər üzrə Ali Mütəxəssislər Məclisinin üzvü və Babulun İmam cüməsi Ayətulla Hacı Şeyx Hadi Ruhani:**

Allahın adı ilə!
Cümə namazında bildirdiyim kimi, indiki zamanda, yəni dünyada İslam respublikasının müqəddəs inqilabı və sistemi düşmənlərin hücumuna məruz qaldığı bir vaxtda (onlar çalışırlar ki, rəhbərliklə mərcəiyyət arasında ayrı-seçkilik salsınlar) vəzifəmiz bunu tələb edir ki, mərcəiyyət və rəhbərlik eyni  yerdə cəmləşsin. Əgər biz ilahiyyatçı alim axtarıb tapmaq və mərcəiyyət dedikdə bütün tərəfləri – həm fiqhi, həm siyasəti, həm cəmiyyəti, həm də rəhbərliyi nəzərdə tutmaq istəyiriksə, yəni İmamın dili ilə desək: məkana və zamana hakim bir mərcəyi tanımaq istəyiriksə, bu şəxs "Həzrət Ayətullah Xameeyidir. Biz başqa birisini tapa bilməyəcəyik ki, belə universal olsun. Həzrət Ayətullah Xameneyi öz rəhbərlik etmək qabiliyətini bütün müsəlmanlara sübut edə bilmişdir. Bu baxımdan bütün müsəlmanların, şiələrin Həzrət Ayətuah Xameneyiyə təqlid etmələri gərəkdir. Allah-Təala hamınızı hifz etsin. İnşallah.

*Şeyx Hadi Ruhani,*
*Mazandaran vilayətində dini rəhbərliyin nümayəndəsi*

**Dini İşlər üzrə Ali Mütəxəssislər Məclisinin üzü, Qəzinin İmam cüməsi Ayətullah Hacı Şeyx Hadi Barikbin:**

Allahın adı ilə!
Bir çox mərcə və fəqihlərin rəyini nəzərə alaraq bildiririk ki, Həzrət Ayətullah Xameneyinin rəhbərlik etdiyi ötən müddət ərzində onda müşahidə etdiyimiz xüsusi keyfiyyətlərə əsasən həzrət təqlid olunmağa daha layiqdir.

*Hadi Barikbin*

**Əhli-beyt (ə) Beynəlxalq Cəmiyyətinin baş katibi Həzrət Ayətulla Şeyx Məhəmməd Əli Təsxiri:**

Allahın adı ilə!
Əziz qardaşlarım! Salam, sizə bildirməliyəm ki, müctəhid İslamın bütün sistemi haqda mükəmməl məlumata malik olmaqdan əlavə, bütün ictimai, siyasi prosesləri, həyatın bütün sahələrinə aid taleyüklü məsələlərə də bələd olmalı, həmçinin  zaman və məkanın tələblərini dərk etməli, onların ehkamların dəyişilməsində qoyduğu təsiri anlamalıdır.
Mən mərcəiyyətin bütün bu sadalanan cəhətləri nəzərə almasına, həmçinin təqlid ediləcək ruhani bir şəxsin İslam ümmətinin və Əhli-beyt (ə) ardıcıllarının ən yüksək mənafeləri istiqamətində daha böyük səylə, daha dəqiq və hərtərəfli çalışmalı olduğuna diqqət yetirərək, Həzrət Ayətullah Xameneyinin barəsində şahidlik edirəm ki, mərcəiyyət məhz bu böyük və bacarıqlı şəxsdə öz təsdiqini tapmışdır.

*Məhəmməd Əli Təsxiri,*
*29 cəmadiolsani; 12/9-1373*

**Dini İşlər üzrə Ali Mütəxəssislər Məclisinin üzvü, Xorasan vilayətində dini rəhbərliyin nümayəndəsi Ayətullah Hacı Şeyx Abbas Təbəssi:**

Allahın adı ilə!
Mənim fikrimcə, İslam cəmiyyəti və müsəlman ümmətinin mənafelərinin təmin olunmasına münasibətdə mərcəiyyətin təyinedici roluna və onun özünəməxsus yerinə diqqət yetirərkən, habelə hökmran dövlətlərin siyasi, iqtisadi və təbliğat xarakterli sərmayə yatırımlarını, onların zərərli görüşlərini nəzərə alarkən, eləcə də bütün meyarları, elmi və texniki metodları gözdən keçirərkən Həzrət Ayətullah Xameneyini təqlid etməyin zəzuriliyini söyləməyi özümə mənəvi borc bilirəm. Bu təqlid həmçinin İslam hökuməti və sisteminin qüvvətləndirilməsinə imkan verəcəkdir.

*Abbas Vaiz Təbəssi,*
*29 cəmadiolsani 1415; 12/9-1373*

**Dini İşlər üzrə Ali Mütəxəssislər Məclisinin nümayəndəsi, Qum Elmi Mərkəzinin müəllimi, Mərkəzin İslami Təbliğat Dəftərxanasının İdarə Heyətinin müdiri Höccətülislam vəl-Müslimin Hacı Şeyx Muhyiddin Fazil Hərəndi:**

Allahın adı ilə!
Görkəmli mərcə Ayətullah Ərakinin vəfatı münasibətilə başsağlığı verdikdən sonra Həzrət Ayətullah Xameneyinin elmi səviyyəsindən xəbərdar olduğumdan ona təqlid olunmasının kafi olduğunu bildirməyi özümə mənəvi borc bilirəm.

*Muhyiddin Fazil Hərəndi*

**Böyük dini rəhbərin mərcəiyyətinin və onun şəxsiyyətinin elmi və əməli tərəfləri barədə fikir söyləyən Həzrət İmamın (r) tərəfdaşlarının, köməkçilərinin, Dini İşlər üzrə Ali Mütəxəssislər Məclisi rəhbərlərinin və s. şəxslərin adlarını aşağıda təqdim edirik:**

1. Həzrət Ayətullah Hacı Şeyx Əli Meşkini – 15/5-1369
2. Həzrət Ayətullah Hacı Şeyx Məhəmməd Fazil Lənkərani – 7 məhərrəm 1411 h.q
3. Həzrət Ayətullah Hacı Şeyx Abdulla Cavadi Amili – 30 zihəccə 1410 h.q
4. Həzrət Ayətullah Hacı Şeyx Məhəmməd Mömin –12 məhərrəm 1411 h.q
5. Həzrət Ayətullah Hacı Şeyx Yusif Saneyi – 4 səfər 1411
6. Həzrət Ayətullah Hacı Şeyx Məhəmməd Yəzdi – 27/3-1369
7. Həzrət Ayətullah Hacı Şeyx Hüseyn Rasti Kaşani –10/9–1373
8. Həzrət Ayətullah Hacı Seyid Cəfər Kərimi – 9/9-1373
9. Həzrət Ayətullah Hacı Şeyx Mortəza Bəni Fəzl – 26 cəmadiolcani 1415 h.q
10. Həzrət Ayətullah Hacı Şeyx Məhəmməd Yəzdi
11. Həzrət Ayətullah Hacı Seyid Abbas Xatəm Yəzdi –27/6-1415 h.q
12. Həzrət Ayətullah Hacı Şeyx Əhməd Cənnəti – 15/9-1373
13. Həzrət Ayətullah Hacı Şeyx Məhəmməd Cənnati – 9/9-1373
14. Həzrət Ayətullah Şeyx Əbulfəzl Xunsari – 30 cəmadiolsani 1415
15. Həzrət Ayətullah Hacı Seyid Mahmud Haşimi – 27 cəmadiolsani 1415
16. Həzrət Ayətullah Hacı Şeyx Rza Ostadi – 1415-ci ilin cəmadiolsani ayı
17. Həzrət Ayətullah Hacı Şeyx Əhməd Sabiri Həmədani – 10/9-1373
18. Həzrət Ayətullah Hacı Şeyx Abbas Məhfuzi
19. Həzrət Ayətullah Şeyx Əliəsğər Məsumi – 11/9-1373
20. Həzrət Ayətullah Cəlaləddin Tahiri 29 cəmadiolsani 1415
21. Həzrət Ayətullah Musəvi Həmədani – 12/9-1373
22. Həzrət Ayətullah Hacı Şeyx Hadi Ruhani

23. Həzrət Ayətullah  Hacı Şeyx Məhəmməd Hüseyn Zərəndi – 13/9-1373
24. Həzrət Ayətullah  Seyid  Məhəmməd Bağır Həkim – 27 cəmadiolsani 1415 h.q
25. Həzrət Ayətullah  Hacı Seyid İsmayıl Musəvi Zəncani – 12/9-1373
26. Həzrət Ayətullah  Hacı Şeyx Əbdülhüseyn Qərəvi –  26 cəmadiolsani 1415 h.q
27. Həzrət Ayətullah  Hacı Mirzə Cəfər Əşraqi – 26 cəmadiolsani 1415 h.q
28. Həzrət Ayətullah  Hacı Şeyx Mirzə Əli Ğəzəlcəyi – 26 cəmadiolsani 1415 h.q
29. Həzrət Ayətullah  Hacı Seyid Əliəkbər Qüreyşi – 10/9-1373
30. Həzrət Ayətullah  Hacı Seyid Əli Şəfii – 12/9-1373
31. Həzrət Ayətullah  Hacı Seyid İsmayıl Haşimi – 12/9-1373
32. Həzrət Höccətülislam Hacı Şeyx Məhəmməd Vaizzadə – 30 cəmadiolsani 1415 h.q
33. Həzrət Ayətullah  Hacı Şeyx Hadi Barikbin
34. Həzrət Ayətullah  Hacı Şeyx Məhəmməd Əli Təsxiri – 1415 h.q
35. Höccətülislam Hacı Şeyx Əhməd  Möhseni Qorqani – 10/9-1373
36. Həzrət Ayətullah  Hacı Şeyx Abbas Vaiz Təbəssi –  29 cəmadiolsani 1415 h.q
37. Həzrət Ayətullah  Hacı Seyid Kamal 29 cəmadiolsani 1415 h.q
38. Höccətülislam vəl-Müslimin Hacı Şeyx Məhyəddin Fazil Hərəndi.
39. Həzrət Ayətullah  Qərəvian – 13/9-1373
40. Höccətülislam Seyid Yəhya Cəfəri
41. Həzrət Ayətullah  Hacı Şeyx Məhəmməd  Hüseyn
42. Həzrət Ayətullah  Malik Hüseyni – 15/9-1373
43. Həzrət Ayətullah  Hacı Seyid Məhəmməd Əli Cəzayeri

Siz adları çəkilən bu şəxslərin böyük dini rəhbərlə əlaqədar yazdıqları məlumatların əslini “Həzrət Ayətullah Xameneyinin mərcəiyyəti haqda fəqihlərin və görkəmli şəxslərin fikirləri” kitabından *(Tərtib edənlər: Qum Elmi Mərkəzinin ruhani alimləri. Naşir: Qum Elmi Mərkəzinin İslami Təbliğat Şöbəsi. Çap tarixi – 13 rəcəb 1415 h.q; 26 azər 1373.)* əldə edə bilərsiniz.

1 “Bəsirətin əlaməti”, səh.131

**Böyük dini rəhbərin həyat tarixçəsinə qısa bir baxış:**

Doğulduğu tarix – 28 səfər 1318 h.ş.
1330-cu ildə Elmi mərkəzdə V sinfə daxil olub və 1336-cı ildə Səth dərslərini başa vuraraq, Xaric dərslərə başlayıb.
1336-cı ildən iki il müddətində Nəcəfdə elmi mərkəzdə dərs alaraq, 1337-ci ilin axırlarından 1343-cü ilədək 6 il müddətində Qumda yaşayıb.
1341-ci ildən mübarizə meydanına daxil olub və 1342-ci ildə Taşura günündə ilk dəfə şah rejimi tərəfindən həbs edilib.
1342-ci ilin ramazan ayının 16-da qızğın bir nitq söylədikdən sonra Zahidan cümə məscidində Savak tərəfindən həbs olunaraq, iki ay həbsxanada qalır.
1343-cü ildə "On nəfər ruhani" təşkilatına daxil olmaq üçün Tehranda Həzrət Ayətullah Haşimi ilə bir il müddətində bir evdə qalırlar.
1343-cü ildə həzrət 25 yaşında ikən Məşhədə qayıdır.
1343-1349-cu illərdə bir neçə dəfə Savak tərəfindən tutularaq həbsxanaya salınır.
1346-cı ilin fərvərdin ayının 14-də Məşhəddə bir neçə dəfə həbs olunaraq həbsxanaya salınır və bu dörd davam edir.
1346-cı ildə iki dəfə Qumda həbs olunur, ancaq elə həmin gün azadlığa buraxılır.
1349-cu ildə Ayətullah Həkim vəfat etdikdən sonra, İmamın kursunu və mərcəiyyətini təbliğ etməkdən ötrü həbs olunur və dörd ay həbsxanada saxlanılır.
1350-ci ildə şahlıq hakimiyyətinin 2500 illiyi təntənəli şəkildə qeyd olunarkən elektrik qüllələrinin partladılması əməliyyatından sonra həzrət həbs olunur və iki ay azadlıqdan məhrum edilir.
1350-ci ildə beşinci dəfə həbs olunub həbsxanaya salınır və bir müddətdən sonra azad edilir.
1350-1353-cü illərdə Məşhədin üç məscidində – Kəramət, İmam Hüseyn və Mirzə Cəfər məscidlərində təfsirdən və ideologiyadan dərs deyir. 32 yaşında o, artıq möhtərəm bir şəxs idi.
1353-cü ildə yenidən həbs olunur və Savakın məxfi kamerasında saxlanılır. Bu, onun artıq altıncı dəfə tutulması idi və iki ay davam edir.
1356-cı ildə həzrət təşkilati işlə əlaqədar dostlarından bir qrupu ilə yola düşəndə həbs olunurlar və bir neçə gün həbsxanada saxlanıldıqdan sonra İranşəhrə sürgün edilirlər. Sürgün 1357-ci ilədək davam edir.
1357-1358-ci illərdə inqilabın yüksək səviyyəyə çatdığı illərdə yaranmış zərurətlə əlaqədar olaraq İslam Respublikası Partiyası yaradılır.
1358-ci ilin fərvərdin ayında İmam tərəfindən Sistan və Bəlucistan vilayətlərindəki vəziyyətlə tanış olmaq və adamların tələblərini öyrənmək tapşırığı alır. Həzrət Kirman təyyarə meydanında olarkən İslam respublikası ilə bağlı keçirilən referendumla əlaqədar olaraq bülleteni qutuya atır.
1358-ci ildə Müdafiə nazirliyində İslam İnqilab Şurasının nümayəndəsi olur.
1358-ci il mordad ayının 27-də müdafiə nazirinin müavini vəzifəsinin məsuliyyəti də onun öhdəsinə qoyulur.
1358-ci il azər ayının 10-da Həzrət İmam (r) tərəfindən İslam inqilabının mühafizəçilər korpusuna rəhbər təyin olunur.
1359-cu ilin xordad ayında İslam Şurası Məclisinə birinci çağırış seçkilərində iştirak edir və Tehranın bir milyon dörd yüz min nəfəri ona səs verir.
1359-cu ildə Həzrət İmam (r) tərəfindən Ali Müdafiə Şurasına üzv təyin edilir.
1359-cu ilin dey ayının 24-də İmamın fərmanı ilə Tehran Cümə məscidinə imam təyin olunur.
1360-cı ilin şəhrivər ayının 10-da İslam Respublikası Partiyasının üçüncü baş katibi seçilir.
1360-cı ilin tir ayının 6-da Abuzər məscidində həzrətə qarşı terror həyata keçirilir və o, 42 gün müddətində xəstəxanada yatır. Həmin vaxt o, sağ əlindən yara alır və İslam inqilabının fədaisi olur.
1360-cı ilin mehr ayının 13-də 16.846996 nəfər səslə İran İslam Respublikasının prezidenti seçilir.
1360-cı ilin mehr ayının 17-də Fitir bayramı ərəfəsində həzrətin respublika prezidenti seçilməsi barədə fərman Həzrət İmam (r) tərəfindən təsdiq edilir.
1364-cü ilin mordad ayında həzrət ikinci dəfə 12.203870 nəfər səslə (85,67%) İran İslam Respublikasının prezidenti seçilir.
1368-ci ilin xordad ayında həzrət prezidentliyinin sonuna bir neçə ay qalmış Dini İşlər üzrə Ali Mütəxəssislər Məclisi tərəfindən Həzrət İmamın (r) rəhmətə getməsi ilə əlaqədar olaraq İslam respublikasının dini rəhbəri seçilir.
1368-ci ildən bu günədək, İnşallah, Həzrət Mehdi (ə.c) zühur edənədək və İslam bayrağını onun əsl sahibinə (ə.c) təqdim

edənədək  ölkənin rəhbəri olaraq qalacaqdır. İnşallah.

**İstifadə olunan ədəbiyyat**

**1. Müsahibələr (cildlər) – Həzrət Ayətullah Xameneyinin İİR-in prezidenti olduğu illərdə verdiyi müsahibələr. Tərtib edən: İslam inqilabının Mədəniyyət Sənədləri Təşkilatının nəşriyyatı, 1370-ci il**
**2. "Həzrət Ayətullah Xameneyinin mərcəiyyəti haqda fəqihlərin və görkəmli şəxslərin fikirləri" kitabı. Tərtib edənlər: Qun Elmi Mərkəzinin ruhani alimləri. Naşir: Qum Elmi Mərkəzinin İslami Təbliğat Şöbəsi. Çap tarixi –13 rəcəb 1415 h. q**
**3. "Hədise vilayət". Həzrətin İran İslam İnqilabının müdrik rəhbəri seçilməsindən sonra göstərişlərinin toplusu (cildlər)**
**4. "Rəhbərin siması", Böyük dini rəhbər Həzrət Ayətullah Xameneyinin həyatından xatirələr. Savadsızlığın aradan qaldırılması hərəkatı. Tədqiqatlar şöbəsi. Təhsil vasitələrinin planlaşdırılması və istehsalı – 1377**
**5. "Ba nəvaye karevan". Yeniyetmələr və uşaqlar üçün. Müqəddəs müdafiə həftəsinin keçirilməsi münasibətilə, "Canbaz"aylıq jurnalının əlavəsi. 1377-ci ilin şəhrivər ayı**
**6. "Comhuriye İslami" qəzeti**
**7. "Keyhan" qəzeti**
**8. "Resalət" qəzeti**
**9. Xatirələr və hekayətlər (cildlər). Naşir: "Ğədre vilayət" Mədəniyyət Müəssisəsi**
**10. "Cəbhə məktəbində", üçüncü cild**
**11. "Pəyame enqelab" jurnalı. İslam inqilabı mühafizəçilər korpusunun orqanı.**
**12. "Həmaseye moqavemət", ikinci cild**
**13. "Pasdare İslam", 153-cü nömrə**
**14. "Səhifeye nur", Həzrət İmamın (r) müraciətləri və çıxışlarının toplusu**
**15. "Ettelaat" qəzeti**
**16. "Celvehaye nur"**
**17. "Rəhbərin cavablarında faydalı dürrlər" – Ayətullah Xameneyi**
**18. "Bəsirətin əlaməti". Həzrət Ayətullah Bəhaəddinin tərcümeyi-halı**
**19. "Böyük dini rəhbərin həyat və fəaliyyəti". "Ğədre vilayət"Mədəniyyət Müəssisəsi**
**20. "Houzə və ruhaniyyət". Tərtib edən: Böyük dini rəhbərin bürosu. I və II cildlər**
**21. "Kövsər nəslindən müdrik rəhbər". İslami Təhqiqatlar Mərkəzi**
**22. "Əxlaq dərsi" haqda kitabça. 1371-ci ilin xordad ayı**
**23. "Aşna" jurnalı. İslam inqilabı mühafizəçilər korpusunun orqanı**
**24. "Tarix yaradan insanlar və anlar". I cild**
**25. "Canbaz" jurnalı. № 22-23. 1379-cu il**
**26. "Günəşin kölgəsində". Həzrət İmamın (r) haqqında qeydlər və xatirələr. Höccətülislam vəl-Müslimin Rəhimian. Cəbhə gündəliyi. Nəşrin birinci nömrəsi**